
Sultan
Alp Arslan
tarixi roman
Yunus Oğuz

# Sultan Alp Arslan

## TARİXİ ROMAN



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

*Redaktor:*
*Fatimə ABBASQULİYEVA*

*Bəbii redaktor:*
*Hafiz MİRZƏ*

*Bədii tərtibat:*
*Mürsəl BƏHMƏN*

*Üz qabığının dizaynı:*
*Emin Talışxanov*

YUNUS OĞUZ.

**"SULTAN ALP ARSLAN"**

*Bakı, «OL», 2015, 288 səh.*

*Yazıçı publisist Yunus Oğuzun "Sultan Alp Arslan" tarixi romanı Böyük Səlcuq dövlətinin sultanı Alp Arslanın həyat hekayətidir. Müəllif tarixi faktlara söykənərək möhtəşəm bir əsər yaradıb. Oxuyun maraqlıdır!*

ISBN 978-9952-494-62-4

© YUNUS OĞUZ,
2015



# Ön söz və ya Səlcuqların Alp Arslan zirvəsi

***Nizami Cəfərov*,**
***filologiya elmləri doktoru, professor, millət vəkili***

*Yunus Oğuz türklərin tarixinə həsr olunmuş bir sıra tarixi romanlarından sonra müəllifin yaradıcılıq texnologiyasına yaxşı bələd olan oxuculara özünün "Sultan Alp Arslan"ını təqdim edir.*

*Hər şeydən əvvəl, romanın bədii strukturu və ya kompozisiyasının özünəməxsusluğu barədə danışmaq lazımdır. Belə ki, əsər türk tarixinin, yaxud türklərin xüsusilə orta əsrlərdə dünyanın geniş bir coğrafiyasında yayılmasının çox böyük (həlledici!) hadisələrindən olan "axın" (axınçıların gəlişi) xəbərilə başlanır. Dəmirçi Murad bu xəbəri Savalan dağlarında, gizli bir məkanda məskunlaşmış Dədələrə çatdırır.*

> *"...Bu yerlərdə İslamın bərqərar olmasından üç yüz əlli il keçməsinə baxmayaraq əski inancların bir qismi hələ də hakimlik edirdi. Ən başlıcası təktanrıçılıq idi. Yəqin*

*ki, İslamda birallahlıq olmasaydı, oğuzlar bu dini qəbul etməzdilər. Burada yalnız oğuzların başa düşdüyü dildə dualar, alqışlar, qarğışlar oxunurdu. Oğuz dədələri hələ Sasanilərin dövründə təqibdən qaçaraq bu dağlara çəkilmişdilər. Onlar üçün Sultan sözü, Sultan əmri Tanrı əmrindən sonra ikinci sayılardı. Sultan oğuzlar üçün elə "yerdəki Tanrı" demək idi"...*

*Dədələr yüzillərlə gözlədikləri bu xəbərdən çox şad olurlar. Və Baş Dədə axınçıların gəlməsi münasibətilə Dədələri bir yerə toplayır...*

*"- Dədələr, - Baş Dədə oturanlara müraciət etdi, - İndicə mən alov içindən çıxdım. Alovun içində olanda gələcəyə baxdım. Həqiqət Zərdüşt peyğəmbərin dediyi kimidir. Bu dəfə oğuzlar gün çıxandan gün batana qədər olan yerlərdə on dəfə yüz ildən çox hakimiyyətdə olacaqlar. Bir oğuz ulusu o biri oğuz ulusunun hakimiyyətini dəyişəcək. Düz on dəfə yüz ildən artıq buralar onun hökmü altında olacaq. Amma biz də buna hazır Hücrələrdə öyrətdiyimiz elmimiz, həm də fitrimiz bizə kömək edəcək. Bundan sonra da biz bu işləri davam etdirib, nəsildən nəsilə ötürməliyik. - Sual dolu nəzərlər-*

*lə Dədələrə baxdı, - Fikrim aydındırmı, Dədələr? Bu min ildə oğuzları çətin sınaqlar gözləyir. Mən bunların hamısını gördüm; qardaş qardaşı öldürəcək, əqidə, məzhəb uğrunda savaş gedəcək. Ərazilərimiz gah böyüyəcək, gah kiçiləcək. Ortada daha qüdrətli düşmən qalmayacağı üçün oğuzlar bir-biri ilə savaşacaqlar, ancaq yenə hakimiyyətdə qalacaqlar."*

*Azərbaycanda axınçıların yolunu gözləyən xeyirxah Dədələrlə yanaşı onların (yalnız onların yox, ümumən dünyada harmoniya yaradacaq hər cür qüvvənin, hakimiyyətin!) düşməni olan bədxah xaşxaşilər də var ki, Ələmut dağında gizlənib Həsən Sabbahın başçılığı altında quldur dəstələri toplayıb böyük xadimləri öldürür, hərcmərclik yaradırlar.*

*Və bu qurbanlardan biri də Alp Arslan olur...*

*Baş vəzir Nizam ül- Mülkün etirazına baxmayaraq namazı məsciddə xalqla bir yerdə qılmağa gedən Sultanı ağlı başından alınmış xaşxaşi "fədai"lərindən biri ağır yaralayır...*

*... "Atlılar məscidə yaxınlaşıb dayandı. Mühafizlərdən biri qaçaraq Sultanın atının yüyənindən tutdu. Məscid meydanı namaza gələnlərlə dolu idi.*

*Sultan meydana daxil olduqda qatil onun dəstəsinə qoşuldu. Meydan camaatı Sultanı görcək sağ əlini sinəsinə qoyub baş əyir, ehtiramla yol verirdi. Sultan məscidə daxil olduqdan sonra namaza gələnlərin böyük hissəsi onun arxasınca içəri girdi. Sultan ön sırada, qatil isə ikinci sırada səf tutub yerləşdi və namaz qılmağa başladılar. Sübh namazının ikinci rükətində, səcdə zamanı hər kəs özünü Allaha təslim edib, dua edəndə birdən Alp Arslanın üstünə sanki qırğı şığıdı. Kürən xadimin əbası yellənib geniş açıldı. Kimsə nə baş verdiyini anlamağa macal tapmamış, kimsə canamazdan başını qaldırmamış qatilin xəncəri Sultanın kürəyinə saplandı. Bu zaman ətrafdakılar bir vıjıltı səsi də eşitdilər. Yuxarıdan atılan xəncər sürətlə uçaraq, qatilin kürəyini deşdi. Onun geniş əbası Sultanı görünməz etdi. Qatil Sultanın üstünə sərilmişdi"...*

*Və bundan sonrakı hadisələr ölüm yatağında olan, ağrıdan qıvrılan Alp Arslanın xatirələri, daha doğrusu, xatırlamaları kimi təqdim olunur... Hər xatırlamadan sonra hökmdarın sağalmaz yaradan çəkdiyi əzablara qayıdılır. Və bu ədəbi priyom- texnologiya əsərin struktur bütövlüyünü, bədii ritm və intonasiyasını müəyyənləşdirir.*

*...Türküstandakı rəqiblərini yenən səlcuqlar türk tarixində yeni güclü bir sülalə hakimiyyətinin - dövlətin (Səlcuqluların! ) əsasını qoyurlar.*

*..."Dandanakan döyüşündən sonrakı on il müddətində səlcuqlar Xarəzm torpaqlarını ələ keçirtdilər, qəznəliləri özlərinə tabe etdilər. Bu on il ərzində türkmənləri və Kirmanşahdakı qəbilələri, Diyarbəkr, Axlat və Malazgirddəki Məvrani dövlətini, İraq, Əl-Cəzirə və Şimali Suriyadakı hamdaniləri, Təbəristanda ziyariləri, Deyləmanda kakuiləri, Gilanda səffariləri, Azərbaycanda rəvvadiləri, Şirvanda Şirvanşahları, Dərbənddə haşimiləri, Divin və Aranın bir hissəsində şəddadiləri, Farsda buveyhiləri, Sistanda səffariləri özlərinin vassallarına çevirdilər. Səlcuq hakimiyyətinin on beş ilində isə Bağdad və bütün İslam Şərqi artıq tam olaraq onların əlində idi.*

*Axınçılar indi də batının hər yerində görünür, hər kəsi özlərinə tabe etdirməyə çalışır və bunu bacarırdılar"...*

*Vəliəhd Alp Arslan özünü Sultan elan etdikdən sonra səlcuqların Qərbə axını daha böyük vüsət alır...*

... "*Alp Arslanın qarşısında çox böyük işlər dururdu: Şərqdə bütünlüklə Türküstanı özünə tabe etdirmək, Çindən, Hindistandan Qərbə gedən ipək yoluna tam nəzarət etmək, Qərbdə isə Bizans torpaqlarının hesabına Egey dənizinə qədər torpaqları ələ keçirmək. Toğrul bəyin siyasətini davam etdirən yeni sultan əsas hərəkət qüvvələrini sərhəd ərazilərində yerləşdirməklə, axınçıların əsas istiqamətini mərkəzdən yayındırır, bununla da paytaxtın işini yüngülləşdirir, ölkənin və dövlətin idarə olunmasını asanlaşdırırdı. Bu isə təkcə paytaxtı deyil, ölkənin bərabər qaydada hər yerini qüvvətləndirir və yeni fəthlərə yol açırdı. Axınçılar yeni fəthləri hər gün, hər ay, hər il görmək istəyirdilər. Haranınsa fəth edilməsi xalqın həyat tərzinə çevrilirdi. Bu, səlcuqların ruhunu da qüvvətləndirirdi. Onlar hara gedirdilərsə, oralara özləri ilə dövlət quruculuğunu aparır, yerli xalqlarla qohum olur, onlardan qız alır, çoxlu övlad dünyaya gətirirdilər.*

*Dünya və xalqlar sanki böyük türk fəthinə hamilə imiş kimi onun yolunu gözləyirdilər. Hakim zümrələr axınçıların gəlişini eşitdikdə daha ciddi müqavimət barədə düşünə bilmirdilər. Çoxları bu yürüşdən faydalanmaq istəyirdi. Öz ölkəsinin*

*hakim zümrəsindən narazı olan xalqlar axıncıların gəlişinə daha artıq sevinirdi. Səlcuqlar hər yerdə ədalətli hakimiyyət qurur, xalqı daha çox razı salmaq barədə qərarlar qəbul edirdilər"...*

*Səlcuqların qarşısında ciddi müqavimət göstərən əsas şəhər Bizansın Ani şəhər- qalası olur...*

*"...Ani şəhərinin alınmasına az qalırdı.*

*Bütün gecəni əsgərlər sal daşları daşıyıb, çaya tökdülər. Çay getdikcə axarını dəyişməyə hazır vəziyyətə gətirildi. Sonuncu sal daşı yerinə qoymaq qalırdı.*

*Aniyə hər tərəfdən hücum başlandı.*

*Usta Muradın atdığı dəmir kürələr şəhərdə yenidən çaşqınlıq yaratdı. Eyni zamanda sonuncu sal daşı çayın qarşısına qoyduqda çay axarını dəyişdi, sel şəhər darvazalarına doğru axdı. Sel o qədər güclü idi ki, şəhər mühafizəçiləri gözlərini açmağa macal tapmadılar. Su öz qarşısına nə çıxırdısa yuyub aparırdı. Birdən darvaza layları yerindən qopub selin altına düşdü. Şəhər girəcəyi darvazasız qaldı. Selin arxasınca səlcuq əsgərləri də özlərini şəhərə sel kimi vurdular. Gizli yolu aşkar edən səlcuq əsgərləri bu yoldan keçərək, düz şəhər meydanı-*

*na çıxdılar. Burada onlar hamını oxa tutmağa başladılar. Şəhər camaatı nə edəcəyini bilmir, çaşqınlıqla ora-bura qaçışırdı. Həyəcan və təşviş içində olan əhali şəhərdən çölə də çıxa bilməyəcəkdi. Şəhərdən kənarda hər şey daha betər idi. Səlcuqlar artıq heç kimi əsir götürmür, hamını qılıncdan keçirirdilər. Onlar yalnız Sultan Alp Arslanın əmrinə tabe idilər. Sultan isə "Kim ki İslamı qəbul edib "La ilahə illallah, Mühəmmədün rəsulullah" deyəcəksə onlara toxunmasınlar" demişdi. Selin yuyub apara bilmədiklərini səlcuqlar yerlə-yeksan etdilər. Şəhərdə nə qədər kilsə vardısa, hamısı dağıdıldı. İnsanlar qılıncdan keçirildi. Yalnız çayın axarını döndərmək üçün qoyulan sal daşlar götürüldükdən sonra Araz öz məcrasına qayıtdı. Axşama yaxın sel suları şəhərdən çəkilməyə başlayanda əvvəlki Anidən əsər-əlamət qalmamışdı. Şəhər xarabalığa çevrilmiş, darmadağın edilmişdi. Küçələrdə bir meyit də gözə dəymirdi. Geri axan sel suyu bütün meyidləri ağuşuna alıb çox uzaqlara aparmışdı.*

*Elçinin başının kəsilməsini Sultan anililərə bağışlamadı.*

*Aninin alınması ilə axınçıların Bizans torpaqlarına girməsi və dərinliyinə doğru irəliləməsi üçün şərait yarandı. Amma,*

*Sultan yenə də tələsmirdi. Onun Türküstanı tam olaraq özünə tabe etdirmək arzusu gerçəkləşmək üzrə idi.*

*Beləliklə, 16 avqust 1064-cü ildə Bizans imperiyasının şərq sərhədində ən güclü şəhəri olan Ani fəth olundu və xarabalığa çevrildi"...*

*Alp Arslan geriyə- Türküstana yürüş edib ona tabe olmayanları, Səlcuqlular dövlətinə qarışıqlıq salmaq istəyənləri cəzalandırır, qurultay keçirir, dövlətdaxili idarəçilik münasibətlərini tənzimləyir.*

*Və bu zaman Konstantinopolda Roman IV Diogen kral seçilir.*

*Səlcuqlularla Bizanslılar 1071- ci ildə Malazgirddə üz- üzə gəlməli olurlar ki, bu döyüş türklərin yunanlar üzərində yalnız tarixi qələbəsi olaraq qalmadı, onları (türkləri) Konstantinopola-İstanbula qədər aparıb çıxaran çoxlu qələbələrinin möhkəm bünövrəsinə çevrildi.*

*Ancaq gələcək qələbələrin müəllifi Alp Arslan yox, onun xələfləri olacaqdı...*

*"...Sultan Alp Arslan daha keçmişdən və xatirələrdən qayıtmaq istəmirdi. Saray həkimi onun otağına girəndə xəstədən səs-səmir gəlmirdi. Həkim əvvəlcə Sulta-*

*nın yuxuya getdiyini zənn elədi. Nəbzini yoxladı... Böyük Cahangir, böyük sərkərdə elə yuxudaca haqq dünyasına qovuşmuş, özünün fatehlik salnaməsində əbədiyyətə çevrilmişdi. Bəlkə də Sultan öz yuxu və ya xəyallarında dolaşır, qılıncını siyirib, at belində hücuma keçirdi.*

*Sultan Alp Arslan 23 noyabr 1072-ci ildə 43 yaşında vəfat etdi.*

*Onu Mərvdə atası Çağrı bəyin yanında dəfn etdilər...*

*... Alp Arslandan sonra vəliəhd olan Məlikşah onun taxtında oturdu (1072-1092).*

*Məlikşahın iyirmi illik hakimiyyəti dövründə səlcuqların və türklərin intibahı başlandı. Bu dövrdə elm, mədəniyyət, tədris çox inkişaf etdi. Nizam ül-Mülk seçilmiş gənclərin dövlət idarəçiliyinə hazırlanması üçün yeni kitablar yazdı... Baş vəzir türklərin xarakterinə tam uyğunlaşmışdı və onların nə istədiyini yaxşı bilirdi. Onun siyasətlə bağlı əsərləri təkcə maraqlara deyil, həm də kişilik əlamətlərinə, meyarına uyğunlaşdırılırdı.*

*Baş vəzir Nizam ül-Mülkü və Məlikşahı xaşxaşilər sui-qəsd yolu ilə aradan götürdülər"...*

*Bir tərəfdə nəfsinə (şeytan) uyub türk irəli gedənlərini aradan götürən xaşxaşilər, digər tə-*

*rəfdə haqdan gələn ideoloji-mənəvi (ruhani!) enerjilərilə onları müdafiə edən, gücləndirən Dədələr!..*

*Roman müəllifi hadisələri təsvir edərkən həm elmi- publisistik bir dəqiqlik (və salnaməçi təmkini) ilə onların (tarixi hadisələrin) xronologiyasını verir, həm də həmin hadisələrə mistik müdaxilələrin əhəmiyyətli təsir göstərdiyi qənaətinə gələrək bu təsirlərin metafizik semiotikasını müəyyənləşdirməyə çalışır. Və fikrimizcə, Dədələrlə xaşxaşilərin türk tarixindəki siyasi-ruhani missiyalarının obrazlı təqdimi romanın ən maraqlı səhifələrini təşkil etməklə əsəri yalnız bədii- estetik baxımdan deyil, ideya- fəlsəfi məzmunca da zənginləşdirir.*

*Yunus Oğuz indiyə qədərki tarixi romanlarında olduğu kimi "Sultan Alp Arslan"da da türklərin möhtəşəm tarixlərilə, hər şeydən əvvəl, bir övlad (xələf!) duyğusallığıyla qürur duyur. Və romanın elə səhifələri vardır ki, müəllif özünü təsvir olunan hadisələrin - döyüşlərin, rəsmi danışıqların, qurultayların sanki iştirakçısı kimi hiss edir. Məsələn, Alp Arslanla Nizam ül-Mülkün aşağıdakı dialoqu müəllif hisslərinin mətnə müdaxiləsi baxımından maraq doğurmaya bilməz:*

*... "Sakit səslə, -Daha bir məsələ qaldımı, hörmətli vəzir? - deyə soruşdu.*

*-Bəli, qaldı, Sultan həzrətləri. - Ələmut qalasından xəbər aldım ki, Sultan həzrətlərinə Həsən Sabbah tərəfindən sui-qəsd fətvası verilib. Nəzarəti daha da gücləndirmək lazımdır. Mənim tərəfimdən bir sıra tədbirlər görülüb, ancaq yaxşı olardı ki, siz də ehtiyatlı olasınız.*

*Alp Arslan bu xəbərdən bir anlıq duruxub qaldı. Sanki bu xəbərin gerçək olacağına inandı. Hətta dərindən köks ötürdü. Sonra gülümsədi və:*

*- İşimi-gücümü atıb Ələmut qalasına vaxt ayırsam, o sarsaq Həsən Sabbaha baş qoşsam, tarix mənə gülər. - dedi.- Mən o şərəfsizə layiq olmadığı şərəfi vermək fikrində deyiləm! Onsuz da böyüklər çox vaxt rəzillərin əli ilə öz ölümünə qovuşur. Makedoniyalı İsgəndər Zülqərneyn bir ağcaqanadın dişləməsilə ölmədimi? Taleh yazısına pozu olmaz! Mənim ömrüm bitən anda Həsən Sabbahı qarşıma cənab Əzrayılın özü gətirib çıxardacaq. Amma... Bax, bu işi elə sənə tapşırıram, vəzir həzrətləri. Bir vaxtlar səhv etmirəmsə Həsən Sabbah sənin yanında olub. - Sultan güldü. - Onun bütün işlərindən sənin başın daha yaxşı çıxar.*

*Baş vəzir Sultanın hara işarə vurduğunu başa düşdü. Amma indi özünü başa düşməyən kimi göstərməsi daha münasib idi"...*

*Yazıçının qanında olan türk təəssübkeşliyi ona səlahiyyət verir ki, yeri gələndə türklərin çatışmayan cəhətlərindən də açıq bir şəkildə (və cəsarətlə!) bəhs etsin...*

*... "Nizam ül-Mülk Sultanın sözü hansı dərəyə atdığını yaxşı başa düşdü, amma özünü o yerə qoymadı.*

*- Sultan sağ olsun, hər kəs və hər şey yerindədir. Sizin sağlıq vəziyyətinizi nəzərə almasaq, hər şey çox yaxşıdır. Oğlunuz Məlikşah sizin qoyduğunuz qaydalarla dövləti yaxşı idarə edir.*

*Baş vəzir deməsə də əslində Sultan ölkənin necə idarə olunduğunu yaxşı bilirdi. Məhz o özü təşəbbüs göstərmişdi və oğuz türkləri oturaq həyat tərzinə keçmişdilər. Çox vaxt oğuzlar döyüşür, fəth edir, dövlət qurur, amma sarayın idarə edilməsilə başqaları məşğul olurdu. Türklər saraya çəkilməyi özlərinə yaraşdırmırdılar. Onlar fəthlər üçün yaranmışdılar. Bu zaman saray işləri digər millətlərdən olanlara həvalə*

*olunurdu. Onlar da bu sahədə formalaşır, püxtələşirdilər. Hətta yazışmalar da samani-tacik dilində idi. Sultan bunu gözəl başa düşürdü. Tarix yaradan bir xalq tarix yaza bilmirdi. Bu qaydanı, bu cür tərzi-hərəkəti nə zamansa dəyişmək lazım idi. Tarix yazmağı başqalarının ixtiyarına vermək olmazdı. O halda tarix təhrif oluna bilərdi.*

*Əli ilə vəziri bir az daha yaxına çağırdı və astadan dedi:*

*-Düzdürmü ki, sən əslən müsəlmanlığı qəbul etmiş yəhudisən?"*

*Qədim türklərdə dövlət qurmaq, ictimai- siyasi qayda- qanun yaratmaq marağının az qala bir instinkt, refleks olduğu məlumdur. Və romanda bu məsələyə, tamamilə doğru olaraq, tez- tez qayıdılır... Məsələn, Alp Arslanın atası Çağrı bəy qardaşı Toğrul bəyin də fikrini ifadə edərək əmisi Musa yabquya deyir:*

*... "Başqa çıxış yolumuz yoxdur, əmi. Dünyaya yenidən hakim olmalıyıq. Biz olmasaq, onlar bizə hakim olacaqlar! Onlar bizim insanlar kimi mərd də deyillər. Onlar bizi tamam məhv edəcəklər. Biz onlara hakim olmaq üçün isə öz dövlətimizi elan et-*

*məliyik. Oğuz türkləri dünyaya dövlət qurmağı öyrətdilər. Heç olarmı ki, indi özümüz dövlətsiz qalaq?! Köhnə şöhrətimizi geri qaytarmalıyıq, əmi! Yoxsa biz oğuzlar tamam məhv olacağıq. Ya qazi, ya şəhid olmalıyıq!"*

*Bu sözlər Çinə tabe olmuş Göy türklərin irəli çıxanlarının xalqa müraciətini xatırladır ki, VII əsrə məxsus qədim türk (run) yazılı abidələrində də əks olunmuşdur.*

*Ümumiyyətlə, türklərin tarixini bilavasitə mənbələr əsasında dərindən öyrənmiş, gizlin qatlarına zaman- zaman yaxşı bələd olmuş ( və bu tarixi ruhuyla mənimsəmiş!) Yunus Oğuz onu (türkün tarixini) bütöv görməyi, ayrı- ayrı hadisələri həmin bütövlük üzvü tərkib hissəsi kimi təsəvvür (və təqdim) eləməyi ustalıqla bacarır. Müəllif şüurundakı məlumat bolluğunun nəticəsidir ki, bəzən hətta "mətn"dən (və "zaman"dan) kənara çıxaraq bir- iki cümlə ilə ya sələfləri, ya da xələfləri xatırladıb bütövlüyün miqyasını genişləndirməkdən də çəkinmir.*

*Romanda ümumən türk dünyasına məhəbbətlə yanaşı həmin kontekstdən kənara çıxmayan bir Azərbaycan vətənpərvərliyi də var ki, bu, müəllifin təkcə bilavasitə mənsub olduğu etnosi-*

*yasi coğrafiyaya bağlılığından, onu daha yaxşı tanımasından irəli gəlmir, həm də (və daha çox!) onunla bağlıdır ki, Odlar yurdu Azərbaycan ən qədim zamanlardan bəri türk dünyasının etno-mədəni mərkəzlərindən biri (bəlkə də, birincisi) olaraq etiraf edilməkdədir...*

> *... "Sultanın yürüş əmri bir andaca saray divarlarını yalayıb dəhlizləri dolaşdı, eyvana, oradan da qalaya, küçələrə, evlərə, dükanlara, bazarlara, yollara yayıldı.*
>
> *Müqəddəs Azərbaycan torpaqlarından ayrılmaq heç bir oğuz türkünün heç zaman ürəyincə olmayıb. Bu torpağın Vətən cazibəsi adlı qüvvəsinin mövcud olduğunu və digər yerlərə məxsus Vətən hissindən daha qüvvətli olmasını Oğuz dədələr də təsdiq edirdi. Buranı özünə Vətən hesab edən şəxs milliyətindən və dinindən asılı olmadan, bir müddət burada yaşadıqdan sonra zahirən də yerli sakinlərə oxşamağa başlayırdı. Sultan Alp Arslan artıq özünü təkcə oğuz-səlcuq türkü deyil, həm də əsil oğuz -azərbaycanlı hesab etməyə başlamışdı.*

*Ona görə də yazıçı qələmi heç bir şübhə yeri qoymadan Alp Arslanı Bakıya ("Baku şəhəri"nə)*

*gətirir. Və hökmdar - sərkərdə Kaspi sahilindəki Ağ qalanı (Qız qalasını) ziyarət edir, buradan ruhi- mənəvi güc alır...*

*Yunus Oğuz yeni romanında türk etnoqrafiyasını, adət- ənənələrini, vərdişlər sistemini, ayinlərini, əvvəlki romanlarda olduğu kimi, təfsilatı ilə təsvir etməklə əsərə tarixi kolorit gətirir...*

> *... "Qədim oğuz-şaman sirlərinə vaqif olan sərkərdə üçün bir anda şamana çevrilmək çətinlik törətmədi. Özü oğuz olmayan kəs Oğuz elminə vaqif ola bilməzdi. Oğuz elminin isə gerçəkləşdirməyə qadir olmadığı istək yox idi. Yazda buludlar yağışa çevrilmədən axıb getməsin deyə kahinlər üzü göylərə sarı nələr etməzdilər!*
>
> *Alp Arslan astadan yağış nəğməsini oxumağa başladı. Dualar, ahəstə rəqs, mimika və jestlər işə düşdü. Sonra tonqal başına hərlənərək kösövlərin üstünə xüsusi otlar, metal qırıntıları səpdi. Sərkərdələr ağac başına keçirdilmiş ayı və pələng başının sümüklərini tonqala sarı tutdular.*
>
> *Bir azdan bütün düşərgə oyandı, oxuyub, rəqs etdi.*
>
> *Alp Arslan sonda yalın əlini uzadıb, tonqalın içərisindən bir yanar kösöv gö-*

*türdü, üzünü göylərə tutub boz qurd kimi uladı.*

*Sanki bura canavar düşərgəsi idi; işıldayan gözlər gömgöy göylərə doğru dikilmişdi. Elə bil eyni anda minlərlə boz qurd ulayırdı"...*

*Heç şübhə etmirik ki, Yunus Oğuzun "Sultan Alp Arslan" romanı da görkəmli yazıçının bundan əvvəlki romanları kimi türk etnosunun möhtəşəm tarixinin yeni nəsil tərəfindən daha yaxşı öyrənilməsi, mənimsənilməsi kimi mühüm (və müqəddəs!) işə uğurla xidmət edəcək, Böyük Səlcuqların Alp Arslan zirvəsi barədə daha geniş təsəvvür yaradacaq.*

# AXINÇILAR GƏLDİ

Dəmirçi komasının içi bayırda çölü-bacanı yandırıb-yaxan günəşin istisindən daha betər idi. Sinəsinə uzun önlük bağlamış, əzələli qolları çılpaq qalmış gənc oğlan körüyü basdıqca sobanın hərarəti daha da artır, komanı qaynar təndirə döndərirdi.

Usta Murad iri gövdəli, möhkəm əzələli, pırpız saqqallı, sinəsinə uzun önlük, başına yaylıq bağlamış, orta yaşlı, üz-gözündən nur yağan bir kişi idi. Dörd yanını düyünləyərək başına keçirdiyi yaylıq dəmirçixananın istisində başından süzülən tərdən, meşin üzlüklü önlük isə sobadan üstünə çırtlaya biləcək alov qığılcımından qorunmaq üçün idi. Usta Murad bir qədər əvvəl qəlibdən çıxartdığı dəmir kütləsini zindanın üstündə iri çəkiclə döyəclədikcə get-gedə qaralan qırmızı metal parçası qılınc formasını alırdı. Dodağının altında "Sarı gəlin" mahnısını zümzümə edir, oddan, alovdan, qəlibdən, sonra da sudan çıxmış dəmir kütləsi qılınca çevrildikcə sanki gücü-qüvvəsi də artırdı. Onun düzəltdiyi qılınclar çox gərəkli idi. Qılıncı düzəldən usta onu düşmənin başına uğurla çalan cəngavər əsgərdən daha artıq məmnun olurmuş! Usta Murad isə təkcə çörək pulu qazandığı üçün

deyil, görünür, həm də ona verilən, elinin-obasının bir fərdi olaraq onun qismətinə düşən vəzifəni uğurla yerinə yetirdiyinə görə belə məmnun idi. Belə şəxslər üçün peşəsi həm də borc sayılır, həyatının mənasına çevrilirdi.

Oğuz elində, ələlxüsus da səlcuqlarda dəmir bir qayda vardı: ulusun gələcəyi üçün ən çox inanılmışlardan kiməsə gizli tapşırıq verilirdi. Bu ali tapşırıq əslində bir vəzifə idi. Bu vəzifə, bu görəv həmin adamı el-obada şərafətləndirir, bəy oğullarından da üstün səviyyəyə qaldırırdı. Oğuz elində belə adamlar hətta müqəddəs də sayılırdı. Bu, türk ulusunun yazılmamış qaydalarından biri idi. Hər kəs bu qaydaların gücü, təsiri altında idi.

...Şəyirdi körüyü basdıqca, Usta Murad qəlibdən çıxartdığı qılıncı döyəcləyir, təkcə əlləri yox, bütün bədəni işləyirdi. Fikri-xəyalı isə uzaqlarda gəzib dolaşırdı.

Uşaqlıqda atası, bir az böyüdükdən sonra isə ustadı ona çox şeylər danışmış, çox şeylər öyrətmişdi...

İldə bir neçə dəfə Usta Murad Savalan dağına qalxıb xüsusi mağarada yaşayan adamlarla hal-əhval tutur, özü ilə gətirdiyi ərzağı onlara verib qayıdırdı. Ancaq dağlara qalxan təkcə o deyildi. Mağaraya ərzaq növbə ilə aparılırdı.

Mağaranın içərisinə girmək  ərzaq gətirənlər üçün qadağan idi. Onlar ərzağı mağaranın ağzına

qoyub qayıdırdılar. Kəndlərdə bu sirrə vaqif olanlar imam tərəfindən xüsusi təlim alardı. Bu da hər kəsə nəsib olan xoşbəxtlik deyildi. Dəmirçi Murad da elələrindən, üstəlik daha artıq seçilmişlərdən idi. Kənddə onu tanıyanların hamısı Murad kişiyə hörmət və ehtiramla yanaşırdı.

...Usta Murad ömründə cəmi bircə dəfə, o da xüsusi rüsxətlə mağaranın içərisinə girə bilmişdi. O zaman yaşadığı həyəcan indi də yadından çıxmırdı. Müdrik ağsaqqallardan biri nə vaxtsa onun da bu mağaranın sakini ola biləcəyini demişdi. Dəmirçilikdən bu mərtəbəyə qalxmaq Usta Murad üçün böyük fəxr idi. Odur ki, başqalarından fərqli olaraq enli şalvar geyinən, eşmə bığları, əzələli qolları olan nəhəng vücudlu Muradın bu sözlərdən dizləri əsmiş, hətta dayana bilməyib o Müdrük Dədənin qabağında diz çökmüşdü.

-Bu nə zaman olacaq, Dədə?

Ağsaqqal dərindən köks ötürmüşdü:

-Axınçılar yenidən bura gələndə...

Bu fikir daşıyıcıları adətən çox az danışar, hər hansı bir suala "hə" və ya "yox" deyər - sirlərini kimsəyə verməzdilər.

Sonra Dəmirçi Murad cəsarətə gəlib soruşmuşdu:

-Dədə, bəs bu axınçılar nə zaman gələcəklər?

Dədə bəmbəyaz saqqalını tumarlayaraq gülümsəmiş və cavab vermişdi:

-Övladım, biz bu qayıdışı əsrlərdir gözləyirik. Buralardan şərqə köç edənlərin dönüşünün həsrətindəyik. Babalarımız bizə hər zaman əmanət və vəsiyyət etmişlər, xalqa gizli olan bir mərifət öyrətmişlər, bizə vəsf və vaqif olan şeyi bizim üçün saxlamışlar. Bizim mərifətimizdə alqış və qarğış var, amma bu mağarada bu sirləri sənə öyrədə bilmərik, bu mağara ən ali mərtəbənin sirlərinin qoruğudur. Burada artıq sirlər öyrədilmir. Burada sirlər yaşadılır. Amma, sən hər həftə cümə namazından sonra gedərsən imamın yanına, deyərsən ki, "mənə aid olanı mənə ver". Bu sözləri deyəndən sonra o səni tədricən sirli elmlərə vaqif edəcək. Ancaq yadında saxla, bu sözləri deməsən, kimsə səni yaxına buraxmayacaq!..

Elə o vaxtdan Dəmirçi Murad zaman-zaman bu sirli elmə vaqif olmağa başlamışdı. Amma hələ ki, bu mərifətin ikinci qatından yuxarı qalxa bilməmişdi.

Nə idi bu mərifət?

Türklər İslam dinini təktanrıçılığa görə qəbul etmişdilər. Anadolu və Qafqazda yaşayan türklər bu dinin məxsusi olaraq onlar üçün göndərildiyi fikrindəydilər. İslamı gətirən və yayanlar ərəblər idi, ona daha böyük inam və etibar isə türklərdən gəlirdi. Bu din ərəb üçün yeni idisə də, türk-əcəm üçün doğma idi: "Müsəlman olmaq təktanrıçılıq deməkdir". Usta Murad üçün də bundan daha

qüdrətli bir həqiqət yox idi. Zatən qılıncları da bu amal üçün düzəldirdi. Təktanrıçılığı, İslamı - müsəlmançılığı, türkü bu qılıncla qoruyub saxlamaq olardı. Bu qılınclar nə qədər çox olacaqdısa təktanrıçılığı daha çox qorumaq mümkün olacaqdı.

...Dəmirçi körüyü bu həqiqətə ahəng tuturmuş kimi üfürür, günəş rəngli alovun dilləri sobanın deşiyindən bayıra çıxmağa yol axtarırdı.

Komanın mübhəm ahəngini Dəmirçi Muradın "baba", "baba" - deyə çağıraraq qan-tər içində içəri təpilən nəvəsinin həyəcanlı səsi pozdu.

Usta Murad uşağın qaynar gözlərinə maraqla baxdı. Nəvəsinin belə təlaşlı olmağından kənddə nəsə ciddi bir hadisənin baş verdiyini anladı. Özünü o yerə qoymadı. Çəlləkdən bir parç su alıb nəvəsinə uzatdı. Uşaq ciyərləri yanırmış kimi parçı dodaqlarına aparıb suyu yarıya qədər içdi, qalan suyu başına tökdü. Sanki isti kösöv üstünə su töküldü.

-Nə olub, övladım? Kənddə bir hadisəmi baş verib? - Cavab gözləmədən, - Yoxsa belə başılovlu gəlməzdin, - dedi.

Bayaqdan yanaqları alışıb yanan, təri dabanından süzülən on yaşlı uşaq içdiyi sudan sonra özünə gəlmişdi; nəfəsini dərib:

-Baba, şəhərdən kəndə çapar gəldi, dedi ki, axınçılar gəlir, amma narahat olmayın, onlar da sizlərdəndir...

Dəmirçi Muradı təəccüb bürüdü.

-Çapar elə belə də dedi?

Heç nə başa düşməyən nəvə ona heyrətlə baxdı.

-Hə baba, elə bu cür də dedi. Biz meydanda uşaqlarla "qırmancdöydü" oynayırdıq. Bir çapar gəldi, car çəkdi ki, bundan sonra axınçı səlcuqlara tabesiniz! Getdim hadisəni anama danışdım. Anam da dedi ki, tez qaç dəmirçixanaya, eşitdiklərini babana danış, onun belə şeylərdən daha yaxşı başı çıxır. Mən də gəldim sənin yanına, baba! Hə, baba, söylə, bu yaxşı xəbərdir, yoxsa ...

Dəmirçi nəvəsinin sualına cavab verməzdən əvvəl bir salavat çəkdi.

-Həmd olsun Allaha! Övladım, anana deyərsən ki, narahat olmasın, gələn bizimkilərdir. - Əlini onun kürəyinə qoyub, ehmalca bayıra sarı itələdi. Çölün sərin havasından ciyər dolusu nəfəs aldı. - Yüyür kəndə, şad xəbəri yubatma, haydı! - Usta uşağın yerindən tərpənməməsinə fikir vermədən bir salavat da çevirdi. - Şükür sənə, ey böyük Tanrım! Böyüklərimiz səhv etmirlərmiş! Min ildən çoxdur burdan gedən axınçıları gözləyirdik. İndi dədə-baba torpaqlarına qayıdırlar. Tanrım, Sən nə böyüksən! Sən hər şeyin xeyirlisini bilənsən!

Komaya keçəndə ona elə gəldi ki, dəmirçixanada qəribə bir sərinlik var. Çəlləkdən satıl do-

lusu su götürüb iri ləyənin içərisində əli-üzünü yudu, saçlarını islatdı. Sonra papağını başına qoyub üzünü köməkçisinə tutdu:

-Oğlum, daha burada mənlik bir iş qalmadı. Buraları sənə əmanət edirəm. Həmişəlik... Mənim görüləcək vacib işlərim var. - Məchul nöqtələrə baxdı. - Gör nə zamandı, böyüklərimizin dediyi axınçıları gözləyirdik! Şükür ki, vaxt-vədə yetişdi! Gəldilər!

Bayaqdan öz xəyal aləminə dalıb körük basan gəncin matı-mutu qurumuşdu. Ustasının təklifi bacadan atılan boxça timsalı kimiydi. Nə deyəcəyini bilmirdi. Amma sevindiyi xəfif təbəssümündən duyulurdu. Bir azdan bu təbəssüm büzülən dodaqlarda itdi:

-Usta, bəs mən sənsiz burada neyləyəcəm? Axı mən hələ bu sənətə tam bələd olmamışam.

Usta Murad onu sakitləşdirdi:

-Rahatsız olma, övladım! Nə gərəkdirsə sənə öyrətmişəm, qılınc, xəncər, qalxan, nal, bıçaq,.. Özün də başqa şeylər düzəldə bilirsən. Tanrıya şükür olsun! Sən də özünə köməkçi götürərsən, işin daha yaxşı gedər. Onsuz da axınçılara həmişə silah lazım olacaq.

Köməkçi bu sözləri anlamağa çalışırmış kimi baxışlarını komanın divarlarında dolaşdırdı. O heç zaman "axınçı" sözünü eşitməmişdi. Bu sö-

zün hansı anlama gəldiyini də bilmirdi. Dodaqlarını təəccüblə büzərək, kipriklərini döydü.

-Usta, bu axınçı nə deməkdir, axı?

Usta Murad gülümsədi, təbəssümü sifət cizgilərindəki qaranlığı yardı və sanki komaya nur yayıldı. Gənc onun üzünün birdən-birə bu cür işıqlanmasına heyran qaldı. Alaqaranlıq koma sanki nur içindəydi.

Bütün sirləri tam başa düşməyəcəkdisə də şəyirdinə bəzi şeyləri demək lazım idi. Çünki nə vaxtsa o da bu sirrə vaqif olacaqdı. Ənənə olaraq onu həm də buna görə yetişdirirdi.

Dəmirçi Murad dərindən nəfəs aldı. Nədən başlasın? Əsrlərdi neçə nəslin gözlədiyi, qərbdən şərqə gedən axınçı oğuzlar indi səlcuqlar adı ilə buralara qayıdırdılar. Bunu yetirməsinə sadə dildə necə izah etsin, necə başa salsın?

Vaxt qazansın deyə körüyün yanındakı satılı su ilə doldurub başına çəkdi. Suyu elə yanğı ilə içdi ki, su boğazına dolmayıb dodaqlarının kənarlarından üzü aşağı axdı və qara köynəyini islatdı. Amma o bunun fərqində deyildi, gəncin verdiyi suala daha müfəssəl cavab axtarırdı. Kimsə soruşmasaydı, bu suala heç vaxt cavab verməzdi. İllər boyu dəmirçilik sənətini öyrətdiyi bu cavan oğlan ilk dəfə idi ki, dəmirçiliyə aid olmayan sual verirdi: "Axınçılar kimdir?"

Dəmirçi Usta Murad başını yırğalayaraq fikirlərini dəqiqləşdirməyə çalışdı: "Mən bunu ona necə başa salım, necə deyim ki, axınçılar kimdir. O bu sualın cavabına hazırdımı? Bu sirri hər kəsə vermək olmazdı. Qoy hələ dözsünlər, fikirləşsinlər..."

...Nəvə dəmirçixananın qapısı ağzında gizlincə babasının şəyirdi ilə söhbətlərinə qulaq asırdı. Usta Murad da qaynar gözlü, mis rəngli nəvəsinin qaraltısını görmüş, amma üstünü vurmamışdı. İndi də qəfildən həmin qaraltıya tərəf səsləndi: - A bala, sənə dedim axı, yubanma qaç, həm şad xəbəri kəndə çatdır, həm də nənənə de, bir yaxşı çolpa-plov bişirsin! Harada olsam, axşama özümü evə çatdıraram.

Əslində özü də bilirdi ki, bu axşam evə gəlməyəcək. İndi Savalan dağına gedəcəkdi. Orada nə qədər qalacağı isə məlum deyildi. Bu sözləri nəvəsinin və yetirməsinin rahatlaşması üçün deyirdi.

Qaraltı əlini gözlərinin üstünə qoydu.

-Baş üstə, baba!

Uşaq ayaqlarına güc verib kəndə sarı götürüldü.

Usta Murad dərindən nəfəs aldı. Bir az öz fikirlərilə baş-başa qalmaq istədi. Amma şəyirdi əl çəkənə oxşamırdı və həm də özünün burada olduğunu xatırlatmış oldu.

-Usta, demədin axı, bu axınçılar kimdir, haradan gəlib, haraya gedirlər? Həm də... Bu sözü eşidən kimi niyə rəngin dəyişdi?

Usta Murad bu söhbətdən tez yaxa qurtarmaq istədi. Mağaraya gedib, xəbərləri Müdrik Dədələrə çatdırmalı idi. İndi kimsəyə sirr açmaq olmazdı.

-Sən belə elə,.. - şəyirdinə sarı yönəldi. - Sən get kəndə, hamıya söylə ki, axınçılar gəlir, amma qoy narahat olmasınlar. Söylə ki, onlar bizimkilərdir, heç kimə zərərləri dəyməyəcək. Həm də imam məsciddə bu barədə moizə eləsin, camaatı başa salsın. Bizdən gedənlərdir, desin, indi bizə qayıdırlar...min illər əvvəl köç edənlərdir.

Şəyird yenə də dodaqlarını büzdü. Bu isə onun heç nə başa düşmədiyini ifadə edirdi. Amma əlavə sual vermədi, önlüyünü başından çıxarıb ilməyə keçirtdi və başını tərpədərək:

-Baş üstə, elə də edərəm, usta! - dedi.

Sobanın deşiyindən içəridəki alovun bir qədər səngidiyi görünürdü...

...Usta Murad isə dar cığırla Savalan dağına qalxırdı.

Ötən səfərlərdən fərqli olaraq bu dəfə əli yüklü deyildi. Əllərini növbə ilə irəli-geri aparır, avar çəkirmiş kimi havanı arxaya itələyərək, tələsik yüyürürdü. Ona elə gəlirdi ki, əlləri dolu olmasa da, indi daha ağır yüklüdür. Heç vaxt be-

lə hisslər keçirməmişdi. O qədər sürətlə yeriyirdi ki, təntiyir, iyirmi-iyirmi beş addımdan bir nəfəs dərmək üçün ayaq saxlayırdı. Özü ilə üzüyuxarı qaldırdığı "yük" illərdən bəri çəkdiyi adi həyat və məsuliyyət yükü yox, sanki min ilin daş kimi ağırlaşmış sirr yükü idi. Bu yoxuşları az qala birnəfəsə, keçi kimi çıxdığı vaxtlar vardı. Son çıxışında da özünü rahat hiss eləmişdi. "Nə dəyişib axı" sualı beynindən axıb keçdi. Cavabı da elə orda idi: "Hər dəfə buraları rahatlıqla qalxırdım. İndi az qala yeriyə də bilmirəm, elə bil bu ayaqlar mənim deyil. Yox, qocalmamışam, hər dəfə qalxdığım təpələrdi, qayalıqlardı, yoxuşdu, cığır, yamacdı..."

...Savalanın ətəyində yerləşən kəndlərindən il ərzində bir neçə dəfə beləcə yol qət edirdi. Üstəlik, həm də Müdriklərə - Dədələrə aparılan yüklə!.. Hafizəsində saxladığı o qədər hikmətlər vardı ki!

İnsan əli ilə yonulmuş heykəllərə bənzəyən böyük daşların, qaya parçalarının arasından keçdikcə Usta Murad özünü də bu heykəllərə oxşadır, ürəyindən onlar qədər uzun ömürlü olmaq keçirdi.

Savalan dağına gedən bu yol əzəmətli və qürurlu idi.

...Bu yerlərdə İslamın bərqərar olmasından üç yüz əlli il keçməsinə baxmayaraq əski inanc-

ların bir qismi hələ də hakimlik edirdi. Ən başlıcası təktanrıçılıq idi. Yəqin ki, İslamda birallahlıq olmasaydı, oğuzlar bu dini qəbul etməzdilər. Burada yalnız oğuzların başa düşdüyü dildə dualar, alqışlar, qarğışlar oxunurdu. Oğuz dədələri hələ Sasanilərin dövründə təqibdən qaçaraq bu dağlara çəkilmişdilər. Onlar üçün Sultan sözü, Sultan əmri Tanrı əmrindən sonra ikinci sayılardı. Sultan oğuzlar üçün elə "yerdəki Tanrı" demək idi.

Göytürklər zamanında, 576-cı ildə Tobo xaqan türkləri Budda inancına gətirmək istəsə də, buna nail ola bilmədi. Hansı xaqanın hansı dini qəbul etməsinə baxmayaraq xalq özünün ruhuna yaxın bildiyi inancında qalırdı. Xaqan başqa inanc qəbul edirdisə, bununla xalqdan ayrılır, xalq tərəfdən dəstəyi azalırdı. Son nəticədə təkcə dövlətin bir sülaləsi deyil, dövlət özü də yoxa çıxırdı. Xəzər imperiyası da belə oldu. Xaqan yəhudi dinini qəbul etdikdən sonra xalqdan ayrıldı. Artıq onuncu əsrdə çox zəifləmiş, hətta nizami ordusu olmayan xəzərlərə min nəfərlik rus-slavyan ordusu hücum edəndə xalq xaqanın arxasında durmadı, düşmənə müqavimət göstərmədi, dağlara çəkildi. Xalq öz Tanrısını kimlərəsə dəyişmək istəmədi və başqa Tanrı naminə vuruşmağı özünə sığışdırmadı. Bu isə Xəzər dövləti və imperiyanın çöküşü oldu. İslamın ya-

ranmasından yüz illlər ötsə də Şərqi Türküstanda nə karluklar, nə türkeşlər və çıgillər, nə də oğuzlar İslam dinini qəbul etmirdilər. Xilafətə qarşı Anadolu və Azərbaycanda Babəkin başçılığı altında mübarizə aparan hürrəmilər hərəkati xilafəti çökdürmək əzmində idi. Yalnız ərmən türklərinin qanadı altına sığınmış və onun adını qəbul etmiş bəzi hayların, xüsusən də Səhl İbn Sumbatın xəyanəti nəticəsində Babək həbs edildi, Samirəyə - xilafət mərkəzinə göndərildi və elə oradaca edam olundu.

Onuncu əsrdə xilafət zəifləmiş, səkkiz və doqquzuncu əsr İslam və xilafət möhtəşəmliyi arxa plana keçmişdi. Artıq İslamı qəbul edən xalqlar, tayfalar arasında hamını birləşdirən "hümmət" deyilən bir məslək qalmamışdı. Bu dövrdə bir tərəfdən məzhəb davası, digər tərəfdən məzhəblər arasındakı ixtilaflar xilafəti o qədər sarsıtmışdı ki, istənilən kənar müdaxilə İslamın sonu ola bilərdi. Xilafət artıq geriləyirdi. Əslində döyüşkən türk tayfaları İslama deyil, xilafətə nifrət edirdi. Bu səbəbdən xilafət üç yüz il Şərqi Türküstana - Qaraxanlılar dövlətinə özünün ideyalarını yeridə bilmədi. Kənardan baxanda bu, İslamın sonu kimi başa düşülə bilərdi, çünki dövrün ən güclü imperiyası olan Qaraxanlılar islamı qəbul etmirdi. Yalnız 910-cu ildə imperiyanın taxt-tacına Satuk Buğra yiyələndikdən sonra İslamı rəsmi dövlət dini elan

etdi. Bundan sonra İslam bayrağı türklərin himayəsinə keçdi və onların İslamı qoruyub saxlamaqda müstəsna və əvəzsiz xidmətləri başlandı. Satuk Buğranın İslamı qəbul etməsi ilə minlərlə karluk ailələri bu dinə tapındı. Bu hadisə türk və İslam tarixini dəyişdi. İslam bayrağı türklərə keçdikdən sonra qısa müddət ərzində türklər bütün İslam dünyasını təmsil etməyə başladılar. Türküstanda türklərdən savayı başqa qüvvə yox idi. Türklər İslamı qəbul etmişdilər, amma tanrıçılığı heç zaman unutmamışdılar. Təktanrıçılıqla tək Allaha tapınmaq arasında bir azacıq fərq də vardı. Tanrıçılıqda güc-qüvvət, təkallahlıqda isə həm də Allaha təslimçilik və eşq vardı. Ancaq "Tanrı birdir" deməklə iş bitmirdi. Bunun duaları, ayinləri, adət-ənənələri fərqli idi. Quranı zor gücünə ərəb dilində oxumaq, başa düşmədiyin sözləri əzbərləmək hələ tam sitayiş deyildi. Türklər dili və adətləri başa düşmədiklərindən hələlik İslamda yalnız Allahın təkliyini qəbul edir, özlərinin qalan adətlərini qoruyub saxlayırdılar. Bu adətlər isə çox zaman şamançı inancdan gəlirdi.

Türklər həm də özlərinin milli adətlərini yaşadırdılar. İslama daha sadiq müsəlmanlar İlahi eşqin təcəlla etdiyi bütün varlıqları, xüsusən də Peyğəmbər (s.) ailəsini - Əhli-Beytdən olan şəxsiyyətləri digər din xadimlərindən daha uca tutur, məzari-şərifini ziyarətgah hesab edir,

oğuz türkləri isə hələ də İslama bu qədər yaxından və dərindən tapına bilmirdilər. Onlar özlərinə od, günəş, ağac, su və başqa nəsnələri sitayiş yeri kimi qəbul etməkdə davam edirdilər. Türklər hətta sultana, xana Tanrının elçisi kimi baxır, bir sıra fərqli və üstün məziyyətlərini nəzərə alaraq onları ulusu idarə etmək üçün SEÇİLMİŞlərdən hesab edirdilər...

...Dədələr dağlara çəkilmişdilər. İnanclarını mərdliklə qoruyub saxlayır, bütün əzab-əziyyətlərə mətinliklə dözür, səbr edirdilər. Ulu babalarından aldıqları əmanəti və bildiklərini təhrif olunmasın deyə hər gələnə deyil, yalnız seçilmişlərə ötürürdülər. Seçilmişlər isə təkcə mənsəbinə görə yox, həm də əqidəsinə, əxlaqına, düşüncəsinə və əməllərinə görə müəyyən edilirdi.

Usta Murad da SEÇİLMİŞLƏRdən idi. Yaşı əlliyə yaxınlaşsa da hələ hansı yaşında öz bildiklərini gələcək nəsillərə ötürəcəyini bilmirdi. Bəlkə də onun zamanı gəlməyəcəkdi. Ötən min ildən çox zaman ərzində yəqin ki, çox SEÇİLMİŞLƏR Ali Məqama qovuşmadan dünyadan köçmüşdülər...

...Hələlik Usta Murad "daş heykəllər"in yanından keçərək, əlində yük daşıyır, xəbər aparıb, xəbər gətirirdi.

"Daş heykəllər"in qurtaracağında, dağların ortasında kiçik bir meydan açılırdı. Ətraf dağlarla elə əhatələnmişdi ki, uzaqdan baxdıqda be-

lə bir boşluğun olacağına heç kimin gümanı gəlməzdi. Buradan o tərəfə - mağaraya iznsiz getməyə ixtiyarı yox idi. Dərindən nəfəs alaraq ətrafına baxdı. Kahanın qarşısında kimsəni görmədi. Yəqin heç kim onun bu gün gələ biləcəyini gözləmirdi. Qəfil gəlişi bildirmək üçün qavala oxşayan iri, yastı daşı döyəcləmək lazım gəlirdi. Amma usta tələsmədi, özünə gəlmək, nəfəsini dərmək, düşüncələrini toparlamaq istədi...

Bu meydançanın yaranışdan özünəməxsus düzəni vardı. Adama bənzər qaya parçaları burada da insan heykəlini xatırladırdı. Sanki sehirli bir əl bu daşları meydana xüsusi məqsədlə düzmüş, onları azacıq yontalayıb insana bənzətmişdi. İlk dəfə bura girən nabələd şəxs bu "daş heykəllər" arasında öz bənzərini axtarar, özünü onların sırasında hesab edərdi. Daş heykələ dönmək hər kəsə nəsib olmazdı. Burada, bu daşlar arasında sanki oğuzların ruhu yaşayırdı. Bu meydana daxil olan oğuz elə bil vücud halından çıxır, tamamilə ruha çevrilirdi. Daşların da öz ruhu vardı. Bu ruhlar daşların içindən dikələrək gələni qarşılayar, gedəni yola salardı. Burada ruhlar insanı Tanrıya daha möhkəm bağlayırdı.

Usta Murad qurşağının ucu ilə alnının tərini sildi, bir də ətrafa göz gəzdirdi. Baxışları meydançadan o biri tərəfdə, iri qara dəlik kimi görü-

nən kahanın üzərində dayandı. Hələ də orada kimsə görünmür, kimsə onu qarşılamağa çıxmırdı. Vaxt-vədəyə əməl olunardısa indi kahanın qarşısında bir nəfər durar, onu görüb yaxın gələr, "Xoş gəldin, oğuz!" deyərdi. İndi belə olmadı. Usta bundan heç təəccüblənmədi. Vaxtsız, xəbərsiz gəldiyinin fərqində idi. Bu qəfil gəlişinin də səbəbi məlum idi; axınçılar gəlmişdi!

Tərini silib qurtarmağa macal tapmamış kahadan əynində uzun ağ əba olan, əlində qurd başlıqlı çomaq tutmuş ağ saç-saqqallı bir nəfər çıxdı. Usta Murada elə gəldi ki, kahadan ona tərəf gələn insan yox, ilahi bir qüvvədir. Sanki ağ bir halədə qaranlıqdan nur doğurdu. Gördüyü mənzərədən bir anlığa donub qaldı, amma özünü itirmədi, başını yüngülcə tərpədib gözlədi.

Kahadan çıxan nurlu adam daşlığın, çınqılın üzəri ilə sanki uçurmuş kimi gəlib onun qarşısında dayandı. Bu vaxtsız-vədəsiz gəlişinə maraq deyəcəyi xəbərə yol açacaqdı. Usta Murad başını qaldırmadan ona təzim etdi, salam verdi:

-Ruhun göyə, vücudun yerə dirənsin Dədə!

-Övladım, bu nə xəbərsiz gəlişdir? - deyə kahadan çıxan ağsaqqal başını tərpədib soruşdu. - Axı, gəlişin də, gedişin də vaxtı, vədəsi var. Belə başa düşdüm ki, nəsə qəfil bir şey olub. - Gözlərində, sifətində qəribə bir sevinc dolaşan ustanın üst-başını diqqətlə nəzərdən keçirdi. - Hətta

özünlə xurcun götürməmisən, amma indi heç azuqə gətirmək vaxtı da deyil. Nə olub, övladım?

Usta Murad mağaradan çıxan bu adamın adını bilməsə də bir neçə il əvvəl ona "Kaha adamı" adını qoymuşdu. Əlaqəsi də əsasən bu "Kaha adamı" ilə idi.

Usta Muradın sevinc dolu sifətinin işığı meydança ilə yumşaq bir həmahəng yaradırdı. Başındakı quzu dərisindən olan papağını əlinə alıb köksünə sıxdı.

-Olub, Dədə, olub! Oğuzların gözü aydın olsun, Dədə!

Kaha adamı bu üzdəki sevinci, fərəhi maraqla süzdü.

-Övladım, kənddə toy-şənlik baş verib yoxsa?

-Bunlardan da artıq bir şey baş verib, Dədə! Axınçılar gəldi! Yel kimi, bir-biri ilə ötüşə-ötüşə, şimşəyin çaxdığı zaman, torpağı toza çevirə-çevirə gəldilər, Dədə, yurda qayıtdılar!

"Kaha adamı" bu sözləri eşitcək diksindi, nə deyəcəyini, nə edəcəyini bilmədi, sevincdən dili ağzında quruyubmuş kimi dodaqlarını sıxdı. O bu cür xəbəri gözləmirdi. Axınçıların gələcəyinə çox inansa da, bu hadisənin məhz bu gün baş verəcəyini güman etmirdi. Ulu babasının ulu babası da vəsiyyətində bir gün onların geri dönəcəyini bildirmişdi: "Qanı qanımızdan, canı ca-

nımızdan, dili dilimizdən olanlar gələcəklər! O zaman biz qurtulacağıq". "Kaha adamı"n bildiyinə görə mağaradakılar bunu yeddi yüz ildi gözləyirdilər. Ulu babası danışırmış ki, axırıncı dəfə buralara özlərini hun adlandıran türklər gəlibmiş. O zaman Attilanın göndərdiyi adamların qılınclarının dəstəyi xaç şəklində imiş. Bu da təktanrıçılığa işarə idi.

Bu fikirlər altında "Kaha adamı" nəhayət əli ilə mağaranı göstərdi:

-Övladım, bu şad xəbəri kaha Dədələrinə çatdırmaq, onları da sevindirmək lazımdır! - Sonra geriyə dönüb mağaraya sarı getmək istədi, amma nə fikirləşdisə, ayağını ləngitdi, sual dolu baxışlarını Usta Murada sarı çevirib astadan:

-Övladım, birdən xəbər yalan olar, Dədələrin yanında biabır olarıq, - dedi. - Əminsənmi axınçılar gəlib? Sən özün gözünlə gördünmü onları?

Usta Murad axınçıları gözü ilə görməmişdi, amma fəhmi nəvəsinin sözlərinin doğru olduğunu təsdiqləyirdi. İçindəki bir səs bu xəbərin yalan olmadığını deyirdi. Gözlərini qıydı, "Kaha adamı"na diqqətlə baxdı, sonra fikrini qətiləşdirdi:

-Dədə, - dedi, - Siz bilirsiniz ki, olmayan şeyə "Amin" deyilməz, od olmayan yerdən tüstü çıxmaz! Əgər belə bir şey olmazdısa, məni boş-boşuna rahatsız etməzdilər.

"Kaha adamı" susdu. Onun Usta Murada inanmaqdan başqa yolu yox idi. Onsuz da tez bir zamanda şəhərdən, kəndlərdən bura xəbərlər axışacaq, deyilən doğrumu-yalanmı, tam dəqiqləşəcəkdi.

"Kaha adamı" əlindəki uzun təsbehin dənələrini şaqqıldadaraq çevirdi, zikr etdi, eyni zamanda bu barədə dərindən fikirləşdi. Bu xəbərin nəticəsini bir qədər gözləmək lazım olacaqdı. İnanmayanlar buralara köç edəcək, bu dağlarda gizlənəcəkdilər. O zaman qərar verə bilərdilər. Yoox, deyəsən xəbər doğru idi, yoxsa Usta Murad kimi sınanmış adam yüyrək gəlməz, sözü elə-belə deməzdi. Onun bu dağlarda, müdriklər qarşısında xidməti vardı. İndiyədək heç zaman səhvə yol verməmişdi. Orta yaşlı olsa da yüz yaşlı müdriklər qədər mükəmməl fikirləri vardı. Onun gətirdiyi elə xəbər idi ki, bunu əsrlər boyu gözləyənlər, ölərkən "axınçılar gələcək,..hazır olun, onlar bizim bir parçamızdır" deyərək, gözlərini yumanlar az olmamışdı. Əvvəllər bu sözlərə daha çox inanırdılar. İrəli getmək istəməyib onlardan ayrılanlar, öz yurdlarında, dədə-baba torpaqlarında qalmağa üstünlük verənlər daha çox idi. Gedənlər qalanlara "yatuq" - "yatıb burda qalanlar" adını qoymuşdular. Sonradan axınçıların gəlməsi əfsanələrə, nağıllara döndü. Yaxşı nağılları isə hamı dinləmək, hamı onların

qəhrəmanlarına bənzəmək istəyirdi. O zaman kahada qalanlar kəndlərdən, şəhərlərdən adamlar seçir, onlara oğuz elmini öyrədir, kahadakılardan biri dünyasını dəyişəndə onu bu adamların ən müdrüyü ilə əvəzləyirdilər. Belə təlim onları daha da hörmətli və nüfuzlu etmiş, əhali üzərində təsirlərini artırmışdı.

"Kaha adamı" Usta Muradı çox gözlətmədi, sevincdən yaşarmış gözləri ilə bu polad gövdəli adamı başdan-ayağa süzüb:

-Gəl-gəl, gedək bu şad xəbəri Dədələrimizə çatdıraq, çox gözlədi bu xəbəri onlar, lap çox... - dedi.

"Kaha adamı" Usta Muradın gəlməsini gözləmədən mağaraya doğru getməyə başladı.

O, heç zaman kahanın dərinliklərinə girməmişdi. Kahadan bir qədər aralıda, bir ayrı mağaranın içində hücrə düzəltmişdilər. Tədris orada aparılar, elm orada öyrədilərdi. Hər zaman gördüyü insan da "Kaha adamı" idi. Qalan altı nəfəri heç vaxt görməmişdi.

İndi ayağını sürüyərək "Kaha adamı"nın arxasınca getdi və nəhayət içəriyə daxil oldu. Həsrətində olduğu sirli-sehrli kahanın içərisində də "Kaha adamı"nın arxasınca irəlilədi. Getdikcə onu həyəcan bürüyür, içərinin sərinliyinə baxmayaraq tər basırdı. Bir zamanlar burada Zərdüşt peyğəmbərin özü yaşamışdı. İndi o bura -

müqəddəs yerə sonunacan daxil olurdu. Burada gördüklərinin hamısını birər-birər yaddaşına yazmaq istəyirdi. Amma bunlar sonra kiməsə danışmaq üçün deyildi. Bəlkə də bir daha buraya gələ bilməyəcəkdi... Dəhlizlər işıqlı idi. Divarlara bərkidilmiş lopalar yolu aydınladırdı... Bir qədər getdikdən sonra sola buruldular. Qarşıya geniş və tavanı görünməyəcək qədər uca meydan çıxdı. Hər tərəfdə kiçik çıraqlar yandırılmışdı. Bundan başqa haradansa gün işığı da düşür, içərini bəmbəyaz bir nura bələyirdi. Diqqətini daha çox buradakı ağ libaslı insanlar cəlb etdi. Təmiz ağ kətan parçadan uzun paltar geyinmiş hündürboy, ağ saqqallı bu şəxslər müdrüklər idi. Onlar yastı daşların üstündə sıra ilə oturmuşdular. Altı nəfər idilər. Yeddinci daş oturacaq boş idi. Usta Murad bu oturacağın "Kaha adamı"na məxsus olduğunu başa düşdü. Qocaların ağ saqqalı az qala göbəklərinə çatırdı. Hamısının əlində qurd başlı uzun çomaq vardı. Tən ortada daşla haşiyələnmiş ocaq yanırdı.

"Kaha adamı" oturanların düz qarşısına gəlib ortadakı adama dedi:

-Dədə, gözün aydın olsun, gözlədiyimiz baş verdi! - Əlini Usta Murada tərəf uzatdı, - Xəbər gəlib: "Axınçılar geri qayıtdılar!"

Usta Murad ortada oturmuş müdrüyün Baş Dədə olduğunu anladı, ehtiramla təzim etdi. Bu

ixtiyar insan həddən artıq qoca idi. Yaşı bəlkə də yüzü, lap iki yüzü keçmişdi. Gözlərini ondan ayırmırdı. Baş Dədənin danışmağa heyi çatacağına şübhəsi vardı.

Baş Dədə ayağa durdu, yaşına uyğun olmayan çeviklikłə ocağın başına gəldi. Oturanlara tərəf çevrilib gümrah səslə:

-Gözünüz aydın, Dədələr! - dedi. - Ruhunuz göyə, vücüdunuz yerə dirənsin! Yeddi dəfə yüz ildən çoxdur bu günü gözləyirdik. Bizə şübhə edənlər qoy indi gözlərinə çıraq verib inansınlar. İnansınlar ki, oğuzların sözü ilə əməli həmişə bir olub.

Usta Muradın beyni, qulaqları Baş Dədənin dediklərinə yönəlmişdi. Bircə sözü də kənara buraxmaq istəmirdi.

Sonra Baş Dədə qoynundan balaca bir torba çıxartdı, onun sapla büzülmüş ağzını ehmalca açdı. İki barmağı ilə torbadan bir çimdik ot götürüb ocağın üstünə ataraq onun başına fırlanmağa başladı. Fırlandıqca "Tanrım, oğuzlara yol göstər", "Tanrım, türkə yol göstər" deyirdi. Baş Dədənin ocaq başına fırlanması getdikcə sürətlənir, ocağın alovu isə artırdı. Bu heç adi insan sürəti də deyildi. Sürət artdıqca ocağın alovları yuxarı qalxmağa başlayır, Baş Dədə ocağın içində sanki gözlə görünməz olurdu.

Usta Murad heyrət içindəydi, gözlərinə inanmır, əlləri ilə gözlərini ovuşdurur, gördük-

lərinin yuxu, yoxsa həqiqət olduğunu bilmək istəyirdi... Artıq alovun dilimləri tavana doğru qalxmaqda idi. Kənarda dayanmasına baxmayaraq, Usta Murad alovun istisini də öz sifətində hiss edir, getdikcə yanaqları qızarır, amma yenə gözlərini ocaqdan çəkmirdi. Bir azdan Baş Dədənin səsi gəlsə də, o həqiqətən də görünmürdü... Birdən alov çəkildi, Baş Dədə sanki alovun içindən çıxdı və heç nə olmamış kimi yenə də üzü oturanlara tərəf dayandı. Bu dəfə onlarla Baş Dədənin arasında alov dilimləri durmuşdu. Baş Dədə bir müddət dilimləri az qala tavana dəyən alova baxdı. Kahada isə yalnız alovun çırtıltısı eşidilirdi. Sanki alovun içində nəhəng bir ilan fısıldayırdı. Bir qədər keçdikdən sonra, o daha gümrah səslə sükutu pozdu, əli ilə zalı göstərib:

-Hələ Attiladan çox-çox öncə burada, bax bu yerdə Zərdüşt peyğəmbərlə Oğuz xan görüşmüşdü. Günbatan tərəfə qoşunu ilə gedən, məğlubiyyətin nə olduğunu bilməyən Oğuz xan özü bu görüşü istəmişdi. O zaman onların arasında belə bir söhbət olmuşdu. Zərdüşt peyğəmbər demişdi ki, hər yeri tutacaqsan, bizdən olan və olmayan uluslar sənə tabe olacaqlar, ancaq sənin ulusunun hakimiyyəti on dəfə yüz il çəkəcək. Sonra da Oğuz ulusu bəşər səhnəsindən getməyəcək. Yenidən günçıxan tərəfə gedib, orada məskunlaşa-

caq. Sonra yenidən günbatan tərəfə axın edəcək, qayıdıb gələcək. Bu dəfə də onların hakimiyyəti çox çəkəcək, çox; on dəfə yüz il.

O qarşısındakı məchul nöqtələrə dalaraq bir qədər susdu. O susan kimi alovun ilan fısıltısı yenə eşidildi. Deyəsən Baş Dədə danışanda alovun da fısıltısı kəsilirdi.

-Dədələr, - Baş Dədə yenə oturanlara müraciət etdi, - İndicə mən alov içindən çıxdım. Alovun içində olanda gələcəyə baxdım. Həqiqət Zərdüşt peyğəmbərin dediyi kimidir. Bu dəfə oğuzlar gün çıxandan gün batana qədər olan yerlərdə on dəfə yüz ildən çox hakimiyyətdə olacaqlar. Bir oğuz ulusu o biri oğuz ulusunun hakimiyyətini dəyişəcək. Düz on dəfə yüz ildən artıq buralar onun hökmü altında olacaq. Amma biz də buna hazır olmalıyıq. Hücrələrdə öyrətdiyimiz elmimiz, həm də fitrimiz bizə kömək edəcək. Bundan sonra da bu işləri davam etdirib, nəsildən nəslə ötürməliyik. - Sual dolu nəzərlərlə Dədələrə baxdı, - Fikrim aydındırmı, Dədələr? Bu min ildə oğuzları çətin sınaqlar gözləyir. Mən bunların hamısını gördüm; qardaş qardaşı öldürəcək, əqidə, məzhəb uğrunda savaş gedəcək. Ərazilərimiz gah böyüyəcək, gah kiçiləcək. Ortada daha qüdrətli düşmən qalmayacağı üçün oğuzlar bir-biri ilə savaşacaqlar, ancaq yenə hakimiyyətdə qalacaqlar.

Dədələrdən biri dilləndi:

-Dədəm, sən bilirsən nə etmək lazımdır, bundan sonra işimizə güc verməliyik.

-Düzdür! Mən bilirəm nə etmək lazımdır! - Baş Dədə bu sözləri deyib, öz yerinə keçdi, iri, yastı daşın üstündə əyləşdi.

Baş Dədə əyləşən kimi alovun dilimləri də asta-asta aşağı çəkilməyə başladı. Usta Murad hələ də gözlərini bu sehirli alovdan ayırmamışdı. Alov sanki onu tilsimləyib daşa döndərmiş, bütün vücudu qurumuşdu. Yalnız gözləri baxır, beyni isə işləyirdi.

Onu bu vəziyyətdən Baş Dədənin gümrah səsi qurtardı.

-Oğlum Murad, bu xəbəri sənin gətirməyinə şadam, - dedi və barmağını "Kaha adamı"na tuşladı, - Dədə mənə dedi ki, sən Şirvandan gətirilən qara yağdan* odlu şar hazırlamısan. O şarın içinə xırda metal parçalar doldururmuşsan. Onu mancanağın üstünə qoyub yandırır, düşmən tərəfinə atırsan. Partladıqda böyük itkiləri olur. Doğrudurmu?

Usta Murad bir qədər çaşqın vəziyyətdə olsa da, onun sözlərini təsdiqlədi.

-Elədir Dədə, hazırlamışam, amma bilmirəm neyləyim...

Baş Dədə uzun saqqalını tumarladı.

---

** Qara yağ - neft.*

-Nə etmək lazımdır, artıq vaxtı yetişib. Oğuzların başbuğu Sultan Alp Arslanın yanına gedərsən. Onsuz da o buralardan gəlib keçəcək, düşərgəsini çox zaman bu yerlərdə quracaq. Onunla görüşəndə deyərsən ki, məni sənin yanına Dədə göndərib. Deyərsən ki, "sənə aid olanı sənə gətirmişəm". O zaman sən icad etdiyin partlayıcı barədə ona danışarsan. Onda başbuğ səni öz yanında qulluğa götürəcək. Onun yanından heç zaman ayrılma! Sənin adın bundan sonra axınçılarla bağlıdır. Aydındırmı?

Usta Muradın köksü fərəhlə qalxıb endi. Uşaqlıqdan arzuladığına çatmışdı; axınçı olmaq istəyi gerçəkləşirdi.

-Baş üstə, Dədə!

Usta Murad yenə nəsə demək, Baş Dədəyə minnətdarlıq etmək istədi. Amma bundan artıq söz deməyə gücü çatmadı.

Sonra Baş Dədə onun nəzərləri ilə ayağa qalxan "Kaha adamı"na baxaraq bir anlıq fikrə getdi. "Kaha adamı" nəsə xoş olmayan bir duyğu hiss edibmiş kimi baxışlarını aşağı dikdi. Bu dağlardan həmişəlik ayrılacağı ilə bağlı həyəcan düşüncəsinə hakim kəsilməyə başladı. Tanıdığı hər daş, hər cığır sanki üstünə yeridi. Bu dağların çiskinini, qarını, yağışını, adam yandıran istisini, qaya gölgəsinin adamı tir-tir əsdirən soyuğunu xatırlayaraq gözləri yaşardı.

Baş Dədə də bunları hiss etdi. Neçə illərdi bu müdrik onun elmindən dərs almışdı. Ona insanların gözünə, üzünə baxaraq nə düşündüklərini, nə fikirləşdiklərini oxumağı, beyinlərə təsir etmək elmini öyrətmişdi. İndi onun nəsə deməsinə ehtiyac yox idi, onu dəqiq başa düşdü:

-Sən doğru fikirləşmisən, burdan gedirsən, bəlkə də bir daha bu dağlara gəlməyəcəksən, - dedi. - Gəlsən də təcili, atüstü olacaq. - Baş Dədə "Kaha adamı"n sanki ürəyini oxuyurdu. Sonra qalxıb, ağır addımlarla zalın yanındakı kiçik hücrəyə girdi. Oradakı daş sandığın taxta qapağını açaraq, ağ kətana bükülmüş bir şey götürdü və geriyə döndü. Gəlib "Kaha adamı"n qarşısında dayandı. - İndi günçıxandan gələn oğuzlar yüz il bundan öncə İslamı qəbul ediblər, - Bir qədər susub "Kaha adamı"nın gözlərinin içinə baxdı. Onun nəzərləri tədricən "Kaha adamı"nın gözlərinin içinə yerləşdi. Bu halda öz fikrini tamamladı. - ...amma əski inanclarımızı da unutmamalıyıq. Onlar da tək Tanrıya bağlıdır. Biz öz musiqimizi, rəqsimizi, ritmlərimizi unuda bilmərik. Bunlarda bizim milli ruhumuz yaşayır. Səma-Tanrı inancı İslamın ayrılmaz hissəsi olmalıdır. Qadınlarla kişilər arasında fərq olmamalıdır. Onlara kişilərlə bir yerdə zikr etməsi qadağan edilməməlidir. Çünki türkün ruhu təmizdir. Bədəvi ərəbin düşüncəsində yemək və eyş-işrətdən qeyri çox az şey var. Dini qadağa-

lar bədəvi ərəb üçündür. O rəqs etdikdə şəhvətlənir. Türk isə rəqs edib hərləndikcə ehtizaza gəlir, muğam oxuyaraq Allahını duyur.

Sonra o, gözlərini yumdu. Ağzını azacıq açıb oxumağa başladı. Baş Dədənin səsi sanki qeybdən gəlirdi:

*Yer yox ikən,*
*sirr yox ikən*
*var idim.*
*Nur yox ikən,*
*Ərş yox ikən,*
*göy yox ikən*
*alışmadan nur içində*
*nur idim.*
*Günəş ərşi yandırmadı,*
*yox idi.*
*Zirvələrdə qar var ikən*
*Qar donmadı, yox idi.*
*Dizlərimi sındırmağa*
*Daş, qayada*
*daş axtardım*
*sındırmadı,*
*yox idi.*
*Yer yox ikən,*
*sirr var ikən*
*nur idim.*
*Mən var idim*
*Ənginlikdə sirr idim.*

*Nur içində bir idim*
*Yer yox ikən,*
*göy yox ikən*
*var idim.*
*Biz yox ikən*
*Bir içində*
*Nur idim.*

Sonra Baş Dədə gözünü açıb, əlindəki bükülünü "Kaha adamı"na uzatdı. "Kaha adamı" bu bükülünün nə olduğunu yaxşı bilirdi. Bu, onların təlimini elmə çevirən və qaydalara riayət etməyin yolunu göstərən "Buyruq" kitabı idi. Bu kitabı neçə dəfə oxumuş, yalnız bircə dəfə üzünü köçürmüşdü. İndi həmin üzünü köçürdüyü nüsxə onun özünə qaytarılırdı. Ona "Erkənnamə" kitabı da verilə bilərdi. Amma susdu. Deməli məsləhət belə olmuşdu. Bükülünü Baş Dədənin əlindən ehtiramla aldı, öpüb ehtiramla gözləri üstünə qaldırdı.

-Bu gündən Ərdəbilə köçürsən. - Baş Dədənin bu sözləri onun diqqətini əlindəki kitabın haləsindən ayırdı. - Şeyx Külah Firuz şaha xəbər göndərmişəm. Gələcək həyatın, təlimlərin orada olacaq. Onun yanından heç ayrılma. Bir çox şeyxlər, dərvişlər, əxilər artıq ona biyət ediblər. Hər kəs xəbərdardır. Biz böyük bir yola çıxırıq.

Sonra o, Usta Muradın başa düşmədiyi bir söz söylədi: - "Qırxın cəmi birdir, cəmin biri qırxdır".

-Bir neçə yüz il keçəcək, Şeyx Firuz şahın nəsli böyük bir təriqətin - Səfəvi təriqətinin əsasını qoyacaq. Buna hazır olmaq lazımdır. Buna arxa-dayaq olmaq gərəkdir.

## XAŞXAŞİLƏR

İldırım çaxır, göyün gurultusu dağlarda nağara çalırmış kimi qulaq batırırdı. Sanki payız özü ilə bu yerlərə bir dəstə aşıq gətirmişdi. Şimşək səsi dağlar arasında dolaşır, dərələrdə yayılır, daşların üstünə düşən yağış damlaları da qəribə, bir-birinə bənzəməyən səslər qoparırdı. Soyuqlar düşdüyündən buralarda gecələr ayaz olurdu. Dağların ətəyindəki ağaclar soyuqdan üşüyür, yarpaqları saralıb tökülürdü. Ağaclar çılpaqlaşdıqca soyuq daha çox hiss edilirdi. Yuxarıda isə çılpaq daşların çoxu öz üzərinə mamırdan "yorğan" çəkmişdi. Daşlar, qayalar bu payız günündə təbiətin içindən gələn ecazkar havanın sehrinə dalmışdılar. Onlar üçün zaman və məkan yox idi. İnsandan fərqli olaraq buralarda onlar əbədi idilər. Yağışın altında yuyunur, günəş şüaları altında özlərini günə verir, sonra isə yağış damlaları onların üzərinə düşdükcə sərinləyirdilər... Bir azdan göylərin dağlara göndərdiyi bu şərqinin

səsi kəsildi. Əvəzində xəfif külək əsməyə başladı. Külək göydəki buludları qovub bir-birinə qovuşdurdu. Həm də dağın üç tərəfindən özü ilə çiskin qarışıq duman gətirdi.Tədricən dağlarda yol-iz, cığır dumandan görünməz oldu.

Əllərində məşəl olan üç nəfər dar bir cığırla Qəzvin şəhərindən şərqdə yerləşən Ələmut dağına qalxırdı. Hər üçü başlarına yağışdan, gündən qorunmaq üçün çiyinlərini də örtən üçkünc papaq qoymuşdu. Qabaqda gedənin sərbəst və arxayın addımları onun bu yerləri yaxşı tanıdığını bildirirdi. Arxadakılar isə tez-tez məşəlin işığını ayaqlarının altına salır və ehtiyatla irəliləyirdilər. Cığır getdikcə daralırdı. Bir azdan hər iki yanı qayalıq olan bu yola yalnız bir adam sığışa bilərdi. Bu qalaya heyvanlarla yük gətirmirdilər, onları bu cığırdan keçirmək mümkün deyildi. Qalaya lazım olan şeyləri yalnız qala adamları öz kürəklərində daşıyırdılar. Bu qalaya el arasında "Qartal yuvası" deyirdilər. Ələmuta bu ad alınmaz ucalığına görə verilmişdi.

Yolçular qalanın ətəyindən qala qapısına qədər qalxan daş pilləkanlara çatanda qala üstündəki keşikçi aşağıya üzünü tutaraq qışqırdı:

-Daş pilləkanların aşağısında üç məşəl görürəm! Onlar yuxarı qalxırlar!

Aşağıdakı gözətçi dəmir darvazanın gözlüyünü çəkib pilləkan boyu aşağıya baxdı. Amma

heç kimi görmədi. Yalnız işıq şöləsini sezə bildi və öz-özünə deyindi.

-Gecə vaxtı, özü də bu yağışda, dumanda görən nə olub, sabah gələ bilməzdilərmi?

Qala bürclərində dayanan keşikçilər hər dörd addımdan bir divarda yerləşən məşəllərə od vurdular. Məşəllər qala divarlarını işıqlandırdı. Amma onun dibi yenə qaranlıq idi.

Səssizliyi yağış damcıları və pilləkanlarla qalxan üç nəfərin ayaq səsləri pozurdu.

Nəhayət yolçular qala qapısına çatdılar, sonuncu yolçu başını qaldırıb, yuxarı baxdı.

Bürclərin birində, məşəllərin şöləsi altında xaşxaşilərin ağ bayrağı dalğalanırdı.

Öndə gedən yolçu əlindəki çomağı xüsusi işarə ilə qapıya vurdu.

İki taylı dəmir darvazanın gözlüyü yana çəkildi. Qala qapısının razılaşdırılmış xüsusi işarətlə döyülməsindən keşikçi gələn adamın yad olmadığını müəyyən etmişdi. "Dağlar müdrüyü"nün əmrinə əsasən qalaya gələnlərin hər addımı gizli işarələr, sözlərlə yoxlanılmalı idi. Əks-təqdirdə cəzadan, özü də ağır cəzadan heç kim qurtula bilməzdi. Xaşxaşilərin qayalar kimi sərt təlimləri vardı. Bu təlimləri pozan şəxsin ürəyinə xəncər saplanar, digərlərinə dərs olsun deyə hökm hamının gözləri qarşısında həyata keçirilərdi.

Darvaza arxasından keşikçinin kobud səsi eşidildi:

-Kimsən, yanındakılar kimdir?

Öndə duran yolçu bir addım geri çəkilib əlindəki məşəllə öz üzünü işıqlandırdı. Başındakı keçə papağı da çıxardıb gözlüyə baxdı:

-Mənəm, Übeydəm. "Dağlar müdrüyü"nə fədailər gətirmişəm, - dedi, - bu gecə onlar "cənnətdən" keçəcəklər.

Keşikçi şifrəli sözü eşidib əlini darvazanın ağır cəftəsinə atdı. Qoşa darvazanın bir tayı cırıltı ilə açıldı.

-Keçin, - dedi, özü də bir qırağa çəkildi, - özün bilirsən hara aparmaq lazımdır. Bunları orada "cilalayacaqlar".

Übeyd başını razılıqla yellədi.

-Bilirəm, bilirəm, birinci dəfə deyil ki... - Arxasınca gələnlərə əmr etdi. - Mənnən gəlin, bir azdan "cənnətdən" keçəcəyik...

Xaşxaşilərin qəribə yaranma tarixi vardı. Səkkizinci yüzilliyin ortalarında şiələr iki hissəyə bölünmüşdü. Bir tərəf yeddinci imam Museyi Kazıma biyət gətirsə də, digər tərəf onun qardaşı Muhəmməd ibn İsmayılı imamət başında duran şəxs kimi tanıdı. Buradan da İsmayılın tərəfdarlarını ismaililər adlandırdılar. Fikirlərini başqalarına təlqin edib həyata keçirmək üçün xaşxaşdan, tiryəkdən, həşişdən isti-

fadə etdiklərinə görə onlara xaşxaşilər adı verildi. Güclü təqib olunduqları üçün möhkəm və gizli təşkilat yaratmış, çox qısa müddətdə Orta Asiyadan tutmuş Xorasana, Azərbaycana qədər yayılmışdılar.

Gizli təşkilat on iki pillədən ibarət idi. Ən yuxarı pillədə "Dağlar müdrüyü", ən aşağı pillədə isə canını qurban verməyə hazır olan "fədailər" dururdu.

Xaşxaşilərin imamı, "Dağlar müdrüyü" hiylə yolu ilə Ələmut qalasını ələ keçirdikdən sonra elə qalada da məskunlaşmış, o vaxtdan heç aşağı düşməmişdi. Buradan onun göstərişlərini hər yerə çatdırır, həyata keçirmək üçün fədailər seçir və o fədailər canlarından belə keçirdilər. Bəzən işləri alınmayanda qızları, oğlanları oğurlayıb qalaya gətirir, onlardan bəzən fahişə, bəzən də fədai kimi istifadə edirdilər.

"Dağlar müdrüyü"nün hündür boyu, yekə əlləri, uzun barmaqları var idi. Üzü örtülü olar, həmişə qara paltar geyinərdi...

Həsən Sabbah, Ömər Xəyyam və səlcuqların vəziri Nizam ül-Mülkün uşaqlığı bir yerdə keçmişdi. Möhkəm dost olmuşdular. Bu səbəbdən Nizam ül-Mülk uşaqlıq dostunu, Həsən Sabbahı sarayda maliyyə məsələləri üzrə məmur təyin etmişdi. Ağıl sarıdan korluq çəkməyən Həsən Sabbah yeyintilərə qəsdən göz yumur, çox hissəsini

isə özü mənimsəyirdi. Bu yeyintiləri ört-basdır etmək üçün daima məmurlar arasında münaqişə yaratmağa çalışır, belə vəziyyətlərdə özü həmişə təmizə çıxırdı. Günlərin birində vəzir bu fırıldaqları aşkarlayanda Həsən Sabbah cəzadan yaxa qurtara bilməyəcəyini başa düşdü və Ömər Xəyyamın yanına xahişə yollandı. Ömər Xəyyam onun xahişini vəzirə çatdırdı, özü də uşaqlıq dostunun cəzalandırılmaması üçün hətta minnətçi düşdü. Nizam ül-Mülk şair dostunun minnətini yerə salmaq, xətrinə dəymək istəmədi. Amma "hara istəyir cəhənnəm olub getsin, təki gözümə görünməsin. Harada gözümə dəysə cəzalandıracam!" - dedi. Şair vəzirin sözlərini Həsənə çatdıranda o təəccüblənmiş və tarixdə qalacaq sözlər buyurmuşdu: "Ömər, mən gedirəm. Elə bir yeri ələ keçirəcəm ki, çoxları mənim əmrimlə qətlə yetiriləcəklər, o cümlədən də baş vəzir. Ancaq siz məni bir daha görməyəcəksiniz".

Çox keçmədən Həsən Sabbah yeni bir üsul icad etdi. O, səlcuqlarla döyüşmək üçün kifayət qədər qüvvələrinin olmadığını bilirdi. Ancaq xaşxaş və həşişin köməyi ilə onlara sadiq olan, hər an əmrlərini yetirən, şəhər kasıblarından, kəndli gənclərdən fədailər seçməyə başladı. Tanınmış adamların, məmurların, vəzirlərin, vəkillərin öldürülməsi çağırışına fədailər fikirləşmədən gedirdilər. "Zənginlərin aradan götü-

rülməsi" çağırışına onlar həm də yanğı ilə, həvəslə, savab iş kimi qoşulurdular...

Həsən Sabbah terroru seçmişdi.

...Qalanın böyük zalı iki yerə ayrılmış, araya qalın qara pərdə çəkilmişdi.

Gecə yarıdan keçməsinə baxmayaraq heç kim yatmaq fikrində deyildi, bir azdan yeni gələn fədailəri "cənnət"dən keçirəcəkdilər. Hələlik isə divarın içində oyulmuş sobaya atılan odun parçaları çırtaçırtla yanırdı.

Həsən Sabbah bardaş qurub ocağa yaxın oturmuşdu. Sağ tərəfində bütün əmrlərini sözsüz yerinə yetirən, sağ əli sayılan imam Xəttab əyləşmiş, qarşısında qalaya yenicə gələn Übeyd durmuşdu. "Dağlar müdrüyü" əli ilə ona yer göstərdi:

-Nə durmusan ayaq üstə, gəl əyləş.

Əli-əlinin üstündə dayanan, başını aşağı salıb bir kəlmə belə danışmayan Übeyd yenə səssiz-səmirsiz irəli gəldi, onunla üzbəüz əyləşdi. Söhbətə onların başlaması yaxşı olardı.

-Bağdaddan nə xəbər var? Eşitdim Abbasi xəlifəsini bizim fədaimiz gəbərdib!

"Dağlar müdrüyü" əlindəki təsbehi çevirib güldü. Übeyd isə sanki onun gözlərinə baxmaqdan qorxurdu, odur ki, yenə başını qaldırmadan sakit səslə:

-Elədir, ya "Dağlar müdrüyü", - dedi. - Sizin uzaqgörənliyiniz sayəsində əmriniz icra olun-

du. Fədaimiz onu saraydan çıxanda, camaatın gözünün qarşısında xəncəri ürəyinə saplayıb öldürdü.

Həsən Sabbah heç nə bilmirmiş kimi soruşdu:

-Bəs fədainin taleyi necə oldu?

Übeyd də sanki ona hansı sualın veriləcəyini bilirdi, tez:

-Öldürdülər, - dedi. - Xəlifənin mühafizəçiləri ona heç aman vermədilər, bir söz desin. Qılınclarını siyirib onun üstünə düşdülər, fədaimizi doğram-doğram elədilər. Hətta ölən xəlifə də yaddan çıxmışdı.

-Sonra nə oldu? - Həsən Sabbah sualına düzəliş verdi. - Xəlifənin yerinə kim keçdi?

-Qardaşı keçdi, ya imam həzrətləri! Oğlu azyaşlı olduğu üçün xəlifə  qardaşı oldu. Amma, deyirlər onun qardaşı hakimiyyət üçün çox zəifdir, qorxağın biridir, hətta bizə çatan xəbərə görə kölgəsindən belə qorxur. Hər yerdə gözünə bizim fədailər görünür. - Übeyd pıçıltıya keçdi. - Həzrət, deyirlər hətta arvadlarının yanına da girmir. Birdən hansısa arvad sui-qəsdçi  olar. Hərəmxananın qapılarını öz üzünə bağlatdırıb.

Həsən Sabbah bu sözlərdən həzz alaraq qımışdı və gülərək ayağa durdu. Onunla birlikdə imam Xəttab və Übeyd də qalxdı. O zalda bir qədər var-gəl  etdi, təsbehini şaqqıltı ilə oynadaraq

düşündü, sonra gəlib imam Xəttabın qarşısında dayandı.

-Eşitdim, yeni xəlifə bizə xərac göndərib, özü də nə az, nə çox, düz beş dəvə yükü!

İmam Xəttab tez onun sözlərini təsdiqlədi:

-Hə, elədir!

-Elədirsə, qoyun hələlik xəlifəliyini etsin, amma...- barmağını silkələdi. - Übeydə elə gəldi ki, bu barmaq deyil, düşmənlərin başı üzərində fırlanan qılıncdır. - Amma... onun üzərindən qorxu götürülməməlidir. İllik xəracını artıqlaması ilə ödəməlidir.

İmamin başı itaətcəsinə sinəsinə düşdü.

-Əmr edərsiniz!

Araya sükut çökdü. Sonra bu sükutu baş imam pozdu. Onun gözləri bir nöqtəyə dikilmişdi. Səsi də alışıb yanırdı. Übeydə elə gəldi ki, bu gözlərin içində şeytan oturub. Bu gözlər qan axtarırdı, ölüm gəzirdi, bu gözlər "Ölüm dəzgahı"nı işlədən bir qurğu idi.

-Mən çox düşündüm, çox daşındım, fikirlərimi çox götür-qoy etdim, nəhayət qərara gəldim! - O gözlərini ölü nöqtədən ayırıb Xəttaba tərəfə çevrildi. - Bütün imamlara, zümrə rəhbərlərinə xəbər göndərin; bütün yerlərdə bacarıqlı adamların siyahısını tərtib edib mənə göndərsinlər. Mənim üçün fərqi yoxdur bu siyahıda kimlər olacaq; Abbasi xəlifəsi, ya onun vəzirləri, Fat-

mayı xəlifəsi, xaçpərəst Suriya cəngavərləri, oğuzların sultanı, vəzirləri, qəhrəman əmirlər, ağıllı, yaxşı təhsil görmüş mollalar, bizə biyət etməyən dərvişlər, dini rəhbərlər, ya da başqaları - hamısının adını yazın göndərin! Mənə hamısı lazımdır!

Übeyd danışmağa cəsarət etmədi. Amma imam Xəttab sual verməyi özünə borc bildi.

-İmam həzrətləri, əmrinizi can-başla yerinə yetirərik. Amma... Amma qüvvələrimizin hələ az olan bir vaxtında dünyanı üstümüzə qaldırmaq bizə nə verəcək? Yəni deyirəm ki, sizin bu müdrük təklifiniz bizə hansı üstünlüyü gətirəcək?

O ehtiyatla verdiyi sualdan özü də qorxdu. İmam Xəttabın gözlədiyinin əksinə olaraq, Həsən Sabbah fikirlərini və verilən sualı aydınlatdı:

-Yox elə deyil, söylədiklərim elə bizim əsas silahımız olacaq! Aydınlaşdırıram, əgər biz... - o yenə zalda gəzişməyə başladı, - ...ən ağıllı, təhsil görmüş, sözün əsil mənasında başı çiynində olan, yəni özgür düşünüb qərar çıxaran insanları, vəzirləri, hökmdarları aradan götürsək, sonra nə olacaq, yəni nə baş verəcək? Bu haqda düşünmüsünüzmü?

Zal sükut içindəydi. Sualı vermişdisə, deməli, dəqiq cavabı da elə onun özünə məlum idi. Elə də oldu, Həsən Sabbah özü buna aydınlıq gətirdi.

Fikirlərini öz düşüncəsindən razı qalmış adam kimi izah etməyə başladı.

-O olacaq ki, indi Abbasilərdə olduğu kimi, hakimiyyətə zəif birisi gələcək. Buna görə o da bizə bac-xərac verəcək. Sonra vəzirləri, vəkilləri ələ alacağıq, bizə işləyəcəklər, ya da zəhərli xəncərlə cəhənnəmə göndərəcəyik. Bizə lazımdır ki, bayaq keyfiyyətlərini sadaladığım insanlar aradan götürülsünlər! Öldürülsünlər ki, onların yerini zəif, qorxaq, rüşvətxor əbləhlər tutsun. Zəif, qorxaq, aciz insan tutduğu vəzifəni hansı yolla olursa-olsun qorumağa çalışacaq. Onun üçün hakimiyyət, dövlət, ümmət, camaat canından aşağıda durur. Belə tipli insanlar vəzifənin itirilməyini hər şeyin itirilməsi kimi başa düşür. Belə adamlar düşünməyi belə bacarmırlar, - O, qılınca oxşayan uzun barmağını əvvəlcə Xəttabın üzərinə yönəltdi, sonra isə həmən barmağı sinəsinin üstünə qoydu, - Onlar sənin, bir də mənim dediklərimi həyata keçirəcəklər.

İmam fürsət tapdığını düşünüb, onu tərifləmək istədi:

-Yalnız sizin, həzrət, sizin ağlınıza belə şeylər gələ bilər! Siz bizim fikir atamızsınız. Biz kimik ki?!

Həsən Sabbah bu söylənənlərə diqqət vermədi və sözünə davam etdi:

-Rüşvətxorla tez dil tapmaq olur, çünki onun dini, imanı paradır. Para onun üçün ailədir, hakimiyyətdir, bir sözlə hər şeydir. Elə ki, belə insanları istədiyimiz yerlərə, ölkələrə yerləşdirdik, o zaman idarə etmək tamam asan olacaq.

İmam Xəttab sanki Həsən Sabbahın sözlərinin sehrinə düşmüşdü. Ağası sözünü qurtarar-qurtarmaz ucadan dilləndi:

-Əladır, əla! Bu gözəl fikirlərinizi daş üzərinə həkk edib gələcək nəsillərə ötürmək lazımdır, imam həzrətləri.

Həsən xəfifcə gülümsədi.

-Belə də olacaq, Xəttab, belə də olacaq, amma bu bizim düşüncəmizin əsas qayəsi deyil!

Xəttab elə bil Həsən Sabbahı bu gün kəşf etmişdi. Onun üçün Sabbah sanki Əflatun və Ərəstun kimi danışırdı. Amma onun fikirlərini aramla dinləməyə səbri çatmadı.

-Bəs əsas nədir, imam həzrətləri? Vallahi, elə dərin danışırsınız ki, özüm də bəzən çaşbaş qalıram. Arada fikirləşirəm ki, Tanrı biz cahilləri xilas etmək üçün sizin timsalınızda aramıza bir mələk göndərib.

Həsən Sabbah onun sözlərindən, əsasən də "mələk" sözündən xoşlansa da, yenə münasibət bildirmədən sözünə davam etdi:

-Əsas odur ki, zəiflərin, qorxaqların, rüşvətxorların hakimiyyətə gəlməsi ilə dövlətin əsas-

ları laxlayır, dövlət gücdən düşür. Daxili çəkişmələr, çaxnaşmalar istənilən dövlətin özülünü sarsıdır, iki-üç nəsildən sonra tam zəifləyir, öləziyir. Daha bir neçə nəsil keçdikdən sonra isə dövlətin sonu çatır. Amma bu da bizim üçün son, bu da ən əsası deyil.

Bu sözlərdən sonra imamın səbri lap daraldı:

-Həzrət, belə olan halda bac-xəracı kimdən alacağıq?

"Dağlar müdrüyü" bu dəfə gur səslə şaqqanaq çəkdi və bu şaqqanaq sanki qala divarlarına dəyib yerə düşdü.

-Özümüz güclü olanda, düşmənlərimizi diz üstə qoyanda biz öz dövlətimizi quracağıq, öz dövlətimizi, ay Xəttab! Öz dövlətimiz olanda bu qalanı özümüzə paytaxt edəcəyik! Paytaxtımız olanda bizim öz qazancımız, öz gəlirimiz, alış-verişimiz, xəzinəmiz olacaq. Bizim əhalimiz özü bizə vergi verəcək!

O bu sözləri inamla, fərəhlə söylədi. İmam Xəttab da fəxrlə gülümsədi, içini çəkdi və yalnız "əladır" deyə bildi.

-İndi məqsədimizi, niyyətimizi həyata keçirmək vaxtıdır.

Həsən Sabbah bu sözləri deyib, ocağa sarı addımladı. Burada o üzünü ortadan çəkilmiş qara pərdəyə tərəf tutdu və əyləşdi. Əli ilə ayaqda

duranlara da oturmaq üçün işarə verdi. Onlar da əyləşdikdən sonra əlini əlinə vurdu.

Əmrə müntəzir dayanmış yardımçı bu səsi gözləyirmiş kimi içəri daxil oldu, əlini sinəsinə qoyub baş əydi və sakitcə durdu.

-"Cənnətdən keçmək" istəyən fədailər hazırdırlarmı? - Həsən Sabbah yardımçının "bəli" cavabından sonra dedi. - Elə isə başlayın! - O başını bir qədər irəli uzadıb, imam Xəttaba pıçıltı ilə, - Abbasi xəlifəsindən sonra növbə səlcuq Alp Arslana çatdı, eləmi? - deyə soruşdu. - Bu fədailərdən birini onun düşərgəsinə göndərərsən. İndi bu türklər dünyanın ən güclüsüdür. Bizans imperatoru da onu sifariş verib. Bizanslılar biabırçı Malazgird döyüşünü heç cürə unuda bilmirlər...

Qalın qara pərdə yan tərəflərə çəkildi. Zalın o biri başında fərqli və qeyri-adi mənzərə göründü. Bütün divarlar və döşəmə qırmızı xalçalarla bəzədilmişdi. Ortada çox da böyük olmayan çarhovuz vardı. Çarhovuzun ətrafında altı yarıçılpaq qız əyləşmişdi. Pərdənin çəkilməsilə buradakı aləm canlandı. Qızlardan biri ud çalmağa, o birisi oxumağa başladı. Digərləri isə əllərini suya salır, sonra göyə qaldıraraq ovuclarındakı suyu gülə-gülə ətrafa səpirdilər. Hovuzun bir tərəfinə iki yastıq, yanına isə iki qəlyan qoyulmuşdu. Qəlyan tüstülənir, içəri bihuşedici ətir yayılırdı. Arxada üç kiçik palma ağacı görünürdü. Ağacların yanı-

na bir neçə quş qəfəsi qoyulmuşdu. Quşlar musiqi səsinə qoşulub səs-səsə vermişdilər. Ətrafa düzülmüş saxsı dibçəklərdə əkilmiş güllərin rəngarəngliyi göz oxşayırdı.

Qırmızı xalça vurulan bir yerdən xalça ilə birlikdə sanki qapı açıldı və çarhovuz başında oturan qızlar gülüşərək, qapıya tərəf qaçışdılar. Sonra isə sıra ilə, boy-boya düzüldülər. İçəri gözləri qara örtüklə bağlı iki fədai buraxıldı. Qızların səsini, suyun şırıltısını, quşların civildəməsini eşidən kimi gözübağlı adamların üzündəki həyəcan ifadəsi tədricən çəkilməyə başladı, bir azdan isə dodaqlarına təbəssüm qondu. Qızlar onların gözlərindəki qara örtüyü açmadan əllərindən tutaraq yastıq qoyulan yerə gətirdilər. Burada onları aşağı dartaraq özlərilə bərabər əyləşdirdilər. Sonra yarı uzandırıb yastığı başlarının altına dirsək kimi qoyaraq qəlyanın müştüyünü onların ağzına yaxınlaşdırdılar. Fədailər dodaqlarında müştüyü hiss edən kimi onu sümürüb tüstüsünü ləzzətlə havaya buraxdılar. Qızlar isə yenə də gülüşərək onların üzünü, sinəsini, qarnını sığallamağa başladılar.

Fədailərin arxasında üzü ağ niqabla örtülmüş, ağ, uzun əba geyinmiş bir nəfər peyda oldu. Onun arxasında yanan iri şamlar başının üstündə bir halə yaradırdı. Birdən onun amiranə səsi eşidildi:

-Ey fədailər, eşidin və bilin! Zaman keçdikdən sonra Allah insanlarda təcəssüm edir. Bu təcəssüm "Bəşər idrakı" altında Peyğəmbərdə olur. "Bəşər ruhunu" şərh edib sizlərə çatdıran isə onun köməkçisidir. Peyğəmbərin köməkçisi Allah-Təala tərəfindən verilən vəhy əsasında sizə bu dünyada da, o dünyada da cənnət vəd edir. Fədailər bu səsə və bu sözlərə razılıqla gülümsədilər.

Ağ libaslı soruşdu: - Ey fədailər, siz cənnətə getməyə hazırsınızmı?

Həşişdən artıq beyinləri dumanlanan fədailər bir səslə "hazırıq" dedilər.

Ağ niqablı, ağ paltarlı adam qızlara fədailərin gözlərindəki qara örtüyü götürmələri üçün əli ilə işarə verdi və qızlardan ikisi ehmalca onların gözlərinə bağlanmış örtüyü açdı.

Fədailərin gözləri bərələ qalmışdı. Onlara elə gəlirdi ki, doğurdan da cənnətə düşüblər. Qızlardan biri udda həzin hava çalmağa başladı. Fədailərin çiçəyi çırtlamışdı. Deyəsən bura cənnət, o yarıçılpaq qızlar isə huri-mələklər idi. Sonra sanki buna inanmayaraq gözlərini ovuşdurdular. Bundan sonra həqiqətən də "cənnətə" düşmüş olduqlarına "əmin oldular". "Huri-mələk"lər yenə onları oxşayıb əzizləməyə başladılar. Qızlar bədənlərini, döşlərini onların vücudlarına sıxır, sonra nazla, işvə ilə geri çəkilib gülümsəyir, onlara diqqətlə baxır, göz vururdular.

Sanki həm də onların halını müəyyən etmək istəyirdilər.

Ağ niqablı, ağ paltarlı adam onlara bir də müraciət etdi:

-Ey fədailər,.. - Əlini zalın o biri başında əyləşən Həsən Sabbah tərəfə uzatdı, - Baxın, o müqəddəs insan, "Bəşər ruhu"nun şərhçisi, Peyğəmbərin köməkçisi sizə hər yerdə cənnət vəd edir. Ona biyət edin, ona tabe olun, verdiyi hər bir əmri sözsüz yerinə yetirin!

Baş imamın yanında əyləşənlər, qızlar dərhal ayağa durub, ağ niqablı adamla birlikdə diz çökdülər. Fədailər onların etdiyi hərəkətləri və dediyi sözləri təkrar etməyə məcbur idilər.

-Biyət edirik, tabe oluruq, verdiyi hər əmri sözsüz yerinə yetiririk!

"Dağlar müdrüyü" ayağa qalxdı, hələ də başlarını yerdən qaldırmayan fədailərin yanına gəldi. Onları şövqlə, sevinclə süzdü.

-Ey mənim fədailərim! Bilin ki, canınızı nə qədər tez fəda etsəniz, bir o qədər xoşbəxt olacaqsınız. Çünki burada gördüyünüz cənnətin yüzqat artığı o biri dünyada sizi gözləyir.

Hamı bir ağızdan dilləndi:

-Canımız fəda olsun ağamıza!

Sonra kef məclisi başladı, nə başladı...

# ALP ARSLANA SUİ-QƏSD

Hökmdar özünə güvənəndə ədalətli, səxavətli və mərhəmətli olur. Amma özünə güvənən bir çox hökmdarlar da olub ki, təkəbbürü başından aşıb. Elələri rəiyyətin, şəhər kasıblarının, torpaq adamlarının, ordunun onu sevdiyini, hətta onsuz yaşaya bilmədiyini düşünürdü. Amma heç zaman düşünmürdü ki, o qızıl onluq deyil və hamı onu sevə bilməz. Hakimiyyəti qurmaq və qorumaq üçün hökmdar qandan-qadadan keçir, kiminsə ölümünə fərman verir, kimisə sürgünə göndərir, kimlərisə vəzifədən uzaqlaşdırır... Kimlərsə yoxsulluq dərəcəsinə düşüb ailəsinin yanında nüfuzunu itirir, intihar edir... Elələrinin sağ qalan adamları belə hökmdarlardan intiqam almağa çalışır.

Hökmdarın dövləti-varı kimi düşməni, bədxahı, ağrısı, qorxusu da çox olur. Bəzən heç tanımadığı, görmədiyi, pislik etmədiyi adamlar belə ona düşmən kəsilə bilir. İnsan öz qəzəbini harasa, kiməsə yönəltmək istəyir. Hökmdar bunları hesablamağa məcburdur. Əks-təqdirdə nüfuzdan düşəcək, onu asanlıqla devirəcəklər. Hökmdarın gücü xalqının ona əsl sevgisindədir. Xalq onu sevirsə onun hakimiyyəti uğrunda vuruşa gedir,

sevmirsə onun arxasından çəkilir. Xalqın həqiqi sevgisini qazanmaq hakimiyyəti ələ almaqdan qat-qat çətindir. Çətin olan təkcə bu deyil. Hökmdarın iki yox, lap iyirmi iki gözü, yüzlərlə qulağı, minlərcə əli, ayağı, amma tək bircə ürəyi olmalıdır. Hökmdarın görkəmi, boy-buxunu, səsi, zabitəsi, hökmü, hikkəsi və qələbəsi də əsasdır. Qələbəsiz hökmdar taxt-tacında çox otura bilməz. Qələbə hökmdarın xəzinəsindən daha zəngin sərvətidir. İstənilən müharibə əhaliyə dərd-azar gətirir. Amma bu müharibə qələbə ilə nəticələnirsə xalq hökmdarı sevir, ona biyət edir, ümidlənir, gələcəyə inanır. Çünki istənilən müharibənin nəticəsi qürurdur, şərəfdir və qənimətdir. Fərdlər qəniməti gördükdə dərdi yadından çıxır, yaxınının ölüm kədəri ondan uzaqlaşır, fikri-zikri rifahının yaxşılaşması olur. Çünki boş çuval düz dayanmaz. Fərd hər gün yeməli, içməli, özünü və ailəsini dolandırmalıdır. Xalqın xüsusiyyəti budur. Bunu min illər keçsə də kimsə dəyişə bilmədi.

Sultan Alp Arslanın imkanı olsaydı, bu həqiqətləri uca bir dağın başında qızıldan tökdürər və əbədiyyətə qədər qorunmasını istərdi.

O öz dövrünün təhsil görmüş adamı olsa da, bu cür hakimiyyət həqiqətlərindən vaz keçə bilmədi. Çox təkəbbürlü idi, türk-islam bayrağının daim ucalarda dalğalanmasını istəyirdi. Hələ ki,

o bu bayrağı qaldırmışdı, əfsanələri gerçəkləşdirmişdi. Yenə xaçpərəstlərə meydan oxuyurdu. Heç bir zaman olmamış hadisəni reallaşdırmışdı: bizanslıları əzib, xilafəti özünə tabe etmişdi! İndi Qərbin və Şərqin hakimi idi.

Mirzələr, saray alimləri qırx üç yaşlı bir fateh üçün tarix salnamələrində bundan daha böyük zəfər səhifələri tapa bilmirdilər.

Çox insanda məhz elə qırx üç yaşında özünüdərketmə başlayır. Fateh Alp Arslan isə bu yaşda dünyanı fəth etmişdi! Konstantinopol dünyanın ürəyi sayılırdı. Bizansı fəth etmək elə dünyanı büsbütün fəth etmək deyildimi? Dünya səlcuqlardan, oğuzlardan danışırdı! Hökmdarlar türk sultanına biyət etməyə tələsirdi.

Alp Arslan uca boylu, göy gözlü, uzun bığ və saqqallı, qızılı saçlı, başına şişli keçədən, boynunu örtənə qədər uzun, üçkünc papaq qoyan, nazik dəridən qısa əba və qısa zireh geyinən çox çevik bir kişi idi. Çox nadir hallarda bu üçkünc papağı dəmir dəbilqəyə dəyişərdi. Döyüşə gedərkən bəzən bığlarının və saqqalının ucunu düyünləyərdi. Bu, Sultanın özünün nərilti ilə döyüşə atılacağına işarə idi. Onun bu görkəmindən xəbər tutan düşmən pərən-pərən olur, silahı atıb qaçırdı. Bu nərədən çox qorxurdular. Oğuzlar birləşmiş ulusların hökmdarına "yabqu" deyirdilər. Ondan rütbəcə aşağı gələnlər isə "bayqu" adlanırdı...

Bütün bu həqiqətləri ona bəzən əslən yəhudi olan, lakin fars dili uğrunda daha çox çarpışan, iki böyük cahangirə (Alp Arslana və Məlikşaha) Baş vəzirlik etmiş Nizam ül-Mülk danışardı. Özünü Sultana daha yaxın göstərmək üçün oğuzların və ondan törənən səlcuqların tarixini ardıcıllıqla nəql edərdi. O həm də bu tarixi yazır, bəyzadələr üçün "Siyasətnamə" adlı tədris vəsaiti yaradırdı.

Türklər tarix yaradırdı, amma təəssüf ki, onu başqaları yazırdı.

Alp Arslan paytaxtı Reydən İsfahana köçürtmüşdü. Sultan artıq padşahların padişahı - şahənşah adlanırdı. Dünyada zəfər çalmadığı savaş qalmamışdı, sultanlığı dövründə min iki yüz hakimi özündən asılı vəziyyətə salmışdı.

Sultan Alp Arslanın iç dünyası isə bambaşqa idi. Qələbələrinin sayəsində təkəbbürlü olsa da rəhmli və ürəyiyumşaq idi. Bilirdi ki, dövlət təkcə oğuzlardan təşkil olunmayıb. Hər xalq öz milli kimliyini itirməkdən qorxmadan, onun hakimiyyəti altında əminlikdə yaşaya bilərdi. Rəiyyəti onun yaratdığı qayda-qanunu qəbul edirdisə, onun hökmü çatan istənilən torpaqda yaşamağa haqqı vardı.

Əhali ilə görüşməyi, ayrı-ayrı adamları, camaatı dinləməyi sevərdi...

...Bu səhər Alp Arslan çox tezdən oyandı. Günəşin şüaları onun otağına yenicə dolur, səhər me-

hi üstü çadır şəklində qurulmuş yatağın bəyaz ipəyini xəfifcə yellədirdi. Yazın ikinci ayı olduğundan çiçəklərin iyi otların ətrinə qarışıb otağa dolmuşdu. İnsanlar və onların yaşadıqları torpaqlar Alp Arslanın hökmü altında, təbiət isə azad idi. Uşaqlıqdan at belində olsa da, əmisi sultan Toğrul bəy, atası Çağrı bəy hər zaman onun təhsili ilə maraqlanırdılar. Allahın buyurduğu qaydaları qəbul edir, indi Sultan da olsa, təbiətə hökm edə bilməyəcəyini çox gözəl bilirdi...

Alp Arslan yatağında bir qədər gərnəşib dərindən nəfəs aldı. Çevrilib yanında mışıl-mışıl yatan Qaraxanlı sultanının qızına baxdı. Onun sifətinin cizgiləri çox cazibədar idi. Gözəl idi, qənirsiz idi. Qaraxanlı qızını ocağına gəlin gətirmək bir məqsəd daşıyırdı. Əslində heç də sevib almamışdı. Əmisi məsləhət görmüşdü. Yeni yaranmış Səlcuq dövləti qos-qoca Qaraxanlı sultanı ilə qohum olmuşdu. Əsas da bu idi. Yaranmış dövləti idarə etməyi də onlardan öyrənirdi. Amma sonradan bu Qaraxanlı qızına əməlli-başlı aşiq oldu, onu sevdi. Hətta onu görmədiyi məqamlarda darıxmağa başladı. İlk övladı Məlikşah anadan olandan sonra bu qadına daha artıq bağlandı.

Vəliəhdin anası daha çox hörmətə layiq idi.

Alp Arslan qızılı sapla işləməli uzun xalatı geyinib, pəncərə qarşısına gəldi. Sübh namazına hələ vardı. Ətrafa göz gəzdirib bu dünyanın gö-

zəlliyindən həzz almaq, qollarını açıb bu gözəlliyi qucaqlamaq istədi. Dünya çox böyük, çox gözəl və qəribəliklərlə dolu idi. İnsanlar da belə gözəl, möhtəşəm olmaq istəyirdi. Amma bu hamıya nəsib olmurdu. Böyük görünmək üçün kiçiklər, adi, sıravi adamlar lazım idi. Bu adamlar onun əzəmətini daha yaxşı görə bilirdilər. İndi bircə anlığa sultan deyil, sadə, adi insan olmaq və özünü aydın görə bilmək istədi. Sultan kimi deyil, adi bir insan kimi fikirləşmək, adi bir insan kimi yaşamaq da maraqlı idi.

Bunu təsəvvür etməyə çalışdı. Amma alınmadı. Sonra da özünə "Adi bir insan kimi yaşamaq olardımı...bu mümkündümü?" - sualını verdi.

Pəncələri üstündə səssizcə arxadan ona yaxınlaşan xanımı Sultanı qucaqladı. Başını onun kürəyinə sıxıb dərindən nəfəs aldı.

-Bilirəm, Sultanım, nə fikirləşirsən - dedi, amma qucaqladığı bədəndən aralandı. - Bu dünya sənindir, sən onun hakimisən. Əlinin üstünə əl, sözünün üstünə söz qoyan yoxdur. Əmr etsən dünyanın bütün incisini, dürrünü ayaqların altına tökərlər, amma...

Alp Arslan xanımına tərəf çevrildi. Onun gül çöhrəsini bir də süzdü. Bu yaraşıqlı qadın nə demək istəyirdi? Ürəyindən ona həsr etdiyi şeir bir an düşüncəsindən axıb keçdi. Bir qadının varlığında sanki dünyanın bütün gözəllikləri cəm ol-

muşdu. Bu gözəllik vəsf olunmaq istəyirdi. Amma etiraf hər zaman qüdrət gətirmir, bəzən insanı kiçildir, adiləşdirir. Belə düşünürdü.

Gülümsəyib onun alnından öpdü. Xanımı bu sirli öpüşdən nazlandı.

-Hə, yenə nə var, Qaraxanlı qızı?

Dünyaya hökm edən Sultan indi özünü bu gözəlin qarşısında aciz hiss edirdi. Bir anlığa deməyə söz də tapmadı. Özünü hisslərinin, duyğularının ixtiyarına verə bilməzdi. Axı o fateh idi, axı o dünyaya meydan oxuyan Sultan idi. Ancaq indi, bu anda ürəyinə nəsə damdı. Sanki bu gün onun həyatında nəsə mühüm bir dəyişiklik olacaqdı.

Yeni bir yürüş, yeni bir savaş gözlənilmirdi. Fəth etmədiyi bir zirvə qalmamışdı. Xəbərdarlar hansısa ən uzaq və qüdrətli ölkənin adını çəksəydilər, gedib tutacaq, öz ətəyinin altına salacaqdı. Amma insan əli çatası elə bir yer qalmamışdı.

Ömrünün qırx üç yaşında ən uca şöhrətə yiyələnmişdi. Xristianlar ondan çəkinir, səlcuqların adı gələndə başlarını tutub, dağlara, xəlvətə çəkilmək barədə düşünürdülər. İslam xilafəti ona biyət edir, dağılmış və parçalanmış Çin və Qaraqorum isə yalnız ondan kömək gözləyirdi. Bu köməyi indi göstərib, onları dirçəltsəydi, sonra Uzaq Şərqdən özünə təhlükə yetişdirmiş ola-

caqdı. İndi zamanı deyildi. Hər şeyin ən dəqiq zamanını tapmaq lazım idi. Bütün yürüşlərinə tam uyğun zamanda başlamış, ən düzgün dəqiqədə hücuma keçmişdi. Zaman anlayışını düzgün bilməyən ən qüdrətli sərkərdələr də sonra təsadüflərdən asılı qalmış, ya da məğlub olmuşdular. Hətta sevgi izhar etməyin də öz zamanı vardı. Bir-birini ən alovlu eşqlə sevən kəslər də zamanı əldən verdiklərindən dünyadan nakam köçmüşdülər...

Qaraxanlı qızı doğru deyirdi, o, dünyaya hökm edirdi, amma sevdiyi qadınına bir xoş söz deməyə aciz idi.

Alp Arslan dərindən nəfəs alıb yenicə çıxmış günəşin işıqlarını içinə çəkdi. Deyəsən axı indi bu etirafın tam zamanı idi. Bunu məhz indi etsəydi, qüdrətinə xələl gəlməz, elə öz xanımının qarşısında da hökmdar olaraq qalardı.

Qaynar, inam və sevgi dolu nəzərlərlə xanımının gözlərinə baxdı.

*Həsrət, vüsal arada tül*
*Ya rəbb, sirmiş bunca könül.*
*Gül çöhrənlə yarışmaz gül.*
*Gül də ölər gülə-gülə.*

Sonra gözlərini yana çəkdi. Alp Arslan indiyədək öz sevimli qadını qarşısında belə cəsarətli etiraf etməmiş, "Ağır oturan, batman gələr" deyə

fikirləşmişdi. Hökmdarın hökmranlığı məhz evindən, xanımının qarşısından, onun gözlərindən başlanırdı. İndi bu badamı gözlərdə özünü əsla kiçik hiss etmədi. Öz ucalığını da bu ala gözlərin dərinliklərində gördü.

Xanımın üzü allanmış, ürəyi kövrəlmişdi. İndicə Sultan da kövrələ bilərdi. Bu gün nə olmuşdu ona?!

Qaraxanlı qızı qəlbinin, sevgi dünyasının və ölkələr fəth etmiş cahangirinin adiləşəcəyindən qorxdu və tez başını onun köksünə sıxdı. Bununla Qaraxanlı qızı bütün dünya kimi özünün də bu qüdrətə sığındığını göstərmək istəyirdi.

-Sultanım, heç şeir deməzdin. Sən heç oxumazdın. Nə oldu birdən-birə?

Alp Arslanın ürəyi sıxıldı. İndi daha artıq qara duyğular hiss etdi. İçində nəsə oynayır, sanki tədricən qabarırdı. Nə olduğunu anlaya bilmədi.

-Bilmirəm, - dedi və qadınına ürək-dirək vermək istədi. - Bu savaşlar olmasaydı, bəlkə də şair olardım. Amma nə edim ki, mən basmasam, məni basacaqlar. - Bir anlıq fikrə gedib, sonra gülümsədi. - Nə isə, ürəyim darıxdı, bu şeiri dedim. Amma mən tarixdə şair kimi yox, elə belə də qalmaq istərdim.

Xanımı onun köksünə bir az da bərk-bərk sığındı.

-Sultanım, sən tarixə möhtəşəm bir cahangir - Sultan kimi düşmüsən! Sultan da, elə şair kimi Allahın seçilmişlərindəndir. Bəlkə daha şərafətlisidir!

Alp Arslan dərindən köks ötürdü! Qaraxanlı gözəlinin, sevdiyi qadının ona verdiyi bu qiymət həyatının ən dəyərli tərifi idi. Şairlər Sultan kimi onun şəninə şeirlər yazırdılar. Amma xanımının səsindəki şeiriyyəti heç bir şair ifadə edə bilməzdi.

Dünyada onun qədər xoşbəxt kişi vardımı görəsən? Hansısa bir kişi onun qədər sevilirmi, görəsən?

Xanımından aralanıb yenə pəncərə önünə gəldi. Təsirlənmişdi. Amma bu halını Qaraxanlı qızının görməsini heç istəmirdi.

Pəncərədən aşağı baxdı. Təbiət yaz gözəlliyinə bələnmişdi. Sanki aşağıdakı bu gözəlliyi imarətinin bu yuxarı mərtəbəsindən yox, havadan, göydən, lap buludların yanından seyr edirdi. Birinci dəfə deyildi ki, bu sözləri eşidirdi və özünün seçilmişlərdən olmasına heç şübhəsi yox idi. Böyük hünər və zəfər sahibləri yəqin ki, göylərin xeyir-duası ilə seçilirdilər. Buna görə göylərə - Tanrıya şükür etmək lazım idi.

Çevrilib xanımına:

-Sən otağına çəkil, bu gün sübh namazını məsciddə qılmaq istəyirəm. - dedi və otağın ortasında asılmış davula tərəf yönəldi.

Bu sözlərdən sanki qadının ürəyi düşdü. Bədəni tir-tir titrəməyə başladı. Davula doğru gedən ərinə sarı yüyürdü və qarşısında diz çökdü.

-Qurban olum, bu gün getmə, sübh namazını burda qıl, məscidə qoy Baş vəzirin getsin.

Sultan təəccübləndi; qaşları hirslə çatıldı, ona acıqlanmaq istədi, amma xanımının gözəlliyi qarşısında o andaca yumşaldı və gülümsəyib:

-Yəni, deyirsən dünyanın cahangiri paytaxtda, öz məscidində sübh namazı qıla bilməz? - əlindən tutub Qaraxanlı gözəlini qaldırdı. - Narahat olma, sən öz guşənə çəkil!

Xanım daha bir söz demədən ərinin əllərini məhəbbətlə sıxdı, sanki ağ kəpənək uçuşu ilə səssizcə yan otağa daxil oldu və arxasınca qapını örtdü. Alp Arslan onun ağappaq üzünün qapı arxasında görünməz olmasından azacıq məyus oldu. Oğuzları Şərqin ağüzlüləri hesab etməkdə yanılmamışdılar. Nizam ül-Mülk oğuz adının israrla ağüzlü anlamını şərh edirdi. Adəm və Həvvanın övladlarını evləndirmək üçün Tanrının göylərdən göndərdiyi qadınlar, sonra onların qızlarına ər olacaq erkəklər də ağüzlü olmuşdular. Oğuzlar - ağüzlülər! Sonra yəqin ki, qara, qəhvəyi və sarı rəngli insanlar da göndərilmişdi. Amma gözəllik ağüzlü bənizə yaraşmışdı.

Alp Arslan özünü Oğuz olması ilə də bir daha xoşbəxt hesab etdi. Sonra o davul toppuzunu götürdü və dairəvi davula vurdu.

Bu davul səsində də əzəmət vardı.

Mühafizə rəisi içəri girdi. Ədəblə salam verdi, bir dizini yerə qoyub baş əydi. Alp Arslan astadan dedi:

-Bu gün sübh namazını Cümə məscidində qılacam, hazırlaşın!

Mühafizə rəisindən ayrılıb o biri pəncərənin önünə gəldi. Buradan yaxınlıqdakı məsçidin uca minarələri görünürdü...

ꕤ

...Məsçid minarəsinin altında müəzzin dəstəmaz alırdı. Sonra o minarə qapısına sarı getdi.

Mühafizəçilər yol boyu hazırlıq görməyə başladılar. Bu hazırlıqdan namaza tələsənlər bu gün sübh namazına Sultanın da qatılacağını başa düşdülər.

Lopasaqqal, kürən bir xadim mühafizəçilərin canfəşanlığından duyuq düşmüşdü və onları zəndlə süzürdü. Yanından ötüb keçmək istəyən birisindən "Bu gün Sultanımız bizi xoşbəxtmi edəcək?" deyə soruşdu. Adam ona "Sultanımız məscid əhlini şərafətləndirəcək" deyərək tələsdi. Kürən xadimin dodaqları əvvəlcə həyəcanla titrədi, kiprikləri qorxu ilə qırpıldı, sonra əlini əbasının altına soxdu və xəncərin dəstəyini tutdu. Hiss olunurdu ki, kürən adamın içində təla-

tümlü bir sevinc var. Bu adam "cənnət"dən keçən fədailərdən idi və bu gün ona tapşırılan işi icra etməliydi. Bəli, onun gözləri önündə iri su nohuru canlandı. Ətrafında palma ağaclarının yarpaqları tərpəşir, musiqi səsi ilə həmahəng titrəyirdi. Hovuzun yanında oynaşan yarıçılpaq gözəllər əl edib onu çağırırdılar.

Bir azdan o qatil olacaq və sonra həmən o vəd edilən "cənnət"ə qovuşacaqdı.

O gecə xaşxaşilərin sarayında keçirdiyi anların ləzzətini, o şəhvətin yanğısını unutmaq mümkün deyildi. Əsil cənnət oradan daha gözəl idi.

Bu səhər də ona çeynəmək üşün bir nəsnə verilmişdi. Onu çeynədikcə xəyalı göylərdə dolaşır, gözləri səmada açılacaq "cənnət qapısı"nı axtarırdı. Nəhayət bu gün Sultan sübh namazını Cümə məscidində, rəiyyətlə birlikdə qılacaqdı. Sübh namazı çox qüdrətli kişilərin ən zəif məqamı olmuşdu. O vaxt sübh namazına İmam Əli ibn Əbutalib də tələsirdi, qatil Əbdürrəhman Mülcəm də! İkisi də cənnətə qovuşmağa can atırdı, biri Allaha ibadəti, o birisi törədəcəyi qətllə!

İndi də eyni vəziyyət idi; tarix təkrar olurdu.

O vaxt öz arzusuna hansı biri daha tez qovuşmuşdu?..

Kürən xadim Əbdürrəhman Mülcəmə haqq qazandırır, onu qalib hesab edirdi.

Qüdrətli şəxsiyyətləri qətlə yetirənlər də qüdrət sahibi sayılmalı idi! Hər halda tarixə son olaraq onların adı düşürdü. Əvvəldə yer olmadıqda sona da şükr etmək olardı.

Kürən xadim əbasının altındakı xəncərin dəstəyini sığalladıqca cəsarətlənirdi. Xəncərinə: "Mənim xilaskarım, pənahım, ümidim sənsən, məni cənnətimə tez çatdır, xəncərim!" deyə piçıldamaqdan da qalmırdı.

Bir azdan onun başı tam dumanlandı. Fikrində Sultan və xəncərdən başqa bir şey yox idi. Sultanın ölümü onu bu dünyadan xilas edəcək, elə bu məkandan zənn etdiyi "cənnətə" aparacaqdı. Onun fikrincə, imamının göstərdiyi "cənnət"dən ötrü bütün məsçid əhlini doğrayıb tökməyə dəyərdi!

...Atlılar məscidə yaxınlaşıb dayandı. Mühafizlərdən biri qaçaraq Sultanın atının yüyənindən tutdu. Məscid meydanı namaza gələnlərlə dolu idi.

Sultan meydana daxil olduqda qatil onun dəstəsinə qoşuldu. Meydan camaatı Sultanı görcək sağ əlini sinəsinə qoyub baş əyir, ehtiramla yol verirdi. Sultan məscidə daxil olduqdan sonra namaza gələnlərin böyük hissəsi onun arxasınca içəri girdi. Sultan ön sırada, qatil isə ikinci sırada səf tutub yerləşdi və namaz qılmağa başladılar. Sübh namazının ikinci rükətində, səcdə

zamanı hər kəs özünü Allaha təslim edib, dua edəndə, birdən Alp Arslanın üstünə sanki qırğı şığıdı. Kürən xadimin əbası yellənib geniş açıldı. Kimsə nə baş verdiyini anlamağa macal tapmamış, kimsə canamazdan başını qaldırmamış qatilin xəncəri Sultanın kürəyinə saplandı. Bu zaman ətrafdakılar bir vıjıltı səsi də eşitdilər. Yuxarıdan atılan xəncər sürətlə uçaraq, qatilin kürəyini deşdi. Onun geniş əbası Sultanı görünməz etdi. Qatil Sultanın üstünə sərilmişdi.

...Baş vəzir Nizam ül-Mülk Sultanın xalq arasında gəzişməsini sevməzdi. Uşaqlıq dostu və bu yaxınlara qədər məmuru olan Həsən Sabbahın əməllərindən xəbərdar idi. Dünyanın hər yerindən ona xəbərlər gəlirdi. Səhər tezdən ona Sultanın Cümə məscidində namaz qılacağı barədə xəbər çatdırılanda dalağı sancdı. Dünən gecə səhər sarayda mühüm məsələlər müzakirə edəcəklərini razılaşdırmışdılar. Türküstana səfər günü üçün ən vacib məsələlərindən biri olaraq səfərbərlik olunmalı idi. Amma, Sultanın belə qəfil qərar verməsini anlaya bilmədi. Onun düşmənləri çox idi. Təhlükəsizlik tədbirləri görmədən şəhərə çıxmağını isə heç başa düşmədi. Xəbər qəfil olduğu üçün özünü yalnız Cümə məscidinə çatdıra bildi, amma artıq gec idi...

## DANDANAKAN DÖYÜŞÜ

Yaralı Sultan Alp Arslan pərqu yorğan-döşək içində inildəyirdi. Aldığı xəncər yarası sağalmaq bilmirdi. Hər tərpənişində bu dəhşətli ağrı bir az da artır, bütün vücudunu dəlib keçirdi. İndiyədək düşmənlə üzbəüz döyüşlərdə çox yaralar almışdı. Amma heç biri onu bu qədər incitməmiş, taqətini bu qədər kəsməmiş, əldən salıb yatağa bağlamamışdı. Sarayda alim təbiblər, yürüş zamanı isə düşərgəsində mahir həkim tağımı saxlayırdı. Alp Arslandan belə asanlıqla kimsə əlini üzə bilməzdi. Saray əyyanları hətta yaxın-uzaq ölkələrə də xilaskar təbib tapmaq üçün çaparlar göndərirdilər. Sultanın həyatı onlar üçün çox şey demək idi. Sultanın həyatı onların həyatı idi. Sarayda yaranın ölümcüllüyü də etiraf olunmurdu. Amma Sultan Alp Arslan məsələnin mahiyyətini dəqiq anlayacaq qədər arif adam idi, bu yaranın onun canını alacağını, bu yatağın ölüm yatağı olduğunu bilirdi. Öz təbiblərinin sayəsində yalnız üç-dörd ay yaşaya bilərdi. Məlhəmlər də getdikcə öz təsirini itirirdi... Saray həkimi bu gün daha güclü bir məlhəm çəksə də yarasını canı-

nın bir parçası kimi hiss etmirdi. Həkimbaşı onu uyuşdurucu ilə yatırtmaq, məlhəmi sonra sürtmək istədi. Sultan isə yaraya təslim olmaq istəmədi və ağrıları açıq gözlə çəkməyi qərara aldı. Yarasına sürtülən və ağrını azaldan xaş-xaş yağının gücünü bu gün bir qədər gec hiss etdi. Azacıq rahatlayan kimi sanki uzaq bir yuxunun içərisinə doğru endi.

Burada onun keçmişi dayanıb donmuşdu. O bu dərinliyə endikcə bu keçmiş canlanır, gerçəkliyə çevrilirdi. Yaşadığı həyat öz ağrı-acısı ilə də ona əziz və doğma idi.

Uşaqlığının bəzi anları da göz önündən axıb keçirdi...

...Tədricən hər şey dumana bürünür, zaman və məkan dəyişir, dünya başqalaşırdı...

Əmisi Toğrul bəy Qəznəli Sultan Məsuda belə bir məktub yazmışdı. Türkmənlər sayca çoxaldığı üçün onlara yeni otlaq yeri lazım idi. Qəznəli sərkərdəsinin yanına da 1034-cü ildə bundan ötrü elçi göndərilmişdi.

Atası Çağrı bəy və əmisi Toğrul bəyin on üç-on beş yaşları olanda babalarının atası Səlcuq bəy yüz yeddi yaşında dünyasını dəyişdi. Həmin il türkmənlər çox ağır vəziyyətə düşmüşdülər. Səhra yaxınlığında Qəznəli ordusu Nuş Təginin başçılığı ilə düşərgə salmışdı. Soyuq qış günü idi. Çadırdan kənarda küləyin fit çalması qəbul gözlə-

yən səlcuq elçisinin onsuz da daralmış əsəblərini bir az da tarıma çəkir, soyuq külək iliklərinə işlədikcə daha da büzüşürdü. Ordu başçısının çadırının yanında qonaqlayan elçinin çadırı buz kimi soyuq idi. Bilərəkdən qızdırılmırdı. Elçi iki gün idi gözləyirdi. Özü ilə geyim olaraq nə gətirmişdisə, ona da bürünmüşdü. Keçən ay Oğuz yabqudan aldıqları zərbədən səlcuqlar hələ özlərinə gəlməmiş Qəznəli ordusu Xorasana girmiş və xərac istəmişdi. Oğuz səlcuqlarının yalnız yırtıq paltarları, minməyə arıq-uruq atları, yeməyə isə sümüyü belindən çıxmış qoyunları qalmış, yesirləri çıxmışdı. Belə şəraitdə nə vergi verəcəkdilər?

...Çadırın köhnəlmiş qapısının çirkli və dəlmə-deşik palazı tərpəndi. Sərkərdənin keşikçisi içəriyə daxil oldu, əlini saqqalına çəkib alaqaranlıq çadıra göz gəzdirdi. Küncdə büzüşüb yatan elçini gördükdə hırıldadı:

-Hə burdasan, türk, hələ ölməmisən? Siz türkmənlərin kökünü kəsmək lazımdır! Heç nə vermək istəmirsiz, amma yaşamaq haqqınızı tələb edirsiniz. - Əli ilə başındakı yana əyilmiş tüklü papağını düzəltdi. - Dur, soyuqdan canın qurtardı. Siz türkləri atın üstündən götürəndə belə büzüşüb qalırsınız. - Söhbətcil və ya boşboğaz birinə oxşayırdı. - At sizin həyatınızdır, o olmasa məhv olarsınız. Ancaq neyləyək, Sultanımız mərhəmətlidir, sizə rəhm edir, səxavət göstərir,

sizin əlinizdən atlarınızı almır. Siz isə... - fikrini davam etdirmək istəmədi. Bilirdi ki, səlcuqlar indi elə vəziyyətdədirlər ki, nəinki sərkərdəyə, heç Sultana da hədiyyə etməyə bir şeyləri yoxdur. - Dur, bəsdir, büzüşüb yatdın! Sərkərdə səni gözləyir!

Elçinin üstünə örtdüyü kürk tərpəndi. Kürkün altından əvvəlcə onun başı çıxdı. Qıyıq gözləri ilə keşikçiyə diqqətlə baxdı. Bu təhqiramiz sözlərə cavab vermək istəmədi. İslanmışın yağışdan nə qorxusu? Onsuz da onlara olan olmuşdu. Keçən ay yeddi-səkkiz min soydaşını döyüş meydanında itirmişdilər. Amma, qürurlarını itirməmişdilər. Yerindən atılıb üstünü-başını qaydaya saldı və "Gedək" dedi.

Bayır çadırın içindən daha xoş havalı idi.

Sərkərdənin çadırı həm bər-bəzəkli, yaraşıqlı, həm də isti idi. Böyük çadırın ortasında iri bir manqal qoyulmuşdu. Nar dənələri kimi qızaran manqalın içindəki közün istisi yaxına getdikcə artırdı. Nuş Təgin ortaya qoyulmuş bu manqalın yanında, barxanın önündə bardaş qurub əyləşmişdi. Heç nə olmamış kimi şişə çəkilmiş kababı isti-isti ağzına ötürür, arada bəh-bəhlə barmaqlarını yalayırdı. Elçiyə də saymazyana əl işarəsilə öz yanında yer göstərdi. Ağzındakı tikəni udar-udmaz maskuradakı qımızdan içib dilləndi:

-Bir şey yeməyə meylin çəkirmi? Bəlkə bir az qımız içəsən? Eşitmişəm iki gündür soyuq çadırda gecələyirsən. Xəbər etsəydin belə biabırçılığa yol verməzdim...

Elçi ehmalca süfrə arxasında bardaş qurub oturdu, amma əlini heç nəyə uzatmadı və birbaşa mətləbə keçdi:

-Möhtərəm, məlumatınız var ki, keçən ay çox hörmətli, çox adil Sultanımız tərəfindən Oğuz yaqbuya qarşı vuruşduq. Çox itkilərimiz oldu. Kömək gəlməməsi səbəbindən döyüşü uduzduq, varımızı-yoxumuzu yağmaladılar, uşaqlarımız, qadınlarımız əsir düşdü. Otlaqlarımızdan heyvanlarımızı qovub apardılar. İndi Sultan həzrətlərindən xahiş edirik ki, bizə bir qədər möhlət versin. Biz türkmənlər sözümüzdə bütöv insanlarıq, verdiyimiz vədədə vergini ödəyəcəyik.

Sərkərdə barmaqlarını barxanın üstündəki kasadakı suya basdı, sonra dizinə atdığı kiçik dəsmalla silib, yenə qımızdan maskuraya tökdü, dərindən nəfəs alıb qımızı birnəfəsə və qurtultu ilə içdi. Maskuranı yerə qoyduqdan sonra diqqətlə elçiyə baxdı.

-Bilirsən ki, Sultanımızın qaraxanlılara münasibəti heç də yaxşı deyil. - Qımız artıq təsirini göstərirdi, yumruğunu barxanın üstünə vurdu. Barxanın üstündəki əşyalar silkələndi. Bu silkələnmədən vəcdə gələn sərkərdə bir az da qızışdı. -

Amma siz onlara qarşı vuruşmaq istəmirsiniz! Hər şeydə özünüzü onlara bənzətmək istəyirsiniz. Nədir, Xorasanda özümüzə düşmənmi bəsləyirik? Sultanımıza belə münasibət göstərmək olmaz!

Elçi aradakı gərginliyi yumşaltmaq, sonra isə sərkərdədən möhlət almaq istəyirdi. Nuş Təgin isə daha da qızışırdı.

-Ey türk, mən buraya elçi sifətində gəlməmişəm. Sultanımız on yeddi minlik ordunu mənə ona görə tapşırıb ki, vergini yığım, sizi ram edim, onun düşmənlərinə qarşı yönəldim. - Ayağa durub əllərini arxasına qoydu, şəstlə manqalın başında dövrə vurdu. Gəlib ədəblə ayağa duran, əlini əlinin üstünə qoyub başını da aşağı salmış elçinin qarşısında dayandı və diqqətlə ona baxdı.

-Bilirsənmi, Sultanımız sizin haqqınızda nə fikirləşir?

-Həzrətimizin bizim haqqımızda nə fikirləşdiyini demək bizə düşməz!

Nuş Təgin güldü.

-Özünü bicliyə qoyma. Sultanımızın sizə münasibətini hamınız yaxşı bilirsiniz. Hətta şair Nasiri Xosrov bunu belə qələmə alıb: "Quzlar və qıpçaqlar Ceyhun çayı ətrafında yaşayan zərərli otlardır". - Sərkərdə sanki birdən bu söhbətin lüzumsuz olduğunu özü də başa düşdü və son qərarını verdi.- Xülasə, Sultanın

əmri var, sizə bir həftə vaxt verilir, ya həzrət tərəfindən qoyulan vergini ödəyin, ya da ordu hərəkətə keçir.

Elçi daha bir söz deyə bilmədi. Danışmağın mənası da yox idi. Baş əyib çadırı tərk etdi. Ulusunun qəznəlilərə verəsi heç nəyi qalmamışdı. Bir həftəyə nə düzələcək, nə artacaqdı ki? Elçi qarşıdan gələn fəlakəti, onları gözləyən qırğını düşünüb dərindən ah çəkdi. İndi tələsməli, müharibə xəbərini soydaşlarına tez çatdırmalıydı. Bəlkə də bu vaxt ərzində onlar nəyəsə hazırlaşa biləcəkdilər.

Bu çox çətin olacaqdı. On yeddi min nəfərlik ordunun qabağına çıxmağa heç beş minlik ordu yığa bilməzdilər. Həm də çox yaxşı silahlanmış, təlim görmüş ordunun.

Onları böyük təhlükə gözləyirdi və bu təhlükə lap yaxında idi.

...Bir həftədən sonra Nuş Təginin ordusu türkmənlərin üzərinə yeridi.

Səlcuqlar çox kiçik ordu toplamışdılar. Silahları da sadə və köhnə idi. Amma onlar qaçıb gizlənmək istəmədilər. Düşmənə elə şücaətlə müqavimət göstərilirdi ki, Sultan Məsud buna heyran qalmışdı. Bir azdan isə bu onu qəzəbləndirdi.

Sultan Məsudun əmri ilə səhərdən axşamadək fasiləsiz aparılan döyüşdə səlcuqlar məğlub oldular.

Artıq onların heç nəyi qalmamışdı. Zorla əsir düşənləri Sultan Məsud fillərin tapdağı altına verdi. Kimsəyə aman verilmədi. Bu çox dəhşətli və ağrılı mənzərə idi. Vəhşi fillər sanki buna alışmışdılar. Onlar insanları tapdalayıb əzdikcə əcaib səslər çıxarır, sanki gülür, sevinirdilər. Bəzilərinin boğazına bıçaq saplayanlar oldu. Amma bu, filləri daha da azğınlaşdırdı. Fillər məsafəni keçib, qarşıdan dönüb qayıdana kimi Sultan Məsudun əsgərləri yaralıları nizələyirdilər.

Səlcuq türkmənlərin çox az bir hissəsi - qocalar, uşaqlar, qadınlar yurddan dağlara qaçıb qurtula bildilər.

Və ən dəhşətlisi, səlcuqlar bundan sonra torpaq uğrunda deyil, yaşamaq uğrunda mübarizə aparmalıydılar.

Yalnız çox-çox sonrakı dövrlərdə sarsıdılmış səlcuqların dirçəlişi və yüksəlişi başlayacaqdı...

Səlcuqların məhrumiyyətə düçar olduğu xəbərini eşidən digər oğuz türkləri onların köməyinə gəldi. Hər yerdən, xüsusən də İraqi Əcəmdən, Xorasandan, Gürcüstandan, Göyçədən, Azərbaycandan, Arandan türk tayfaları özlərindən köç düzəldib, yola saldılar. Bu köçlər Nisa və Fəvarə (Qızıl Arvat) şəhərlərinin çöllərinə yığışdılar.

Oğuzlar beləcə birləşib, qüdrətli ordu yaratdılar.

Bu dəfə səlcuqlar ölüm-dirim savaşına hazırlaşırdılar. Musa yabqu, sağ qolun başçısı Toğrul bəy və sol qola sərkərdəlik edən Çağrı bəy yarğanın yanında bir yerə toplaşmışdı. Çağrı bəy əmisi Musa bəyi təbrik etdi:

-Əmi, gözün aydın, qazax elindən qıpçaqlar da bizə qoşuldular. İndi bizim döyüş gücümüz on min atlıya çatdı. Çoxdan arzuladığımız bir istəyin ərəfəsindəyik. Ordumuz var, axınçılarımız var. İndi bizim qarşımızda duruş gətirmək çətin olacaq!

Çağrı bəy susub əmisinə baxdı. Onun üz cizgilərindən əmisinin fikirlərini öyrənmək istədi. Qardaşı Toğrul bəyi də nəzərdən keçirdi. Üzündə heç bir dəyişiklik görmədi. Hər ikisi yarğanın yanında əzəmətli qaya kimi görünürdülər, ancaq qaya kimi də susurdular. Çağrı bəy ayağını bir addım irəli atdı. Yarğanla onun arasında dərin boşluq yarandı. İkinci addımı atardısa dibi görünməyən boşluğa gedəcəkdi. Aşağı baxmaq istəsə də bacarmadı, gözləri qaraldı, ayaqları süst oldu. Boşluq onu öz ağuşuna çəkirdi. Bir addım geriyə çəkilməyə məcbur oldu. Yerdən bir daş parçası götürüb dərəyə tulladı. Boşluq o qədər dərin idi ki, daşın heç səsi də çıxmadı. Sonra o, belindən xəncəri çıxarıb zərblə ayağının altına - torpağa sancdı.

-Bax, əmi, bu boşluğa bir daş atdım, heç səsi də çıxmadı. Harda itdi-batdı bu daş, bilinmədi. Ayağımın altındakı torpağa xəncər sapladım. Bu torpaq daşlı yer olduğundan xəncərin tiyəsi titrədi, daş xırçıldadı. Əmi, qurban olum, qərarını ver; oğuzlar ya bu daş kimi boşluğa yuvarlanmalı, ya da titrəyən bu xəncər tiyəsi kimi dünyanı titrətməlidirlər. Başqa çıxış yolumuz yoxdur, əmi. Dünyaya yenidən hakim olmalıyıq. Biz olmasaq, onlar bizə hakim olacaqlar! Onlar bizim insanlar kimi mərd də deyillər. Onlar bizi tamam məhv edəcəklər. Biz onlara hakim olmaq üçün isə öz dövlətimizi elan etməliyik. Oğuz türkləri dünyaya dövlət qurmağı öyrətdilər. Heç olarmı ki, indi özümüz dövlətsiz qalaq?! Köhnə şöhrətimizi geri qaytarmalıyıq, əmi! Yoxsa biz oğuzlar tamam məhv olacağıq. Ya qazi, ya şəhid olmalıyıq!

Qardaşı oğlunun bu cəsur və müdrik sözlərindən Musa yabqunun sinəsi atlandı. Hər ikisi - Toğrul bəy də, Çağrı bəy də çox döyüşkən və ağıllı sərkərdələr idi. Ancaq oğuzun bir qolu olan Səlcuq dövlətini elan etmək hələ tez olardı. Bəlkə də özünün buna ömrü çatmayacaqdı. Ancaq çox da gənc olmayan bu övladlarının dövlət qurmaq istəklərini ürəyində alqışladı. Anlayırdı ki, onlar gələcəkdə hansı çətinliklərlə üzləşəcəklər. Hələ soyu soyundan, qanı qanından, dini di-

nindən olan qəznəlilərlə bacara bilmirdilər, qərb dünyası ilə savaş aparmaq üçünsə çox güclənmək lazım idi.

Musa yabqu da əyilib bir daş götürdü və dərənin dərin üçurumuna - qaranlıq boşluğa tulladı.

Boşluqdan yenə səs gəlmədi.

-Övladlarım, boşluğun səssizliyi yenə pozulmadı, - geri dönüb onlara baxdı, sonra üzünü göylərə tutdu. - Dünən Baş Şaman bizim ulusumuzun taleyinə baxdı. İnəyin sümüklərini ocağa atdı, dərisinin içindən onun içalatını çıxardı, sonra gəlib qarşımda durdu. Bilirsinizmi nə söylədi?

Hər iki qardaş şaman barədə söhbəti gözləmirdi.

-Nə söylədi? - eyni zamanda dilləndilər.

Musa yabqunun dodaqları qaçdı, dərindən nəfəs alıb sağ əlini göyə qaldırdı.

-Göylər deyir ki, biz boşluğa gedib məhv olmayacağıq. Biz dünyanın hakimi olacağıq! Axınçılar qayıdır! Belə dedi şaman.

Hər iki qardaşın ürəyi atlandı. "Axınçı" sözü qandan qana, söhbətdən söhbətə, nağıldan cana keçən bir ifadə idi. Yetkinlik yaşına çatan hər bir səlcuqun düşüncəsinə axınçıları görmək, onlara qoşulmaq, onlardan biri olmaq sevdası hakim kəsilirdi. Axınçı sözü qəhrəmanlıq, məğlubedil-

məzlik, dünyanı idarə etmək demək idi. Qardaşlar indi bu sözə daha artıq maraq göstərdilər. Amma sevinclərini gizlədib Musa yabqunun daha nə deyəcəyini gözlədilər.

Musa yabqu da bunu gözləyirmiş kimi atası Səlcuqdan aldığı nəsihətləri onlara ötürməyə çalışdı.

-Bilirəm, ürəyiniz döyüşdən, ulusun təsdiqindən ötrü çırpınır. Amma hələ tezdir. Biz qəznəlilər üzərində qələbə çala bilməsək, dünya bizi qəbul etməyəcək. Hələ ki, qəznəlilər bizə əmir tayfa kimi, göytürklərin varisi kimi deyil, çoban kimi, maldarlıqla məşğul olan oğuzlar kimi baxırlar. Onlar ancaq özlərini əsl oğuz hesab edirlər, amma biz öz gücümüzü hər kəsə göstərməliyik. Bayandurun əsl törəmələrinin kim olduğunu sübut etməliyik. - Sonra yerdən bir daş götürüb yenə boşluğa tulladı. Bu dəfə də səssizlik pozulmadı. Musa yabqu qışqırdı. - Amma biz bu cür boşluğu, bu səssizliyi pozmalı, onu düşmənlərimizin cəsədləri ilə doldurmalıyıq!

Kənarda dayanan mühafizə xidməti diksindi. İndiyə qədər Musa yabqunun belə qışqırmağını eşitməmişdilər. Qaçaraq gəlmək istədilər, amma cəsarət etmədilər. Dünyanı gələcəkdə qorxuya və əsarətə alacaq iki qardaş da bunu hiss etdi.

Əminin qaşları çatılmış, sifət əzələləri gərilmişdi.

-Nə təklif edirsən, əmi? - nəhayət Toğrul bəy dilləndi. -  Babamız Səlcuq bəyin yanında çox şeylər görmüsən. Nə əmr versən başımız üstündə... Bilirik ki, fikirlərin və düşüncələrin yalnız ulus üçündür.

Musa yabqu Toğrul bəyə yaxınlaşıb əlini onun kürəyinə vurdu:

-Heç vaxt nə sənə, nə də Çağrıya görə yanılmamışam. Ümidim sizlərsiz. Düz elədin bütün çadırları bu yerlərə yığdın, çünki məğlub olsaq, bu çöllərə çəkiləcəyik. Çöldə isə bizi tapan olmayacaq. Qəznəlilərlə döyüşdən öncə ailəni, mal-qaranı çölə göndərməkdə də ağıllı iş görmüsən. Məğlubiyyətini fikirləşib ulusunu qorumayan şəxs qalib gələ bilməz. İndi isə belə bir məsələni müzakirə etmək istəyirəm. Sultan Məsuda məktub göndərəcəm, amma...- bir qədər susub, diqqətlə gələcəyin cahangirlərinə baxdı, - amma tayfa başçısı kimi yox, Xorasanın əmiri kimi.

Qardaşların nəzərləri toqquşdu. Çağrı bəy:

-Əmim nə məsləhət bilərsə, o cür də olsun! - dedi. - O bizə pislik söyləməz.

...Tədricən göz önündəki hər şey dumana büründü, zaman və məkan dəyişdi, dünya başqalaşdı...

...Sultan Alp Arslan  ağrıdan gözlərini  açdı. Zəhərli  xəncər kürəyinə saplandığına görə üzüstə yatmağa məcbur idi. Bu isə ona həm mə-

nəvi, həm də cismani əziyyət verirdi. Hələ ki, ağlı yerində idi. Hələ ki, yaddaşı onu aldatmırdı. Bir qədər əvvəl xatırladığı əhvalatlar sanki dünən eşidibmiş kimi apaydın idi.

Saray həkimi onu hələ ki, yaşadırdı. Ömrünün sonuna çox qalmadığını hər gün, hər məqam düşünürdü. Bir vaxtların zəngin döyüş üsullarını indi düşüncə üsullarına dəyişmişdi.

Bu böyüklükdə dövləti necə qurmuşdular. Hər şey yadındaydı.

...Heç nədən zəifləmiş, məhv olmaq həddinə çatmış bir ulus iyirmi beş ilə bütün dünyaya meydan oxumağa başladı. Dünya kralları, imperatorları, knyazlar onun razılığı olmadan öz dövlətlərinə hakim seçilə bilməzdilər. Bu nə idi, Allahın lütfü idimi?

Onu xəyal aləmindən xidmətçi ayırdı.

-Sultanım, əmrinizlə Baş vəzir təşrif buyurub.

Alp Arslan əli ilə xidmətçini yanına çağırdı.

-Kömək elə, böyrü üstə dirsəklənim.

Xidmətçi bir anlıq duruxdu, sonra ona yaxınlaşıb başının altına daha iri balış qoydu. Sonra ağır-ağır onu böyrü üstə dikəltdi. Alp Arslan zarıya-zarıya:

-İndi çağır, - dedi.

Baş vəzir Nizam ül-Mülk içəri girəndə yarasına yenicə sürtülmüş xaşxaş yağı öz işini gör-

müş və ağrısı bir qədər səngimişdi. Odur ki, qapının taqqıltısına gümrah səslə "Gəl" dedi.

Baş vəzir Nizam ül-Mülk məhz onun üçün nəzərdə tutulmuş, Sultanın çarpayısına yaxın bir yerdə qoyulmuş kətildə əyləşdi və "Allah Sultanımıza ömür versin" dedi.

Qarşısındakı şəxsin kim olmasından asılı olmayaraq Alp Arslan dilini dişinə sıxıb dözür, çəkdiyi ağrıları hətta ailə üzvlərinə belə bildirmək istəmirdi. Oğuz qaydaları da məhz belə tələb edirdi. Kişi olan kəs öz canının ağrısını özü çəkməlidi.

Heç bir şey olmamış kimi dilləndi:

-Məmləkətdə vəziyyət necədir? Qoyunların mələrtisi dərədən, yoxsa təpədən gəlir?

Nizam ül-Mülk Sultanın sözü hansı dərəyə atdığını yaxşı başa düşdü, amma özünü o yerə qoymadı.

-Sultan sağ olsun, hər kəs və hər şey yerindədir. Sizin sağlıq vəziyyətinizi nəzərə almasaq, hər şey çox yaxşıdır. Oğlunuz Məlikşah sizin qoyduğunuz qaydalarla dövləti yaxşı idarə edir.

Baş vəzir deməsə də əslində Sultan ölkənin necə idarə olunduğunu yaxşı bilirdi. Məhz o özü təşəbbüs göstərmiş və Oğuz türkləri oturaq həyat tərzinə keçmişdilər. Çox vaxt oğuzlar döyüşür, fəth edir, dövlət qurur, amma sarayın idarə edilməsilə başqaları məşğul olurdu. Türklər sa-

raya çəkilməyi özlərinə yaraşdırmırdılar. Onlar fəthlər üçün yaranmışdılar. Bu zaman saray işləri digər millətlərdən olanlara həvalə olunurdu. Onlar da bu sahədə formalaşır, püxtələşirdilər. Hətta yazışmalar da samani-tacik dilində idi. Sultan bunu gözəl başa düşürdü. Tarix yaradan bir xalq tarix yaza bilmirdi. Bu qaydanı, bu cür tərzi-hərəkəti nə zamansa dəyişmək lazım idi. Tarix yazmağı başqalarının ixtiyarına vermək olmazdı. O halda tarix təhrif oluna bilərdi.

Əli ilə vəziri bir az da yaxına çağırdı və astadan dedi:

-Düzdürmü ki, sən əslən müsəlmanlığı qəbul etmiş yəhudisən? Bunu mənə əmim Sultan Toğrul deyib. Düzünü söylə.

Nizam ül-Mülk ayağa durub, Sultana yaxınlaşdı və onun qulağına pıçıldadı.

-Düzdür, Sultanım, mən əslən yəhudiyəm, amma indi mömin müsəlmanam...

Alp Arslan onun sözünü axıracan deməyə qoymadı, buna heç səbri də yox idi.

-Bilirəm, - dedi, - bilirəm. Əmim Toğrul sultan mənə hər şeyi danışıb. Ona xidmət etmisən, mənə xidmət etmisən, Tanrının köməyi ilə bundan sonra oğlum Məlikşahın xidmətində olacaqsan. Bu əmimin vəsiyyəti olub. Mənim də borcum bu vəsiyyəti yerinə yetirməkdir. Amma bir sualım var.

-Buyurun, Sultanım! - baş vəzir itaətkarcasına asta və həlim səslə dilləndi .

-Sən dövlətin yazışma dilini niyə samani-tacik yazışmasına çevirdin? Axı bizim özümüzün qədim yazışma dilimiz vardı...əlifbamız vardı. Onu inkişaf etdirmək lazım idi. Sən heç buna cəhd də etmədin...

- Sultanım, canım yolunuzda fəda olsun!- Nizam ül-Mülk asta və mülayim səslə dedi. - Sultanım, farslar, əfqanlar, ərəblər türk dilinin qətiyyətindən, zəhmindən, zabitəsindən qorxurlar. Onlara göndərdiyimiz türkcə məktubları düzgün anlamırlar, səhv şərh edirlər. Fars dili isə qadın səsi kimi yumşaqdır. Mən hər nə edirəmsə, uca türk millətinin mənfəətləri üçün edirəm. Bu bir siyasətdir.

...Tədricən göz önündəki hər şey yenə dumana büründü, zaman və məkan dəyişdi, dünya başqalaşdı...

...Musa yabqu xidmətçilər arasında dayanan katibi barmağının işarəsi ilə yanına çağırdı. Əlində kiçik sandıqça olan katib qaçaraq onlara yaxınlaşdı, heç bir şey demədən, heç bir söz soruşmadan bardaş qurub əyləşdi və dərhal sandıqçanı açdı. Sandıqçanın içindən kağız, qələm-lələk və mürəkkəb qabını çıxarıb əmrə müntəzir durdu.

-Yaz! - Musa yabqu dedi:

*- "Hökmdarımız Qəznəli Məsud sultana! Məlumunuz olsun ki, bizim Məvarunnəhr və Buxarada qalmağımız mümkün deyildi, çünki Əli Təgin həyatda ikən biz yaxşı dolanırdıq və bizim aramızda dostluq və fikir birliyi hakim idi. O ölən kimi işlər təcrübəsiz, gənc oğlanlarının əlinə keçdi. Tunuş isə Əli Təğinin əski sipəhsaları, onların üstündə söz sahibi oldular. Onlar hakimiyyəti, ordunu ələ keçirtdilər. Qəddarlıq, ədalətsizlik, əclaflıq, yaltaqlıq, imansızlıq baş alıb getdi, ona görə də onların iqtidarı ilə bizim aramızda düşmənçilik əmələ gəldi. Biz daha orada qala bilmədik. Xarəzmdə isə Harunun öldürülməsindən sonra böyük çaxnaşma çıxdı. Bu səbəbdən bizim oraya köçməyimiz də mümkün olmadı. Biz, dünyanın hakimi, yaxşılıqları lütf edən böyük Sultanımızın himayəsi altına girməyə gəldik. Əgər alicənab Sultan bizi öz xidmətinə layiq görürsə, aramızdan biri böyük Sultana xidmət etsin, digərləri hökmdar hansı xidməti əmr edərsə onu yerinə yetirsinlər, biz isə onun böyük kölgəsi altına sığınaq. Gölün kənarında, Nisa və Fərava ərazilərini, mallarımızı və heyvanlarımızı yerləşdirmək üçün bizə Sultanın bu yerləri hədiyyə etməsi lazımdır. Belə olan şəra-*

*itdə biz qayğılarımızdan uzaqlaşar, Balxan dağlarından, Dehistan və Xarəzm əyalətindən, Ceyhun ölkələrindən tək bir pis niyyətlinin buralarda ortaya çıxmasına icazə vermərik, ayrıca İraq və Xarəzm türkmənlərini də burdan qovarıq.*

***Xorasan əmiri***
***Musa yabqu ibn Səlcuq".***

Musa yabqu katibin yaza bilməsi üçün aramla dediyi bu sözləri bitirdikdən sonra bir qədər susub fikrə getdi. Heç nəyi unutmamış, hər şeyi yazdırmışdı. Katib də məktubun bitdiyi qənaətilə lələk-qələmin ucunu təmizləyib, sandıqçanın üstünə qoydu. Musa yabqu əvvəlcə bəylərə, sonra isə katibə baxdı.

Bəylərin qaşları çatılmış, gözləri alacalanmış, ağızları açıq qalmışdı.

-Dediklərimi bitdə-bitdə yazdınmı?

Katib başı ilə təsdiqləyici cavab verdi. Musa yabqu yarğanın önündə gəzişdi. Dönüb gələcəyin cahangirlərinə bir də nəzər saldı. -Görürəm təəccübləndiniz, amma sizi başa düşmək olar.

Çağrı bəyin təəccüb ifadəsi dəyişdi.

-Bildim əmi, başa düşdüm niyə belə məktub yazdırırsan. Sənin ağlın bizimkindən on dəfə artıqdır! Sən istəyirsən ki...

Musa yabqu onun sözünü kəsdi.

-Zamanı gözlə, qardaş oğlu. Əvvəlcə qoy, katibə tapşırım ki, məktubu çaparla Qəznəyə göndərsin, ondan sonra nə istəsən söylərsən.

Çağrı bəy də, Toğrul bəy də, katib də hər şeyi doğru başa düşmüşdü...

Katib qələm-kağızını yığışdırmazdan öncə Musa yabquya "möhür vurun" işarəsini verdi. Heç kimin gözləmədiyi halda Musa yabqu barmağındakı üzüyü katibin uzatdığı qabdakı palçıq mayeyə sürtüb, kağıza basdı, sonra isə təəccübdən özlərinə yer tapa bilməyən iki cahangirə baxdı.

-Nə oldu, təşvişəmi düşdünüz? Dedim axı, bundan sonra Xorasan əmiri kimi hərəkət edəcəyik. Biz bundan sonra hər kəslə sultanlar kimi davranacağıq. Dedim axı, bundan sonra biz Səlcuq dövləti quracağıq. Bizim buna imkanımız və gücümüz çatır. Siz qoltuq altında qalmaqdan yorulmadınızmı? - Əlini səf-səf çadırların qurulduğu düşərgəyə tərəf yönəltdi. - Xalq isə yorulub. Xalq təhqir edilməkdən, soyulmaqdan, zorlanmaqdan yorulub. Bu ulus bizdən nicat gözləyir. - Yaxınlaşıb barmağı ilə gələcəyin cahangirləri olacaq bu cüssəli, yoğun biləkli gənclərin sinəsini növbə ilə taqqıldatdı. - Xalq sizdən nicat gözləyir...sizdən! Oturuşmaq, oturaraq qüdrətlənmək, daha da artmaq lazımdır. Əvvəlcə özümüzü idarə etməyi öyrənməlisiniz. Yoxsa fəth edirik, qururuq, daha

irəli gedirik, qırılırıq, başqalarına qarışırıq, tükənirik,.. Mənim ömrümə isə çox qalmayıb. Bundan sonra hər şey sizin əlinizdədir.

Musa yabqunun bu sözləri sanki ayları, onillikləri adladı, əsrləri keçdi.

Ancaq hələ ki, yeni tarix yaranırdı.

Bu məktub Səlcuq dövlətinin yaranmasının başlanğıcı idi. Amma bu dövlət hələ car edilməmişdi.

...Günəş doğar-doğmaz Sultan Məsud öz ordusunu yenidən səlcuqların üstünə saldı. Bu dəfə çöldə tüstüsü hələ çəkilməyən ocaqlardan başqa bir şey tapmadı. Köç gecə ikən çıxıb getmiş, arxasınca tör-töküntü saxlamışdı. Tüstüləyən ocaqlara qəzəblə baxıb, köçü təqib etmək əmrini verdi.

Sultan Məsudun ordusu beləcə iki il səlcuqları təqib etdi.

On min çadırda məskunlaşan səlcuqların iyirmi min döyüşçüsü vardı. Səlcuqlar daha kimsədən qorxmurdular. Təqib edilən zaman qəznəli döyüşçülərinə hücum edir, su quyularını ya zəhərləyir, ya da daşla doldurub qurudurdular. Xorasan düzləri hər iki türk ulusu üçün "qaçdı-tutdu" meydanı olmuşdu.

Bu arada Toğrul bəyin başçılığı ilə özlərində qüvvət və qüdrət tapan səlcuqlar Qəznəli sultanına yenə məktub yazıb Mərv, Sərhas və Əbivərdi-

nin onlara verilməsini istədi. Bundan daha da qəzəblənən Sultan Məsud yenə ordusunu səlcuqların üzərinə göndərdi. Səlcuqlar daha iki il döyüşdən yayındılar. Bu vaxt ərzində onlar artmış, döyüş təcrübəsi qazanmış, bərkimiş, sərtləşmişdilər. Onlar daha iki il Xorasan çöllərində qəznəlilərə meydan oxudular. Çobanlıqdan əmirliyə qalxan bir ulusun Sultan olmaq istəyi hamı tərəfindən təbii qəbul edilməyə başlamışdı. Nəhayət Toğrul bəy ilk dəfə olaraq Nişapurda taxta çıxdı və adına xütbə oxutdurdu. Xalq ona heç bir tərəddüd etmədən biyət gətirdi. Herata qədər qovulan Qəznəli ordusu yenidən toparlandı. Bu dəfə Sultan Məsud əlli min qoşun və üç yüz fillə səlcuqların üzərinə yeridi. Daha geriyə yol yox idi. Ya ölməli, ya da gələcəkdə dünyaya meydan oxuyacaq bir ölkənin, dövlətin əsası qoyulmalıydı. Səlcuqlar ikincini seçdilər. Onlar ölmək üçün deyil, qazi olmaq üçün meydana atıldılar...

...Sultan Məsudun ordusu yorulmuşdu. Otlaqlar yandırılmış, obalar boşalmış, su quyuları daşla, torpaqla doldurulmuş, mal-qara aparılmış, zəmilər biçilmiş, meyvələr dərilmişdi.

Dandanakan qalasına beş fərsəx* məsafə qalmış Sultan Məsud ordusuna azacıq dincəlmək əmrini verdi. O türkmənlərin - səlcuqların haradasa lap yaxında olduğunu fəhmlə hiss edirdi.

---

** Bir fərsəx - 6 km.*

Ordu başçısı Sultanın belə hallarda salınan kiçik çadırına girəndə o üzü taxta tərəf dayanıb, dərin fikrə getmişdi. Öz taxtında oturmağa belə qorxurdu. Sanki özünün hökm, qüdrət, səltənət, əzəmət taxtına sonuncu dəfə baxırdı. Bu taxtdan indi ayrılardısa, ona arxasını çevirərdisə hakimiyyətdən əbədi ayrılacağını düşünürdü. Bu qara fikir onun beynini qurd kimi yeyirdi. Bir tərəfdən yayın səhra günəşi nəfəsini kəsir, digər tərəfdən isə iki illik qovdu-qaçdıdan sonra əldən düşən ordunun və özünün halına acıyırdı. Bu dəfə məğlubiyyət olacaqdısa qardaşının onun üstünə əli qılınclı necə yeriyəcəyini düşünüb dəhşətə gəlirdi. Qardaşı yalnız ordudakı türk qulamlarından çəkinib, çevriliş etmirdi. ...Sərkərdənin boğaz artlaması olmasaydı, belə vəziyyətdə hələ çox qalacaqdı. Səsə diksindi. Əvvəlcə onu nə üçün çağırdığını da unutdu.

-Eşidirəm! - soyuq baxışlarla ordubaşını süzdü.

Ordubaşının üçkünc dəri papağının altından tər süzülsə də, başını qaldırıb onun gözlərinə baxmağa cəsarəti çatmadı. Udqunub:

-Sultanım, - dedi, - Ordunun vəziyyəti çox ağırdır. Havanın istisi, aclıq, susuzluq, uzun yol bütün canlını məhv edir. Bir tədbir görməsək, hər şey çox tez bir zamanda darmadağın dağılacaq.

Sultanın sol tərəf üst dodağı yığıldı və o rişxəndlə:

-Ordubaşı sən deyilsənmi, tədbiri sən gör də, - dedi. - Mən əslində fikirləşirdim ki, burdan birbaşa Mərvə gedək, orada da dincələk.

Sərkərdə dizlərini yerə qoyub yalvardı:

-Qurban olum, Sultanım! Mən kiməm ki, həzrət burda ola-ola bir fikir söyləyim? Mərvə gedək əmri verirsinizsə, Mərvə gedək. Amma... - qorxusundan bir qədər susdu, udqundu, lakin hər gün əsgərlərinin döyüşmədən qırılmasını, tamam əldən düşməsini gözünün qarşısına gətirib, susa bilmədi. Sultan da ona maraqla baxırdı. - Amma, Sultanım, Mərvə çatana qədər ordumuzun yarısı qırılar. Döyüş atları, fillər az qalıb tamam sıradan çıxsınlar. Burda yaxında, beş fərsəxlik yolda quyular var. İzn versəniz, onların başında bir gün dincələrik, sonra yola çıxarıq.

Sultan Məsudun dodağı yenə də rişxəndlə büzüldü.

-Hardan bilirsən ki, türkmənlər o quyuları da leşlə, daşla doldurmayıblar? Hə! Dur ayağa, söylə görüm, hardan bilirsən?

Ordubaşı dizlərini yerdən ağır-ağır qaldırıb ayağa durdu. Boynundan tər su kimi axsa da əllərini önündən çəkmədi.

-Sultanım, sizcə bu səlcuqlar tamam ağılsızdırlar? Məgər bu istidə, bu ilan mələşən çöldə onlara su lazım deyil? Onlar bütün quyuları

doldursalar, bəs özləri neyləyəcəklər?.. Həm də elə o quyuların yanında biz onlarla döyüşə bilərik.

Sultan bu haqda heç fikirləşməmişdi. Üzü güldü, gözləri işıldadı, soyuq baxışları əridi.

-Yaxşı sən deyən olsun!

...Baxışlarının gəzdiyi məchul nöqtələrdə onun səlcuqlar üzərində qələbə təntənəsi dolaşırdı. O bunu həm də hiss edirdi...

Miladi, 23 may, 1040-cı il idi.

Yürüşə çıxmış qoşunun nə əvvəli, nə də sonu görünürdü.

Heydən düşmüş atlar ağır-ağır gedir, fillərin və dəvələrin zınqırov səsləri, böyrüşməsi, nəriltisi, fınxırtısı ətrafdakı digər canlıları qorxudur, pərən-pərən salırdı. Günəşin istisi altında ordu qara ilan kimi sürünürdü. Qarşıda ilğım görünür, dodaqları susuzluqdan cadar-cadar olmuş əsgərlərin ümidləri get-gedə puça dönürdü. Bu vəziyyətdə qoşun nəinki döyüşə bilməz, heç qaçmağı da bacarmazdı.

Quyuların üç fərsəxliyinə çathaçatda birdən sanki səhra silkələndi və qumun altından çadır şəhərciyi üzə çıxdı. Qəfil görünən şəhəri əvvəlcə Qəznəli ordusu bir ilğım sandı. Amma öndə gedən kəşfiyyatçı dəstədən bir atlının hövlnak Sultana tərəf çapdığını gördükdə ilğım düşüncəsi çəkildi. Kəşfiyyatçı Sultana çatan kimi hoppanıb

atdan düşdü və onun üzəngidə olan çəkməsindən öpdü. Sultanın nigaran səsi eşidildi.

-Danış!

Bir dizini yerə basmış kəşfiyyatçı başını qaldırmadan və təngənəfəs:

-Səlcuqların ailə çadırları, Sultanım! - dedi. - Qarşıda görünən oba onlarındır.

-Nəhayət ki, bu türkmənləri qova-qova onlara yetişdim! - Düşüncəsindən keçən bir fikri tez dilinə gətirdi. - Yaxşı, bəs kim var orada, kim yoxdur?

-Elə də çox döyüşçüləri yoxdur, min olar, ya olmaz, ancaq səlcuqların mal-dövlətləri ordadır.

Xəbərə qulaq asan ordubaşı Sultanı fikrindən döndərə bildiyinə sevindi. Birdən sanki qulağına su şırıltısı gəldi.

İndi su onlar üçün həyat demək idi.

Eyni şeyi Sultan Məsud da fikirləşirdi.

Qələbəni yubatmaq olmazdı.

Bayraqlar yelləndi, davullar çalındı. Atlılar obaya doğru çapdılar. Çadırlara az qalmış birdən sanki yer yarıldı və onların qarşısına minə yaxın atlı döyüşçü çıxdı. Hər iki tərəf əyri qılınclarını siyirib "vur, vur" qışqıraraq bir-birlərinin səflərinə girdilər. Qəznəlilər yorğun olsalar da sayca çox idilər. Səlcuqların bir atlı döyüşçüsü üç-dörd süvari ilə döyüşürdü. Heç kim heç kimə

fikir vermirdi. Suvarilər at üstündə yalnız görünən zirehli, yaxud dəridən tikilmiş döyüşçü paltarına zərbə endirirdilər. Meydandan qılıncların şaqqıltısı, döyüşçülərin nərəsi, yaralı bağırtısı, at kişnərtisi eşidilir, səhra qumunun sarı rəngi qırmızıya dəyişirdi.

Birdən çadır şəhərciyindən qəribə gurultu eşidildi. Sanki səlcuqlar bu səsə bənd idilər. Səsi eşitcək atların ağzını döndərib çadırlara doğru çapmağa başladılar. Amma şəhərciyin böyründən ötüb keçdilər.

Bu anlarda qəznəlilərin sevincinin həddi-hüdudu yox idi. Yorğunluq və susuzluq onları əldən saldığından qaçanları təqib etmək fikrində belə olmadılar. Qılıncları göyə qaldırıb "hey-hey" qışqırdılar. Çadırları yağmalamaq üçün əmr olmasa da atlarını şəhərciyə doğru çapdılar. İndi heç kimin qulağına su şırıltısı dəymirdi, suyu bir qədər sonra da içə biləcəklərini düşünürdülər. Əsas olan  qənimət əldə etmək idi.

Türkmənlər isə çoxdan arvad-uşaqları çadırlardan çıxartmış, təhlükəsiz yerə daşımış, buralardan uzaqlaşdırmışdılar. Qədim türk döyüş üsuluna görə geri çəkilmək, özünü məğlub kimi göstərmək, sonra qəflətən geri dönmək, zərbə vurmaq və qələbə qazanmaq  min illərin sınağından çıxmışdı. Amma bunu hər ordu asanlıqla həyata keçirə bilmir, bəzən ordunun nizamı itir, məğlubiyyət xofu və rə-

qibin mifi üstün gəlirdi. Səlcuqlar bu üsulu tətbiq etməkdən çəkinmədilər və bunu bacardılar. Qəznəlilər çadırlara soxulub içəridə qalan şeyləri yağmalamaqla məşğulkən on yeddi min atlı qəfildən çadırların başının üstünü aldı. Qəznəlilər nə baş verdiyini anlamağa macal tapmamış səlcuqlar hər kəsi doğramağa, qılıncdan keçirməyə başladılar. Yenidən davullar çalındıqda qəznəlilərin arasındakı qulam türkmənlər dərhal özlərinə gəlib toparlandılar, ancaq daha gec olduğunu da anladılar. Az keçməyəcək, səlcuqlar hamını doğrayacaqdılar. Sonra təslim olmağa macal da qalmayacaqdı. Onlar bunu tez anladılar, qışqırıb bayraq qaldırdılar və səlcuq adlanan soydaşlarına tərəf keçdilər. Qulam türkmənlər Qəznəli ordusunun əsasını təşkil edirdi. Onların öz soydaşlarına tərəf keçməsi döyüşün taleyini həll etdi.

Bu məğlubiyyət öz dövrünün ən böyük dövləti sayılan Qəznənin tarixə çevrilməsi demək idi. Bu döyüş günü həm də Səlcuq dövlətinin qüdrətlənməsinin əsası qoyulan gün oldu...

Sultan Məsud kiçik bir dəstə ilə əvvəlcə Mərvə, sonra isə Qarcistana qaça bildi. Qardaşı onu devirib, əsir götürdü, zindana göndərdikdən sonra orada boğdurub öldürtdü. Ancaq bu da Qəznə dövlətini xilas etmədi, bu dövlət qüdrət və hökm sahibi kimi daha yox idi...

Səlcuqların fəthi başlanmışdı...

...Tədricən göz önündəki hər şey dumana büründü, yenə zaman və məkan dəyişdi, dünya başqalaşdı...

...İldırım gurultusundan az sonra şimşək çaxdı və Alp Arslanın otağı ani işıqlandı. Sanki kimsə bulud boyda iki qara çaxmaq daşını bir-birinə vurub elə ildırım boyda qığılcım yaratdı. Otağın bir küncündə mürgülüyən qulluqçu dərhal Sultana tərəf baxdı. Ağrıdan onsuz da yata bilməyən Alp Arslanın pərqu yorğanı tərpəndi.

Alp Arslan ağrılarını azacıq unutmaq üçün keçmişi yada salır, fikirlərini, düşüncələrini ora aparmaqla kürəyinə vurulan xəncər yarasının verdiyi dərdi, əzabı vücudundan, beynindən çıxarmağa çalışırdı. Bəzən buna nail də olurdu, ancaq arada bu ağrılar o qədər güclənirdi ki, beyni və düşüncələri də bu ağrıya tabe olur, halsızlaşır, bəzən isə huşunu itirirdi.

İndi də deyəsən belə oldu. Onu xatirələrindən kürəyindən qopan güclü ağrı ayırdı.Yorğanın altında büzüşüb zarıdı. Ağrının dəhşətindən qopan bu zarıltı o qədər ürəkyaxıcı idi ki, qulluqçunun qaşları çatıldı. Sultanın ağrılarının artdığını başa düşdü. Saray həkimi qonşu otaqda olsa da onu oyatmadı, özü yaxınlaşdı.

-Qurban olduğum, indi əlac sürtərəm, yüngülləşərsən, - dedi və yorğanı onun üstün-

dən ehmalca çəkmək istədi. Yorğanın altından iniltili səs gəldi:

-Dəyməəə... şamdanları yandır.

-İndi yandırram, qurban olduğum! - Qulluqçu qapıya tərəf yeyin addımlarla irəlilədi. Qapını döyən kimi yan otaqdakı qulluqçu cəld yatağından qalxdı və yarıyuxulu vəziyyətdə, əlində iri şamla Sultanın yataq otağının qapısı ağzında göründü. - Şamdanları yandır, qurban olduğum belə istəyir.

Özü isə Sultana tərəf getdi. Şamlar yandırıldıqca yataq otağı işıqlandı. Bu arada isə qulluqçu xaşxaş yağını onun yarasına, gicgahına sürtüb qurtarmışdı. Bir azdan Alp Arslanın vücuduna sakitlik gəldi, beynindəki fikirlər aydınlaşmağa başladı...

...Tədricən göz önündəki hər şey yenə dumana büründü. Bu dumanlıq aydınlaşdıqda zaman və məkan dəyişmiş, dünya başqalaşmışdı...

...Böyük çöldə çadırlar qurulmuş, ordu səf-səf düzülmüşdü. Sayı-hesabı bilinməyən bayraqlar həzin küləyin havası ilə səs qopardaraq dalğalanırdı. Orta boş saxlanılmış, süvarilər üz-üzə durmuşdular.

Dandanakan döyüşündən sonra səlcuqlar heç belə əzəmətli olmamışdı.

Səlcuqlarda piyada qoşun olmazdı. Türkmən adətinə görə piyada döyüşçü əsil oğuz deyildi. At

oğuzun döyüş silahdaşı sayılırdı. Türkmənlər arasında belə deyim vardı: "piyada ərin ümidi olmaz; at işlər, ər öyünər". Oğuzlar "türkmən atı" deyilən atları xüsusi bəsləyir və xüsusi təlim verirdilər. Atı iki ay arpa yeməyə öyrəşdirir, qırx gün içində isə qaçmağa alışdırırdılar. Hər ay dörd dəfə atları sabunlu soyuq su ilə yuyur, hər ay nalları çıxarıb yenisini vurduqdan sonra ona üç-dörd gün minmirdilər. Axurda qabaq ayaqlarını bir yerə vurmaması üçün arxa ayaqlarını bağlayırdılar. Hər gün atın qabaq və arxa hissəsi soyuq su ilə yuyulurdu.

Səf-səf duran atlar bayraqların səsi altında heç fınxırmırdı. Elə sıralanmışdılar ki, başdan birinciyə baxılsaydı, o birilər görünməzdi.

Birdən kimsə qışqırdı:

-Gəlirlər, gəlirlər!

Uzaqdan atlılar görünürdü.

Öndə şahanə geyinmiş, atları da şahanə bəzədilmiş Musa yabqu, sağında Toğrul bəy, solda Çağrı bəy, arxada Qutlamış bəy, İbrahim Yunal, daha sonra vəzir təyin edilən Əl Kundiri, lap arxada isə Çağrı bəyin on yaşlı oğlu Alp Arslan və başqa kiçik yaşlı qohumlar gəlirdi. Təpənin üstündə qurulan böyük ağ çadıra çatdıqda səf-səf duran süvarilər atların cilovlarını eyni vaxtda özlərinə tərəf çəkdilər. Atların qabaq ayaqlarını qaldırıb kişnəməsi ilə çöldə qə-

ribə bir səs və əsrarəngiz görüntü yarandı. Sanki bu səs səlcuqların dünyaya xəbərdarlıq səsi idi. Çadırın qarşısında iki nəfər dayanmışdı. Biri yenicə və ilk dəfə təyin olunmuş mollabaşı, digəri isə əlində qurd başlı çomaqla dayanmış, geyimi ilə hamıdan seçilən şaman idi. Oğuzlar qurultay çağırmışdı. İndi əsas məqsəd dövləti genişləndirmək qərarını vermək idi. Gələcəyin hər iki fatehi - Sultan Toğrul və Çağrı bəy aralarında heç bir ixtilaf salmadan əski türk ənənələrinə görə ordunu sağ və sol qollara ayırmalı, dünyanın fəthinə başlamalı idilər. Gələnlər hər ikisinə yüngülcə baş əyib çadıra daxil olurdular. Çadır xalçalarla döşənmiş, yuxarıda üç taxt qoyulmuşdu. Sağ və sol taxtlar ortadakı taxtdan bir qədər irəli idilər. Əslində Sultan Musa Səlcuq oğlu olmalı idi, lakin Musa yabqu könüllü olaraq Toğrul bəyin xeyrinə taxtdan imtina etmişdi. Bəlkə də bu Tanrının bu millətə verdiyi tale idi. Kim bilir, Musa yabqu Sultan seçilsəydi, bu millətin tarixinə daha nələr yazılacaqdı.

Onlardan aşağıda mollabaşı və şaman üçün iki kətil qoyulmuşdu.

Musa yabqu Toğrulu orta taxtda əyləşdirdi. Özü onun sağında, eyni zamanda Sultanın başçılıq etdiyi bəylər, əsabələr sağ tərəfdə, Çağrı bəy, onun silahdaşları sol tərəfdə əyləşdilər. Hər kəs

əyləşdikdən sonra Musa Səlcuq oğlu ayağa durub hamını salamladı:

-Ulusum, bəylər, silahdaşlarım, əqrabalarım, atamız Səlcuqun şərəfinə Səlcuq adlandırdığımız dövlətin adından Sultanımız Toğrul bəy hamınızı salamlayır!

Aşağıda oturanlar razılıqla başlarını tərpətdilər. Musa yabqu isə çadırın ortasına gəlib əlini belinə qoydu.

-Təklif var ki, Sultanımıza Sultani-əzəm, yəni Böyük Sultan!.. - geri dönüb, əlini Çağrı bəyə tuşladı, - Çağrı bəyə isə Şahənşah, yəni Şahlar Şahı adı verilsin!

Oturanlar arasında tərpəniş yarandı.

-Yaxşıdır!

-Bəyənilsin!

-Sultanımızdır!

-Şahlar şahımızdır!

-Çox gözəl, çox gözəl! - Musa yabqu hamını sakitləşdirdi. Gözlər ona dikildi. - Bundan sonra nə etməliyik? Torpaqlarımızı genişləndirmək üçün hansı addımları atmalıyıq? Atalar demişkən ağıl-ağıldan üstündür. Kimin nə təklifi var? Bizim ulu babalarımız,.. - o deyəcəyi cümləsinə düzəliş verdi, - Mənim atam Səlcuq bəy bunu bizə danışırdı. Göytürklərdə, hunlarda, türkeşlərdə, elə bizdə də dövlət iki - sağ və sol qanada ayrılır. Sağ qol Batını, sol qol isə Doğunu idarə

etmək üçün. Mən də deyirəm belə edək! - Çadırda səssizlik yarandı. Səlcuq oğlu bunu razılıq kimi başa düşdü. - Çox gözəl, belə başa düşürəm, etiraz edən yoxdur. Elə isə torpaqların bölgüsünü aparaq...

Bu zaman Çağrı bəy ayağa durdu. Sultan Toğrulun tükü də tərpənmədi. Yaşca özündən böyük olan qardaşının ağlına, dərrakəsinə bələd idi. Bilirdi ki, Sultan seçilməməsi səbəbindən yeni yaranan dövlətin əleyhinə heç bir söz deməyəcək. Bəlkə də sultanlıq daha çox onun haqqı idi. Ancaq görünür buna bir səbəb vardı. Yeni sultan daha uzun illər hökmranlıq etməli idi.

Sultan Toğrul rahatca əmisinə baxdı və gülümsədi. Əmisi isə həyəcanlandı. Çağrı bəy böyük qardaş olduğu üçün birdən sultanlığa iddia etsəydi, nifaq düşər, gələcəyə hesablanmış böyük yol buradaca qırılardı. Çağrı bəy əmisinin həyəcanını başa düşdü və təbəssümlə ona yaxınlaşıb, sakit tərzdə:

-Yox, əmi, narahat olmayın! - dedi, - mən təklif vermək istəyirəm! Fikirləşirəm bütün qüvvələrimizi toplayıb Batıya doğru gedək, çünki qüvvələrimiz bir olanda daha güclü olacağıq. Bir yumruq! - O, barmaqlarını birləşdirib yumruğa çevirərək göyə qaldırdı, - yumruq beş barmaqdan daha güclüdür!

Səlcuq oğlu bu təklifdən bir anlığa çaşıb qaldı. Əvvəlcə ona nə cavab verəcəyini bilmədi. Onun fikrində də haqq vardı. Amma belə daha münasib idi. Həm də Sultan burda ola-ola onun hansısa qərarı verməsi, təkid etməsi heç düzgün olmazdı. Sultan dillənməsəydi, hörmətdən düşərdi. Dillənsəydi, əminin ağsaqqallıq səviyyəsi kiçiləcəkdi.

Musa yabqu əvvəlcə gözlərini ona dikmiş insanlara, sonra isə Sultana baxdı.

Böyük Sultan bu vəziyyətdə özünün necə mühüm vəzifə daşıdığını anladı. Sultanlığını ya indi qəbul etdirməli, verəcəyi hökm hamı tərəfindən birmənalı qarşılanmalı, ya da oyuncaq sultana çevriləcək və yenicə yaratdıqları dövlətin ömrü uzun olmayacaq, hərcmərclik, hikkə, ədavət ulusu parçalayacaqdı. Amma böyük qardaşının xətrinə dəymək də istəmirdi.

Başqa çıxış yolu da yox idi.

Düşüncəsindən axan qərarı daha münasib hesab etdi.

Sərt hərəkətlə ayağa qalxdı, heç kimə baxmadan ötkəm səslə:

-Yox! - dedi, - Batıda bizim ulus çox böyükdür! Hər tərəfdə türk obalarımız var, oğuz döyüşçülərimiz var. Biz nə zaman oralara getsək, bir döyüşçümüz min olacaq. Batıdan rahatsız olmağa dəyməz. Mən min süvari ilə oralara get-

səm, on dənə on min süvari ilə geri dönərəm, çünki yüz ildi, min ildi onlar bizi gözləyirlər.

Musa yabqu dərindən nəfəs aldı. Elə bil üstündən dəyirman daşını götürdülər, ürəyində onun fikirlərinə "əhsən" dedi.

-Sultanımız nə fikirləşir, bu barədə? - deyə soruşdu.

Toğrul onunla yanaşı durmuş əmisinə və qardaşına, sonra isə əyləşənlərə baxdı.

-Bizə lazımdır ki, parçalanmış qaraxanlıları, qəznəliləri, Sırdərya tərəfdə yaşayan doğma tayfaları özümüzə tabe etdirək. İmkan verməyək ki, biz Batıya gedən zaman onlar birləşib arxamızda təhlükəli qüvvəyə çevrilsinlər. Onların torpaqlarını ayrı-ayrılıqda dövlətimizə birləşdirməliyik. Odur ki, Musa yabqu Mərvdə qalır, daha sonra isə Herata doğru hərəkət edəcək. Mən Nişapura doğru yürüş edəcəm. Qardaşım Çağrı bəy isə Qəznə, Bəlx istiqamətində yürüyəcək! Hələlik bu qədər. Bunları həll etdikdən sonra Batıya rahatca baş çəkmək olar!

Deyəsən bu qərar özünün də xoşuna gəldi.

Musa yabqu Toğruldan bu qədər cəsarət gözləmirdi. Ürəyində ona yenə də "əhsən" söylədi. İndi də Musa yabqu uca səslə dilləndi:

-Bir halda ki, Sultanımız qərarını verdi, deməli belə də etmək lazımdır! Qaldı Sultanımızı qədim

adətlərimizə görə ağ keçə üstündə yeddi dəfə qaldırıb endirmək, sonra isə elə keçə üstündə də xalqa göstərmək...Hə, bunun qərarı da, icrası da bizlikdir! Sultanımıza eşq olsun! Uca Tanrı Sultanımızı qorusun!

Bu qurultay, bu dualar Səlcuq imperiyasının yaranış nidaları oldu.

...Dandanakan döyüşündən sonrakı on il müddətində səlcuqlar Xarəzm torpaqlarını ələ keçirtdilər, qəznəliləri özlərinə tabe etdilər. Bu on il ərzində türkmənləri və Kirmanşahdakı qəbilələri, Diyarbəkr, Axlat və Malazgirddəki Məvrani dövlətini, İraq, Əl-Cəzirə və Şimali Suriyadakı hamdaniləri, Təbəristanda ziyariləri, Deyləmanda kakuiləri, Gilanda səffariləri, Azərbaycanda rəvvadiləri, Şirvanda Şirvanşahları, Dərbənddə haşimiləri, Divin və Aranın bir hissəsində şəddadiləri, Farsda buveyhiləri, Sistanda şəffariləri özlərinin vassallarına çevirdilər. Səlcuq hakimiyyətinin on beş illiyində isə Bağdad və bütün İslam Şərqi artıq tam olaraq onların əlində idi...

...Axınçılar indi də Batının hər yerində görünür, hər kəsi özlərinə tabe etdirməyə çalışır və bunu bacarırdılar.

## ALTUNCAN XATUN

Deyəsən xəstənin halı bir az düzəlmişdi. Qulluqçu ona taxta qaşıqla turşulu cücə şorbası içirdikcə ağzını ləzzətlə marçıldadır, üz-gözünü turşutmurdu. Saray həkimi onun yarasına yeni hazırladığı məlhəmdən sürtmüş, bu səbəbdən hələlik ağrılar azalmışdı. Amma bu hələ onun sağalacağına ümid vermirdi. Vəziyyət hər an kəskinləşə bilərdi... Dünyanın dörd bir yanına təbiblər, çaparlar göndərilmişdi... Gətirilən əlaclar, üsullar, təkliflər həkimbaşının öz bildiyindən üstün deyildi. Hər yerdə türkə çarə hesab edilən min bir dava-dərman indi ən böyük türk oğluna çarə vermirdi.

Alp Arslan təbabətə həmişə böyük diqqət yetirərdi. Saray yanında təbiblər məktəbi fəaliyyət göstərirdi. Qocaman təbiblər xəstələri ən təbii vasitələrlə müalicə etməyə, hər bir xəstəliyin ən sadə yolla müalicəsini müəyyən etməyə çalışırdı. Əlacını tapa bilmədikləri çox az xəstəlik vardı. Dünyanın əksər ölkələrində onların təbiblik məharətindən istifadə edilirdi. Adını da yaxşı tapmışdılar: türkəçarə. Amma indi türkəçarə ən böyük türk adamına - Sultana əlac edə bilmirdi.

...Saray həkiminin sözlərindən Alp Arslan bu zəhərli xəncər yarasına əlac olmadığını aydın başa düşmüş, əcəlin başı üstündə olduğunu anlamışdı. Amma indi daha çox yaşamaq istəyirdi.

Hər şeyə nail olasan və birdən hər şeyi itirəsən! Bir də ki, qırx üç yaş nə idi ki?

Sanki bütün bunları o özü qazanmamışdı.

Həqiqətən də hər şeyi verən də Allahdı, alan da!

Ağlı kəsəndən atası, əmisi, qardaşları ilə at belində ucu-bucağı görünməyən dövlətin bir başından o biri başına at sürür, düşmənlərinə sarsıdıcı zərbələr vurur, sonra dövlətin idarə olunması üçün Reyə, ya da İsfahana qayıdırdı. İndiyə qədər qazandığı saysız qələbələrdən həzz alıb xoşallansa da həyatın gözəlliyindən doyunca zövq ala bilməmişdi. Döyüş, hərb, yürüş olmadan necə yaşaya biləcəyini heç təsəvvür etməzdi. Onun həyatı qurulmaqda olan Səlcuq dövlətini genişləndirmək və möhkəmləndirməkdən ibarət idi. Başqa heç nə haqqında düşünə bilmirdi.

İndi isə ancaq canının hayında idi. Sən demə can barədə düşünmədikdə o elə də dəyərli olmur. Düşündükcə adamın öz canı da qorxu saçırdı.

Qulluqçu şorbadan bir qaşıq da içirib əlindəki dəsmalla onun dodaqlarını sildi.

Yarı uzanmış halda olduğu üçün Sultanın kürəyinə daha bir yumşaq balış qoyuldu. O aya-

ğa qalxıb gəzmək istəyir, amma hələ də bacarmırdı. Bir balaca dikələn kimi başı gicəllənir, hər şey axır, yer ayağı altından qaçır, müvazinətini itirirdi. Ağrısını heç cür gizlədə bilmirdi. Bağırmaq, dəhşət içərisində qışqırmaq istəyirdi. Ağrı bütün varlığına hakim kəsilir, onu arxası üstə yerə çırpmaq istəyirdi.

Hamıya əli ilə "gedin" işarəsini verdi.

İndi bu qulluqçular ondan daha qüdrətli görünürdülər.

Ac-susuz olaydı, amma dünyanı payi-piyada dolaşa biləydi.

Xəyalən gəzməkdən başqa əlacı qalmamışdı...

Yadına Bağdad düşdü. Bu hadisə 1055-ci ildə baş vermişdi. Ərəb xilafətinin yaranmasından üzü bəri ilk dəfə olaraq xəlifə hərbi və siyasi vəzifələrdən uzaqlaşdırıldı, ona ildə əlli min qızıl maaş ödəməklə yalnız dini işlərin aparılmasına izn verildi. Daha üç il sonra Alp Arslan əmidostusu - əmisi arvadı, Sultan Toğrul bəyin xanımı Altuncan xatuna köməyə getməsini xatırladı...

Gözəllikdə tayı-bərabəri olmayan Altuncan xatuna Bağdad torpaqları iqta edilmişdi. Sultan Toğrulla ilk dəfə Bağdada girən Altuncan xatun ərindən köhnə türk məhəllələrindən birində yeni şəhər salınmasını xahiş etmişdi. O yerə Toğrul bəy Mədinə adını verməliydi. Sultan buna

razılıq vermiş, şəhərin tikintisinə də xatunun başçılıq etməsini tapşırmışdı. Türk qadını həmişə öz kişisinin yanında olurdu; istər döyüş meydanında, istər ev quruculuğunda. Toğrul bəyin övladı olmasa da Altuncan xatunu çox sevir, üstünə günü gətirmək istəmirdi. Buna baxmayaraq xanım özü də bir neçə dəfə ona evlənməyi təklif etmiş, Sultan isə bunu qətiyyətlə rədd etmişdi. Yalnız xatun dünyasını dəyişəndən sonra Toğrul bəy ömrünün sonunda xəlifənin qızı Seyyidə ilə evləndi.

Hələ ki, Altuncan xatun sağ idi və hələ ki, ətrafında cərəyan edən həyat ona oxşamağa, onun zövqünü bəzəməyə hesablanırdı.

Qızlar Altuncan xatunla xalça otağında oturub yun sap əyirirdilər. Müxtəlif rəngli saplar yumağa dönüb səbətlərə atıldıqca onların yorulduğu hiss olunurdu. Qızların əlləri işdən soyumasın deyə xanım:

-Hə qızlar, sizə bir rəvayət danışım, həm işdən ayrılmayaq, həm də vaxt tez keçsin. - dedi. - Əlləriniz işdə, qulağınız məndə olsun.

Qızlardan ən dəcəli dərhal cavab verdi:

-Hə düz deyirsən, bibi. Sən danış, özü də "Aldədə" rəvayətini danış, çox maraqlıdır, deyilənə görə bu yerlərlə bağlıdır o hadisə.

Qızlar yerlərini bir az da rahatladılar. Ancaq əllər işləyir, sapı yumağa çevirirdi.

-Hə qızlar, - Xatun söhbətə başladı. - Bizdən çox-çox qabaq zamanlarda Bağdadda xəlifəyə xəbər çatır ki, bəs Odlar ölkəsində Aldədə adlı bir şəxs peyda olub. Bu şəxs möcüzələr icad edir, özü də odda yanmır. Xəbər xəlifəni bərk maraqlandırır, deyilənlərin doğru olduğunu yəqin etmək üçün yanına üç sərkərdə çağırıb deyir: - Elə bu gün Odlar ölkəsinə yola düşün. Orda Aldədə adlı bir şəxs peyda olub. Gedin yoxlayın. Əgər doğrudan da möcüzələr yaradırsa, ona toxunmayın. Yox, elə olmasa, flrıldaqçılıq etdiyi agah olunsa, onu məhv edin, yurdunda isə bir nəfər də salamat adam qoymayın!

Ərəblər Aldədəni Haça qaya deyilən yerin yaxınlığında tapırlar. Geniş çöldə yalmanları qız hörükləri kimi hörülmüş atlar otlayırmış. Görürlər ki, ilxıda iki dayçanın yalmanı hörülməyib. Onlar bunun sirrini hündür daş üstündə oturmuş Aldədədən soruşurlar. O deyir:

-Bu dayçalar Göysudan çıxıb, ilxıya özləri qarışıblar.

Xeyli söhbətdən sonra ərəblər hiss edirlər ki, qoca hikmətli adama oxşayır. Dünyanın əvvəlindən, axırından xəbər verir. Onu bir daha yoxlamaq istəyirlər.

-Bəlkə bir ocaq çatasan, yaman acmışıq.

Aldədə dərhal qonaqların niyyətini başa düşür. Onlara belə cavab verir:

-Bilirəm niyə gəlmisiniz, marağınız nədir, istəyiniz nədir, hamısını bilirəm.

Ərəblər təəccüblənirlər.

-Biz ki, sənə hələ bir söz deməmişik.

-Bir kabab bişirim yeyək, sonra danışarıq...

Altuncan sap əyirən qızlara gözucu baxdı. Yorğunluqları keçmişdi. İndi onların əlləri sürətlə işləsə də qulaqlarının hakimi onun ağzından çıxan sözlər idi. Xatun özü də həvəsə gəldi.

-Hə qızlar, Aldədə ayağa qalxıb ocaq çatdı. Yaxınlıqdakı sürüdən bir quzu ayırıb kəsdi. Quzunun qolunu, budunu, qabırğalarını çılpaq əlində közə tutub qızartdı. Kabab bişir, Aldədənin əlinin tükü də qarsalanmır.

-Bu nə möcüzədir?! - deyə, ərəblər heyrətlə soruşurlar.

-Möcüzə yoxdur. - Aldədə cavab verir. - Mən od oğluyam. Od odu yandırmaz.

-Sən öz qaladığın odda yanmazsan, ancaq biz qaladığımızda əməlli-başlı bişərsən, heç külün də qalmaz, - deyə ərəblər onun möcüzəsinə şəkk edirlər. Bir qaragöz quzunu Aldədənin qucağına verirlər. Sonra da yurd yerindəki təndiri odunla doldurub qalayırlar. Aldədəni alovu göyə dilimlənən bu təndirə salırlar, ağzını da iri sal daşlarla örtürlər. Ərəblər elə düşünürlər ki, Aldədə bu gecə təndirdə yanıb kül olacaq. Səhər onlar təndirin ağzını açanda gözlərinə inanmırlar. Aldə-

dənin başının tükləri, bığları qarlı-qırovlu idi, saqqalından buz salxımları sallanırdı. Qucağındakı qaragöz quzu isə qıpqırmızı qızarmışdı.

Ərəblər deyirlər:

-Bu əsl möcüzədir. Ey Aldədə, bizdən istəyin nədir?

Aldədə zəhmli xəlifənin elçilərinə cəsarətlə cavab verir:

-Sizdən heç nə istəməyəcəm, amma məndən də heç nə istəməyin, qoyun hərəninki özünün olsun.

-Başa düşmədik.

Aldədə yanındakı dörd ağac çubuğunu göstərib deyir:

-Bu çubuqları dörd cəhətə atacam, hara düşsə, o torpağa toxunmayın.

Ərəblər sevinirlər ki, bir qocanın atdığı çubuq o qədər də uzağa düşməz. Odur ki, razılaşırlar. Aldədə birinci çubuğu tullayır. Çubuq göydə süzür, süzür və  tamam görünməz olur.

Ərəblər soruşurlar:

-Çubuq hara düşdü?

-Savalan dağına, - deyə, Aldədə cavab verir.

Aldədənin ikinci çubuğu Xorasana, üçüncüsü Şah dağına, dördüncüsü Ağrı dağına düşür.

Ərəblər deyirlər:

-Bu ki, Turan oldu, Odlar ölkəsi də onun ürəyi.

Aldədə gülümsünür:

-Xeyr, bu dediklərinizin heç yarısının yarısı da deyil.

Onlar daha deməyə söz tapmayıb, tələsik Aldədədən ayrılırlar və birbaş Bağdada üz tuturlar...

...Altuncan xatun rəvayəti bitirib qızlara baxdı. Qızlar işlərini bitirmiş, gözlərini ona zilləmişdilər. Yenə dəcəl qız sual vermək istədi. Bu zaman qapı açıldı, qulluqçu izn istəyib içəri daxil oldu. O, xanıma yaxınlaşıb qulağına nəsə pıçıldadı. Altuncan xatun tez dikəldi. O ayağa durduqda qızlar da ayağa qalxdılar. Altuncan xatun qulluqçuya astadan "gəlirəm", - dedi, sonra qızlara gülümsədi.

-Bax, gördünüz, qızlar, Aldədədən danışdıq, Savalandan Baş Dədə "Kaha adamı"nı yanımıza göndərib. Allah xeyirliyə calasın. Bir şey baş verməsəydi, Baş Dədə Bağdada adam göndərməzdi.

Və yüngül yerişlə otağı tərk etdi...

...Sultan Toğrul hakimiyyət başına yüksəldikdə dövlət işlərini bir daha öyrəndi. Amma köhnə qaydalar ürəyincə olmadı. O, hakimiyyətin idarə edilməsini tədricən yeni sistemə keçirtdi. Belə ki, yeni torpaqlar tutulduqca, bəyliklər və dövlətlər vassala çevrilirdi. Bu isə türk mənsubları ilə yanaşı qeyri-türkləri də dövlətin idarə olunmasına cəlb etməyi münasib edirdi. Əks təqdirdə onlar

dövləti sevməyəcək, onun inkişafına xidmət göstərməyəcəkdilər. Bu, Toğrul bəyin bəlkə də ən böyük kəşfi idi. İmperiyanın idarə olunmasına türk olmayanlar cəlb olunduqca dövlət möhkəmlənir və genişlənirdi. Hakimiyyətin idarə olunmasında və maliyyə işlərində, heç təsadüfi deyildi ki, əsasən qeyri-türklər çalışırdılar. Amma dövləti həm də xəlvətcə idarə etmək və ucu-bucağı görünməyən yerlərdən gizli xəbər tutmaq üçün Toğrul bəy bir neçə dini vəqfdən, şamanlardan, əxilərdən, dərvişlərdən istifadə edirdi. Onlardan biri də Baş Dədənin Ərdəbildə yaratdığı təriqət idi. Onlar öz xidmətlərini təklif etdikdə, Toğrul bəy məmnuniyyətlə qəbul etdi və dəmirçi Usta Muradı da öz yanına aldı.

Toğrul bəy xanımı Altuncan xatuna da bu barədə danışmış və tapşırıqlarını vermişdi. Əgər bu insanlardan kimsə onun yanına gələrdisə onu diqqətlə dinləməli və xoş rəftar göstərməliydi. Çünki dövlətin idarə olunmasında bu insanların əvəzsiz xidməti olmuşdu.

...Böyük zal Təbriz xalçaları ilə döşənmişdi. Qışın birinci ayı olsa da sanki bu zala bahar gəlmişdi. Yerə sərilən xalçaların ilmələri tam təzə olduğu üçün parıldayır, baxanın gözünü qamaşdırırdı.

Qapı açılanda "Kaha adamı" ayaq üstə durub, pəncərədən əsən küləyin yarpaqsız ağacların

budaqlarını necə yellədiyini seyr edirdi. Elə bil külək ağacları beşik kimi yırğalayıb qış yuxusuna vermək istəyirdi.

Xanım qulluqçuların əhatəsində zala girəndə "Kaha adamı" fikirdən ayrılıb ona tərəf çevrildi, üzündən nur yağan qadını gördükdə başa düşdü ki, xatunun tərifi elə-belə deyilmiş.

O xanıma baş əydi, ehtiramını bildirdi. Xatun isə ona yaxınlaşıb ixtiyar adamın əlini tutdu və əyilib üstündən öpdü.

- "Kaha adamı" Bağdada xoş gəlib, - dedi. - Baş Dədə necədir?

"Kaha adamı" onun sözlərindən xoşhal oldu, belə qarşılanmasından məmnun qaldı.

-Xoş gününüz olsun, qızım, Baş Dədə də sizə çoxlu-çoxlu salamlar göndərib, o ömrünüzün uzun, günlərinizin xoş olmasını arzulayır.

-Sağ olsun! - deyən xatun, əli ilə qulluqçulara "gedin" işarəsini verdi. Əsabələr iki taylı qapının arxasında görünməz olduqdan sonra:

-Xeyirdirmi, Dədə? - soruşdu. - Gəlişini deyirəm... Gəl otur, danış.

Onlar keçib nimdar üstündə üzbəüz oturdular. "Kaha adamı" birbaşa mətləbə keçdi.

-Baş Dədə məni Ərdəbildən Savalana - mağaraya təcili çağırdı. Baxmayaraq ki, mənim oraya bir daha dönməyəcəyimi demişdi. Tələsik getdim. Sən demə Baş Dədə növbəti dəfə oddan keç-

dikdən sonra ona yeni kəramət gəlib, o bəsirətdə nə isə görüb. Məmləkətin hər yerində onun dərvişləri, əxiləri, şəyirdləri var, hər yerdən xəbər gətirirlər. Sultan Toğrul uzaqda olduğu üçün məni sizin yanınıza göndərdi. Məsələ bundadır ki, dövlətə, sizə və Sultan həzrətlərinə təhlükə var!

"Kaha adamı" susub xatunun üzünə baxdı. Onun sifət cizgilərində dəyişiklik olacağını bilmək istədi. Amma xanım son dərəcə soyuqqanlı idi.

Altuncan əri Toğrul bəydən səbr etməyi, hövsələli olmağı öyrənmişdi. Gərgin anlarda ürəyindən qara qanlar axsa da həyəcanını büruzə verməz, dostu kədərləndirib, düşməni sevindirməzdi. O yalnız çox yaxın adamlarının əhatəsində olanda hisslərinin cilovunu sərbəst buraxardı.

Sakit və təmkinli səslə dilləndi:

-Oxunu atıb yayını gizlətmə, Dədə. Kimdən bizə təhlükə gəlir? Kim öz başına bəla torunu toxumaq istəyir?

İbarəli sözlərdən "Kaha adamı"nın xoşu gəldi, xüsusən də "öz başına bəla toru toxumaq istəyən" sözləri düzgün seçilmişdi. "Yox, bu qadın mükəmməl tərbiyə alıb, onu təəccübləndirmək olmur".

-Xanım həzrətləri, vəzir Amidül-mülk Bağdadda sultanın ögey oğlu Nuşirəvanı sultan elan

etmək istəyir. Məncə, tədbir görməyiniz məsləhətdir.

Xatun rişxəndlə gülümsədi:

-Maraqlıdır, vəzir hansı qüvvə ilə Nuşirəvanı sultan elan etmək istəyir?

"Kaha adamı" bu sualı gözləyirdi.

-Sultanlığın düşməni Arslan Basasiri Bağdad istiqamətində hərəkət etməyə başlayıb. Fatmayılara sığınan bu üsyankar onlardan qüvvə alaraq bura gəlir. Vəzir də onunla danışıqlar aparıb, razılığa gəliblər. Bundan sonra o da fəaliyyətə başlayıb.

Dədə danışdıqca Altuncan xatunun beynində nə etmək barədə fikirlər cilalanırdı. Lazım olmayanları dərhal beynindən silir, lazım olanları bir neçə dəfə təkrar edib sıralayır və yaddaşına həkk edirdi.

"Kaha adamı" bu qənirsiz gözəlin təmkininə heyran qalmışdı. Aldığı elm onun fikirlərini oxumağa imkan verirdi. Amma izn olmadan onları dilə gətirə bilməzdi.

Xanım ayağa qalxdı. "Kaha adamı" yaşına uyğun tərzdə ağır-ağır ayağa durdu.

-Bu hələ hamısı deyil, xanım həzrətləri. Qohumunuz İbrahim Yınal da Sultanımızı mühasirəyə almaq istəyir. Sultanımıza təcili kömək lazımdır.

"Elə bircə bu çatmırdı". Ərinin yaxın qohumu olan İbrahim də sultanlıq eşqinə düşmüşdü. Dağılasan dünya! Nə görmüşdülər dünyanın bu ən çətin , ən ağır, ən təhlükəli və həm də ən məsuliyyətli vəzifəsində!?

-Daha nə? - Xatun  sərt səslə soruşdu.

-Bir də Baş Dədə xahiş etdi ki, xanım həzrətləri izn verərsə Bağdad torpaqlarında təriqətimizi yayarıq. Bizdən sizə heç zaman ziyan gəlməz.

Xatunun fikri-zikri Dədənin dediyi əvvəlki sözlərdə qaldığından tələm-tələsik razılaşdı:

-Hə əlbəttə, niyə də olmasın? Baş Dədəyə salamımı söyləyərsiniz. Biz də  nə gərəkdirsə kömək etməyə hazırıq.

-Allah razı olsun, - deyə "Kaha adamı" dönüb getmək istərkən - Hər şey yaxşılığa doğru gedir, xanım həzrətləri! - sözlərini əlavə etdi.

"Kaha adamı" qapıdan çıxan kimi Altuncan xatun Çağrı bəyin dalınca çapar yolladı. Çağrı bəy xəstə olduğundan oğulları Alp Arslanı, Yaqutu və Qavurdu böyük ordu ilə əvvəlcə Bağdada, sonra isə Həmədan qalasında mühasirəyə alınan Toğrul bəyə köməyə göndərdi.

Kömək gələnə qədər Altuncan xatun Bağdadda olan oğuz bəylərinin hamısını başına yığıb böyük bir qoşun topladı. Vəzir düşündüklərinin pozulduğunu və tezliklə həbs olunacağını hiss

edib Əhvaza qaçdı. Lakin Sultanla tezliklə dil tapıb vəzifəsində qala bildi. Basasiri isə Bağdada böyük bir qoşunun gəldiyi xəbərini eşidib geri qayıtdı. Altuncan Bağdadı xəlifə Dubeyis ibn Məzyədə tapşırıb topladığı ordu ilə Həmədana doğru hərəkət etdi. Alp Arslan da Bağdada girməyib ordunun istiqamətini Həmədana yönəltdi.

İki ordu Rey ətrafında üz-üzə gəldi. Bu dəfə də İbrahim Yınal döyüşdə məğlub oldu və əsir düşdü. Bu ikinci xəyanət olduğu üçün Toğrul bəy onu bağışlamadı. Qədim türk adətinə görə Sultan nəslindən olanlar edam edilən zaman qanı tökülməməli idi. Onu öz yayının sicimi ilə boğub öldürdülər.

1060-cı ildə Toğrul sultanın qardaşı Çağrı bəy vəfat etdi.

Qədim türk törəsinə görə Toğrul bəy qardaşının dul qalmış arvadı ilə izdivac qurdu. Bir az keçmiş Altuncan xatun da dünyasını dəyişdi. Dünyaya övlad gətirə bilmədiyi üçün Altuncan xatun sultana xəlifə qızı Seyyidə ilə evlənməyi vəsiyyət etdi.

...Səlcuqların dövründə xəlifələr tez-tez dəyişirdi. İslam dünyasında yalnız dini hakimiyyətə sahib olan xəlifə sülaləsi əvvəlki gücünə sahib olmaq, siyasi hakimiyyəti geri qaytarmaq üçün bir-birlərini devirir, onun yerinə keçir, bir az keçməmiş başqa biri də onu devirir, dini haki-

miyyətin taxtında oturururdu. Xəlifə Dubeyis ibn Məzyəd hakimiyyət taxtında möhkəmlənməmiş sülalədən əl-Qaimə onu devirib yerində oturdu. Dubeyisdən fərqli olaraq əl-Qaimə türkmənləri heç sevmirdi. O türkmənlərin İslama qəsd edib siyasi hakimiyyətə yiyələndiyini, Bağdadın hökmən oğuzlardan azad edilməli olduğunu düşünürdü. Heç ağlına da gəlməzdi ki, vaxt gələcək, səlcuqlarla qohum olacaq, qızını Sultan Toğrula ərə verəcək...

...Günəş qürub edəndə, göy üzü al-qırmızıya çevriləndə xəlifənin əmri ilə  şamlar yandırıldı. Az sonra saray zalı günəş işığına bürünübmüş kimi bəyazlandı. Sanki günəş Qərbdə batıb bu otaqda yenidən çıxmışdı. Amma əl-Qaimənin ürəyindən qara qanlar axırdı. Bu qara qanlar qəlbinə qara fikirlər saldığından onsuz da qara olan adamın rəngi bir az da boğulmuşdu. O bu halda heç kimi qəbul etmək istəmirdi. Hirsli-hirsli zalın bir başından digər başına yüyürərək  yeriyir, özünə yer tapa bilmirdi. Birdən başındakı əmmaməni çıxarıb hirslə xalçanın üstünə çırpdı və onu tapdalamağa başladı. Tapdaladıqca sanki sakitləşirdi. Özü də bunu hiss etdi. İçində bir sual qışqırırdı: "Mən qızımı bu çobanamı ərə verəcəyəm?!" Cavabını tapmamış qapı döyüldü, qulam içəri girib vəzir Amidül-mülk Kundurinin gəldiyini söylədi. Xəlifəni indi ağır anlar gözlə-

yirdi. Bir azdan o həm qızının, həm sülaləsinin, həm də xəlifəliyinin taleyini həll etməliydi. Vəziri qəbul etməzdən öncə ona qara əmmamə gətirilməsini əmr etdi. Əmmaməni başına qoyandan sonra vəziri qəbul etdi.

Sultanla arasını düzəldib əfv ediləndən sonra vəzir yenidən hörmət sahibi olmuşdu. Zala daxil olanda xəlifənin başındakı qara əmmamə gözündən qaçmadı. Xəlifəyə baş əyib salam verdi. Əslində vəzir yaxşı bilirdi ki, ərəb torpaqlarının əsl xəlifəsi o deyil, məhz onun sultanıdır. Odur ki, özünü tam sərbəst və rahat hiss etdi.

-Xəlifə həzrətləri, Sultan Toğrul bəy dediyiniz şərtləri qəbul edib. Qızınızın başlığı üçün üç yüz min dinar və Vasit ətrafının sizə verilməsi üçün bu fərmanı göndərib. - Fərmanı ona uzatdı və xəlifəyə danışmağa imkan vermədən dərhal əlavə etdi. - Sultanımız buyurdu ki, xəlifənin şərtlərinə əməl olunub, ona görə də gəlinimizi günü sabah alıb Təbrizə aparmalıyıq. Toğrul bəy nikahın tezliklə kəsilməsi üçün bizi Təbrizdə səbirsizliklə gözləyir. - Əlindəki daha bir fərmanı xəlifəyə uzatdı. - O, Altuncan xatunun Bağdad torpaqlarını qızınız Seyyidə xanıma iqta edilməsi barədə fərman imzalayıb.

Xəlifə nə deyəcəyini bilmədi, ağır-ağır gəlib bir vaxtlar hamıya, hətta onun özünə də möhtəşəm görünən taxtında oturdu. Bu taxt indi adi

taxta parçası kimi sadə və görkəmsiz idi. Həm də indi taxtında heç bir yumşaqlıq hiss etmədi. Sankı çınqıl üstünə oturdu. Bir qədər susdu, baxışlarını məchul nöqtələrdə dolaşdırdı, əsəbini boğmağa çalışdı.

-Vəzir Kunduri, doğrusu, mən bu izdivacın əleyhinəyəm. Özün bir düşün. Səhrada yetişən tənha gülü, səhra gözəlini yetmiş yaşlı qocaya,.. lap olsun cahangirə, sultanamı verəcəm?! Sən dünyagörmüş adamsan, vəzir, Bağdadda çox yaşamısan. Buralara yaxşı bələdsən. Rəvadırmı, qızımı bu qoca sultana ərə verim? Sarayda böyüyən, saray təhsili alan bir qız indi arabalardan düşməyəcək, çünki Sultan Toğrul ömrünü həmişə at üstündə keçirib, həmişə səfərdə olub. O hətta paytaxt Reyə çox az-az hallarda gəlir. Belə çıxır ki, qızım da tərəkəmə həyatını yaşamağa məcbur olacaq.

Sultanın yanında hörmətə minmiş vəzir onun gözündən düşmək istəmədiyindən əlini-əlinə sürtüb, xəlifə üçün beynində ən təsirli sözlər axtarmağa başladı və tezliklə də tapdı.

-Xəlifə həzrətləri, Sultanımız sizə elçi göndərəndə siz elçiləri qəbul edib şərtlər irəli sürdünüzmü?

Xəlifə başı ilə onun sözlərini təsdiqlədi:

-Elədir, şərt qoydum.

İndi də vəzir zalın ortasında var-gəl edib onun qarşısında dayandı.

-Elədirsə və əgər qızınızı ərə vermək istəmirdinizsə, niyə şərtlər irəli sürürdünüz? Bilirsiniz ki, Sultanımızın arzusu Peyğəmbər nəsli ilə qohum olmaqdır. Siz də buna razılıq verdiniz. Təsəvvür edin ki, mən əliboş geri qayıdıram, Toğrul bəyə çatdırıram ki, xəlifə həzrətləri fikrindən dönüb, daha qızını sizə vermək istəmir. Bilirsinizmi onda nə olacaq, xəlifə həzrətləri?

Xəlifəni həyəcan götürdü.

-Nə olacaq ki?

Vəzir xəlifənin səsindəki titrəyişi hiss etdi. Odur ki, təzyiqi bir qədər də artırdı:

-Deyim nə olacaq. Birincisi, Sultan fikirləşəcək ki, xəlifə sözündən qaçıbsa, deməli, onu cəzalandırmaq lazımdır. Odur ki, qoşun yığıb üstünə gələcək, məsələni zorla həll edəcək. İkincisi, əgər o qoşunla gələcəksə, onda sizə başlıq pulu, Vasiti sizə, Bağdad torpaqlarını isə qızınıza verməyəcək. Sadəcə olaraq qızınızı götürüb aparacaq. Üçüncüsü, Sultan həzrətləri əgər qoşunla gələrsə Bağdadda nələrin olacağını bilirsiniz; qan, qada, ölüm, dağıntı. Nəhayət, dördüncüsü, - vəzir dərindən nəfəs alıb, başgicəlləndirici məntiqə bir qədər ara verdi. - Belə vəziyyətdən sonra fikirləşirsiniz ki, Toğrul bəy

sizi xəlifəlikdə saxlayacaq? Onsuz da taxt uğrunda çarpışma gedir.

Xəlifə əl-Qaimə onun bu sözlərindən diksindi. O belə sonluğu fikirləşməmişdi. Bilirdi ki, türkmənlərdə verilən söz nə deməkdir. Söz ağzından çıxdısa, ona əməl etməlisən. Başını əllərinin içinə alıb, bir qədər susdu, nəhayət başını qaldırıb xəbər gözləyən vəzirin gözlərinin içinə baxdı.

-Yaxşı, nə deyirəm, söz vermişəmsə, deməli əməl eləməliyəm. Allah xoşbəxt eləsin, Allah xeyir versin!

...Səhərisi gün Amidül-mülk Kunduri Seyyidə xanımı da götürüb Təbrizə yola düşdü.

Sultan Toğrul Seyyidə xanımla Təbrizdə kəbin kəsdirdi. Bu əslində siyasət naminə lazım idi və o buna məcbur idi. Sultan arvadsız qala da bilməzdi. Bu hal rəiyyətə pis nümunə olardı. Qadınlar və kişilər ailəsiz qaldıqda yoldan aza, zina edə bilərdi. Evlilik kişilər üçün bütün yaşlarda xüsusi əhəmiyyət kəsb edirdi.

Amma bu nikahdan bir il sonra, 1063-cü ildə Toğrul bəy ağır xəstələndi və dünyasını dəyişdi. Onun nəşi paytaxt Rey şəhərində torpağa tapşırıldı.

## QARIŞIQLIQ

Alp Arslan gözlərini açdı. Ağrıları az da olsa çəkilmişdi.

Hər tərəf qaranlıq idi. Və birdən bu zülmət qaranlıqdan ona sanki bir əl uzandı. Bu əl rəhmətlik əmisi Toğrulun idi. Sultan Toğrul gülümsəyir, səssiz-səmirsiz ona baxırdı. Sonra əmisinin yalnız üz cizgiləri və ona "gəl-gəl" işarəsi verən sağ əli göründü. Sultan özündə elə rahatlıq tapmışdı ki, bu mənzərədən ayrıla bilmirdi. Əmisi Toğrul bəylə getməyi arzulayırdı. O da sağ əlini uzadıb əmisinin əlindən tutdu. Bu əlin arxasınca getmək, rahatlıq tapmaq, yer üzündə nə vardısa hər şeyi unutmaq istədi. Uzaqdan qanadlara bənzəyən işıq seli süzürdü. Bu işıqlı qanadları mələklərə bənzətdi. Yəqin onu aparmağa gəlirdilər. Əmisinin surəti bu işığın fövqündə yoxa çıxdı. İşıq getdikcə böyüyürdü. Özü də bilmədən "gəlin, gəlin" dedi. İşıq ona çatdı... və işığın arxasından həkimin sifəti göründü. Gözünü bir az da geniş açdı. Hər tərəfdə şamlar və qəndillər yandırılmışdı. Həkim onun tərini silərək, heç kimə baxmadan "sayıqlayır" dedi. Sultanın ağrıları yenidən qayıtdı. Bir az bundan qabaq özünü çox rahat hiss etmişdi. Zarımağa başladı. Həkim onu yavaşca ağzı üstə çevirdi.

Gör nə günə qalmışdı ki, ömründə bircə dəfə də olsun əli qılınca dəyməyən birisi onu istədiyi kimi sağa-sola fırladır, hərlədir, çevirirdi.

Həkim onun alt köynəyinin ətəyini ehmalca qaldırıb boynuna qədər apardı. Köməkçisinin uzatdığı məlhəmi ehtiyatla kürəyindəki xəncər yarasına sürtdü. Yara sanki gün-gündən dərinləşirdi. Qatil uzaqdan atılmış bir zərbədən ölmüşdü, o isə yaxından vurulmuş zərbə ilə, xəncər yarası, ölümlə gör nə vaxtdı çarpışırdı. Bircə bu yaraya qalib gələ bilsəydi... Amma çətin...

Kürəyinə məlhəm sürtüldükdən sonra Sultan bir qədər sakitləşdi. Hətta su da istədi. Əmisinin gülümsər sifəti gözlərinin önündən getmirdi. Bəlkə onu yenidən görə bilsin deyə gözlərini yumdu. Amma bu dəfə hafizəsi daha güclü çıxdı. Yenə də xatirələr canlandl.

Hakimiyyətinin ilk illəri idi...

Onda Sultan Toğrul bəy dünyasını yenicə dəyişmişdi. Sentyabr ayının ortaları olduğundan Mərvin havası çox gözəl idi. Ağacların yarpaqları saralıb qızarır, demək olar ki, hər gün yağış yağırdı. Axşamdan yağan yağış saralmış otları yenidən yaşıla çevirir, otların rəngi sarı-yaşıla çalırdı. Bu yağış türkmən obalarına yeni həyat gətirirdi. Yaydan hazırlanmış, qışa tədarük görülmüş ot tayalarının üstü örtülmüşdü ki, yağışdan bu tayalar qışa qədər çürüməsin. Payızda

isə yağışdan sonra yenidən göyərən çəmənliklər sürünün sayını artırırdı.

Toğrul bəyin sağlığında, cavan olmasına baxmayaraq, Alp Arslan bəy dövlətin şərq siyasətini icra edirdi. Bəlxi, Toxarıstanı, Tirmizi, Qubadiyanı, Vahş və Vəlvəlicini fəth edəndən sonra atası Çağrı bəy onu imperiyanın şərq hissəsinin vəliəhdi elan etmişdi. Türkmənlər arasında onun nüfuzu çox böyük idi. Toğrul bəy öz sağlığında Alp Arslanın kiçik qardaşı Süleymanı vəliəhd elan etmişdi. Sultanın nəşini Reydə torpağa tapşırdıqdan sonra Alp Arslan Mərvə gəlmiş və bir də nə zaman Reyə dönəcəyini heç fikirləşməmişdi də. Ona şərq torpaqlarının idarə edilməsi bəs idi.

...İlxıya dörd min yeni at gətirmişdilər. Alp Arslan ilxıçıbaşı ilə atların arasında gəzir, bəzən dalbadal bir neçəsinin dişinə baxır, bəzən atın kürəyinə əlini şappıldadıb göstərişlər verirdi. Arxadan böyük qulam dəstəsi gəlirdi. O göstərişlər verdikcə hər at təyinatına uyğun olaraq ayrılan yerə aparılırdı.

-Bax, bu atlar döyüş atlarıdır! - O, qulağı, boyu qismən balaca, ancaq ön ayaqları və sinəsi geniş olan atları göstərdi. - Bunlara xüsusi qulluq etmək lazımdır. Gələcəkdə belə atlar bizə çox lazım olacaq. Qabaqda hələ çox döyüşlər bizi gözləyir. - Əllərini gözünün üstünə çətir kimi qo-

yub, uzaqda otlayan bir sürü ata diqqət yetirdi. - Bax o atlar yük atlarıdır. Onları ayrıca tarlada, dəyirmanda, xışda istifadə edərsiniz.

Qulamların bir neçəsi dərhal onun göstərdiyi sürüyə doğru atlarını çapmağa başladı. Onlar həmin atları ilxıdan ayırıb harasa apardılar. Bu zaman yeri-göyü lərzəyə gətirən at kişnərtisi eşidildi. Alp Arslan dönüb baxdıqda gözlərinə inanmadı. Ağ rəngli döyüş atı sanki onu çağırırdı. Sanki üstündə də iki ağ qanadı vardı.

İlxıçıbaşıdan:

-Bu nə atdır belə? - deyə soruşdu.

-Sizə ərmağan gətirmişəm, qurban olduğum, - İlxıçıbaşı şövqlə bildirdi. - Xüsusi olaraq sizin üçün bəslənib.

O, ata yaxınlaşdı. At sakit durmuşdu. Əlini qaldırıb atın belini sığalladı, o tərəfinə, bu tərəfinə keçdi və birdən bu ağ qanadlı atı çapmaq istədi.

-Bu atı yəhərləyin!

İlxıçıbaşı təşvişə düşdü:

-Qurban olduğum, bu at vəhşidir, hələ minilməyib, ziyan verər sizə! Qoy hələ mehtərlər onu əhliləşdirsinlər, sonra siz rahatlıqla minib nə qədər istəsəniz çaparsınız.

Alp Arslan onun sözlərinə əhəmiyyət vermədən qulamın gətirdiyi yəhəri atın üstünə atıb, qarnı tərəfdən kəmərləri bərkitməyə başladı. At isə yenə sakit dayanmış, ona ram olmuşdu.

-Mən minən ata heç kim minməməlidir! - dedi və ayağını üzəngiyə qoymadan atın belinə sıçradı. At üstündə yük olduğunu hiss edib qabaq ayaqları ilə şahə qalxdı. Arxa ayaqlarını yerə möhkəm basıb sanki dümdüz durdu. Acıqlı səslə kişnədi, az qaldı belindəki adamı yerə çırpsın, ancaq o ayağını üzəngiyə möhkəm basmışdı. At yerində fırlanaraq, bu hərəkəti beş dəfə təkrar etdi. Birdən Alp Arslan yüyəni boşaltdı; buna uyğun olaraq at yerindən götürüldü və görünməz oldu. Bir azdan qəfil yoxa çıxdığı kimi qəfil də peyda oldu. Bu dəfə ram olunmuş halı onu deyəsən razı salmışdı. İlxıçıbaşıya çatar-çatmaz Alp Arslan əmr verdi:

-Bu atı mənim atlarıma qatın!

İlxıçıbaşı iki əlini sinəsinə qoyub "baş üstə" dedi. Sonra o, mehtərlərə göstəriş verdi. Bu zaman çapar onlara yaxınlaşdı. Beş metr qalmış yüyənin çəkib atı durdurdu, sonra yerə sıçrayıb Alp Arslana yaxınlaşaraq baş əydi:

-Həzrət, Reydən qonaqlarınız gəlib, obada sizi gözləyirlər!

-Kimdir gələnlər? - Alp Arslan müxtəsər soruşdu.

-Vəzir Nizam ül-Mülk və əsabələri.

Ürəyində "Allah xeyirliyə calasın, Nizam ül-Mülk elə belə gəlməz" dedi.

-Atımı gətirin!

Qulamlar bir andaca onun atını gətirdilər. Alp Arslan sıçrayıb ata minərkən "getdik" söylədi və atını obaya doğru çapdı...

Çadıra girəndə vəzir Nizam ül-Mülk qımıs içirdi. Vəliəhdi görcək cəld ayağa qalxıb baş əydi. Hər ikisi bir-birinin dirsəyindən tutdu. Alp Arslan qonağa əyləşməyə yer göstərib, özü də taxtında oturdu və qımıs istədi. Qımıs gətiriləndən sonra vəzirdən savayı hamının getməsinə işarə verdi. Bilirdi ki, vəzir bu uzaqlıqda yolu boşuna gəlməz. Buna ciddi səbəb olmalıydı ki, Nizam ül-Mülk Mərvə özü gəlsin. Bu dəfə heç çapara da inanmayıb.

Vəliəhd qımısdan bir qurtum içib soruşdu:

-Reydə huzurdurmu, hər şey yerindəmi? - Hərçənd özü də bilirdi ki, hər şey yerində olsaydı, vəzir burada olmazdı. - Mən Reydən dönəndə işlər heç də yaxşı getmirdi. Elə bunları görüb Mərvə tez dönmək istədim. Fikirləşirəm düz etmişəm.

Vəzir yaraşıqlı saqqalını tumarladı:

-Düz buyurursunuz, Sultanım! Paytaxtda işlər heç də yaxşı getmir. Dövlətdə qarışıqlıq yaranıb, hakimiyyət uğrunda mübarizə gedir, heç kim heç kimə qulaq asmır. Belə getsə canınızla, qanınızla qurduğunuz dövlət çökəcək.

Nizam ül-Mülkün ona "Sultanım" deməsi Alp Arslanın diqqətindən yayınmadı. Gözlərini qı-

yıb, "burda bir iş var" deyə fikirləşdi. Əslində paytaxtda nə baş verdiyini gözəl bilirdi. Mərvə dönən kimi Reydəki casuslarının sayını üçqat artırmışdı. Hər gün oradan bir-birindən xəbərsiz iki-üç adam gəlir və vəliəhd də onları tək-tək qəbul edirdi. Onlar məlumatları çatdırıb, tələsik geri dönürdülər. O səlcuq şahzadələri arasında hamıdan daha məlumatlısı idi. Amma indi özünü bilməməzliyə vurdu. Belədə vəzir içində gəzdirdiyi bütün fikirləri, sirləri tam açıb ortalığa tökəcəkdi.

-Niyə qarışıqlıqdır, ya vəzir? - təəccüblə soruşdu. - Mən biləni vəzir Amidül-mülk Kunduri Süleymanı taxta çıxardıb. Əmimin vəsiyyətini də əsasən o yerinə yetirib.

Nizam ül-Mülk gənc vəliəhdi məlumatsız zənn edib, söhbəti uzaqdan başlamaq istədi və bir qurtum qımıs içib, boğazını artladı.

-Sultanım, məlumunuz olsun ki, sizin sülalədən taxt-taca haqqı olan üç nəfər var, biri siz - Sultan həzrətləri, biri kiçik qardaşınız Süleyman, o biri də hələ rəhmətlik Sultan Toğrul zamanında hakimiyyət haqqını ortaya qoyan Qutlamış ibn Arslan bayqudur. - Söhbətinə ara verib vəliəhdə baxdı. Ancaq onun gözlərində öz axtardığını - hakimiyyət hərisliyini görmədi. Gözlərində biganəlik vardı. Ayağa durdu, gəlib onun qarşısında dayandı. - Sultanım, bilirsiniz ki, Süleymanın və-

liəhd təyin edilməsində ananızın, yəni Çağrı bəyin dul qadını, Toğrul bəyin xanımı və vəzir Kundurinin böyük təsiri olmuşdur. Xanım bunu hansı məqsədlə edib bilmirəm, amma Amidül-mülkün öz məqsədləri vardı.

Alp Arslan oturduğu yerdə qamətini düzəldib, sadəlövhcəsinə:

-Öz marağı,.. onun burada nə marağı ola bilər ki? - deyə soruşdu.

-Bəli-bəli, Sultanım, öz marağı var. - Vəliəhdin ona diqqət kəsilməsi vəziri bir az da həvəsləndirdi. - Birincisi, - barmağını qatladı, - Süleyman şahzadə azyaşlıdır. Belə olduğu halda dövləti Süleymanın adından Kunduri idarə edəcəkdi, ikincisi, - ikinci barmağını qatladı, - Vəzir saraya və bütün əyalətlərə öz adamlarını yerləşdirəcək. Üçüncüsü isə vəzir daha uzağa gedəcəkdi, yəni Səlcuq sülaləsini devirib, öz sülaləsini hakimiyyətə gətirəcəkdi!

Vəliəhd dodaqlarını büzdü.

-Sən bütün bunları keçmişdə olan kimi danışırsan: "edəcəkdi, gətirəcəkdi",.. Bəlkə aydın danışasan.

-Bəli, Sultanım, - Nizam ül-Mülk cavab verdi, - keçmişdə olan hadisələr kimi danışıram, çünki Qutlamış Girdkuh qalasından Toğrul bəyin ölüm xəbərini alan kimi çoxlu türk əsgəri toplayaraq Reyə doğru hərəkət etməyə başladı.

Hətta paytaxta məktub göndərdi. Məktubda belə yazmışdı: "Səltənətin hüquqi mənada mənə keçməsi lazımdır, çünki mənim atam Arslan bayqu ən böyük idi və Səlcuq boylarının hökmdarı idi!" Bax belə, Sultan həzrətləri. Qutlamışın marağı sultan olmağa doğrudur. O hətta artıq buna qismən nail də olub.

Alp Arslan ayağa durdu. Bunlar ciddi dəlillər və ağır ittihamlar idi.

Bir qədər var-gəl edəndən sonra gəlib onun qarşısında dayandı.

-Yaxşı, bəs sonra nə oldu?

-Sonrası daha fəlakətlidir, Sultanım. Vəzir Amidül-mülk İnanc bəyin başçılıq etdiyi ordunu ona qarşı göndərsə də əsgərlər könüllü olaraq Qutlamışa əsir düşdülər. Qutlamış da müqavimətsiz Reyə girib özünü sultan elan etdi. Paytaxtda qarışıqlıq yaranıb. Süleyman Şiraza qaçıb. Kunduri iç qalanı möhkəmlədib müdafiə olunur, özünə sizin timsalınızda müttəfiq axtarır. Çox güman ki, yaxın günlərdə ondan barışıqnamə alacaqsınız. Qutlamış isə şəhərdə ona əks olanların hamısını edam etdirir. Bax belədir vəziyyət, Sultanım.

Vəzirə diqqətlə qulaq asan vəliəhd yenə də çadırda gəzişdi. Hiss edirdi ki, yaxınları onun başı üstündən hakimiyyət davası edirlər. Deməli Səlcuq sülaləsinin qara günləri başlayırdı.

Artıq əmisi Sultan Toğrulun, atası Çağrı bəyin zamanındakı birlik pozulub. Qohumlar bir-birilərinin üstünə qalxır, hakimiyyət uğrunda qanlı mübarizə gedir, yaxınlar özlərini qana bulaşdırırlar... Bir anlığa bu mənzərədən ürəyi ağrıdı, amma özünü o yerə qoymadı. Sakit səslə:

-Bütün bunlardan mənə nə, Nizam ül-Mülk? - deyə soruşdu. - Mənə şərq torpaqlarının hakimiyyəti bəs edər. Haqqım olsa da, sultanlığa iddia etmirəm.

Vəzir onun qarşısında diz çökdü.

-Sultanım, Oğuz boyları, camaat arasında ən nüfuzlu şəxs sizsiniz. Oğuz boyları sizin arxanızca ölümə getməyə hazırdır. Çünki oğuzlar sizdən yalnız mərdlik, ədalət, sözübütövlük görüblər. Haqqı heç zaman nahaqqa verməmisiniz. Heç kimin parasında gözünüz olmayıb. Haqsız olaraq bir nəfər belə cəzalanmayıb. Bir də... - O sözünü kəsib, fasilə verdi, başını qaldırıb aşağıdan yuxarıya vəliəhdə baxdı, - Bir də kim təminat verə bilər ki, sabah Qutlamış şərq torpaqlarında da hakimiyyətini gücləndirmək istəməyəcək? Sultan olandan sonra əslində siz ona tabe olmalısınız. Sizsə tabe olmayacaqsınız. O zaman toqquşacaqsınız. O halda indi, Qutlamışın zəif olduğu vaxt niyə onunla toqquşmayasınız? Siz etməsəniz o sizi bitirəcək. Qüvvətlənən kimi birinci sizi bitirəcək. Yoxsa nüfuz qazana bilməz.

- Lənət şeytana! Vəzir düz deyirdi!

Alp Arslanın sifəti qayğılanmış, gözlərinə bulud çökmüşdü. Gec-tez onunla üz-üzə gəlməliydi. Özü etməyəcəkdisə, əks tərəf bunu edəcəkdi.

-Qalx, - dedi. Vəzir dikəlib ona diqqətlə baxdı. Gözlərində sevinc və qorxu vardı, - Bəs sənin burada marağın nədir? Yəqin ki, bunu təkcə dövlətə ürəyin yandığından etmirsən.

Nizam ül-Mülk başını aşağı saldı. Sonra onun səsi güclə, quyunun dibindən eşidilirmiş kimi zəif gəldi:

-Sultanım, məsləhət olsa məni baş vəzir Kundurinin yerinə təyin edərsiniz... O artıq qocalıb.

Səmimi etiraf idi. Belə birisi vəzifəcə yüksəlmək üçün çox şey edərdi. Onsuz da sultan olardısa özünə vəzir təyin etməliydi. Tanımadığı birisini baş vəzir qoymayacaqdı. Nizam ül-Mülk həm də ağıllı və bacarıqlı insan idi.

Alp Arslan Nizam ül-Mülkə tapşırıqlarını verib, hazırlaşmağa göndərdi.

Bir neçə gündən sonra gözlənildiyi kimi, Kundurinin barışıqnamə məktubu gəldi.

Vəliəhd öz zamanının çatdığını anlayıb, böyük ordu topladı və Rey şəhərinə doğru hərəkət etdi.

Alp Arslan bunun zəfər yürüşü olduğunu yaxşı başa düşürdü...

Qutlamış Alp Arslanın ordusunun gücünü bilirdi. Xalq arasında nüfuzunun çox olmasından da xəbərdar idi. Əgər o, Reyi mühasirəyə alardısa, camaat özü ayağa qalxar, qapıları açıb şəhəri ona təslim edərdi. Odur ki, onunla döyüşü şəhərdən kənara aparmaq lazım idi. Əlavə hiylə və tədbirlər də yaxşı təsir göstərəcəkdi. Alp Arslan mərdliyə, düzlüyə, digər kişilik keyfiyyətlərinə böyük üstünlük verirdi. Müharibədə isə əsas olan düşməni, rəqibi məğlub etməkdi. Bu işdə düzgün sayılan-sayılmayan bütün vasitələrdən istifadə olunurdu.

Qutlamışın özünün məqbul hesab etdiyi xüsusi vasitələr, yollar, tədbirlər vardı. "Alp Arslan bunların bircəsinə üstün gələ biləcəkdimi?" Qutlamış belə fikirləşir və tədbirlərini də buna uyğun formalaşdırırdı.

Reyə az qalmışdı...

Alp Arslan ordunu tam münasib yerdə topladı. Burada orduya arxadan və cinahlardan hücum ehtimalı çox aşağı idi. Rəqiblə üzbəüz və kişi kimi vuruşacaqdı. Hətta əsgərlərinə ehtiyac olmadığı halda rəqibi öldürməməyi, yaralamağı və ya silahını atmağa məcbur etməyi tapşırdı.

Hər ikisi eyni ulusdan - türk-səlcuq ulusundan idi.

Nəhayət ordunun bayraqları qaldırıldı, təbillər çalındı. Ordu səf-səf durmuşdu. Hər kəs

hücum əmrini gözləyirdi. Vəliəhdin böyük qırmızı çadırı düşərgənin ortasında qurulmuşdu. Nizam ül-Mülkə sağ cinah tapşırılmışdı. Bu zaman sol cinahın sərkərdəsi özünü təngənəfəs vəliəhdə çatdırdı və dizini yerə qoyub baş əydi.

-Sultanım, Qutlamış çayın ağzına bənd salıb, axarı qala divarlarına tərəf döndərib, indi orda yüz metr uzunluğunda bataqlıq yaranıb. Atlar keçə bilmirlər, palçığa yapışırlar, nalları qopur. Heç cürə hərəkət etmək mümkün deyil. Nə edək?

Alp Arslan Nizam ül-Mülkə baxdı. Vəzir dodaqlarını naəlaccasına büzdü; ağlına bir şey gəlmirdi. Alp Arslan: "Elə isə hücum bu gün olmayacaq" deyə düşündü və sərkərdəyə:

-Səbr edin, tələsməyin, - dedi. - İmkan verin özləri hücuma keçsinlər.

Gecə gözünə yuxu getmədi. Əvvəlcə çadırın qarşısında qalanmış və indi artıq közərən tonqala baxa-baxa fikrə getdi. Sonra durub çadırın ətrafında var-gəl elədi. Çadır ipini tutub bir müddət Ayı mühasirəyə almağa çalışan qara buludlara tamaşa elədi. Havadan payız yağışının torpaq qarışıq nəm iyi hiss edilirdi. Əgər yağış yağardısa vəziyyət qismən dəyişə bilərdi. Torpaq yaş və sürüşkən olacaq, Qutlamış da qəfil hücuma keçə bilməyəcəkdi. Palçıqda piyada da, atlı da yeriməyə çətinlik çəkəcək, yorulub əldən

düşəcəkdi. Mühasirədə qalmaq isə qalanı zəiflədəcək, qüvvəsini tükəndirəcəkdi. Bu ərəfədə qalanın içində də çox hadisələr ola bilərdi. Yağışın yağması üçün Tanrıya dua etməkdən başqa yol qalmamışdı. Ən rahat olanı indi bir yağmur ayini gerçəkləşdirmək idi.

Qədim oğuz-şaman sirlərinə vaqif olan sərkərdə üçün bir anda şamana çevrilmək çətinlik törətmədi. Özü oğuz olmayan kəs Oğuz elminə vaqif ola bilməzdi. Oğuz elminin isə gerçəkləşdirməyə qadir olmadığı istək yox idi. Yazda buludlar yağışa çevrilmədən axıb keçməsin deyə kahinlər üzü göylərə sarı nələr etməzdilər!

Alp Arslan astadan yağış nəğməsini oxumağa başladı. Dualar, ahəstə rəqs, mimika və jestlər işə düşdü. Sonra tonqal başına hərlənərək kösövlərin üstünə xüsusi otlar, metal qırıntıları səpdi. Sərkərdələr ağac başına keçirdilmiş ayı və pələng başının sümüklərini tonqala sarı tutdular.

Bir azdan bütün düşərgə oyandı, oxuyub rəqs etdilər.

Alp Arslan sonda yalın əlini uzadıb, tonqalın içərisindən bir yanar kösöv götürdü, üzünü göylərə tutub boz qurd kimi uladı.

Sanki bura canavar düşərgəsi idi; işıldayan gözlər göylərə doğru dikilmişdi. Elə bil eyni anda minlərcə boz qurd ulayırdı.

Qalanın içərisində, yanar sobanın önündə, öz yatağında, üstünə pələng dərisi örtərək yatmış

Qutlamış ulartı səsinə diksinib oyandı və dik qalxdı. O andaca bədəni üşəndi. Qollarını ovxalayaraq  baxışlarını içərinin alaqaranlığında gəzdirdi və səsin haradan gəldiyini bilmək istədi.

Qalxıb eşiyə, oradan isə qala divarının mağzallar hissəsinə keçdi və diş ucluğun arasından irəliyə - qaranlığa sarı baxdı.

Qala bu qaranlıqda hər tərəfdən gipgirdə, xırda işıqlarla əhatə olunmuş, mühasirəyə alınmışdı. Bütün bədəni gizildədi.

Birdən ildırım çaxdı. Əvvəlcə xırda damcılar düşməyə, sonra isə leysan yağmağa başladı. Qutlamış yağışın yağmasına sevindi, qarşıda canavar gözləri kimi parıldayan  işıltılara sarı istehza ilə gülümsədi, sonra tez odasına qayıtdı...

...Yağış getdikcə güclənir, vəliəhd isə hələ çadıra girmək istəmirdi. Ətrafı izləyən  baxışları düşərgəni əhatələyən meşəyə sataşdı. Əlini qaldırıb kimsənin onun yanınca getməsinə icazə vermədi, nəzərdə tutduğu tədbirə uyğun olaraq meşəyə doğru addımladı. Gəlib hündür, yoğun şam ağacının altında dayandı. Buranı yağış tutmurdu. Bu zaman yenə güclü şimşək çaxdı. Şimşək onun yanındakı hündür və yoğun şam ağacını qılınc kimi iki yerə bölüb yerə yıxdı. Sanki qəssab əlindəki bıçaqla sümüksüz ət doğrayırdı. Ağacı elə bil mişarlamışdılar. O uzun müddət parçalanmış ağaca baxdı, sonra qəfildən iri addımlarla ça-

dırına tərəf döndü. Çadırın ağzına çatan kimi əmr verdi:

-Bütün sərkərdələri yanıma çağırın!

Bir qədər sonra bütün minbaşılar onun hüzurunda idilər.

-Bəylər, - Alp Arslan düşündüklərini dilə gətirdi, - Çıxış yolumuz belədir. Deməli, yaxınlıqdakı meşədən ən yoğun və ən uzun şam ağaclarını kəsib döşəmə taxtası düzəldirik. Uzunluğu ən azı altı arşın, eni isə yarım arşın olmalıdır. Bunlar hazır olduqdan sonra bu taxtaları düzürük keçilməz palçığın üzərinə. Atlarımız qatı palçıqlı sahədən taxta üzərində keçəcək. Haydı iş başına! Səhər açılar-açılmaz Qutlamış bizi öz qarşısında görməlidir! Haydı, igidlər!

...Qutlamış Alp Arslanın bu palçıqlı yolu, xüsusən də onun yaratdığı bataqlığı keçə bilməyəcəyinə və geri qayıdacağına əmin idi. Yağan yağış onun qəfil hücumlar üçün nəzərdə tutduğu yolları, cığırları da yəqin ki, keçilməz etmişdi. O yerlərin quruması ən azı iki gün vaxt aparacaqdı. Odur ki, tam arxayınçılıqla uzandı, yenidən pələng dərisini öz üstünə çəkdi və şirin yuxuya getdi.

Sobadakı odunlar çırta-çırtla yanmaqda idi...

Yoğun biləkli əsgərlər bu zaman iri gövdəli ağacları balta ilə kəsib aşırır, digərləri isə bu

ağacları balta və mişarla tələsik kəsir, doğrayırdılar.

Səhər açılanda Qutlamışı nə azan səsi, nə də Günəş şüaları deyil, keşikçi oyatdı. Kişi dilini udubmuş kimi vəhşət içərisində eşiyi göstərirdi. Qutlamış gəlib eyvana, buradan isə qala divarına keçdi. Gözlərinə inanmadı. Alp Arslanın ordusu qalanın əlli metrliyində dayanıb, qılıncını siyirmiş vəziyyətdə hücum əmrini gözləyirdi. Qutlamışın düşərgəsində davul və zurna səsləri eşidildi. Amma çox gec idi. Qəfil hücum döyüşün taleyini həll etdi. Qutlamışın əsgərləri özünə gəlməmiş Alp Arslanın ordusu onları yaralamağa, silahını vurub salmağa, hissə-hissə əsir götürməyə, ciddi müqavimət göstərənləri isə ot kimi biçməyə başladı. Qutlamış özü də əlində qılınc irəli atıldı. Ancaq şəxsi nümunə göstərməsinin də köməyi olmadı. Ətrafa kəsilmiş baş, ayaq, qol parçaları uçuşurdu.

Bir azdan rəqib döyüşçülər müqavimətin əhəmiyyətsiz olduğunu başa düşüb silahı qarşı tərəfin ayaqları altına atmağa başladılar.

Alp Arslan özü ürəyi istəyən qədər döyüşə bilmədən hər şey başa çatdı.

Ölənlər arasında Qutlamış da vardı. Alp Arslan onun meyidi qarşısında diz çöküb ağladı, sonra onu şərafətlə dəfn etdirdi.

Reyə daxil olan vəliəhd əmisi Toğrul bəyin taxtına oturub özünü Sultan-əl əzəm elan etdi. İyirmi yeddi aprel 1064-cü ildə isə Bağdad xəlifəsi onun adına xütbə oxutdurdu. Yeni Sultanın ilk fərmanı Amidül-mülk Kundurini Mərvərruda sürgün etdirməkdən ibarət oldu. Sonra iki qulam göndərib onu orada öldürtdü.

Alp Arslanı qarşıda yeni fəthlər gözləyirdi. Daxildə elə bir ciddi rəqibi qalmamışdı. Bu dəfə o əski törələr kimi imperiyanı şərq və qərb torpaqlarına bölmədi. Dövləti vahid halına gətirərək, onu birləşdirdi.

## ANİNİN ALINMASI

"İkili hakimiyyət"dən imtina etdikdən və dövləti vahid halda idarə etmək qərarından sonra səlcuqların fəthi sürətləndi. Alp Arslanın qarşısında çox böyük işlər dururdu: Şərqdə bütünlüklə Türküstanı özünə tabe etdirmək, Çindən, Hindistandan qərbə gedən ipək yoluna tam nəzarət etmək, qərbdə isə Bizans torpaqlarının hesabına Egey dənizinə qədər torpaqları ələ keçirmək. Toğrul bəyin siyasətini davam etdirən yeni sultan əsas hərəkət qüvvələrini sərhəd ərazilərində yerləşdirməklə axınçıların əsas istiqamətini mərkəzdən yayındırır, bununla da paytaxtın işini yüngülləşdirir, ölkənin və

dövlətin idarə olunmasını asanlaşdırırdı. Bu isə təkcə paytaxtı deyil, ölkənin bərabər qaydada hər yerini qüvvətləndirir və yeni fəthlərə yol açırdı. Axınçılar yeni fəthləri hər gün, hər ay, hər il görmək istəyirdilər. Haranınsa fəth edilməsi xalqın həyat tərzinə çevrilirdi. Bu, səlcuqların ruhunu da qüvvətləndirirdi. Onlar hara gedirdilərsə, oralara özləri ilə dövlət quruculuğunu aparır, yerli xalqlarla qohum olur, onlardan qız alır, çoxlu övlad dünyaya gətirirdilər.

Dünya və xalqlar sanki böyük türk fəthinə hamilə imiş kimi onun yolunu gözləyirdilər. Hakim zümrələr axınçıların gəlişini eşitdikdə daha ciddi müqavimət barədə düşünə bilmirdilər. Çoxları bu yürüşdən faydalanmaq istəyirdi. Öz ölkəsinin hakim zümrəsindən narazı olan xalqlar axıncıların gəlişinə daha artıq sevinirdi. Səlcuqlar hər yerdə ədalətli hakimiyyət qurur, xalqı daha çox razı salmaq barədə qərarlar qəbul edirdilər.

Alp Arslan tələb və istəklərə uymur və heç tələsmirdi. Onun gücünü düşünülmüş şəkildə israf etmək və onu zəiflətmək istəyən qüvvələr ola bilərdi. Böyük sərkərdənin isə məqsədi birinci növbədə bütün türk torpaqlarını birləşdirmək və qüvvətləndirmək idi. Oğuz türklərinin əsas Vətəni Qafqaz, Azərbaycan idi. Bu ölkədə oğuzun ulu ruhu dolaşırdı. Azərbaycan Oğuz elminin və mədəniyyətinin beşiyi idi.

...Alp Arslan öz əsas qüvvələrini Azərbaycana keçirtdi. Bu da heç təsadüfi deyildi. Gəncə və Bərdə arasını ona görə qışlaq seçdi ki, bu torpaqlar qışda da heyvanlara yaşıl ot yedizdirirdi. Buradan bir neçə hakimliyə nəzarəti gücləndirib, Bizansın şərq torpaqlarına daxil olmaq daha asan idi. Naxçıvan hakimi səlcuqların gəlişini təbii qəbul etsə də, üç Azərbaycan hakimi arasındakı ciddi ədavət onları tamam zəiflətmişdi. Naxçıvan, Arran, Şirvanşah hakimləri bir-biri ilə o qədər sərt və qanlı vuruşurdular ki, səlcuqlar gəlməmişdən bir-birilərini bitirib tükəndirmişdilər. Bir başqa, uzaq və yad qövm gələrdisə, onların üçünü də asanlıqla məhv edə bilərdi. Sərhəd qalaları, qəsrlər, əyanların ailələri, karvanlar gah birisinin, gah da o birisinin əlinə keçir, kəndləri, zəmiləri yandırır, insanları, ailələri qul edib uzaq yerlərə göndərir və satırdılar. Amma bu hakimlər səlcuqların karvanlarına, elçilərinə, malına-mülkünə əl vurmaz, heç bir əmanətinə toxunmazdılar. Bilirdilər ki, axınçılar bir neçə gün sonra harada olsalar onları tapacaq və çox sərt cəzalandıracaqlar. Bu, onların həyat tərzi idi. Onlar cəzalandırmadan ötüşmürdülər. Çox sürətlə irəliləmələri də mühüm şərt idi. Səsi İsfahandan gələn axınçıların at nallarının taqqıltısı ya sabah, ya da o birisi gün Şirvandan eşidilə bilərdi. Odur ki, onlara dəyilmir, toxunulmurdu. Yerli hakimlər başlarını cəncələ

salmaq istəmirdilər. Bir dəfə Toğrul bəyin zamanında Arran hakimi Əlul Əsvar Şavur ibn Fədlin başı çox ağrımışdı. Səhvən, yaxud bilərəkdən, səlcuqların gücünü görmədən, hiss etmədən Şavur ibn Fədlin gömrük adamları onların karvanına elə bir vergi qoymuşdular ki, karvan o yana, karvandakılar da canlarını belə verərdilərsə də gömrükçülərdən yaxalarını qurtara bilməyəcəkdilər. Sərhədçilər belə qərara gəlmişdilər ki, karvandan bircə nəfəri sərhəddən buraxıb lazım olan məbləği gətirmək üçün Təbrizə göndərsinlər. Bir neçə gündən sonra sayı-hesabı bilinməyən axınçılar sərhədi keçib Arranı viran qoyub yağmaladılar. O - bu, yerli hakimlər Sultanın verdiyi karvanlara nəinki əl dəymir, əksinə onlara hörmətlə yanaşırdılar. Arran hakimi Şavur ibn Fədl səlcuqlara qırx min dinar verməklə canını qurtardı. Həmin gömrükçülərin isə bütün nəslini xidmətdən və imtiyazlardan məhrum etdilər. Sərhədçilərə qəti göstəriş verilmişdi ki, səlcuqların, yaxud Sultan adından gələn zəvvarların, tacirlərin, dərvişlərin və başqalarının - birinin də burnu qanamamalı, hörmət-izzətlə, hətta xüsusi ehtiramla qəbul edilməli, eyni cür də yola salınmalıdırlar. Əvəzində isə türkmənlərin heyfini Şavur ibn Fədl Şirvanşah Fəriburzdan çıxdı. Arran hakimi təkcə bir ildə Şirvana dörd dəfə yürüş etdi. Nəticədə torpaqlar və əhali qarət olundu, qoyun və iribuynuzlu sürü-

lər Arrana aparıldı, sərhəd qalaları ələ keçirildi və o, axınçılara verdiyi verginin birə beşini götürdü. Şirvanşah Fəriburz bir çox yerlərdən, o cümlədən Dərbənddən, Maskatdan, Tabasarandan oğlu Firidun vasitəsilə kömək istəsə də şahzadə Şamaxıya əliboş qayıtdı.

Yalnız Sultan Alp Arslan Anini aldıqdan sonra Kartli-Kaxetiya hakimi IV Baqrad, Arran və Şirvanşah hakimləri səlcuqlardan asılı olmağa və vergi ödəməyə razı oldular. Sultanın Şirvana cahangir kimi girməsi onları sakitləşdirdi.

Bunlar hələ bir müddət sonra olacaqdı.

Hələlik isə Sultanın qarşısında Bizans imperiyasının şərqində ən güclü qala sayılan Ani şəhərinin fəthi dururdu. Ani tam alınmaz qala idi. Onun ətrafının divarları iri və sərt daşlar, qurğuşun və dəmirlə işlənib bərkidilmişdi. Şəhərin çox hissəsi Araz çayının üstündə idi. Şəhərin əsas yolu bir xəndəkdən keçirdi. Onun üstündə isə bizanslılar qatı və sal daşlardan möhkəm divar çəkmişdilər. Burada kilsələrin sayı-hesabı yox idi. Az qala hər məhəllənin ayrıca kilsəsi vardı...

...Usta Muradın karvanı Bakıdan Gəncəyə qədər getmək üçün balaca kolları, dərələrdə az-az görünən yulğunlu çölləri, düzənliyi keçməliydi. Bura ta qədimdən "İpək yolu" adlanırdı. Karvanlar bəzən buradan, bəzən isə Şamaxı yo-

lundan keçərdi. Təbiəti kasıb olan bu isti çöllüklərdə ilanlar mələşirdi. Yalnız Kür çayına yaxınlaşdıqca bu yerlərin təbiəti zənginləşir, çöl heyvanları çaya yaxın olan yerlərdə çoxalırdı. Buradan sağ tərəf uzaqlarda çox da hündür olmayan dağlar görünürdü. Amma bu dağlar bu isti düzənliyə əsla sərinlik gətirmir, şəhər ilğımı, göl ilğımı, meşə ilğımı karvandakıları yorurdu. Usta Murad da belə ilğımları ilk dəfə görəndə karvanbaşıdan hansısa bir gölə yaxınlaşdıqlarını dedi və o gölün qırağında düşərgə salıb yuyunmalarını münasib hesab etdi. Bir azca dincələ və sərinlənə bilərdilər. Təklifi eşidən karvanbaşı gülüb, qarşıdakı otuz fərsəx məsafədə heç nə olmadığını bildirdi. Onun gördüklərinin isə ilğım olduğunu dedi. Hətta buna alışmaq lazım gəldiyini də məsləhət gördü.

Ömründə Savalan və Təbrizdən başqa heç bir yeri görmədiyi üçün Usta Murad buna çox təəccüblənmişdi. Heç "ilğım" sözünün mənasını da düz-əməlli bilmirdi. Sonradan karvanbaşı ona "ilğım" sözünün gözaldatması demək olduğunu başa saldı. Eyni yerlərdə - səhrada, düzənlikdə uzun zaman gedəndə gözaldatması başlanır və buna da ilğım deyilirdi.

Uzun yol boyu Usta Murad arada Savalandan ötrü darıxırdı. Heyf deyildi Savalan! Zirvəsindən baxanda, əlli fərsəxdə nə vardı hamısı

apaydın görünürdü. Amma... amma ona darıxmaq olmazdı. Baş Dədə ona mühüm bir tapşırıq vermişdi. O bu tapşırığı yerinə yetirməli idi. Özlüyündə yeni bir şey icad etmişdi. Hətta Sultan Alp Arslanla çöllükdə bunu qoyunlara da tətbiq edib yoxlamışdılar. Usta Murad Sultana yeni mancanaq "daşları" təklif etmişdi. Qəribəsi o idi ki, bu heç də kürə "daşlar"dan deyil, divarları çox nazik olan və bir-biri ilə nazik tellərlə bağlanan dəmir kürədən ibarət idi. Bu dəmir kürə o qədər zərif idi ki, ona kobud yanaşanda, yaxud onu daş kimi yerə atanda öz-özünə dağılır, onları bağlayan tellər isə qırılırdı. Dəmir kürənin içi isə iki hissədən ibarət idi və ortası boş idi. Usta Murad bu dəmir kürənin aşağı hissəsinə böyük mismarları xırda-xırda doğrayıb doldurmuşdu. Bu iri dəmir kürə mancanağın üstünə qoyulduqdan sonra üst hissəsi qara yağla doldurulur və od vurulurdu. Daha sonra dəmir kürənin qızmasını gözləyirdilər. Bu halda o atıldığı yerə düşəndə daha tez parçalanır və partlayırdı. Qara yağ alovlandıqdan sonra mancanaq tarıma çəkilərək hədəfə atılırdı. Atəş, od effekti yaradan bu dəmir kürələr yerə düşdükdən sonra hər tərəfi alova bürüməklə yanaşı kürənin ikinci hissəsində olan mismar qırıntıları ətrafa uçuşur və qarşısında olan bütün canlıları dəlmə-deşik edirdi. Bu icadı Usta Murad qoyunların üstündə sınaqdan keçi-

rəndə Sultan məmnun qalmışdı. Qoyunların yarısından çoxu qırılıb tələf olmuşdu. Hətta əsgərlər onların çoxunu kəsməyə də yetişməmişdilər.

Kür qırağına - Ərəşə çatanda karvanbaşı dəstəyə tərəf qışqırdı:

-Düşərgə salırıq, gecəni burada keçirəcəyik!

...Günorta namazından bir qədər keçmişdi. Gəncə də uzaqda deyildi. On dörd, on beş fərsəx məsafə qalardı. Gün çıxmamış buradan tərpənsəydilər, axşam Gəncəyə çatardılar.

Qulamlar dəvələrin üstündəki qara yağla yüklənmiş tuluğları açıb yerə qoydular və düşərgə salmağa başladılar. Çox keçmədi ki, çadırlar quruldu, ocaqlar qalandı, dəvələr, atlar Kür qırağında suvarıldı.Bir azdan ocaqların üstündən gələn xörəyin iyi Tuğay meşələrinə yayıldı. Sərin şimal mehi xörəyin iyini də götürüb aşağıya - bir fərsəxlik əraziyə yaydı.

Yolçular doyunca istirahət etdilər. Çoxunu yuxu tutdu, elə uzandığı yerdəcə gözləri yumuldu.

Sükutu aşağıdan eşidilən at səsləri pozdu. Düşərgə əvvəlcə bir qədər təşvişə düşdü. Amma karvan əhli gələnlərin qaçaq-quldur paltarında olmadığını gördükdə bir qədər sakitləşdi. Karvanbaşı irəli yeriyib qabaqda gələn atın yüyənindən tutdu.

-Xoş gəlmisiniz! Buyurun süfrəyə əyləşin, Allahın olanından yeyin.

-Çox sağ olun, siz hardan gəlib, hara gedirsiz?

Karvanbaşı əlini düşərgəyə tərəf uzatdı:

-Təbrizdən Bakıya qara yağ almağa getmişdik. Burdan da yolumuz Gəncəyədir.

Bu dəfə bir ayrı atlı ötkəm səslə soruşdu:

-Karvan kimindir, a kişi?

Karvanbaşı ona əhəmiyyət vermədən sakitcə:

-Karvan Sultan Alp Arslanındır. - dedi. Sonra çuxasının içindən dürmələnmiş bir kağız çıxarıb, ona göstərdi. Atlı kağızı alıb, ehmalca açdı, oxuyaraq geri qaytardı.

-Hə lap yaxşı, - dedi. - Mən Şirvanşah Fəriburzun oğlu Firidun bəyəm. Şahımız Kür qırağında ova çıxmışdı. İndi dincəlir. Aşağıda sizin atlarınızın səsini eşitdikdə, bişirdiklərinizin iyi burnumuza dəyəndə başa düşdük ki, karvandır, uzaqdan yol gəlir, həm də qonaqdırlar. Şahımız məni yanınıza yolladı ki, sizi çadıra qonaq sifəti ilə dəvət edim, həm də bir öyrənsin ki, dünyada yeni nə var, nə yox?

Karvanbaşı bir qədər təəccübləndi.

-Hamımızı qonaq çağırır?

Şahzadə xəfifcə gülümsədi:

-Əlbəttə yox! Karvanbaşını, bir də Sultanın səlahiyyətli nümayəndəsini dəvət edir.

Hamının üzü Usta Murada tərəf çevrildi...

Qonaqlar şah düşərgəsinə çatanda burada hər şeyin tamam fərqli olduğunu gördülər. Varlı ilə kasıb, hakim ilə məzlum, ağa ilə nökər dərhal seçilirdi. Burada insanlar əmr verənlərlə əmri müntəzir yerinə yetirənlər kimi iki hissəyə bölünmüşdülər. Sahiblər öz xidmətçiləri üzərində qüdrətini göstərir, özündən yüksəkdə duran şəxslərə isə yaltaqlanırdılar. Burada yeməyi bişirənlərlə, onu hazırlayıb süfrəyə verənlər, süfrə başında bardaş qurub onu rahatca yeyənlər arasında yerlə göy qədər fərq vardı. Karvan düşərgəsində isə qulamların, nökərlərin olmasına baxmayaraq, hamı bərabər idi. Karvan son mənzilinə çatana qədər hər kəs üstünə düşən işi yerinə yetirməli idi. Hamı bir qazandan yeyir, bir tuluğdan su içirdi. Şah düşərgəsi onlar üçün tamam başqa, sanki uzaq və yad bir aləm idi. Şahdan əvvəl kimsə əlini süfrəyə uzada bilməzdi. Yalnız şah doyduqdan və şah süfrəsi yığışdırıldıqdan sonra xidmətçilər bu süfrədən qalanları yeyə bilərdilər. Amma buna da bəzən vaxt çatmırdı. Şah üçün o qədər yemək hazırlanırdı ki, xidmətçilər bir süfrəni yığışdırıb qurtarana, qab-qacağı yuyana kimi yenisinə hazırlıq başlanırdı və vaxt çox sürətlə gəlib keçirdi.

Çadırların dirəyindən ov edilmiş müxtəlif heyvan və ov quşları asılmışdı. Ətraf ağaclıq və

yamyaşıl çöllükdən ibarət idi. Bir kənarda yüzə yaxın atın bağlandığı pəyə, ortada isə çadırlar qurulmuş, ocaqlar qalanmış, qazanlar asılmışdı. Qoyun və dana cəmdəkləri ağaca keçirdilib qızardılır, samovarlar tüstülənir, qulluqçular o tərəf - bu tərəfə qaçışır, keşikçilər, yaraqlı əsgərlər şah çadırını mühasirəyə alıb dimdik dururdular. Ətrafdan gur çayın şırıltısı və nəğmə oxuyan torağayların səsi eşidilirdi.

Onlar çadıra girəndə şah əyləşmişdi. Amma geyimi çox qəribə idi. Sanki Gülüstan qalasında rəsmi qonaqları qarşılayacaqdı. Çox təmtəraqlı libasda idi. Görünür, Fəriburz ona ovçu Fəriburz deyilməsini xoşlamırdı. Hər halda qonaqlar indi dünyanı lərzəyə gətirən Alp Arslan haqqında və yolda gördüklərini ona danışacaqdılar. Deyəsən Şirvanşah özü haqqında indidən pis təəssürat deyil, möhtəşəmlik yaratmaq istəyirdi.

Qonaqlar ona baş əydikdə Fəriburz ayağa qalxıb təbəssümlə onlara yaxınlaşdı.

-Xoş gəlmisiniz, əziz qonaqlar, təəssüf edirəm ki, sizi sarayımda qarşılaya bilmədim. Görünür qismət deyilmiş. Yəqin yolunuz daş-kəsəkli olmasın deyə siz Şamaxıdan yox, çöllükdən keçmisiniz. Mənə sərhədçilərim bunu danışanda fikirləşdim ki, həm ova çıxım, həm də sizinlə görüşüm, bir az söhbət edim. Axı siz dünyanı çox

gəzirsiniz, çox şeylər görürsünüz, çox şeylər bilirsiniz. - Sonra da zarafatla əlavə etdi. - Necə deyərlər, dağ Məhəmmədə yaxın gəlmirsə, Məhəmməd dağa yaxın gedər! - Sonra qonaqlara yer göstərdi. - Buyurun əyləşin, əziz qonaqlar.

O, əlini-əlinə vurdu. Dərhal içəri xidmətçilər daxil oldu. Şahın işarəsilə süfrə salındı. Bir anda yüz cür naz-nemət süfrəyə yığıldı.

Fəriburz qonaqlarla üzbəüz əyləşdi. Əlini atıb cama süzülən kəklikotu suyundan içdi, sonra qonaqlara:

-Buyurun, hörmətli qonaqlar, bismillah eləyin, nuş olsun! - dedi. Özü quş ətini əli ilə parçalayıb ağzına apardı. Qonaqların da əli biixtiyar quş ətinin çığırtmasına uzandı. Şah ləzzətlə yeyib, ağzındakı tikəni də bəh-bəhlə udduqdan sonra:

-Hə, danışın görək, hardan gəlib, hara gedirsiz? - dedi.

Karvanbaşı danışmazdan öncə əlini silib, çuxasının iç tərəfindən qızıldan düzəldilmiş və daş-qaşla bəzədilmiş xəncəri çıxartdı. Adətən təcrübəli karvanbaşı səfərə çıxanda özü ilə hər ehtimala qarşı bir neçə hədiyyə götürərdi. Bəzən bu hədiyyələr karvanı hər cür təhlükədən xilas edər, artıq söz-söhbətə son qoyardı.

-Şah həzrətləri, izn versəydiniz, sizə layiq olmasa da, bu kiçik hədiyyəni təqdim edərdim. Bilmirdik sizinlə görüşəcəyik, yoxsa daha bö-

yük, şaha daha layiq hədiyyələrlə hüzurunuza gələrdik.

Karvanbaşı xəncəri ona uzatdı. Şah hədiyyəni minnətdarlıqla ondan aldı. Xəncəri qınından çıxarıb o tərəf-bu tərəfinə heyranlıqla baxdı. Sonra qınına salıb yanına qoyaraq, yenə öz sualına qayıtdı:

-Çox sağ olun bəxşişə görə! Ancaq demədiniz hardan gəlib, hara gedirsiniz...

Karvanbaşı bu sualı adi maraq və danışmaq üçün söhbətə körpü atılması kimi başa düşdü.

-Şah sağ olsun, Təbrizdən Bakıya, Bakıdan da Gəncəyə gedirik. Karvanımızda da yalnız qara yağ tədarüküdür. Sultan həzrətlərinin əmridir.

-Bəs bu qədər qara yağı neyləyirsiniz? Elə bil bir neçə illik ehtiyatınızı tutmusunuz. - Zarafata keçdi. - Deyəsən Bakıda daha qara yağ qalmayıb!

Karvanbaşı zarafata zarafatla cavab verdi:

-Nə danışırsınız, şah həzrətləri, Bakının qara yağı bitib-tükənməz ki! Biz yalnız dəryadan bir damla götürmüşük. Qalanı şah həzrətlərinin ixtiyarındadır. Ondan necə istifadə etməyi şah həzrətləri daha yaxşı bilər.

Əslində karvanbaşı da Sultan Alp Arslanın bu qədər qara yağı nə etdiyini bilmirdi. Ümumiyyətlə, Usta Murad və Sultandan savayı bu barədə heç kimdə geniş və dəqiq məlumat yox idi.

Karvanbaşının sözlərinə əvvəlcə şah, sonra isə qonaqlar güldülər. Gülüş kəsilən kimi şah ikinci sualını verdi:

-Hansınız Sultanı görüb? - Sözünə dəqiqlik gətirdi. - Yəni deyirəm ki, onunla təmasda olanınız varmı?

Karvanbaşı Usta Murada baxıb:

-Mən görmüşəm, şah həzrətləri! - dedi. - Amma... - Əlini Usta Murada uzatdı, - Usta Murad onunla təmasda da olub.

Şah bir qurtum da kəklikotu suyu içdi və nə üçünsə udqundu, amma:

-Çox yaxşı, çox yaxşı! - dedi. - Tez-tezmi onunla təmasda olursan, Usta Murad? Əgər onunla təmasda olursansa, deməli, Sultanın nəzərində vacib yerlərdən birini tutursan, lazımlı , mühüm işlər görürsən.

Usta Murad şahın ondan söz almaq istədiyini başa düşdü. Deyəsən onun bura gəlişinin əsas səbəbini anlamaq istəyirdi. Ən böyük biclik düzlük idi. Usta Murad əsas sirdən başqa qalan hər şey barədə danışmağı münasib hesab etdi.

-Şah həzrətləri, mən sadəcə, Sultanın dəmirçisiyəm, atlara nal, silah düzəldirəm, xarab olmuş, sınmış silahları bərpa edirəm. Sultanımızın vaxtı olanda dəmirçixanaya gəlir, hərdən öz atının nallarını dəyişir. Bax o zaman onunla təmas-

da oluram, söhbət edirik, dünyanın gəlişindən, gedişindən danışırıq.

Şah müəmmalı tərzdə gülümsədi və daha bir sual verdi:

-Yaxşı, bəs Sultan həzrətləri qara yağ dalınca dəmirçini niyə göndərir?

Usta Muradın ürəyi ayağının altına düşdü. Bu sirrin açıldığını düşündü. Ondan və bir də Sultandan başqa bu sirri kimsə bilmirdi. Özünü ələ alıb qətiyyətlə cavab verdi:

-Xeyr, şah həzrətləri! Qara yağ dalınca Sultan həzrətləri karvanı göndərib, karvanbaşıya da sifarişi vəzir Nizam ül-Mülk verib. - Karvanbaşı onun sözlərini başı ilə təsdiqlədi. - Mən isə Sultandan xahiş etdim ki, bu dəfə karvana mən də qoşulum, gedim başqa məmləkətləri gəzim... Görüm bizim sənətdə nə yenilik var. Mən ömrüm boyu Savalandan, Təbrizdən başqa bir yer görmədim. Bildiklərim də ustadımın öyrətdikləridir. Yaxşı da edib gəlmişəm. Bakıda nal mıxının necə hazırlandığına baxdım. Ona qara yağ da vururlar ki, çox davamlı olsun, gec çürüsün.

Usta Muradın cavabı Fəriburzu o qədər də qane etməmişdi. Bu onun tutulmuş çöhrəsindən bilinirdi. Amma deyəsən dərinə də getmək istəmədi. İndi bu ustanı sıxma-boğmaya salıb ondan nəsə söz almaq heç münasib deyildi. Odur ki:

-Sultanın qoşunu-ləşgəri çoxdurmu? - deyə başqa sual verdi.

Usta Murad isə təhlükədən qurtulduğunu başa düşdü.

-Qoşun-ləşgərin sayı-hesabı yoxdur, şah həzrətləri! Xalq bir ordudur. Döyüşəndə hamı döyüşür, döyüşməyəndə heç kim. Özü də hamı Allah yolunda, İslam uğrunda vuruşur.

-Yəni Sultanınız müsəlmanlarla vuruşmur? - Fəriburz təəccüblə soruşdu.- Mən eşitmişəm ki, o hətta öz qohumları ilə də vuruşub, onları məğlub edib.

Usta onun sözlərini təsdiqlədi:

-Elədir, şah həzrətləri! Tamamilə doğru buyurursunuz. Dövləti-aliyəyə təhlükə olanda biz özümüzünkülərlə də vuruşuruq. Hərdən müsəlmanlarla da döyüşürük. Ancaq bu o zaman olur ki, vuruşduğumuz müsəlman ya düşmənə kömək edir, ya da asılılığı qəbul etmir, bizə xərac vermir, min bir bəhanə gətirib boyun qaçırır. Sultan həzrətləri torpaqlarını yalnız kafirlərin torpaqlarının hesabına genişləndirmək istəyir.

Şah bu iri gövdəli dəmirçinin vücuduna uyğun gəlməyən çox incə və əsil siyasətçi kimi fikir yürütdüyünün fərqində oldu. Amma kələ-kötür əlləri qarşısında oturmuş bu adamın doğrudan da dəmirçi olduğunu deyirdi. Düşüncəsindən "Bu türkmənlərin dəmirçisi bu cür fikir yürü-

dəndə, yuxarıları daha müdrik olar" fikri axıb keçdi. Şahın dilxor baxışlarından "Bizdə niyə belələri yoxdur" sualı oxunurdu.

Ancaq yenə özünü o yerə qoymadı:

-Yaxşı, bəs Sultanın görkəmi necədir? Haqq, ədalət adamıdırmı, əsgərlərlə necə dolanır? - Əslində şah verdiyi sualın cavabını özü çox yaxşı bilirdi. Artıq neçə vaxtdır gələn-gedəndən Alp Arslan haqqında, səlcuqlar barədə soruşmuş, ətraflı məlumat toplamışdı. İndi əvvəl deyilənlərin əksini eşitmək istəyirdi. Bunu kim deyəcəkdisə, ona o andaca inanacaqdı. Amma hələ ki, əksini deyən tapılmırdı.

Bütün hallarda səlcuq hökmdardan faydalanmaq lazım idi. Yeni dünya onun - oğuz-səlcuq hökmdarın diktəsinə uyğun qurulacaqdı.

Usta Murad suala məmnuniyyətlə cavab verdi:

-Boyu uzundur, bir az sarışındır - saçları qızılı rəngdədir, boyuna görə arıqdır. Çox uzun bığları var. Hətta döyüşə gedəndə bığlarını boynunun arxasına bağlayır ki, qılınca mane olmasın. Cəsurdur, igiddir. Bütün döyüşlərə birinci özü atılır. Əsgərlər ona baxaraq döyüşürlər. Qəvi düşmənə qarşı çox qəzəblidir. Əsəbləşdikdə qılıncının zərbəsindən döyüş meydanından sağ çıxan olmur. Əsgərləri ilə çox mehriban davranır. Yürüşdə olanda əsgərlər nə yeyirsə, o da on-

dan yeyir, onlarla bir yatır, bir durur. Buna görə əsgərlər onu çox sevir. Döyüşdə fərqlənən əsgər, yüzbaşı, minbaşı mükafatsız qalmır. Hər kəs vuruşduğu qədər ənamını alır. Alınan qəniməti əsgərlərlə yarıbayarı bölür. Heç kəsə ədalətsiz yanaşmır, haqqı nahaqqa verməz. Qardaşı olsa belə ədalətsizliyə getməz. Onun ən böyük ədaləti odur ki, ulusun qoyduğu qaydaları özü də pozmur. - Usta birnəfəsə dediyi sözlərə aram verdi. - Bilmirəm sualınıza müfəssəl cavab verə bildimmi, şah həzrətləri?

Fəriburz ayağa qalxdı. Hər iki qonaq da ayağa durdu. Bu o deməkdi ki, qəbul bitmişdir və getmək vaxtıdı. Yemək süfrədə düzüldüyü kimi də qalmış, hər kəs cəmi bir loxma yemişdi. Bütün bu iltifatın, bu qonaqlığın əsas məqsədi onlardan dəyərli bir söz çəkmək imiş. O buna nail ola bilmədi.

Oğuz ölər - dönməz!

-Tamam müfəsəldi, əziz qonaqlar. İstədiyim cavabı ala bildim. - Qonaqları yola salarkən üzünü Usta Murada tutdu. - Sultanı görəndə mənim ismarıcımı ona çatdıra bilərsənmi?

-Əlbəttə, şah həzrətləri. Göndərən də sağ olsun, aparan da, alan da.

-Sultan həzrətlərinə çatdırın ki, mən onun yanındayam, nə kömək lazımdırsa etməyə hazıram!

-Baş üstə, şah həzrətləri, çatdıraram! Doğru seçim etdiniz!

Bir qədər keçəcək, Şirvanşah Fəriburz Sultan Alp Arslanın vassallığını qəbul edəcək və ona illik xərac ödəyəcəkdi.

...Aniyə hər tərəfdən axınçılar yürüyürdü. Bəlkə də göydə ulduzların sayını bilmək olardı, amma Aniyə yürüyən qoşunların sayını yox. Səlcuqlar bu şəhərə əsasən iki istiqamətdən hücum etdilər. Araz çayının yuxarı hissəsindən baş vəzir Nizam ül-Mülk Sultanın oğlu Məlikşahla birlikdə Qars nahiyəsindən keçərək Sürməli-Çuxur və Məryəmnişin qalalarını ələ keçirtdilər.

Alp Arslan özünü Sultan elan edəndən sonra ilk səfəri Azərbaycana olmuşdu. O Səpid şəhərini alıb Aniyə digər tərəfdən yaxınlaşdı. Amma bu şəhər alınmaz qala idi. Bu qala hələ heç kimə tabe olmamışdı. Ani vaxtilə könüllü olaraq Bizansa təhvil verilmişdi. Şəhər əhalisinin üçdə birinin erməni olmasına baxmayaraq Anini erməni şəhəri adlandırırdılar. Halbuki burada Bizans rumluları və müsəlmanları çoxluq təşkil edirdilər. Bəlkə də şəhərin hakimi erməni əsilli olduğuna görə Aniyə erməni şəhəri deyirdilər.Adamlar hətta böyük-böyük şəhərlərə orda tanıdığı adamlara nəzərən qiymət verir, öz münasibətini onlara nəzərən qururdu.

Erməni adlanan insanların özü də özlərini aninili, Anini isə erməni şəhəri kimi tanıtmaqda maraqlı görünürdülər.

Sultan əvvəlcə şəhərə elçi göndərib, Anini döyüşsüz təslim etməyi təklif etdi. Lakin şəhər hakimi elçinin başını kəsib onu Alp Arslana göndərdi.

Bu, görünməmiş şərəfsizlik idi və Alp Arslan bu şərəfsizliyi bağışlamazdı...

Qəzəblənmiş Sultan şəhərə hücum etməyi əmr etdi. Bizans imperiyasının şərq sərhədində yerləşən bu qala-şəhər imperatorun əsas dayağı idi. İmperator gözəl başa düşürdü ki, Ani alınarsa səlcuqların Anadolu içinə yeriyib başqa şəhər-qalaları zəbt etməsi onlar üçün heç də çətin olmayacaq. Odur ki, imperator Aniyə hər cürə kömək göstərirdi. Silah, sursat, ərzaq, əsgəri köməklik və digər yardımlar Aninin gücünü artırırdı.

Şəhər darvazaları taybatay bağlanana qədər, Konstantinopoldan Aniyə yardımlar kəsilmirdi.

Şəhərin vacib bir yerdə yerləşdiyini Alp Arslan da anlayırdı. Onu da başa düşürdü ki, Ani alınmasa Bizans torpaqlarının mərkəzinə yürümək imkanı məhdudlaşacaq.

Mühasirənin birinci günü Usta Muradın yeni silahları işə düşdü.

Yüzdən çox mancanaq qala divarlarından doxsan-yüz metr aralıda qurulmuşdu. Hər mancanağın üstünə nazik və nəfis şəkildə hazırlanmış dəmir kürə qoyuldu. Sonra onların üst qatına qara yağ töküb od vurdular və bir qədər gözlədilər. Dəmir kürələr alovlanmağa başladı. Alovun onsuz da nazik olan kürə divarlarını bir qədər yumşaltması üçün zaman lazım idi. Kürələr uçub qala divarlarının o biri tərəfinə düşdü. Bunu görən şəhər müdafiəçiləri özlərini itirdilər. Göz açıb yumunca şəhər evləri yanmağa başladı. Döyüş qızışdı. Bir azdan küçələrdə meyidlərin sayı-hesabı bilinmirdi. Yaralı insanların çığırtısı, ah-naləsi, fəryadları Anini başına götürdü. İndi hamı göydən gələn bəladan qurtulmaq üçün sığınacaq tapmağa çalışır, müvəqqəti də olsa da orada gizlənməyi düşünürdü.

İkinci atəş əmri veriləndə artıq şəhər müdafiəçilərindən və əhalisindən heç kim gözə dəymirdi. Yeni silah növünün tətbiqi əhalini qorxuya salmışdı. Heç kim istəmirdi ki, yanan kürə onun yanında, yaxud evinin üstündə partlasın. Belə olan təqdirdə onların ölümdən başqa xilas yolu qalmırdı. Müdafiəçilərin səlcuqlardan qorxusu, inamsızlığı şəhər əsgərləri arasında fərariliyi artırmağa başladı.

Yeni silahın tətbiqi şəhərin alınması üçün yetərli deyildi. Bunu Alp Arslan da başa düşürdü.

...Yayın istisi Sultanın alaçığında da hiss olunurdu. Gecə olmasına baxmayaraq düşərgədə heç kim yatmamışdı. Amma daha çox cırcıramaların səsi eşidilirdi. Hamı sabah son hücum olacağını başa düşür və səssiz-səmirsiz, canla-başla hazırlaşırdı.

Gecə yarıdan keçməsinə baxmayaraq Sultan taxtında oturub düşünürdü. Usta Muradın silahı şəhər əhalisini çox qorxutsa da, qələbə üçün yetərli deyildi. Qala divarları çox möhkəm idi. Nə isə başqa bir fənd də işlətmək lazım idi. Şəhərə açıq hücum çox sayda əsgərin lüzumsuz ölümü ilə nəticələnə bilərdi. Əslində Usta Muradın silahı ona daha çox ümidlər vermiş və açıq döyüşlərdə bu dəmir kürələrin əvəzinin olmayacağını düşünmüşdü. İndi isə əlavə bir şey də fikirləşmək lazım gəlirdi.

Mühafizə başçısı qapı ağzında göründü. Sultan başını qaldırıb onun üzünə baxdı. Heç bir təşviş görünmürdü.

-Sultanım, Baş vəzir hüzurunuza gəlib.

Bu gecə vaxtı Alp Arslan Nizam ül-Mülkü gözləmirdi. Deməli, nəsə ciddi xəbər vardı.

-Çağır gəlsin!

Bir azdan Baş vəzir yekə bir qarğa kimi içəri girib, baş əydi. Sultanı danışmağa qoymayıb özü mətləbə keçdi.

-Sultanım! Anidən bir dəstə zox tayfalı keşiş gəlib, sizinlə görüşmək istəyir.

Alp Arslanı təəccüb götürdü.

-Zox tayfalı?.. Hayları nəzərdə tutursanmı? Nəhayət ki, kimsə bu məxluqatın əsil adını dilinə gətirdi. Yoxsa ki, bizim ərmən türklərinin adını bu haylara ərməğan edib-durubsunuz. - Nəsə fikirləşdi. - Yaxşı, mən hələ şəhəri almamış, bunlar nə tez görüşə can atırlar? Bəlkə heç ala bilməyəcəyik... - Yenə nəsə düşünüb, - Hə, yadıma düşmüşkən soruşum, Ani mühasirədə ikən necə olub ki, onlar bizim düşərgənin ortasına qədər gəlib çıxıblar?

-Günahkarıq, Sultanım!

-Buna sonra baxarıq. Deməli, şəhərdən gizli yol var.

Baş vəzir çiyinlərini çəkdi:

-Çox güman ki, var, Sultan həzrətləri! Quşun lələk sala bilmədiyi yerdən bunlar keçiblərsə...

Sultan Nizam ül-Mülkün sözünü kəsib əmrini verdi:

-Onlar geri dönəndə sən bir neçə güdükçünü arxalarınca göndər. Qoy bizim güdükçülər o gizli yeri aşkar etsinlər. Sabah bu bizə çox lazım olacaq. O yer aşkar olunduqdan sonra mühafizəçilər qoy ki, bizə qəfil hücumlar olmasın. İndi isə keşişləri çağır!

Baş vəzirin "baş üstə" deməsi ilə qapı arxasında itməsi bir oldu. Bir azdan üç qara paltarlı erməni keşişi ilə çadıra girdi. Keşişlər Sultanı

görən kimi diz çöküb xalatının ətəyindən öpdülər, oğuzca "Allah sultanımızın ömrünü uzun eləsin!" dedilər. Alp Arslan keşişlərin ayağa qalxmasını istədi. Onlar ayağa durandan sonra:

-Siz... erməni keşişləri buraya qədər nə ilə təşrif gətiribsiniz? Yoxsa şəhər qapılarının açarını bizə təslim etməyə gəlmisiz? Bu çox yaxşı olardı.

Onlardan biri tez dilləndi. Görünür rahiblərin başçısı idi.

-Yox, Sultan həzrətləri! Şəhər qapısının açarını biz sizə gətirməmişik, çünki açar bizdə olmur. O imperator tərəfindən təyin edilən hakimdə olur. O da Bizansa sədaqəti ilə seçilir. Bizi sizin yanınıza dini başçımız katalikos Qaragen göndərib.

-Nə istəyir sizin o Qaragen? - Sultan bir qədər acıqlı tərzdə, eyni zamanda saymazyana soruşdu.

Erməni keşişi şirin dilini işə saldı:

-Sultan həzrətləri, məlumunuz olsun ki, bizim türklərlə heç bir işimiz yoxdur. Biz çizyəmizi verib sizinlə sakit qonşuluqda yaşaya, sizin asılılığa keçə bilərik. And olsun Allaha, - o xaç çevirdi, - and olsun İsa Məsihə, and olsun müqəddəs ruha! Bizans imperatoru bizi zor gücünə, qılınc gücünə öz asılılığına saldı. Biz də çarəsiz qalıb zor, qılınc altında yaşamağa məcbur olduq.

Baş vəzir onu daha danışmağa qoymadı:

-Siz ermənilərin xisləti elə budur da. Kim güclüdürsə, onun tərəfinə keçməyə hazırsınız. Elə ki, ağalarınız zəiflədi, onların kürəyinə xəncər vurmaqda mahirsiniz.

Keşiş süni təbəssümlə gülümsədi.

-Biz heç zaman türklərə xəyanət etməmişik. Onlar həmişə bizə çörək veriblər.

Sultan səbrini daha basa bilmədi.

-Qaragen sizi niyə göndərib bura?

Həmin keşiş tələsik və sevincək:

-Sultan həzrətləri, katalikos Qaragen sizdən xahiş edir ki, sizin əsgərlər Anini aldıqdan sonra erməni camaatına əl vurmasınlar, - dedi. - Amanda olsunlar.

Alp Arslan ayağa durub bir qədər gəzişdi. Sonra gəlib bayaqdan dil-dil ötən ermənінin qarşısında dayandı, gözlərinin içinə baxdı.

-Deməli, şəhər qapısının açarını bizə təslim edə bilmirsiniz. Amma... - bu zaman onun beynindən sevinc dolu bir xəbər keçdi: "Ermənilər gəlib aman istəyirlərsə, deməli Usta Muradın silahı əhalini yaman qorxudub. Əhsən Usta Murad!" - Qalır bircə yolunuz.

Keşiş qorxu içindəydi:

-O nə yoldur, Sultan həzrətləri?

Sultanın sifətinin soyuqqanlı ifadəsi dəyişmədi:

-Gərəkdir ki, biz şəhəri alandan sonra siz dininizi dəyişib islamı qəbul edəsiniz. O zaman

amanda olub, hüzurla mənim torpaqlarımda yaşaya bilərsiniz.

Keşişin baxışları dondu, rəngi ağardı. Handan-hana özünə gəlib:

-Sultan həzrətləri, belə məsələlər bizim səlahiyyətimizə aid deyil, - dedi. - Bu məsələni yalnız katalikos həll edə bilər.

-Elə isə gedin, dediklərimi təcili Qaragenə çatdırın. İndi hələ gec deyil, sabah isə gec ola bilər. - Bununla da Sultan görüşün başa çatdığına işarə vurdu.

Keşişlər baş əyib getdikdən sonra Alp Arslan Baş vəzirə göstəriş verdi:

-Aninin alınması üçün iki yolumuz var, hörmətli vəzir. Birinci yol odur ki, səhərə qədər bütün əsgərlər iri sal daşlar gətirib Araz çayının ağzını tutsunlar, suyun axarını şəhərə döndərsinlər. Bu zaman şəhəri su basacaq. Darvazalar güclü su dalğalarına dözə bilməyib sınacaq. Eyni zamanda isə su dalğalarını şəhərə tərəf çevirəndə, keşişlərin gəldiyi gizli yolla əsgərlərimiz içəriyə girsinlər.

Nizam ül-Mülk Sultanın təkliflərini bəyəndi, amma bir söz deməyib baş əyərək alaçıqdan çıxdı...

Ani şəhərinin alınmasına az qalırdı...

Bütün gecəni əsgərlər sal daşları daşıyıb, çaya tökdülər. Çay getdikcə axarını dəyişməyə ha-

zır vəziyyətə gətirildi. Sonuncu sal daşı yerinə qoymaq qalırdı.

Aniyə hər tərəfdən hücum başlandı.

Usta Muradın atdığı dəmir kürələr şəhərdə yenidən çaşqınlıq yaratdı. Eyni zamanda sonuncu sal daşı çayın qarşısına qoyduqda çay axarını dəyişdi, sel şəhər darvazalarına doğru axdı. Sel o qədər güclü idi ki, şəhər mühafizəçiləri gözlərini açmağa macal tapmadılar. Su öz qarşısına nə çıxırdısa yuyub aparırdı. Birdən darvaza layları yerindən qopub selin altına düşdü. Şəhər girəcəyi darvazasız qaldı. Selin arxasınca səlcuq əsgərləri də özlərini şəhərə sel kimi vurdular. Gizli yolu aşkar edən səlcuq əsgərləri bu yoldan keçərək, düz şəhər meydanına çıxdılar. Burada onlar hamını oxa tutmağa başladılar. Şəhər camaatı nə edəcəyini bilmir, çaşqınlıqla ora-bura qaçışırdı. Həyəcan və təşviş içində olan əhali şəhərdən çölə də çıxa bilməyəcəkdi. Şəhərdən kənarda hər şey daha betər idi. Səlcuqlar artıq heç kimi əsir götürmür, hamını qılıncdan keçirirdilər. Onlar yalnız Sultan Alp Arslanın əmrinə tabe idilər. Sultan isə "Kim ki, İslamı qəbul edib "La ilahə illallah, Mühəmmədün rəsulullah" deyəcəksə onlara toxunmasınlar" demişdi. Selin yuyub apara bilmədiyini səlcuqlar yerlə-yeksan edirdilər. Şəhərdə nə qədər kilsə vardısa, hamısı dağıdıldı. İnsanlar qılıncdan keçirildi. Yalnız çayın axarını döndərmək üçün qoyulan sal daşlar

götürüldükdən sonra Araz öz məcrasına qayıtdı. Axşama yaxın sel suları şəhərdən çəkilməyə başladıqda əvvəlki Anidən əsər-əlamət qalmamışdı. Şəhər xarabalığa çevrilmiş, darmadağın edilmişdi. Küçələrdə bir meyit də gözə dəymirdi. Geri axan sel suyu bütün meyidləri ağuşuna alıb çox uzaqlara aparmışdı.

Elçinin başının kəsilməsini Sultan anililərə bağışlamadı.

Aninin alınması ilə axınçıların Bizans torpaqlarına girməsi və dərinliyinə doğru irəliləməsi üçün şərait yarandı. Amma, Sultan yenə də tələsmirdi. Onun Türküstanı tam olaraq özünə tabe etdirmək arzusu gerçəkləşmək üzrə idi.

Beləliklə, 16 avqust 1064-cü ildə Bizans imperiyasının şərq sərhədində ən güclü şəhəri olan Ani fəth olundu və xarabalığa çevrildi.

## TÜRKÜSTANIN FƏTHİ

"Sultanım...Sultanım..."

Sultan Alp Arslan gözünü açdı. Kimsə onu çağırırdı. Keçmişdən bir andaca geri dönməyə başladı. Xatirələrindən ayrıldıqca, vücuduna qayıtdıqca yenə ağrılar bütün bədəninə hakim kəsilirdi. Yarası sızıldasa da  zarımadı. Gözünü qulluqçunun gözünə zillədi.

Tanış səs yenidən qulaqlarında səsləndi:

-Sultan həzrətləri, oğlunuz vəliəhd Məlikşah sizi ziyarətə gəlib.

Alp Arslanın solğun çöhrəsində təbəssüm dolaşdı. Həm oğlunu görəcəkdi, həm də ona çatdırılası sözləri vardı. Qulluqçuya:

-Məni dikəlt, - dedi. Qulluqçu dərhal onun başının altına iki pərqu balış qoyub bir qədər dikəltdi və əmrə müntəzir durdu. - Get, Məlikşahı çağır.

Qulluqçu "baş üstə" deyib mürəxxəs oldu. Bir azdan içəri hündürboylu, ağbənizli, qızılı saçlı, iyirmi üç yaşlı bir gənc daxil oldu. Atasının çarpayısına yaxınlaşıb diz çökdü, əlini öpüb nəvazişlə:

-Necəsən ata, səhhətində bir düzəliş varmı? - deyə soruşdu.

Əslində Məlikşah atasının vəziyyətinin necə olduğunu bilirdi. Çünki atasının yanına gəlməzdən əvvəl saray həkimi ilə söhbət etmiş, hər şeyi yerli-yataqlı öyrənmişdi. Saray həkimi xəstənin durumunu anlatmış, sonda başını bulayıb, "hər şey Allahın əlindədir" demişdi. Məlikşah atasının öləcəyini nəinki anlaya bilmir, bu barədə düşünmək belə istəmirdi. Atasının dünyanı belə erkən tərk edəcəyi əsil faciə idi. Ondan öyrənəcəyi çox şeylər vardı. Ona söykənərək irəli getmək, hakimiyyəti tam əxz etmək, qələbələr qazanmaq istəyirdi. On-

suz bunlar çox çətin və ya qeyri-mümkün olacaqdı. Hər kəs ona etimad göstərməyəcək, saray qovğaları artacaq, ədavət yaranacaqdı. Baxmayaraq ki, atası onu hələ 1066-cı ildə vəliəhd elan etmiş, erkən evləndirmişdi. Amma cavan yaşında bu boyda dövləti necə idarə edəcəkdi, heç ağlına da gətirə bilmirdi.

Alp Arslan oğluna məhəbbətlə gülümsəməyə çalışdı.

-Əzablar məni sarsıdır, oğul! - Alp Arslanın səsi zorla və iniltili çıxırdı. - Hər gün Tanrıma dua edirəm ki, məni yanına tez aparsın. Tez aparsın ki, bu əzablardan, ağrılardan qurtulum.

Vəliəhd kədərləndi. Amma atasına ürək-dirək verməyə çalışdı:

-Ölüm haqqında danışmaq sizə tezdir, Sultanım. Tanrı bizim ömrümüzdən kəsib Sultanımızın ömrünə calasın!

Canının bir parçası oğlunun dediyi sözlər Sultana təsəlli vermədi, hətta bir azca əsəbləşdirdi də.

-Off, mən həmişə bu cür istəklərin əleyhinə getmişəm. Küfrdür bunlar! Allahın işinə qarışmayaq.

Alp Arslan artıq ölüm mələyinin onu aparmaq üçün yola çıxdığını hiss etməyə başlamışdı. Haradasa lap yaxında gəzir, ilim-ilim onu arayırdı. Bəzən hətta ölüm mələyinin məstedici sə-

sini eşidir, nəfəsini düz boğazının altında, başının üstündə duyurdu. Yəqin ki, mələk Əzrayıl vəsiyyətini, nəsihətini etməsindən ötrü ona azacıq vaxt vermişdi. Əcəl lap yaxındaydı... Amma Əzrayıl mələk hələlik onun yanına oğlu Məlikşahı göndərmişdi.

-Qulaq as oğlum, ölüm mələyi başımın üstündədi. Duyuram bunu... Məni diqqətlə dinlə. Sən mənim topladıqlarımı, bu məmləkəti, türk uluslarının birliyini, oğuz-türk-səlcuq qürurunu, əzəmətini qoru. Artıra bilməsən də, heç olmasa dağılmağa qoyma. Xalqın yanında həmişə alnın açıq, üzün ağ olsun. Ağüzlü övlad əcdadlarının qarşısında üzü qara qala bilməz.! - Nə xatırladısa, - Hə, məndən sonra baş vəzir Nizam ül-Mülkü vəzifəsindən uzaqlaşdırma. O öz hakimiyyətini saxlamaq üçün səni özündən daha çox qoruyacaq.

-Baş üstə, Sultanım, siz narahat olmayın, necə deyirsinizsə, elə də olacaq...

Alp Arslan onun danışmasına imkan vermədi:

-Sözümü kəsmə, fələyə etibar yoxdu... Bir də gördün çökdü sinəmə, aldı canımı. Sən... sən, o şərəfsiz xaşxaşilərdən özünü qoru! İmkanın olarsa Ələmut qalasını yerlə-yeksan et. İmkanın olmazsa casuslarını, güdükçülərini çoxalt. Adamlardan bir neçəsini Həsən Sabbahın yanında yerləşdir ki, atacağı addımlardan hər zaman xəbərin olsun. -

Məlikşah danışmasa da başını razılıqla yellədirdi.
- Hə, bir də mərkəzi Savalanda yerləşən Baş Dədənin məzhəbinə toxunma. Onlardan bizə ziyan gəlməz. Onlar da oğuzlardır. Əsil oğuzlar bizə sədaqətlidirlər. Aman, heç zaman onları təqib etmə... Əksinə onlara imkan ver ki, öz elmlərini, məzhəblərini dövlətin içində hər yerə yaysınlar. Biz oğuz mədəniyyətindən bir qədər ayrı düşdük. Amma hər zaman onlardan öyrəndiklərim karıma gəldi. Sən də bir az öyrənmisən. Qoşa buynuzlu buğa elmi səni darda qoymaz. Ağlın, gücün və elmin sənin əsas silahındır. Bunlar sənin həm də qalxanındır. Quranın ən böyük surəsi də "əl-Bəqərə", yəni "İnək" adlanır...Buğa! Düşünürsən bu təsadüfdir? İki yüz səksən altı ayə təsadüfən olmaz! "Əl-Bəqərə" - Buğa surəsi. Bunda nə sirr var - hər kəs bilməz. Sən qismən bilənlərdənsən. Tam bilə bilməyəcəksən. Çünki sən Dədə olmağa seçilməmisən. Bu elmi qoruyan Dədələrdir. Onları qoruyan isə sən olacaqsan! Bunu unutma!

Yenə ağrıdan üz-gözünü turşutdu, hətta rahat nəfəs də ala bilmədi. Məlikşah "Biz bunu sizin sayənizdə edəcəyik!" demək istədi. Amma Sultan atası buna imkan vermədi.

-İndisə get, mələk...Məlikşahım! Mən bir az dincəlmək istəyirəm.

Şahzadə səssiz-səmirsiz zaldan çıxdı. Qulluqçu Sultanın yerini rahatladı.

Alp Arslanın baxışlarının önünə yenidən duman çökürdü...

Tədricən gözləri yumuldu və o yenə keçmişə döndü...

Azərbaycana daxil olduqdan və buranı Bizans torpaqlarına qarşı əsas hərbi düşərgə elan etdikdən sonra işləri heç də pis getmirdi. Bizans torpaqlarına giriş üçün ciddi hazırlıqlar aparılırdı. Anadoluya hərbi yürüş etmək üçün Sultan artıq yüz minlik ordu da toplamış və onun bütün ərzaq ehtiyatını hazırlamışdı. Ancaq iki məsələ onun bu qərarını dəyişdi...

...Bərdə şəhərində qurulmuş ağ çadırında gələnləri qəbul edir, onların verdiyi məlumatları tutuşdurur, daha çox həqiqət olanı hafizəsinə yazırdı. İndi onun yanına dünyanın hər yerindən gəlirdilər. Fatmailərdən, Bağdaddan, Türküstandan, Qafqazdan, Anadoludan...

Bu dəfə elçi əvəzinə Baş vəzir Nizam ül-Mülk çadıra daxil oldu.

Hə, deməli, məsələ ciddi idi. Sultan Baş vəzirin həmişəki kimi yenə də kadr və maliyyə məsələlərindən danışacağını düşünürdü. Amma, belə olmadı. Nizam ül-Mülk ölkə kənarında və daxilində gedən hadisələrdən bəhs etdi.

Sultan ona əyləşməyə yer göstərdi və birbaşa mətləbə keçdi:

-Böyük Səlcuq dövlətində nə var, nə yox, Baş vəzir?

Baş vəzirə elə gəldi ki, indi deyəcəyi sözləri Sultan artıq bilir. Amma tez də bu şübhələri başından qovdu. Ona gətirilən xəbərlərin səhih olduğunu yalnız o bilə bilərdi.

-Sultan həzrətləri, Böyük Səlcuq torpaqlarının sərhədi böyüyüb genişləndikcə əminizin, sonra sizin özünüzün yaratdığınız dövlət də genişlənir, möhkəmlənir. Düşünürəm Bizans imperatoruna gələcəkdə vuracağınız sağalmaz zərbələr bu dövləti daha da gücləndirəcək və möhtəşəm edəcək.

Saray məmurları həmişə yuxarılara bir söz çatdırmaq istəyəndə əvvəlcə həndəvərdə dolaşır, bir müddət keçdikdən sonra isə mətləbə gəlirdilər. Baş vəzir onun üzünə diqqətlə baxdı və anladı ki, əsas məsələyə keçmək lazımdır.

-Sultan həzrətləri, üç vacib məsələyə diqqətinizi ayırmaq istəyirəm. Əgər vaxtınız varsa, dərhal mətləbə keçərdim.

-Buyurun, vəzir həzrətləri! - Alp Arslan ehtiramla Baş vəzirə müraciət etdi.

-Birinci söhbətim qardaşınız Qavurd haqqındadır, Sultan həzrətləri!

Sultan həyəcanlandı.

-Qardaşım Qavurda nə olub ki?

-Heç bir şey olmayıb. İş burasındadır ki, siz Azərbaycanda olarkən, Anini tutmaq ərəfəsində ikən qardaşınız Qavurd Kirman hakimi Şəbənkərə sülaləsindən Fəzluyəni məğlub edib, Şirazı ələ keçirib.

Nizam ül-Mülk elə düşündü ki, bu xəbərdən sonra Sultanın rəngi kömür kimi qaralacaq, əsəbiləşib od püskürəcək. Qavurdun sultan taxt-tacında gözü vardı və Alp Arslan da bunu bilirdi. Qavurd hətta bunu bir neçə yerdə demiş, taxt-taca iddiası olduğuna eyham vurmuşdu.

Amma belə olmadı. Sultan əhvalını pozmadı:

-Mənim adıma xütbə oxutdurur?

-Bəl...bəl..bəli, Sultan həzrətləri, oxutdurur, ancaq məsələ bundadır ki, qardaşınız Şirazı sizin izniniz olmadan ələ keçirib. Bu gün iznsiz Şirazı ələ keçirər, sabah isə taxt-tacı. Buna bir əncam çəkmək lazım deyilmi?

Alp Arslanın üzü heç "taxt-tac" sözündən sonra da dəyişmədi, qara kömürə çevrilmədi. Yenə sakit səslə dilləndi:

-Keç ikinci məsələyə, vəzir həzrətləri, qardaşım Qavurdla görüşəndə bu məsələni mən özüm həll edərəm. Elə başa düşürəm ki, yaxın vaxtlarda bu anlaşılmazlıq aradan qalxar. Hər halda o da bir yer tutub, əlimizdə olan torpaqlardan kiməsə verməyib ki!

Baş vəzir Sultanı tanıya bilmirdi. Ani alındıqdan sonra həmişə hisslərinə hökm verən Alp Arslan indi hər şeyi soyuqqanlı müzakirə etmək istəyirdi. Qəribəydi, əsəbiləşmir, hirslənmir, qışqırmırdı. Amma belə olmalı deyildi. Görünür, bu yaşda ona müdriklik gəlirdi.

Nizam ül-Mülk fikirlərinə qarşı bu cür etinasızlıqdan özünü təzim və təbəssümlə qurtarmağa çalışdı. Birbaşa ikinci məsələyə keçdi:

-Sultan həzrətləri, şərq torpaqlarımız... Şərqdən xəbər gəlir ki, bəzi qıpçaq, oğuz ulusları, bir neçə boyu gedib hunlara çıxan türkütlar, oralarda qalmış kayılar Xarəzm üzərindən bizim torpaqlara soxulur, sərhəd əyalətlərimizi talayır, qızlarımızı, uşaqlarımızı, qadınlarımızı qul edib aparırlar. Hələ ələ keçirtdikləri heyvan sürülərini demirəm. Qarşılarına nə keçirsə yağmalayırlar. Anadoluya səfərə çıxmazdan əvvəl oralara bir əl gəzdirsəydin pis olmazdı, Sultan həzrətləri.

Yalnız bu dəfə Alp Arslanın rəngi qara kömürə çevrildi. Hirsindən yerindən atıldı:

-Nə-ə-ə!? - Var gücü ilə bağırdı, - Mənim torpaqlarıma soxulurlar? Böyük Səlcuq dövlətini soyurlar?! Kimlərsə iznsiz sərhədlərimizi keçir!? Ahh, kimlərsə obalarımızı yağmalayır?!..

Nizam ül-Mülk heç nə başa düşmədi. Taxt-tacdan söhbət gedəndə üzünün cizgisi belə dəyişməyən Sultan indi türklərin sərhəd tor-

paqlarına girməsinə əsəbiləşdi və tamam özündən çıxdı. Bunun səbəbini soruşmağa Baş vəzirin cəsarəti çatmadı.

Sultan isə getdikcə qızışırdı:

-Mən burada yüz minlik qoşun yığıram ki, kafirlərin üzərinə gedim, şərq torpaqlarının sərhədlərindən isə öz türkmənlərim üstümə yeriyir. Axı, niyə beləsiniz, ay türklər?! - Hirslə sağ əlini yumruğa çevirib sol əlinin ovcunun içinə çırpdı. Bununla da sakitləşdi. Sanki bir an bundan öncə əsəbiləşən o deyildi. Sakit səslə, - Daha bir məsələ qaldımı, hörmətli vəzir? - deyə soruşdu.

-Bəli, qaldı, Sultan həzrətləri. - Ələmut qalasından xəbər aldım ki, Sultan həzrətlərinə Həsən Sabbah tərəfindən sui-qəsd fətvası verilib. Nəzarəti daha da gücləndirmək lazımdır. Mənim tərəfimdən bir sıra tədbirlər görülüb, ancaq yaxşı olardı ki, siz də ehtiyatlı olasınız.

Alp Arslan  bu xəbərdən bir anlıq duruxub qaldı. Sanki bu xəbərin gerçək olacağına inandı. Hətta dərindən köks ötürdü. Sonra gülümsədi və:

-İşimi-gücümü atıb Ələmut qalasına vaxt ayırsam, o sarsaq Həsən Sabbaha baş qoşsam, tarix mənə gülər. - dedi. - Mən o şərəfsizə layiq olmadığı şərəfi vermək fikrində deyiləm!  Onsuz da böyüklər çox vaxt rəzillərin əli ilə öz ölümünə qovuşur.  Makedoniyalı İsgəndər Zülqərneyn bir ağcaqanadın dişləməsilə ölmədimi? Taleh yazısına pozu olmaz! Mənim ömrüm bitən anda Hə-

sən Sabbahı qarşıma cənab Əzrayılın özü gətirib çıxardacaq. Amma...Bax, bu işi elə sənə tapşırıram, vəzir həzrətləri. Bir vaxtlar, səhv etmirəmsə Həsən Sabbah sənin yanında olub. - Sultan güldü. - Onun bütün işlərindən sənin başın daha yaxşı çıxar.

Baş vəzir Sultanın hara işarə vurduğunu başa düşdü. Amma indi özünü başa düşməyən kimi göstərməsi daha münasib idi.

-Hə elədir, Sultan həzrətləri, - özünə haqq qazandırmaq istədi, - Əliəyri olduğu üçün işdən uzaqlaşdırdım.

Alp Arslan onun sözlərinə daha fikir vermədi, gəldiyi qərara uyğun olaraq söylədi:

-Ordunun Türküstana doğru hərəkət etməsi qərarımı hər kəsə söylə. İki gündən sonra yola çıxırıq. Uzaq da olsa, ordu Kirmandan keçəcək... Haydı yürüşə!

Sultanın yürüş əmri bir andaca saray divarlarını yalayıb dəhlizləri dolaşdı, eyvana, oradan da qalaya, küçələrə, evlərə, dükanlara, bazarlara, yollara yayıldı.

Müqəddəs Azərbaycan torpaqlarından ayrılmaq heç bir oğuz türkünün heç zaman ürəyincə olmayıb. Bu torpağın Vətən cazibəsi adlı qüvvənin mövcud olduğunu və digər yerlərə məxsus Vətən hissindən daha qüvvətli olmasını Oğuz dədələr də təsdiq edirdi. Buranı özünə Vətən hesab edən şəxs milliyətindən və dinindən asılı olma-

dan, bir müddət burada yaşadıqdan sonra zahirən də yerli sakinlərə oxşamağa başlayırdı. Sultan Alp Arslan artıq özünü təkcə oğuz-səlcuq türkü deyil, həm də əsil oğuz -azərbaycanlı hesab etməyə başlamışdı.

Yerli adətə görə insanlar həyati əhəmiyyətli bir işə başlamazdan əvvəl Baku şəhərinə, buradakı Ağ qalanın ziyarətinə gələr, Tanrıdan halallıq almaq məqsədilə dualar edərdilər. Qalada qurban kəsilməsi də bir adətə çevrilmişdi. Bunlar sanki İslamdan kənar olsa da, kimsə bunu küfr elan edə bilmirdi. Bunu yerli oğuzların kimlik rəmzi kimi qəbul edir və toxunmurdular. Burada hətta atəşpərəstlik yadigarı olan Atəşgah məbədi də salamat qalmışdı. Oğuzlar həm də başqalarına qarşı dözümlülükdə fərqlənirdilər. Sultana Surə xanın şərəfinə salınmış bir ulusda hətta xristian, bütpərəst, atəşpərəst və müsəlman ailələrinin yanaşı, mehriban yaşadıqlarını, zaman keçdikcə digərlərinin də İslamı qəbul etdiklərini danışmışdılar. Buraların müsəlmanları da digər ulusların müsəlmanlarından fərqlənirdilər. Onlar daha səmimi, daha imanlı və etiqadlı idilər. Əhli-Beyt adlanan Peyğəmbər (s.) ailəsinə rəğbət və məhəbbət bura müsəlmanlarının etiqadından daha güclü idi və hətta imandan eşq səviyyəsinə qalxmışdı.

...Alp Arslan kiçik bir dəstə ilə xəlvətcə Bakuya gəldi.

Ağ qala Kaspi dənizinin sahilində dimdik və qürurla dururdu. Dənizin dalğaları qalanın ətəyinə qədər gəlir, bəzən divarına çırpılırdı. Əsil Baku bu qaladan o yanda, indi dənizin altında qalmışdı. Sonralar orada Səbayel adlı bir böyük ulusun da sulara qərq olduğunu  deyirdilər. Alp Arslan Ağ qalanın salamat qalmasının hikmətini anlamaq istədi. Bəlkə də insanlar "Ağ daş"a olan imanlarına dönük çıxdıqlarına görə belə olmuş, "Ağ daş" qeybə çəkilmişdi. Amma bu halın cəza olmadığını da düşünmək olardı. Tanrının sirri  insan ağlından, zəkasından çox yüksəkdə dururdu. Bir vaxtlar "Qara daş" da göylərə çəkilmiş, İbrahim peyğəmbər Kəbəni  bərpa etdikdə göylərdən enmişdi. Bəlkə də nə vaxtsa "Ağ daş" da yerə enəcəkdi. Həyat büsbütün təzadlar, əksliklər üzərində qurulmuşdu: gecə-gündüz, isti-soyuq, şirin-acı, pis-yaxşı, olum-ölüm, ağ-qara,.. "Qara daş" var ikən "Ağ daş"ın olmaması bu qaydanı pozurdu. Bəlkə də dünya işlərinin çox vaxt öz qəlibinə düşməməsi, pisliklərin baş alıb getməsi, Allahın son göndərişi olan İslam dininə insanların bütünlüklə tapınmaması da elə bu təbii qaydanın pozulmasına görə idi! Hələlik isə hər şey sirr örtüyünə bürünmüşdü. Bu örtük şor dəniz sularından ibarət idi. Bu, Tanrının Oğuz  sirlərini sular altına alıb qorumasına, gələcək minilliklərə çatdırmaq məqsədinə görə də ola bilərdi. Dünyaya aid hər şeyi bilən, daim göylərlə təmasda olan, ölümsüzlüyə qovuşmuş Baş

Dədə də bir dəfə Alp Arslanın atası Çağrı xana onların əsil Oğuz elminin hələ heç yarısına da vaqif olmadığını demişdi.

Baş Dədəni qoruq elan edib qorumaq oğuzların mövcudluq borcuna çevrilməli və o, Qorqud Dədə adlanmalı, bütün gələcək Baş Dədələr də milli sərvət olaraq mühafizə olunmalı idi. Onun rəvayətlərinin, ibrətamiz söhbətlərinin nağıl kimi dillərdə dolaşdığını eşitmişdi. Bunların bir "Oğuz kitabəsi" kimi toplanması, qorunması, gələcək nəsillərə təhrif olunmadan çatdırılması da vacib idi. Türk dünyası, xüsusən də oğuz türkləri üçün çox işlər görülməli idi. Tanrının seçilmiş xalqına xidmət də savab sayılacaqdı. Bütün bunlar qorunmazdısa, türk dünyasının başı çox qovğalar çəkə bilərdi.

Nəhayət müharibələri bitirmək lazım idi. Dinc mühitdə görüləsi işlərin başına keçmək zamanı yubanırdı. Türk dünyasının götür-qoyunu yəhudi kökənli Nizam ül-Mülkün ümidinə buraxmaq tam doğru olmazdı. Dinclik tapan kimi Baş vəzirin işini araşdırmalıydı.

Alp Arslan "Ağ qala"nın üstündə, böyük bir məşəlin qarşısında oturub, çox məsələlər barədə aramla düşündü, qərar qəbul etdi və növbəti müharibəsində səlcuqlara qələbə yetirməsi üçün Allaha dua elədi. Bəlkə də sonra bir daha müharibə etmədi. Bəlkə də!

Ayrılarkən "Ağ qala"nın baş mühafizini çağırtdırdı, qalanı Qoruq elan etdi. Burada elmi işlər aparılmasından və xüsusən də rəsədxana kimi göy elmini inkişaf etdirməkdən ötrü baş mühafizə beş kisə qızıl təhvil verildi. Hər il bu qədər daha veriləcək, eyni zamanda xərclərin hesabatı tələb olunacaqdı.

-Çalışın bu qala başqa heç bir məqsəd üçün istifadə olunmasın! - Sultan at belinə qalxarkən əmr etdi. - Məqsəd dəyişərsə, qalanın adı da dəyişəcək, hələ üstəlik rəngi də. "Ağ qala" ağüz-oğuz qalasıdır. Bu qalanın rəngi, adı, mahiyyəti dəyişərsə, onda oğuzların başı çox bəlalar görəcək.

Alp Arslan uzaqlaşdıqca tez-tez çevrilib "Ağ qala"ya baxırdı.

Yüz minlik ordu Azərbaycandan çıxanda hamı səlcuqların varlı Bizans torpaqlarına girəcəyini düşünürdü. Ancaq belə olmadı. Minbaşılar istiqamətin Şərqə olacağını xəbər verəndə çoxları əvvəlcə bunu anlamadı, sonra isə təəssüfləndi. Türküstandan nə qənimət əldə edəcəkdilər ki... Oralar Bizansla heç cür müqayisə oluna bilməzdi. Ortada təkcə məsələnin siyasi mahiyyəti vardı. Sultanın sözündən çıxmaq olmazdı. Sultana sədaqət andı içmişdilər.

Ordu yolayrıcında Şərqə tərəf döndü. Bir o qədər qul, cariyyə, nökər, ondan bir az da artıq

sayda ərzaq aparan dəvələr, eşşəklər Şərqə doğru üz tutdu.

Əsgərlər daha əvvəlki qədər sərt deyildilər. İndi cəzalandırmaqdan daha çox tənbeh edəcəklərmiş kimi görünürdülər...

...Qavurd Kirmanda Alp Arslanın onun yanına gəlməsi xəbərini eşidəndə qulaqlarına inanmadı. Əvvəl qardaşının onun üstünə birbaşa ordu ilə gəldiyini zənn etdi. Çapardan qardaşının məktubunu alıb oxuyanda ürəyi yerinə gəldi. Məktubda deyilirdi ki, dövlətin Türküstan sərhədləri əmin-amanlıqda deyil. Alp Arslan orada hüzurun olmasından ötrü böyük qoşunla Kirmandan keçərək o torpaqlara gəlir. Bir səbəb də hörmətli qardaşını çoxdan görmədiyi üçün darıxmasıdır. "Mübarək üzünüzü görmək mənə çox xoş olardı". Məktub bu cümlə ilə bitirdi.

Sonra Qavurdun başına əks fikirlər doldu.

"Kirman Türküstan yolundan uzaqdadı, Sultan buradan niyə keçirdi? Niyə yolunu uzaq salırdı?" Bu suallara cavab tapa bilmirdi. Bir-iki dəfə özünün taxt-tac haqqını kimlərinsə yanında dilə gətirmişdi. Qardaşını sevmədiyini də gizlədə bilmirdi. Amma bundan uzağa getməmişdi. Gələn qoşunun heç yarısı qədər qoşunu yox idi. Əgər özü Sultan olsaydı, indi daha çox torpaqlar fəth edə bilərdi. Belə düşünürdü. Böyük dövlətdə böyük sultanın kölgəsi altında qalmaqdan pis nə ola

bilərdi? Heç vaxt özü istədiyini edə bilməyəcəkdi. Bu hiss onu sıxır, əzir, əzdikcə kiçildirdi. Kiçildikcə baş əyirdi. Nə vaxtsa səsini çıxarmalı, haqqını tələb etməliydi. Amma indi səbr etmək lazımdı. Səbr zamanın özü deyildimi? Nə zamansa qardaşına qarşı çıxmalıydı. Ordu yığmaqdan ötrü də zaman lazım idi. Qardaşını sonra yenə bilərdi. Öz "düşmən"ini gözləyərək onu Kirmandan kənarda qarşılamalıydı...

Qoşun gəlib yetişmişdi.

Sanki hər axınçının, hər əsgərin öz şəxsi bayrağı vardı. Müxtəlif rəngli bayraqların çoxluğundan qurulan çadırlar aydın görünmürdü. Düşərgənin ortasında isə Sultanın ağ çadırı qurulmuşdu. Kirmandan bir fərsəx kənarda olan düşərgə yeriyən şəhərə dönmüşdü. Hər kəs özünün gündəlik işi ilə məşğul olurdu. Kimisi səyyar bazardan dəyiş-düyüş edir, aldığını evinə göndərir, kimisi köhnəlmiş uzunboğaz çəkməsini yenisinə dəyişir, kimisi də iynə-sap işlərilə məşğul olurdu. Silahlarına və atlarına yenidən baxış keçirənlər də az deyildi. Döyüş qabağı özləri üçün adi həyatı seçən axınçılar döyüş zamanı dəmir yumruğa çevrilir, nizam-intizamdan kənara çıxmır, verilən əmri olduğu kimi yerinə yetirirdilər. Qələbələrinin bir səbəbi də bunda idi. Döyüş əvvəli və sonrası sərbəst, azad, döyüş zamanı isə tamam fərqli idilər. Sərbəst gəzən

axınçılar ya qaraneyin səsini, ya da davulun döyüş zərblərini eşitdikdə tamam başqa adam olurdular.

Düşərgə mühafizləri Kirman hakimini əsabələri ilə bir yerdə gördükdə xəbəri bir-birinə ötürdülər - "Kirman hakimi Qavurd bəy Sultanımızın hüzuruna təşrif buyurub." Qavurd bəy çadırların arası ilə irəlilədikcə, rəngli bayraqlara baxdıqca bu səslər də onu müşayiət edirdi. Kirman hakimi ağ çadıra çatanda Sultan artıq qəbula hazır idi və nə edəcəyini yaxşı bilirdi. Söhbətdə özlərindən başqa kimsənin olmasını istəməmişdi. Ailə söhbətinin daha dərinə getməsi, ətrafa yayılması münasib olmazdı.

Nökərlər çadırın qarşısında gələn qonaqların atlarının yüyənlərini tutdular. Atdan birinci Qavurd bəy düşdü. Şəstlə çadıra doğru irəlilədi, amma mühafizlərin silahlarının qadağa şəklində durduğunu gördükdə addımlarını ləngitdi. Çox keçmədi ki, baş mühafiz çadırdan çıxıb əli ilə ona çadıra girməsinə işarə verdi.

Qavurd bəy içəri girəndə Alp Arslan ayaq üstə idi. Onun əmri ilə çadırda  çoxlu qəndillər və şamlar yandırılmışdı. Alp Arslan qardaşının sifətini, üzünün ifadəsini daha yaxşı görəcəkdi. Bu əslində çox şeylərə aydınlıq gətirəcəkdi.

Sultanın qarşısında sol dizini yerə qoyan Qavurd zorla:

-Sultanımızın ömrü uzun olsun! - deyə bildi. - Sultan həzrətləri Kirmana xoş gəlib. Çapar mənə sizin Kirmana gəlmək xəbərini gətirən kimi sarayda ən layiqli otaqları sizin üçün hazırlatdırdım, gəbələri, xalçaları dəyişdirdim, çalışdım ki, hər şey Sultan həzrətlərinə layiq olsun.

Alp Arslan ağır hərəkətlə yönünü ona sarı çevirdi. Yaxınlaşıb hər iki qolunun dirsəyindən yapışdı, özünə tərəf çəkib bərk-bərk qucaqladı. Daha sonra əllərini onun dirsəklərindən çəkmədən bir qədər aralandı, yenə bərk-bərk qucaqladı. Qardaşı üçün çox qəribsəmişdi. Qavurd yaşa dolmuş, kişiləşmişdi. Bu an qardaşının ağılda da yaşlaşıb, müdrükləşdiyini bilmək istədi.

-Necəsən? Etiraf edim ki, sənin üçün çox darıxmışdım. Hərdən yadıma səninlə çöllüklərdə at çapmağım düşür, həsrətim daha da artır.

Qavurd səmimi cavab verməyə çalışdı.

-Sayənizdə dolanırıq, Sultan həzrətləri. - Amma cavabın quru alınması  Sultanın diqqətindən yayınmadı və ona zəndlə baxdı. - Sultan həzrətlərinin şöhrəti nəinki xaçpərəstləri, hətta fatmayıları da təşvişə salıb. Eşitdim buraya səfərinin məqsədi Türküstanda qayda-qanun yaratmaqdır.

Sultan ona bir də zəndlə, qıyqacı baxdı, sonra keçib taxtında oturdu. Amma qardaşına oturmaq üçün yer göstərmədi.

-Təkcə Türküstanda deyil, həm də buralarda qayda-qanun yaratmaq fikrim var. Deyirlər mənim iznim olmadan şəhərlərə hücum edilir, təyin etdiyim adamlar devrilir,.. Deyəsən irəli gedirsiz, Qavurd bəy, özü də eninə və uzununa.

Kirman hakimi kinayəni və Sultanın əsəbləşməyə başladığını hiss etdi. Söhbəti bir azacıq gərginləşdirərdisə, qardaşı özündən çıxa bilərdi. Bu zaman ölüm kəndirindən onu kimsə qurtara bilməzdi. Həm də o bu ağ çadırda tək idi. Onu buradan özündən savayı kimsə xilas edə bilməyəcəkdi. Qardaşının əsəblərinin gərilməməsi üçün tez hər iki dizini yerə qoydu, başını aşağı salaraq ağlamsındı.

-Sultan həzrətlərindən üzr istəyirəm, bir qələtdi eləmişəm, səhv olub. Bunu mənim cavanlığıma bağışlayın. Uşaqlıqda səninlə çöllüklərdə o qədər oynamışam ki, həmişə elə bilirəm o günlərdən çıxmamışam. Bu mənim səhvimdir. Sultan həzrətlərinin izni olmadan Şirazı Kirmana tabe etdirmişəm. Söz verirəm ki, bir də belə qələt etmərəm.

Qavurd əlinin arxası ilə guya yaşaran gözlərini sildi.

Sultan ayağa durdu, əyilib onun çiyinlərindən tutub özü bərabərinə qaldırdı. Qavurd yenə onun üzünə baxmadı. Alp Arslan yenə qardaşını bağrına basdı. Bu dəfə Qavurd bəy də cəsarətlə

Sultanı qucaqladı. Bir qədər belə qaldılar, sonra Alp Arslan əlini onun kürəyinə vurdu.

-Böyük Səlcuq dövlətini, atamızın, əmimizin arzularını həyata keçirmək üçün nələrdən imtina etməli olacağıq, hansı sədləri aşacağıq, hansı maneələri dəf edəcəyik,.. - Ondan aralandı və amiranə səslə, - Amma, mən istəməzdim ki, sən bu yolda səddə çevriləsən, əziz qardaşım.

Kirman hakimi Sultanın ikibaşlı sözlərini və eyhamını başa düşdü. Deməli, Türküstandan geri dönərkən qardaşı onu cəzalandıra bilərdi. Hazırlaşmaq lazım idi. Fürsəti əldən vermək olmazdı.

-Mənim əsgərlərimin Sultan həzrətlərinə qoşulmağına icazə verin!

"Mənim əsgərlərim" sözü Alp Arslanın qulağından yayınmadı. Əslində qardaşı Türküstanın ram edilməsində özünün iştirak etməsinə icazə istəməli idi. Onsuz da dövlətdə hər şey və hamı Sultana məxsus idi - "onun əsgərləri də!"

-Yox, gərək deyil, qardaşım, - dedi. - Ordunun ərzağını bol elə, bu bəsdir.

Bu söz artıq görüş vaxtının bitdiyinə işarə idi.

Qavurd baş əyib, qorxu içərisində geriyə çəkildi və çadırdan çıxdı. Dərindən nəfəs alıb yan-yörəsinə baxdı. Sanki sağ qurtulduğuna inana bilmirdi. Sonra tələsik öz adamlarına sarı getdi.

Alp Arslan isə dərin fikir içindəydi. Amma o daha öz qardaşı barədə düşünmürdü. Qarşıda onu böyük döyüşlər gözləyirdi. Özlüyündə son qərarı verdikdən sonra ayağa durdu, qurşağından asılmış qılıncını sığalladı.

...Alp Arslan ucsuz-bucaqsız ölkənin qərbini tam nəzarətə götürdükdən sonra 1065-ci ildə böyük bir ordu ilə Ceyhun çayını keçdi və Türküstan torpaqlarına girdi. Sırdərya ətrafındakı Oğuz Yabqu dövləti süquta uğradıqdan sonra burada yaşayan tayfalar  arasında çəkişmə başlamışdı. Bu boylar vaxtaşırı Səlcuq torpaqlarına girir, xüsusən müsəlman bölgələrini talan edirdilər. Eyni zamanda Xəzər dənizinin şimal-şərqində yerləşən Balxan türkləri də onlara qoşulur, ticarət karvanlarının qarşısını kəsirdilər. Karvan talançılığı ticarətə mənfi təsir göstərir, vergilərin də azalmasına səbəb olurdu.

1065-ci ilin dekabrında, qış fəslinin ağır keçməsinə, küləyin əsgərləri bıçaq kimi kəsməsinə baxmayaraq Sultan Mərvdə toplaşan ordusu ilə çətinliklə də olsa  Xarəzm torpaqlarına girdi. Oğuz Yabqu dövləti dağılandan sonra Manqışlağa gedən oğuz boyları özlərinə obalar və qalalar tikərək Salur bəyliyini qurmuşdular. Amma onlar müsəlmanlığı qəbul etməmişdilər və müsəlman bölgələrinə vaxtaşırı hücumlar edir, oraları çapıb talayırdılar.

Alp Arslan Ürgənc üzərindən Manqışlağa hücum etdi. Salur bəyliyi onun qarşısına otuz minlik qoşun çıxartdı. Kifçat yaxınlığında Sultanın kəşfiyyatı dəyərli xəbər gətirdi. Otuz minlik ordu öz düşərgəsinə heç mühafizəçilər də təyin etməmişdi. Düşərgədən eyş-işrət və yeyib-içmək səsləri gəlirdi. Sultan bundan istifadə etməyi qərara aldı. Gecə onun əmri ilə oğuz və qıpçaqların düşərgəsi mühasirəyə alındı. Sonra ehtiyat qoşun da cəlb olundu, Sultan ordusu düşməni ikiqat mühasirəyə aldı və sübhün açılmasını gözlədi.

...Düşmən düşərgənin əsgərləri ala qarğaların gur səsinə oyandı. Qışın sərt küləyi onlara tərpənməyə imkan vermir, gecə səhərə qədər şərab içdiklərindən başları ağrıyırdı. Ayağa duranlar dərhal çadırın künc-bucağına atılmış tuluğu axtarır, bir şey tapanda dərhal başlarına çəkir, sonra isə başlarını yırğalayaraq nərilti ilə gəyirirdilər.

Alp Arslan düşmənə heç xəbərdarlıq da etmədi. Usta Muradın yeni silahı düşərgəyə düşəndə hələ heç kim nə baş verdiyini bilmirdi. Çığırtı, qışqırıq, söyüş səsləri bir-birinə qarışmışdı. Birdən kimsə vəziyyəti başa düşüb qışqırdı:

-Biz mühasirədəyik! Başınızı götürüb qaçın!

Çaxnaşma döyüşün taleyini həll etdi. Sultanın əmri ilə mühasirə həlqəsi daraldı. Həlqə daraldıqca meyidlər çoxalırdı. Bir azdan süvarilər həlqədən aralanıb müqavimət göstərənlərin üstünə yeridi. Əmud başları əzir, qılınclar doğrayır, nizələr isə bədənləri dəlmə-deşik edirdi.

Qoşun tamam sarsılmışdı. Az sonra silahı atıb diz çökənlər artdı. Çoxları qılıncı əl içində önə tutub, diz çökmüş vəziyyətdə başlarını da aşağı dikərək aman diləyirdilər. Təslim olanlar əsir götürüldü. Türkmən və qıpçaq obaları darmadağın edildi. Səlcuqlar onların mallarını, mülklərini ələ keçirdilər. Qadınları və uşaqları da öz ixtiyarlarına aldılar.

Sultanın kafir qalmış oğuzlar üzərində qələbəsi tezliklə bütün Türküstana yayıldı. Onun kafirləri necə məğlub etməsi və heç kimə aman verməməsi xəbərləri çox sürətlə Manqışlağa çatdı.

Manqışlaqdakı qələbədən sonra Alp Arslanın ordusu Sırdərya istiqamətinə hərəkət etdi. Cənd hakimi, Uran boyundan olan Alp Qara vəziyyətin çıxılmaz olduğunu tez başa düşdü və anası Türkan xatunu hədiyyələrlə Alp Arslanın yanına göndərdi. İndiki halda Sultanla döyüşmək məğlubiyyətdan başqa bir şey hasil etməyəcək, artıq bütün Türküstana sahib olmuş Sultana

qarşı ağlı başında olan heç bir əsgər döyüşməyəcəkdi.

Aral ətrafına çatanda Sultana Cənd hakimi Alp Qaranın anası Türkan xatunun böyük bir heyətlə təşrif buyurduğu xəbəri çatdırıldı.

...1066-cı ilin yazı təzə girmişdi. Gündüzlər isti olsa da, axşamlar çox sərin keçir, gecə yağan yağışdan sonra səhər çıxan günəşin şüaları yağış damlalarını şehə çevirir, düzənlikdə qurulmuş rəngbərəng çadırlar yaz çiçəklərini xatırladırdı. Bir az aralıda bişən çörəyin ətri bütün düşərgəyə yayılmışdı. Səyyar sacların altına qoyulan kollar tez yandığından çörəkçilər sacın yanına yığılan kolları tez-tez oda atırdılar və nəticədə çörək daha tez bişirdi. Əsgərlər çoxdandı ki, isti və təzə çörək yeməmişdilər. Çörəyin ətri onları məst eləmişdi. Ev ətrinin iyi gələn bu çörəklərin onlara nə vaxt paylanacağını gözləyirdilər.

Alp Arslan isə çadırında var-gəl edərək başqa bir şey haqqında düşünürdü. O, Cənd hakimi Alp Qaranın Türküstanda ən güclü hakim olduğunu bilirdi. Əgər onu özündən asılı vəziyyətə sala biləcəkdisə, deməli Türküstan uzun müddət hüzur və dinclik içində yaşayacaq və buralarda iğtişaşlar olmayacaqdı. Buna görə də tapşırıq verdi ki, Cənd hakiminin anası Türkan xatun möhtəşəm qarşılansın. Türk dünyasında

qadınların daha mahir siyasətçi olduğunu bilirdi. Deməli, bu xatunla ünsiyyət çox maraqlı olacaqdı.

Ordunun əzəmətli görünməsi üçün qəbulun açıq havada keçirilməsi qərara alındı. Çadırın önündə taxt quruldu, yüz metr məsafəyə qırmızı xalçalar sərildi. Xalçaların hər iki tərəfinə süvari əsgərlər düzüldü. Oğlu Məlikşah sağ tərəfində, Baş vəzir Nizam ül-Mülk isə taxtın sol tərəfində durdu. Qalan yerləri isə vəzir-vəkil tutdu. Alp Arslan başına qızıldan düzəldilmiş, almaz və yaqutla bəzədilmiş tacını qoydu, əyninə ağ libas geyinib taxtda oturdu. Elçilər görünəndə qaraneylər çalındı, davullar döyəcləndi.

Türkan xatun heç vaxt belə qəbul görməmişdi. Hər şey möhtəşəm idi. Eyni rəngli atlara, eyni cür paltar geyinən əsgərlərə baxdıqca bu ordunun məğlubedilməzliyinin səbəbini başa düşdü. Cənd hakimi Sultan üçün cins atlar, bulqar xəz dəriləri, tatar kölələri, qiymətli paltarlar və qumaşlar hədiyyə göndərmişdi. Türkan xatun möhtəşəm qəbulu görüb, gətirdiyi hədiyyələrin kiçik olduğunu anladı.

Yaşı əllini keçməsinə baxmayaraq Türkan xatun hələ də gözəlliyini və təravətini itirməmişdi. Başına qıpçaq şalı salan bu qadın qürurla xalçalar üstündə yeridikcə cavanlıq əzəməti hələ də

görünürdü. Taxt-taca çatdıqda əlini qaldırdı. Buna uyğun olaraq onunla gələn əsabələr və ondan başqa hamı diz çökdü. Özü isə əyilib Sultanın xələtinin ətəyindən öpmək istədi. Bu zaman Alp Arslan qəfil ayağa durub, qadının çiyinlərindən tutdu və onu əyilməyə qoymadı.

-Xəcil etməyin, ana! Türk qadınına əyilmək yaraşmaz!

Alp Arslan Türkan xatunun əlindən tutub dodaqlarına apardı, ustufca öpdü, sonra isə qadının əlini alnına qoydu. Sultanın bu hərəkəti farağat duran əsgərləri riqqətə gətirdi və onlar üç dəfə "Hürr! Hürr! Hürr!" deyə qışqırdılar. Sultan əlini qaldırıb, sakitcə öz köməkçisindən kiçik bir kürsü istədi. Bir az keçməmiş taxtın qarşısına kürsü qoyuldu. Sultan Türkan xatunun qolundan tutub, kürsüyə əyləşdirdi, özü isə taxtında oturdu.

-Necə gəldiniz, xatun, yol sizi yormadı ki? - deyə soruşdu. - Bilsəydim ki, elçi sifətində siz gələcəksiniz, bunu rəva bilməzdim, ziyarətinizə özüm gələrdim.

-Yox yormadı, Sultan həzrətləri! - Türkan xatun çöhrəsinə yaraşan sirli təbəssümlə gülümsədi. Düşüncəsində isə Sultanın bu gəlişi baş tutacağı təqdirdə yurdun daşının daş üstündə qalmayacağı fikri axıb keçdi. O zaman hər şey və hər kəs qənimət kimi götürülərdi. Söhbətə nə-

dənsə başlamaq lazım idi. Əli ilə arxasındakı hədiyyələrə işarə vurdu. - Sultan həzrətləri, oğlum Alp Qara bu hədiyyələri sizə göndərib.

Sultan ayağa durub hədiyyələrə baxmaq istəyəndə xatun da qalxmaq istədi, ancaq o əlini qadının çiyninə qoyub durmasına imkan vermədi. Alp Arslan hədiyyələr arasında bir qədər gəzdikdən sonra yenə geri qayıdıb, taxtında əyləşdi. Elə də qeyri-adi bir şeylər deyildi, amma adi də sayılmazdı.

-Bəs oğlunuz özü niyə gəlmədi? Anasını bu qədər uzaq yolu qət etdirməsini heç bəyənmədim.

Türkan xatun köynəyinin qolundan kiçik bir dəsmal çıxarıb yaşarmış gözlərini sildi.

-Qorxdu, Sultanım, qorxdu! O sizin bu qədər qələbələrinizə inanmadığından göndərdiyiniz elçiyə kobud, özündənrazı tərzdə cavab vermişdi. Düzdür, mən bunu eşidəndə onu xeyli danladım, amma nə faydası, iş-işdən keçmişdi, elçiniz geri qayıtmışdı. Sonradan atılan daş topuğa dəyər, Sultanım. Sonra xəbər tutdu ki, başqa hakimləri Türküstanda bir-bir iradəniz altına keçirirsiniz, bax bundan qorxdu, Sultanım. Məni yanına çağırdı, yalvarıb yaxardı ki, ana, səndən başqa məmləkəti kimsə qurtara bilməz. - Türkan xatun belə deyib, yenə gözlərinin yaşını sildi. - Dedi, sən mənim ən dəyərlimsən,

ən əzizimsən, sən getsən Sultanım bağışlayar. Bax indi mən gəlmişəm hüzuruna, Sultanım. Əl məndən, ətək səndən. Ətəklərinə uzanan əllərimi geri qaytarma, Sultanım, türk birliyi, oğuz birliyi naminə oğlum Alp Qaranı da öz qanadının altına qəbul elə!

Türkan xatun yenə əyilib Sultanın ətəyindən öpmək istədi. Amma Sultan bu dəfə də buna imkan vermədi.

-Doğrusu, elçimə kobud cavab verdiyinə görə onu cəzalandırmaq istəyirdim, amma o sizi, oğlunu sevən bir ananı göndərdi. Mən türkəm! Türk Anaya qıymaz, Anadan keçə bilməz. Görünür, oğlunuz siyasəti pis bilmir.

Türkan xatunun qəlbində ümid toxumu cücərdi. Bir az da danışardısa Sultan yumşalacaq, oğlunu tamam bağışlayacaqdı.

-Sultanım, - dedi, - oğlum nə bilir ucu-bucağı bilinməyən dövləti idarə etmək nədir? On-on beş oba idarə edir, elə bilir ki, dünya onundur. Ona həmişə demişəm ki, özündən müştəbeh olma. Əyanlarını yığ, bir məsləhət-məşvərət eylə, kimə deyirsən. Sözü daşa, qayaya atsan qaya parçalanar, amma bunun gönü elə qalındır ki, heç nə təsir etmir. Keç onun günahından, Sultanım! Yaşa dolduqca ağıllanar. Sizin qanadınız altında olarsa, çox şey öyrənər.

Sultan Alp Arslan bu gözəl xatunun həm də çox ağıllı qadın olduğunu başa düşdü. Oğlunu və məmləkətini qılıncın iti tiyəsindən qurtarmaq üçün hər şeyə gedirdi. Belə qadınlar rəğbət və ehtirama layiqdilər. Onu çox həsrətdə qoymaq istəmədi. Hamının eşitməsi üçün uca səslə soruşdu:

-Yaxşı, oğlunuz Alp Qara nə istəyir?

Qadın sanki, onun səsi ilə yol alıb gedirdi. Sultanın səsinin ahəngi diqqətindən yayınmadı. O da uca səslə cavab verdi:

-Sülh istəyir, Sultanım! Alp Qara Sizə biyət etmək istəyir! O Sizin asılılığınız, Sizin böyüklüyünüz altında qürrələnmək istəyir. O Sizə illik xərac da verəcək, lazım gəlsə Sizin kölgəniz altında düşmənə qarşı vuruşacaq da.

Türkan xatun bu sözləri dedikcə yanaqları qızarır, bu qızartı onu daha da gözəlləşdirirdi.

Alp Arslan ayağa qalxdı. Bu dəfə xatunun ayağa durmasına mane olmadı. Düz xatunun gözlərinə baxdı.

-Bir halda ki, Alp Qara bizdən sülh istəyir, biyət istəyir, asılılıq istəyir, niyə də olmasın? Biz sülh istəyənin qarşısına sülhlə, savaş istəyənin qarşısına isə qılıncla çıxarıq! - Sonra o xidmətçilərinə sarı, - Hey, bu gün Cənd hakimi Alp Qaranın elçiləri mənim qonağımdır! - deyə qışqırdı. -

Bizə dost deyənə biz qardaş deyərik! Biz Oğuz xanın nəsliyik! Xan olan şəxsin süfrəsi və qəlbi dost üçün açıq olsun gərək!

Əsgərlər xorla üç dəfə "Yaşasın Sultanımız!" dedilər.

Alp Arslan Türkan xatuna daxil olması üçün ehtiramla çadırın qapısını göstərdi...

## ALP ARSLAN QURULTAY ÇAĞIRIR... QARDAŞI QAVURD ONA QARŞI ÇIXIR

Sultan Alp Arslan Cənd hakimini özünün vassalı edib, Ürgəncə döndü. Burada çox qalmayıb, Mərvə istiqamət götürdü. Mərvdə o, qaraxanlı və qəznəlilərlə yenidən qohum olaraq öz hakimiyyət soyunu təsdiq etdi. Belə ki, Sultan oğlu Məlikşaha Qaraxanlı hökmdarı Şəmsül Mülk Nəsr xanın əmisi İsa xanın qızı Tərkən xatunu alaraq möhtəşəm toy etdi. İkinci oğlu Arslanşaha Qəznə sultanı İbrahimin qızını aldı, öz qızını isə İbrahimin oğluna ərə verdi.

Bununla Alp Arslan iki məqsəd güdürdü. Özünün doğu sərhədlərində təhlükəsizliyini təmin edib, Batı sınırlarında geniş miqyaslı hərbi əməliyyatlara başlamağı, ikincisi isə alınmış torpaqla-

rın yenidən sülalə bəyləri arasında bölünməsi üçün qurultay çağrılmasını. Oğuz törəmələrinin qaydalarına görə qurultay çağırmaq və yeni torpaqları təsbit etmək gərək idi. Bu halda bəylər arasında yaranmış razılığı sonradan kimsə cəsarət edib poza bilməzdi. Bu razılığı pozan kəsə qarşı digər sülalədən olan bəylər qalxar və onun hakimiyyətini zor və ya xoş gücünə əlindən alardılar. Özünü Sultan elan etməsinə və adına xütbə oxutdurmasına baxmayaraq, Alp Arslan hər şeyi öz hökmünə uyğunlaşdırmaq istəmədi. Qurultay ənənəsinə sədaqət bütün türk ellərini onun ətrafında toplaya bilirdi.

Alp Arslan qurultayı Mərvdə çağırdı.

Mərvdə gücü və hökmü olan torpaqlardan min iki yüz hakim, Gürcüstan çarı, Şirvanşah, Qəznə və Qaraxanlı, Bağdad xəlifəsinin nümayəndəsi, Oğuz bəyləri, Səlcuq sülaləsinin bütün tanınmış simaları qurultayda iştirak edirdilər.

Şəhərdən kənarda hər kəsin nüfuzuna və rütbəsinə görə çadırlar qurulmuş, Səlcuq boylarının və gələn qonaqların bayraqları asılmış, damğaları vurulmuşdu. Çadırların ortasında isə ağ rəngdə və bütün qonaqların yerləşə biləcəyi qədər böyük və möhtəşəm bir çadır qurulmuşdu. Bu çadırın ortasında və hündür bir yerdə isə daş-qaş, almaz, brilyantla bəzədilmiş möhtəşəm taxt qoyulmuşdu.

Qurultay miladi 1066-cı ilə, cümə gününə təsadüf edirdi.

Əslində qurultayın keçirilməsində daha bir məqsədi də vardı. Alp Arslan əmisi Toğrul bəyin edə bilmədiyini etmək, hamı tərəfindən Böyük Səlcuq dövlətini təsbit etdirmək və onun bütün türklər tərəfindən tanınmasını istəyirdi.

Əvvəlcə çadırların içərisində və çölün düzündə cümə namazı qılındı. Cümə xütbəsi olaraq səltənətin ali ruhanisi Qurani-Kərimin "Əl-Bəqərə" surəsini oxudu və kiçik şərh verdi.

Namazdan sonra bütün qonaqlar təsbehlə Sultanın şərəfinə zikr etdilər. Baş vəzir Nizam ül-Mülk ona ayrılmış yerə çıxdı. Çadırda səssizlik yarandı. Baş vəzir türklərin ona qurultayın aparılmasını həvalə etmələrindən böyük qürur duyurdu. O özünün hər hərəkətini, hər sözünü götür-qoy edirdi. Kiçik bir səhvin onu sulalə arasında gözdən sala biləcəyinə əmin idi. Nizam ül-Mülk əvvəlcə avazla "Qurani-Kərim"dən bir neçə ayə oxudu, sonra "Fatehə" verdi. Buna uyğun olaraq bütün iştirakçılar salavat çevirib, "Fatehə" surəsini oxudular. Sonra baş qazi "Allahu Əkbər!" deyə səsləndi. İştirakçılar bu nidaya da qoşuldular. Daha sonra vəzir ona ayrılan yerdən hər kəsə xitabən dilləndi:

-Hörmətli hakimlər, sülalə bəyləri, hörmətli qonaqlar. Sultan Alp Arslan dəvətini qəbul edib qurultaya təşrif gətirdiyiniz üçün hamınıza minnətdarlığını bildirir!

Yer-yerdən təşəkkür nidaları yüksəldi.

Baş vəzir əlini qaldırıb sözünə davam etmək istədi:

-Hörmətli qurultay iştirakçıları! İndi də icazə verin qurultayda iştirak etmək üçün Böyük Səlcuq dövlətinin Sultanı Alp Arslan bəyi öz taxtına dəvət edim.

Çadırdan kənarda qaraneylər, zurnalar gurladı, davullar döyəcləndi. Çadırın digər qapısı açıldı və Alp Arslan ağ-qızılı işləməli libasında göründü. Onu görcək hamı ayağa durdu, sağ əllərini sinələrinə qoyub baş əydilər. Sultan öz taxtına oturana qədər kimsə əyləşmədi. Sultan iştirakçıların sırasından aramla keçərək, taxtında əyləşdi, Sonra o başı ilə vəzir Nizam ül-Mülkə "davam et" işarəsini verdi.

Baş vəzir isə axşamdan hazırladığı nitqini birnəfəsə söylədi:

-Hörmətli qurultay iştirakçıları, vaxtınızı çox almayacağıq. Qurultayın gündəliyində iki məsələ durur. Belə ki, Böyük Səlcuq dövləti yarandıqdan sonra səlcuq sülaləsi arasında həşəmətli sultanımızın iradəsi ilə torpaqların

yenidən bölünməsi və onların bəylərə tapşırılması durur. - Baş vəzir bir qədər sükut edib əlavə etdi. - Gündəliyin bu məsələsinə əlavə və təklif edən varmı?

Çadırda oturanlardan heç bir səs çıxmadı. İndi hamını maraqlandıran bir əsas məsələ vardı; kim hansı torpaqlara yiyələnəcək, kim kənarda qalacaq, kim cəzalanacaq. Qurultay başlanana qədər gündəlikdə hansı məsələnin olacağını heç kim bilmirdi. Odur ki, bu yeniliyə hamı diqqət kəsilmişdi.

Kimsədən səs çıxmamasını Nizam ül-Mülk razılıq əlaməti kimi başa düşdü. Çuxasının iç cibindən dürmələnmiş kağızı çıxarıb əvvəlcə öpdü, sonra gözlərinin üstünə qoydu. Daha sonra aramla:

-Çox gözəl! - dedi, - Əgər başqa təklif yoxdursa Sultanımızın iradəsi və qərarı ilə sülalənin bəylərinə hansı torpaqların verilməsini Sultanımızın əmrini oxuyaraq  elan edirik. - Nizam ül-Mülk əlindəki kağızı açdı və gözünə yaxın tutdu. -  Beləliklə Sultanımız Alp Arslanın fərmanı ilə sülalənin ən yaşlı nümayəndəsi və səlcuqlu ali hakimiyyət ünvanı olan, bayqu adının daşıyıcısı, Sultanın əmisi Musa bayquya Mazandaran verilir. - Çadıra tam sükut çökdü. Milçək uçsaydı vızıltısı eşidilərdi. Sülalə bəyləri torpaqların yenidən kimlər arasın-

da bölüşdürüləcəyini gözləyirdilər. Baş vəzirsə heç kimə fikir vermədən oxumağına davam etdi. - Bəlx torpaqları əmisi Toğrul bəy tərəfindən vəliəhd elan edilmiş, lakin Qutlamış tərəfindən hakimiyyətdən uzaqlaşdırılan Sultanın kiçik qardaşı Süleyman bəy ibn Çağrıya tapşırılır. Xarəzm isə Alp Arslan bəyin oğlu Arslan Arquna təhsis edilir. Sultan kiçik oğlu Arslanşaha Mərvi, qardaşı İlyasa isə Toxaristan və Saginyanı verir. Baqşur əyaləti Məsud ibn Ərtaşa, Təbəristan isə Məvdud ibn Ərtaşa tapşırılır.

Yerdən vassal hakimlərindən kiminsə səsi gəldi.

-Bəs vassal hakimlərinin hüquqları necə olacaq?

Səslər çoxalmağa başladı.

-Düz deyir!

-Böyük Sultanımızın bu haqda qərarı yoxdur?

-Qeyri-müəyyənliklə işləmək, çalışmaq çox çətindir, hörmətli Baş vəzir. Belə şəraitdə insanların, əsgərlərin etimadını itirirsən, gözdən düşürsən.

Qurultaya çağrılmış vassal hakimlər arasında səs-küy çoxalır, ara qarışırdı. Odur ki, əlini yuxarı qaldırıb, nümayəndələri sakitləşdirməyə çalışdı:

-Hörmətli hakimlər, tələsməyin. Ədalətli və adil Sultanımız sizləri heç yaddan çıxararmı? Sizin haqqınızda da fərmanı var. Belə ki, böyük Sultanımız vassal hakimlərin öz torpaqlarındakı hüquqlarını bərpa edir.

Yerdən yenə səslər gəldi:

-Var olsun Sultanımız!

-Yaşasın Sultanımız!

-Tanrı Sultanımızı hifz eləsin!

Hamının üstündən sanki ağır yük götürüldü. Hər kəsə öz hüquqları, öz hakimiyyəti qaytarıldı. Nizam ül-Mülk yenə əlini qaldırıb onları sakitləşdirdi və əsas məsələni onlara izah etməyə çalışdı:

-Bəylər, hörmətli qonaqlar, amma bir məsələ də var. Bu hüquqlar o zamana qədər sizin üzərinizdə qalır ki, Sultanın hər bir əmrini yerinə yetirəcəksiniz, yəni Böyük Sultanımızın bir çağırışı ilə Böyük Səlcuq dövlətinə hərbi və maliyyə yardımı göstərəcək, torpaqlarınızı ədalətlə idarə edəcək, rəiyyətin hörmətini qazanacaq, adillikdə Sultanımızdan geri qalmayacaqsınız. - Baş vəzir oturanlara baxıb əlavə etdi. - Böyük Sultanın buyurduqları aydındırmı?

Qurultay nümayəndələri başlarını razılıqla tərpətdilər. Kimsə hamının eşidə biləcəyi səslə dilləndi:

-Aydındır, hörmətli Baş vəzir!

Baş vəzir Böyük Sultana baxdı. Alp Arslan davam etməsi üçün razılıqla başını tərpətdi.

Nizam ül-Mülk boğazını artladı, eyni zamanda Böyük Sultanın birinci fərmanını dürmələyib çuxasının iç cibinə qoydu, oradan ikinci fərmanı çıxarıb təmkinlə açmağa başladı.

-Hə, hörmətli qurultay nümayəndələri, bir halda ki, Böyük Sultanımızın fərmanından razı qaldınız, keçək qurultayın ikinci məsələsinə. Belə ki, Böyük Sultan Alp Arslan bəy sağlığında özünə vəliəhd təyin etmək istəyir.

Sülalə bəyləri başlarını aşağı saldılar. Sülalə üzvlərindən çoxunun buna haqqı çatırdı. Çoxdandı ki, hər kəs özünü vəliəhd kimi görmək istəyirdi. Amma həm də hər kəs özünün vəliəhd təyin edilməyəcəyini də nəzərə almışdı. Nəhayət indi vəliəhdin adının elan olunacağı çoxlarının ürək döyüntülərini artırmışdı. Əslində vəliəhdin adı bəzilərinə aydın idi, çünki Böyük Sultanın böyük oğluna heç bir torpaq iqtası verilməmişdi. Bir də qardaşı Qavurd Kirman hakimliyinə təsdiq edilməmişdi. Bir çoxları onu da bilirdi ki, Qavurd bəy vəliəhd olmaq üçün istisnadır.

Nəhayət Baş vəzir vəliəhdin adını açıqladı:

-Böyük Sultan  Allahın izni ilə özünə bu gündən etibarən Məlikşah Alp Arslan oğlunu vəliəhd təyin edir! Allahu Əkbər! - Çadırın içərisində asta uğultu dolaşdı, amma tez də içərini sükut bürüdü. Sonra birdən sanki yeri-göyü lərzəyə gətirəcəkmiş kimi "Allahu Əkbər!" nidası qopdu. Bir anda hamı bu hökmlə barışdığını, razılaşdığını öz səsi ilə bildirmək istəyirdi. Vəzir razılıqla gülümsədi və - Allahın iradəsinə səs verdiyiniz üçün Böyük Yaradan hamımıza  kömək olacaq! - dedi. -  Hamınızı təbrik edirik! Xeyirli, uğurlu, bərəkətli olsun! Tanrı türkü qorusun! - Bir anda toplaşanların sağ əlləri yuxarı qalxdı və "Hürr!" hayqırtıları eşidildi. Böyük Sultan da ayağa qalxmışdı və onun nidası daha gur səsləndi. - Vəzir Nizam ül-Mülk yenidən təbəssümlə başını tərpətdi. - Qurultayımızı elə bu nida ilə bitirmək istəyirik. Əgər qurultay iştirakçılarının əlavə sözü, sualı olarsa, bunu məclis vaxtı da verə bilər. İndi isə Böyük Sultan qurultay nümayəndələrini böyük ziyafətə dəvət edir. Qurultay Allahın izni ilə başa çatdı!

Üzlər Böyük Sultana sarı çevrildi. Alp Arslan əllərini irəli açıb dua etdi, sonra "Fatehə" surəsini oxumaq üçün salavat çevirdi. Buna uyğun olaraq hamı sağ əlini qaldırdı, ovcunu alnından çənəsinə kimi çəkib salavat çevirdi və "Fatehə" surəsini oxudu.

Əsgərlər, sərkərdə və xidmətçilər çadırların qarşısında durmuşdular. Qurultayın uğurla bitməsi məlum olan kimi hamı üç dəfə "Hürr!" deyə hayqırdı.

Çölün düzündə sanki yüz minlərlə boz qurd üzünü səmaya tutub səsini ənginliklərə çatdırırdı. Şamanlar Böyük Sultanın və gənc vəliəhdin şərəfinə üzərriklər yandırdılar.

Ziyafət məclisinə əvvəlcə şərbət paylandı...

Göy dağın üstündə üç iri tonqal qalandı...

Böyük Səlcuq hökmdarı Alp Arslan məmləkəti adi dövlət halından çıxararaq tərkibində zəbt etdiyi xalqları, etnosları birləşdirən böyük müsəlman-türk dövlətinə - Böyük Səlcuq imperiyasına çevirdi.

...Qavurd gedər-getməz Baş vəzir Kirmandan yenə həyəcanlı xəbər almış, bu səbəbdən Sultanla görüşmək istəmişdi. Alp Arslanın isə diqqəti dövlətin qərb torpaqlarında xaçpərəstlərə qarşı yeni yürüşlər təşkil etməyə yönəlmişdi. Baş vəzirin qəfil gəlişi "nə isə dəyişməli olacaq" xəbərini verirdi. Alp Arslan öz qarşısına çox böyük və yubadılması caiz hesab edilməyən məqsədlər qoymuşdu. O imperiyasına yeni torpaqlar qatmaq və onu daha da böyütmək istəyirdi. Bu torpaqlar isə qərbdə yerləşirdi. Bizans, Misir, Afrika,.. Ölkənin daxildən qüvvətləndirilməsi, İslamın yayılması,

Oğuz elmi və mədəniyyətinin tədqiqi və geniş tədris olunması barədə islahatlar ömrünün ahıl çağlarında da mümkün idi. Nə qədər qocalmamışdı, dünyanı fəth etmək lazım idi. Göylərə çəkilmiş "Ağ daş"ın qayıdacağı o günlərdə diqqət xarici hücumlara yayına bilməzdi. Sular altında qərq olunmuş qədim Bakuni də xilas etmək lazım idi. Bəlkə də dünyanın, həyatın axınının bir məcraya yönləndiriləcəyi o müqəddəs məqamlarda Girkanın suları geriyə çəkiləcək, dənizin özü Bakuni xilas edəcəkdi. Hələlik isə o dövrü yetişdirmək vacib idi. Bundan ötrü Qərb torpaqlarını fəth etmək lazım gəlirdi. Bunu hələ "Ağ qala"nın üstündə ibadət edərkən dərk etmişdi. Əks təqdirdə Qərbdən həmişə təhlükə axacaqdı. Əxlaq pozulacaq, cəmiyyət dağılacaq, ədalət qeyb olacaqdı. Ululları da həmişə Qərbi fəth etmək istəmişdilər. Deməli bu, heç nahaq olmamışdı. Xristian dünyası İslamı qəbul etməli, xilas olmalıydı. Əks təqdirdə Qərbdən axan xristianlıq özünü də, Şərqi də məhv edəcəkdi.

O yalnız bu barədə fikirləşirdi. Ona görə də kiminsə onu narahat etməsini istəmirdi. Amma Baş vəzir qəfil görüş istəyirdi, deməli, onu qəbul etmək lazım idi.

-Çağırın gəlsin!

Nizam ül-Mülk içəri daxil olanda Sultan onun üzünə diqqətlə baxdı. Hökmən nəsə olmuşdu. Vəzirin üzü qara kömürə dönmüşdü, çırtma vurulsa qanı çıxardı. Onu bir qədər sakitləşdirmək istədi. Baş vəzir baş əyməyə macal tapmadı.

-Bu gözəl qurultaydan sonra adam bəd xəbərlərin gəlməsini heç istəmir. İç savaşlarımı bitirib, böyük səfərə hazırlaşmaq istəyirəm, hörmətli vəzir. Axşama da dalınca adam göndərib bu barədə səninlə məsləhətləşmək istəyəcəkdim. Yaxşı ki, özün gəldin, gəl əyləş. Amma bəd xəbər vermə!

Baş vəzir Sultanın sol tərəfində əyləşib başını məyusluqla aşağı dikdi.

-Elədir, Sultan həzrətləri! Mən də sizinlə bu barədə danışmaq istərdim. Mən də fikirləşdim ki, iç məsələləri artıq tənzimləmişik. İndi xaçpərəstlərlə haqq-hesab çəkməyin vaxtıdır. Dövlətin təhlükəsizliyi və bütövlüyü həmişə diqqət mərkəzində olmalıdır, Sultan həzrətləri, yoxsa Böyük Səlcuq dövlətində "mənəm-mənəm" deyənlər çoxalarsa dövlətin özülü sarsılar.

Alp Arslan Nizam ül-Mülkün çox ciddi xəbərlərlə gəlməsini hiss etməkdə yanılmadığını başa düşdü. Özü də bu ciddi xəbərlər deyəsən onun yaxınlarına aid idi. İndicə Oğuz elminə isti-

nad edib bu xəbəri vəzirin düşüncəsindən oxuya bilərdi. Amma onun iç dünyasına xəbərsiz müdaxilə etmək istəmədi.

-Yaxınlarımdan təhlükəli xəbərlər var? - deyə Baş vəzirdən birbaşa mətləbə keçməsini istədi.

-Sultan həzrətləri,.. - Baş vəzir söhbətin təsir gücünü artırmaq üçün uzaqdan başlamaq istədi. - Hələ qurultay vaxtı qardaşınız Qavurda diqqətlə göz qoyurduq. Heç özündə deyildi, qanıqara və kefsiz gəzirdi. Özü də demək olar ki, bir-iki nəfərdən başqa heç kiminlə təmasda olmurdu. Bir az da küskün kimi idi. Məncə Qavurd qardaş və dost mövqeyində deyil.

Qardaşı Qavurdun adını eşidəndə Alp Arslanın qanı qaraldı. "Bu qardaşlar, əqrabalar niyə belə olur? Heç yerdən təhlükə, zərbə, xəta gəlməyəndə yaxınlar uzaq adama çevrilirlər. Beş barmağının beşini də bala batırıb yedizdirirsən, nəinki barmaqlarını, hətta biləyini də udmaq istəyirlər. Kirmanda nəyin çatmırdı, ay qardaş? Yoxsa yadından çıxıb mənsəbə necə çatmışıq, hansı mərhumiyyətlərdən keçmişik? Nə qədər ki, əzablı günlərimiz olur, fəlakət yaxamızdan əl çəkmir, ölümə getməyə də hazır oluruq,.. Elə ki, ev-eşik yiyəsi olursunuz, məmləkətdə sayılanlar cərgəsinə keçirsiniz, mə-

nəmlik iddiası özünüzdən beş dəfə artıq böyüyür. Şəxsi iddialar, özündənrazılıq sizi düşünməyə qoymur. Elə fikirləşirsiniz ki, Tanrı ilə bir yerdə kiçik təpələri də siz yaratmısınız. Daha anlamırsınız ki, Allah-Təala hər kəsə yükü daşıyıb apardığı qədər imkan verir. Bundan o yana olmaz. Bundan o yana bu yükü aparmağa çalışsan yanarsan, belin qırılar, hörmətdən düşərsən, onurğaların əyilər! Sən əsil qardaş olanda qüdrətli olursan. Bu qüdrət sənə qardaş olduğun üçün verilir! Siz özünüz günah içində ikən nə üçün bizi də qardaş qatili edib günaha batırırsınız?!"

Alp Arslan bir ana sığan bir dünyalıq ağır fikirlər altında ayağa durdu. Baş vəzir də dərhal qalxdı. Amma onun çox qəmləndiyini sezdi. Sultanın fikirlərində aydınlıq olmayınca susmağı qərara aldı. Onsuz da özü gec-tez yenidən bu mövzuya qayıdacaqdı.

Sultan qırmızı xalça üstündə aram addımlarla gəzib fikirləşirdi. Arada başını aşağı salıb qırmızı rəngi gördükdə beləcə qırmızı paltar geyinib qəzəblənmək və qardaşının ölümünə fərman vermək istədi. Bir neçə dəfə "lənət şeytana!" dedi.

-Yaxşı, bəs Qavurd qurultay zamanı niyə kefsiz gəzirdi? Mən qonaqlar çox olduğundan buna diqqət yetirə bilmədim.

Nəhayət, Nizam ül-Mülk verəcəyi cavabın sualını aldı.

-Məlum məsələdir, Sultan həzrətləri! Qurultayda Səlcuq sülaləsinin torpaq haqları təsdiq olundu, amma Kirman hakimi barədə heç bir söz deyilmədi. Bu da görünür onun qüruruna toxunub.

-Amma... - Sultan, hər iki əlini çiyni bərabərində qaldırıb etiraf edirmiş kimi söylədi, - Amma qurultay onun haqlarını ləğv də etmədi. Bu barədə heç bir söz deyilməyibsə, deməli Kirman hakimliyindən onu hələ heç kim uzaqlaşdırmayıb.

-Belə fikirləşirəm ki, elə məhz bu və başqa bir məsələ onu bizdən küsdürüb. Özünüz bir fikirləşin, Sultan həzrətləri, sülalənin ən adlı-sanlı bəyləri qurultaya yığışır, hər kəsə hörmətlə yanaşırlar. Yoxmuş kimi onun heç adını da bir dəfə olsun çəkmirlər.

Alp Arslan əllərini yellədi:

-Bax burada düz deyirsən, hörmətli vəzir. Doğrudan da burada biz səhv etmişik. Bu necə olub ki, nəzərdən qaçıb?! Bəs sən qurultayın təşkilat işləri ilə məşğul deyildinmi? Gərək onu diqqətdən kənarda saxlamayaydıq. Gələcəkdə bu səhvi düzəltməyə çalışmalıyıq. Hərçənd ki, buna onun bir müddət əvvəl etdiyi özbaşınalıqlar da az rəvac verməyib. Səbəbsiz heç nə olmur. Pis əməl-

ləri onu arxa plana keçirdib, nəzərdən qaçırdıb. Amma hər halda gərək diqqətli olaydıq. Bu işdə sən də səhv buraxmısan, unutma bunu. - Bir qədər duruxdu. Baş vəzirin dediyi sözlərdən yadına nəsə düşdü. - Dayan bir, hörmətli vəzir! Bir az bundan əvvəl söylədin ki, qurultay zamanı qardaşım Qavurd məhdud sayda insanlarla təmasda idi. Kimlər idi o adamlar?

-Elədir, Sultan həzrətləri, amma... - Baş vəzir susdu. Bunun da səbəbi vardı. Ətlə dırnağın arasına girməkdən ehtiyat edirdi. Türkləri bəzən heç vəchlə aldatmaq və ya nəyəsə inandırmaq olmurdu. Bir andaca boynu üzülə bilərdi. Nala-mıxa vurmağa çalışdı.

-Bilirsiz, Sultan həzrətləri, ... qardaşınız...

Alp Arslan hirsləndi:

-Sən ağzındakı loxmanı çıxart, hörmətli vəzir! Aydın danış, görək nə deyirsən.

Baş vəzirin ayrı çarəsi qalmadı. Sultan tələb etdiyi halda daha gözləyə bilməzdi. Məlumatı hamıdan tez çatdırmazdısa, sonra fərsizliyə görə ittiham oluna bilərdi.

-Bu sabah, Sultan həzrətləri, Kirmandan bizim adam xəbər gətirib. Qardaşınız Qavurd Kirmana çatan kimi əminiz Musa bəyin oğlu Fəxr əl Mülkə və Şəbənkarə sülaləsindən olan Fars hakiminə məktub göndərib və çox güman ki, onları da sizin də əleyhinizə yönəldə bilib.

Sultan keçib taxtında oturdu.

-Məhdud sayda insanlarla görüşüb deyəndə bunları nəzərdə tuturdun?

Baş vəzir Alp Arslanın yanında olduğu illər boyu bir məqama diqqət vermişdi. Dövlət işlərini, məmləkət hadisələrini müzakirə edərkən Sultan çox hirslənir, amma söhbət ailə və sülalə məsələlərinə keçdikdə, hər şeyi soyuq başla müzakirə etmək istəyirdi.

Nizam ül-Mülk onun sözlərini təsdiq etdi:

-Elədir ki var, Sultan həzrətləri, qurultay zamanı qardaşınız Qavurd yalnız onlarla görüşürdü, onlarla birlikdə idi. Məhdud sayda deyəndə onları nəzərdə tuturdum.

Sultan doğma qardaşı Qavurdun qurultay olayı olmadan da həmişə nataraz əməllər törətdiyini xatırladı. Bu nə üçün belə idi?

-Qardaşım niyə əleyhimə getmək istəyir? Səbəbini öyrənə bildinmi?

Baş vəzir hər şeyi açıb deməyin vaxtı gəldiyini başa düşdü.

-Sultan həzrətləri, təbii ki, bunun səbəbləri var, amma gərək amanda olmağıma söz verəsiniz.

Alp Arslan yerindən sıçradı:

-Amandasan vəzir, söylə, oxu atıb yayını gizlətmə!

-Bu dəfə vəliəhd təyin etməməyinizdən inciyib, Sultan həzrətləri. Bəzi yerlərdə deyib ki, vəliəhd olmağa guya ən çox onun haqqı çatırmış. Guya siz ağzından süd iyi gələn oğlunuzu vəliəhd təyin etməklə onun haqqını tapdayıbmışsınız. Bax bundan inciyib. Ən pisi odur ki, ixtiyarında olmayan vəzifələri vəd verməklə başına adam yığır, qoşun-ləşkər toplayır.

Sultan durduğu yerdə sanki dondu. Bir müddət quruyub qaldı, kiprikləri də tərpənmədi.

Bu arada vəzir də dinmədi. Sultan belə vəziyyətə gəlirsə, deməli ciddi bir qərar verəcəkdi. Handan-hana Alp Arslan başını silkələdi:

-Deməli, belə, hörmətli vəzir. Xaçpərəstlərin və kafirlərin torpağına yenə Kirmandan getməli olacağıq. - Fikirlərinə düzəliş gətirdi. - Amma bu dəfə Kirmana sənsiz gedəcəm.

-Bəs mən hara gedəcəm, Sultan həzrətləri? - Baş vəzir dəqiqləşdirmək istədi.

-Sən Fars əyalətinə gedəcəksən, hörmətli vəzir! Yox, orada "Nizamiyyə" məktəbləri açmayacaqsan, bu dəfə özünlə otuz min suvari götürüb gecə-gündüz atları çapırsan. Nəbadə onların birləşməsinə icazə verəsən. Aydındırmı, hörmətli vəzir, mən isə dərhal Kirmana yola çıxıram.

Nizam ül-Mülkün əlləri sinəsinin üstündə çarpazlandı:

-Aydındır, Sultan həzrətləri! İzn verin gedim, səfər üçün hazırlıqlarımı görüm...

...Alp Arslan bu dəfə yetmiş minlik qoşunla Kirmana doğru istiqamət götürdü. Kirman yaxınlığında döyüş gözlənilirdi. Amma bu baş vermədi. Qoşunlar üz-üzə gəldikdə Qavurd üçün döyüşmək istəyənlər ağ bayraq qaldırıb Alp Arslanın tərəfinə keçdilər. Qavurd ətrafında bir neçə nəfər qaldığını görüb qaçdı, Ciruft qalasında gizləndi. Sonradan Qavurd qardaşına elçi göndərib bağışlanmaq istədiyini bildirdi və sürünə-sürünə onun hüzuruna gəldi. Alp Arslan onu bağışlayıb əfv etdi. Sonra isə bağrına basıb qucaqladı. İncimiş qardaşına qiymətli hədiyyələr verərək Kirmandakı hakimliyini təsdiq etdi.

## KONSTANTİNOPOLDA VƏZİYYƏT

Ani alındıqdan sonra Alp Arslan Anadolunun içinə girməsə də axınçılar Bizans torpaqlarını tədricən fəth edirdilər. Çox çəkmədən səlcuqlar Qaysərini alıb, Ankaranın yüz kilometrliyində dayandılar. Lakin Sultanın Şərq yürüşü Bizans torpaqlarının istilasını müvəqqəti olsa da dayandırmışdı.

İstila dayandıqdan sonra da Bizans sarayında siyasi böhran davam edirdi. İmperator X Konstantin ölümündən bir qədər əvvəl gənc və gözəl Yevdokiya ilə evləndi. İmperator X Konstantin hərbi zümrəyə aid deyildi və ona dövrün məşhur siyasətçisi və sərkərdəsi adını vermək olmazdı. Əslində məhz ordunun zəifləyib əldən düşməsində Konstantinin müstəsna xidmətləri vardı. Ordu aylarla, hətta bir neçə il əməkhaqqı almadığından döyüş ruhu ölmüş, talançılıq, rüşvətxorluq tüğyan etmişdi. Muzdlu döyüşçülər imperator uğrunda heç döyüşmək istəmirdilər. İmperiyada vəziyyət acınacaqlı idi.

Konstantinin hakimiyyətə gəlməsində əsas söz sahibi əqidədaşı, silahdaşı və dostu patriarx İoan Ksifilinin mühüm xidməti olmuşdu. Konstantin imperator olduqdan sonra patriarx senata da öz adamlarını və nazirləri yerləşdirmişdi.

...Aya Sofya kilsəsində axşam duasından geri döndükdən sonra artıq can verməkdə olan X Konstantinin yanından heç yerə getmədi. Gedəsi yeri də yox idi. İmperatorun sağlığında çox güclü nüfuza sahib olan patriarx Konstantinin ölümündən sonra çox zəifləyə bilərdi. Onun cəmiyyət və senat üzvləri arasında nüfuzu olsa da orduda söz sahibi deyildi. Ordu tərəfdarları imperiyaya ləyaqətlə xidmət etmiş və söz sahibi olan bir hərbçinin Yevdokiya ilə evlənməsini və

imperator kimi taxta çıxmasını istəyirdi. Bizans qaydalarına görə imperator dünyasını dəyişəndə imperator xanımı müvəqqəti olaraq imperiyanın işlərini idarə edirdi. Mərhum imperatorun xanımı növbəti dəfə ərə gedərdisə, o zaman həmin ər imperator elan olunur və taxt-taca yiyələnirdi.

Can verən imperatorun yanında əyləşmiş patriarx İoan Ksifilin qəm-kədər içərisində fikrə getmişdi. O, Yevdokiyanın ərə getməməsi üçün hansı addımları ata biləcəyini düşünürdü.

İmperator ağır-ağır gözlərini açdı. İztirablar içində zarıldadı və:

-Nə olub, niyə belə qəmlisən, əziz dostum? - deyə soruşdu. - Əgər mənim ölümüm üçün belə dərdlisənsə, çox da qəm yemə. Biz Allah deyilik, biz insanıq. Bir gün yaranan, bir gün Allahın dərgahına gedəcək.

Patriarx uzanıb can verən imperatorun üstünə xaç çəkdi, sonra ağlayırmış kimi göz yaşlarını silməyə çalışdı, amma söhbətə haradan başlayacağını da sanki unutmuşdu.

-Əziz dostum, imperator həzrətləri! Gör biz səninlə nələri keçdik, nələri yaşadıq? Qorxudan, əzabdan, əziyyətdən, hətta ölümdən... amma yolumuzdan dönmədik. Ancaq indi baxıram sənə, çarpayıda iqtidarsız uzanmısan, sanki sənin üçün daha heç nə yoxdur. Nə idarə etdiyin Bizans tor-

paqları, nə var-dövlət, hakimiyyət, nə də hər gecə soyunub yanına girən, sənə həzz verən, bütün gecəni gözlərini yummağa qoymayan gözəl-göyçək, boylu-buxunlu Yevdokiya var. Sən heç məni də görmürsən. Sən indi öz canınla əlləşirsən, imperator həzrətləri!

Allahla öz canı arasında heç kimin olmasını istəməyən Konstantin Yevdokiyanın adını eşidəndə gözlərini yumdu. Qadının dolğun dodaqları, bədəninə uyğun əndamı, iri döşləri və başqa mübhəm yerləri bütün çılpaqlığı ilə gözü önünə gəldi. "Deməli məndən sonra vücudu, ruhu gözəl olan bu qadın yad qucaqlarda yatacaq, yadlar üçün şıltaqlıq edəcək, şənlənəcək,.. Bəs mənim ruhum bunlara necə dözəcək? Ruhum orada dağılmayacaqmı, sümüklərim sızıldamayacaqmı?"

İmperator gözlərini güclə açdı və patriarxa baxdı. Baş barmağını güclə qaldırıb, onun qulağını ağzına dirəməsini istədi.

İoan imperatorun son nəfəsdə ona mühüm bir şey demək istədiyini başa düşdü və tez onun istəyinə cavab verdi.

Konstantin zorla pıçıldadı:

-Dostum İoan, mənim son vəsiyyətimi yerinə yetirə bilərsənmi? Yoxsa o dünyada ruhum şad olmaz, gorum çatlayar.

Patriarx onsuz da can verən imperatorun son nəfəsində qəlbini qırmaq istəmədi.

-Əziz dostum, nə vəsiyyətin olsa, and verirəm Allaha, mən onu yerinə yetirəcəm.

-İstəyirəm senat və sən yazılı şəkildə söz verəsiniz ki, məndən sonra Yevdokiya heç kimə ərə getməsin. - Belə deyib, üz-gözünü turşutdu, zarıdı. - Yox düz demədim, - tez əlavə etdi. - İmperiyanı idarə etmək üçün imperator lazımdır. Buna görə də Yevdokiya hökmən ərə getməlidir. Sən, senat üzvləri üzərinizə yazılı öhdəlik götürün ki, o yalnız bizim ailədən olan bir nəfərə ərə gedə bilər. Əks-təqdirdə nə sən, nə də senat üzvləri bu izdivaca izn verməyəcəksiniz.

Bayaqdan dalana düşmüş insan kimi çıxış yolu axtaran patriarxa can verən imperatorun bu fikri ən ağıllı yol kimi göründü. Bundan daha yaxşı tədbir və təklif ola bilməzdi.

Patriarx İoan Ksifilin sevincindən az qala qəhqəhə çəkib güləcəkdi. O tez ayağa qalxdı, imperatora məmnun baxışlarla təzim etdi və otaqdan çıxdı.

Patriarx tələm-tələsik senat üzvlərini və Yevdokiyanı çağırdı, Müqəddəs Kilsəyə və İsa Məsihə and içib, imperatorun son vəsiyyətini onlara elan etdi. Yevdokiya bunu istəməsə də, senat üzvləri təklifi məmnuniyyətlə qarşıladılar.

Qaydalara əsasən imperator xanımı ərə getmək məsələsində senatdan, onlardan asılı idi.

Son nəfəsi bu vəsiyyətə bağlı imiş kimi imperator yataqdaca dünyasını dəyişdi...

İmperator Konstantinin ölümündən bir neçə il keçdi. Amma onun nəslindən layiqli namizəd tapıb, Yevdokiyanı ərə verə bilmirdilər. Birini Yevdokiya bəyənmir, digəri isə senat üzvlərinə və patriarxa sərf etmirdi. İmperiyaya isə quzeydən və doğudan basqılar güclənirdi. Bunun bir yolu olmalıydı. İmperator xanımı gözəl olmaqla yanaşı həm də çox ağıllı qadın idi. Kənardan hansı namizədə ərə verilərdisə patriarx onun əleyhinə gedəcək və senat üzvlərini də onun əleyhinə qaldıracaqdı. Bu da onunla nəticələnə bilərdi ki, imperator xanımının başını qırxıb ömürlük qadınlar kilsəsinə göndərərdilər. Bu işi hiyləsiz həyata keçirmək mümkün olmayacaqdı. Bunda isə patriarxın xidməti əvəzsiz olacaqdı.

...Kilsə duasından sonra Yevdokiyanın xidmətçisi patriarxa yaxınlaşıb, imperator xanımının onu görmək istədiyini bildirdi. Aya Sofyadan Böyük İmperator Sarayına məsafə heç də çox deyildi. Patriarx böyük, işıqlı zala daxil olduqda Yevdokiya öz taxtında əyləşmişdi. O bu görüşə xüsusi hazırlaşmış, paltarının sinəsini daha çox açmış, sinəsini sıxdırıb, daha çox qabartmışdı. Zatən

xidmətçilər də onu yaxşı bəzəmişdilər. İoan ona yaxınlaşdıqda imperator xanımı ayağa durub, ehtiramla patriarxın əlindən öpdü. Sonra taxtında deyil, üzbəüz masada əyləşdilər. Xidmətçilər masa üstündəki badələrə şərab süzüb getdilər. Yalnız bu zaman Yevdokiya mətləb üstünə gəldi.

-Hörmətli patriarx, siz rəhmətlik ərimin dostu, silahdaşı olmusunuz. Həm də qos-qoca imperiyanın patriarxısınız. Odur ki, hər şeydən öncə sizinlə məsləhətləşmək istədim.

-Buyurun, hörmətli Yevdokiya! - deyə İoan yerində qurcalandı.

-Hörmətli patriarx! Zərif qadını çiyinlərinə bu qədər imperiya işlərini yükləmək olmaz. Qadın çiyinləri bu ağırlığı götürsə təkcə mənim çiyinlərim deyil, imperiyanın da sütunları qırılar. Bilirsiniz ki, doğuda türkmənlər Anadolunun içərisinə doğru irəliləyərlər. Şimalda isə normandlar İtaliyada son Bizans sığınacağımız olan Bari şəhərini ələ keçirəcəklər. Daxildə bizim əleyhdarımız Duka Konstantinopolda öz tərəfdarlarını başına yığıb hər an bizi devirməyə hazırdır. - Xanım susdu və patriarxa baxdı. Ona indiki vəziyyət sərf edirdi. Hal-hazırda əsl hakimiyyət onun əlində idi. - Siz bunu daha yaxşı bilirsiniz.

-Nə təklif edirsiniz, xanım həzrətləri!

Yevdokiya ayağa durub, pəncərə ağzına gəldi və buradan görünən Aya Sofiya kilsəsinə bax-

dı. Rəngli-bəzəkli şüşələrin arxasından kilsə daha möhtəşəm görünürdü. Bu zaman o arxadan patriarxın onun bədən yaraşığına qoca və məftun nəzərlərlə baxdığını hiss etdi. Susurdusa, deməli, ona marıtlayıb baxırdı. Qoca, heysiz kişilərin qarşısında qadınlıq əzalarını qabartmağın öz həzzi vardı.

Bir qədər kilsəyə tamaşa etdikdən sonra qəfil geri döndü.

-Bizansa imperator lazımdır, patriarx həzrətləri, imperator, imperatriça deyil!

İoan gözlərini onun sinəsindən ayırıb, sanki diksinmiş kimi oldu, sonra bir qədər əllərini təəssüfedici şəkildə yellədi:

-Hə-hə, mən də bilirəm, Bizansa imperator lazımdır. Belə gözəl...Amma xanım, bilirsən ki, rəhmətlik Konstantinin qarşısında yazılı öhdəlik götürmüşük, sənin ərə gedəcəyin şəxs yalnız onun nəslindən olmalıdır. Sən isə neçə müddətdir onun nəslindən heç kimi bəyənmirsən. Nə etməliyik?

Yevdokiya gəlib yerində oturdu. Şərabdan bir qurtum içdi. Hiyləgərcəsinə gülümsəyib patriarxa baxdı.

-Çıxış yolu var, patriarx həzrətləri! Konstantinin nəslindən heç kimi bəyənmədim, doğrudur. Çünki imperiyanı qorumaq şərəfinə layiq olan şəxs o nəsildə yoxdur. Amma... - barmaqla-

rını badəsinin ağzında gəzdirib başını aşağı saldı və özünü utanmış kimi göstərdi.

İoan nəsə anlayıbmış kimi azacıq təngənəfəs oldu.

-Amma nə, övladım?

-Amma ürəyimdən keçən biri var, patriarx həzrətləri! Təəssüflər olsun ki, o Konstantinin nəslindən deyil. O şəxs,.. - imperator xanımı sözünə fasilə verdi və sonra, - O şəxs sizin qardaşınızdır! - dedi - Patriarx yerindən sıçradı və yenə oturdu. - Fikirləşirəm ki, əsl imperator olmağa layiq şəxs yalnız odur. Bir tərəfdən onun arxasında siz durarsınız, digər tərəfdən senat üzvləri.

Patriarxı sanki səhrada, buludsuz səmada ildırım vurmuşdu. Belə fikir onun ağlına gəlməmişdi. Gələrdisə də bu qadın razı olmaz, sonra isə hamı onun növbəti seçimlər zamanı verəcəyi qərarın səmimiliyinə şübhə edəcəkdilər. Ürəyində "gözlədiyim yar idi, yetirdi pərvərdigar" dedi. Onun sülaləsinin imperator olmağa yolu açılırdı, ancaq ortada yazılı öhdəlik də vardı. Dili-ağzı topuq vuraraq:

-Axı,.. axı... axı, xanım həzrətləri, ortada hər kəsin bildiyi, imza atdığı yazılı öhdəlik var. Ondan necə qurtulacağıq?

Yevdokiya patriarxın mövzu üçün tam hazır vəziyyətə gəldiyindən məmnun oldu. O, bu qoca-

nın patriarx olmasına əhəmiyyət vermədən, barmağı ilə onu daha yaxına çağırdı və pıçıldadı:

-Mən də bilirəm yazılı öhdəliyimiz var, hörmətli İoan həzrətləri! Bununçün gərəkdir ki, Aya Sofyada hər kəsin gözü önündə, sizin başçılığınız altında, bu öhdəlikdən imtina edək, bu sənədin heç bir hüquqi qüvvəsinin olmadığını bildirək. Ölmüş adam qarşısında nə öhdəlik?! Həm də söhbət imperiyanın təhlükəsizliyindən, mühafizəsindən, ölkənin, xristianların qorunmasından gedir. Məncə indiki məqamda bu məsələ müzakirə olunarsa, hamı sizin fikrinizə səs verər. Siz qərar verməyin, qoy təklifi də başqaları etsin. Lap guya siz əvvəlcə tərəddüd edirsiniz. O zaman yolumuz açılar. Siz də istədiyinizə çatarsınız, mən də öz istədiyimə. Siz mənim... gənc qadın olduğumu da unutmayın.

Patriarx "Qadın ağıllı düşünür" deyə fikirləşdi. Bunu yalnız özü həyata keçirə bilərdi. Yevdokiyanın onun qardaşına ərə getməsi sonrakı günlərin məsələsi də ola bilərdi.

Bizans patriarxı İoan Ksifilin belə də etdi. Əvvəlcə bu barədə fikirlər yayıldı, rəy formalaşdırıldı, sonra senat üzvlərinin təklifi ilə məsələ senatda açıq müzakirəyə çıxarıldı. Daha sonra bu barədə kilsə də müzakirə apardı.

Yazılı öhdəlikdən azad olunduqdan bir müddət sonra Yevdokiya ərə getmək istəyini bəyan

etdi. Amma namizəd heç də patriarxın qardaşı deyildi. Bu şəxs  yaraşıqlı və döyüşkən, Roman IV Diogen oldu.

Patriarx nə edəcəyini bilmədi.

Yeni kralın  andiçmə mərasimi və toy, 1 yanvar 1068-ci ildə baş tutdu.

## YENƏ ƏLƏMUT QALASINDA

Zirvələrinin başı ərşə dayanan dağlar qoynundakı Ələmut qalasının ətrafında tam sakitlik idi. Burada təbiətin səssizliyi başqa bir aləm təəssüratını yaradırdı. Arada bu zirvələrin başına qara buludlar toplaşır, ildırım çaxır, göy guruldayırdı. Sonra leysan yağış daşını, torpağını isladır, sanki bununla varlığını təsbit etmək istəyirdi. Hərdən küləyin gücü ilə xırda daşlar, torpaq dənəcikləri göydə oynayır, bəzən isə böyük daşları laxladaraq silkələyirdi. Sanki bəzən təbiət daşla, torpaqla rəqs etmək istəyirdi. Təbiət kimi Ələmut qalasının içərisi də sakit görünürdü. Amma bu zahirən belə idi. Böyük sərkərdələrin, böyük şahların, sultanların qoşunları burdan keçmədiyinə, burada qan-qada olmadığına görə qaladakı həyat dinc və sakit hesab oluna bi-

lərdi. Əvvəllər qalanı mühasirəyə alıb, buradakılara hərbə-zorba gələnlər indi az qala bu yolu tamam unutmuşdular. Burada ölümündən bir an qabaq düşmən üstünə atıla bilən şəxslər yox idi. Əvəzində burada qan töksə də, hələ ölümünü gözləməyənlər vardı. Bu yerlərə sanki İblis hökmranlıq edirdi. Sanki İblisin yaratdığı dəzgah zamana və məkana aid deyildi. İblis dəqiq zamandan və məlum hər hansı məkandan kənarda olsa da, onun yaratdığı ölüm zaman və məkanın içində idi. Burada hər şey şərə və ölümə xidmət edirdi. Hətta istirahət edərkən də ölüm pusquda durub gözləyirdi. Zahirən nə qədər sakit olsa da, yuxular ölümlə başlayır, ölümlə qurtarırdı. Müharibələr, qırğınlar, fəlakətlər buradakı "Ölüm dəzgahı" qədər dəqiq işləyə bilmirdi. İstənilən müharibənin sonunda fəlakətlərdən sonra bir bərpa işləri, intibah dövrü başlayırdı. Burada isə ölümdən sonra yenə də ölüm gəlirdi. Bir ölüm bitirdisə, onun yerini yeni ölüm tuturdu. Havasından, daşından ölüm qoxusunu hiss edə bilməyən şəxs burada rahat yaşaya bilməzdi. Ölüm burada həyatverici qüvvə idi. Ələmut qalasında ölüm həyat mənbəyi idi. Bu mənbə insana qorxu, həyəcan, təşviş gətirməklə yanaşı, həm də

ağlasığmaz hakimiyyət və var-dövlət mənbəyi hesab olunurdu.

Bunu "Dağlar müdrüyü" də gözəl anlayırdı. Belə bir "Ölüm dəzgahı"nı hazırlayanda özünün də ağlına gəlməzdi ki, "dəzgah" belə mükəmməl alınacaq. Zaman keçəcək, bu "dəzgah" yontalanacaq və fasiləsiz işləyən alətə çevriləcəkdi.

Dünyanın hər yerində bazarda, küçə-bacada, sarayda kimə yaxınlaşıb "məni "Dağlar müdrüyü" göndərib" desəydin həmin adamın gözləri qaralar, yadına yalnız "ölüm" sözü düşər və "Əcəlim gəldi" deyə düşünərdi. "Dağlar müdrüyü"nün adı hər yerdə əcəllə birgə çəkilirdi. Onun üçün açılmayan qapı, saray, girilməyən zirzəmi yox idi. İnsanlar hətta gecələr döyülən qapını açmazdılar ki, bəlkə gələn qonaq ölüm mələyidir.

"Ölüm dəzgahı"nı icad edən Həsən Sabbahın beyni yenə dəqiqliklə ölüm haqqında fikirləşirdi. Onun heç də zəngin olmayan fəlsəfə dünyasında hamıya öyrətdiyi və dönmədən əməl etdiyi bir şüar vardı: "Ölüm haqqında fikirləşməsən, səni heç kim qızıla, pula tutmayacaq". İndi də sakit bir hücrədə oturub ölüm haqqında düşünürdü. İndi onun beyni Fatmayılar məmləkətində idi. Oradan məmləkətin içində məmurların bir-birlərini diddiyi, aldatdığı barədə xəbərlər gəlirdi. Neçə yüz illərdi ki, qurduqları

dövlətin təməlini didib dağıdırdılar. Demək olar ki, bu gün-sabah kənardan yüngül bir təkan olsa Fatmayıların yerinə qıpçaq əsilli məmlüklər gələcəkdi. Kökləri qul olduğu üçün onlarla danışmaq çətin olmayacaqdı. Həsən Sabbah belə düşünürdü. Onun hücrəsində dövlətlərin xəritəsi hazırlanmışdı. Hara gücü çatırdısa oranın paytaxtını yaşıl rənglə, harada gələcəkdə zor və sui-qəsd nəzərdə tuturdusa, oranı qırmızı rənglə işarələyirdi. Divardan asılan bu xəritə onun həyatının yarısı idi. Bu hücrəyə yalnız köməkçisi Xəttab, bir də kəniz kimi saxladığı və birgə yaşadığı qadın gələ bilərdi. O da nə zaman çağrılardısa gəlirdi, istənilən zaman bu qadının da hücrəyə daxil olmağa icazəsi yox idi. Həftədə bir dəfə gəlib buraları yığışdırar, hücrənin tozunu alar, ancaq əşyaların yerini heç zaman dəyişməzdi. Həsən Sabbah hücrəyə girəndə nəyi haraya qoymuşdusa onu orada görməyi xoşlayırdı. Hətta bir dəfə bu kəniz xalçanı çırpmaq üçün onu icazəsiz havaya çıxartdığından düz bir həftə başı aşağı quyudan asılı vəziyyətdə saxlanmışdı.

Hücrənin qapısı döyüldü. "Dağlar müdrüyü" gələnin Xəttab olduğunu bilirdi.

Qapı cırıltı ilə açıldı. Eyni zamanda hücrənin kiçik pəncərəsindən qala başında dövrə vuran ağ qartalın qıyya vuran səsi də gəldi. Xəttabın

içəri girməsinə baxmayaraq "Dağlar müdrüyü" pəncərəyə yaxınlaşıb, göylərin ənginliyinə baxaraq o qartalı gözləri ilə axtardı. İndi görünməsə də onun bir də dövrə vuranda görünəcəyini dəqiq bilirdi. Belə də oldu. Məhz pəncərənin önünə çatanda o ağ qartal yenə qıyya vurdu. Bu ağ qartalın qıyya vurub görünməsini əvvəllər çox sınamışdı. Bu işlərinin yaxşı gedəcəyindən xəbər verirdi.

Xəttab içəri girərkən sahibinin dərin fikirlərə daldığını görüb heç salam da vermədi. Yalnız imam ona tərəf çevrilərkən:

-Salamun-əleykum, ya "Dağlar müdrüyü"! - dedi.

-Hə, Xəttab, gəl əyləş, gəl. Baxaq görək xəbər gətirdiyin bu yer üzü Ələmut qalasının, bu dağların zirvəsindən necə görünür?

Xəttab çox da böyük olmayan bu hücrənin divarından asılmış xəritə görünsün deyə qapı ağzında oturdu.

-Hər şey sizin istədiyiniz kimidir. - Altındakı nimdarı rahatladı. - Verdiyiniz göstərişlər olduğu kimi yerinə yetirilir.

"Dağlar müdrüyü" qurşağından qara rəngli təsbehini çıxartdı. Xəttabın daha nəsə söyləyəcəyini bildiyindən susub, təsbehi şaqqıltı ilə çe-

virməyə başladı. Xəttab da bunu bildiyindən sözünə davam etdi:

-Ya həzrət, bu gün səhər-səhər yenə üç fədai gətiriblər. "Xəlvət" yerdə axşama hazırlaşırlar. Məsləhət bilirsinizsə, bu gecə onları "cənnət"dən keçirərdik. Bu üç gənc şəhərdə hazırlanan onlarca gəncin içindən seçilib, bura gətirilməyə layiq bilinib.

Həsən Sabbah razılıq əlaməti olaraq başını yellədi:

-Lazımdır, Xəttab, lazımdır. İndi bizim işlərimiz çox böyüyüb, bizə fədailər daha çox lazımdır. İndi fədailər hər gün "cənnətdən" keçməlidirlər. - Nə xatırladısa, - Yaxşı, bu fədailəri hardan feilləyib gətirmisiniz? - soruşdu.

Xəttabda bütün sualların cavabı hazır idi.

-Əndaluzdan, imam həzrətləri.

Həsən Sabbah qulaqlarına inanmadı. Dərhal ayağa durub xəritə qarşısına keçdi, Fatmayılarla su sərhədi olan İspaniyaya baxdı. Adını dəqiqləşdirmək üçün sualı bir də verdi.

-Haradan dedin?!

Həsən Sabbahla birgə ayağa qalxan Xəttab gəlib onun arxasında dayandı.

-Əndəluzdan. - Şəstlə dilləndi...- Bizim təbliğatçı dəstəmiz "Dağlar müdrüyü"nün təlimini

dünyanın hər yerinə çatdırmaq üçün gedib oralara çıxıb.

Həsən Sabbah məlumatdan məmnun qalmışdı. Xəritədə Əndəluz şəhərinin yeri nə yaşıl, nə də qırmızı rəngdə işarələnmişdi.

-Hə, bu yaxşı oldu, Xəttab.

Xəttab imamın keyfinin yaxşı olduğunu görüb:

-İmam həzrətləri, bu gənclər hazırlanan zaman bir dəfə xəlvət yerdən onlara diqqətlə baxdım. Çox cəld, çox inamlı fədailərdir. Deyirəm,.. - O ehtiyatla fikrini bildirmək istədi, - deyirəm onların üçünü də növbəti pilləyə keçirib, Əndəluza qaytaraq. Ora təzə girmişik. Oradan da Avropanın göbəyinə, normandların paytaxtına qədər gedib çıxa bilərik.

Həsən Sabbah quş lələyi ilə qarşısındakı xəritədə Əndəluz şəhərini qırmızı rənglə işarələdi:

-Yox, Xəttab həzrətləri, - dedi. - Bilirsən ki, bizim dəyişməyən qaydalarımız var. Fədai o zaman ikinci pilləyə keçir ki, o qurbanlığı qətlə yetirir, özü isə sağ qala bilir. Bu bizim dəyişməz qaydamızdır. Bunu qulağında həmişə sırğa edib saxla. - Diqqətlə onun qulaqlarından asılan sırğalara baxıb, gülümsədi. - Sənin sırğaların isə yerindədir.

Xəttab nə cavab verəcəyini bilmədən bir qədər susub durdu.

-Daha nə var bu günlük? Yəni deməyə sözün yoxdursa, mürəxxəs ola bilərsən. Hə, təbliğatçıların işini və saylarını da artırmaq lazımdır. Hər sui-qəsddən sonra hamamda, karvansarayda, bazarda müzakirələr keçirilsin, bu müzakirələr gücləndirilsin. Belə söhbətlər sarayla təmas quran adamların içində daha çox olmalıdır. Onlar bütün məmurlar, saray adamları, din, elm xadimləri arasında xof, qorxu, təşviş yaratsınlar. Qoy həmişə düşünsünlər ki, "Ölüm dəzgahı" qəfildən, gözlənilmədən onların yanında görünər, miskin vücudlarına son qoyar. İnsan vücudunun xisləti belədir, Xəttab. Hər kəs hər zaman birinci ruhunu deyil, yeyəcəyi çörəyi, vücudunu, ailəsini və qohumlarını fikirləşir. - Həsən Sabbah kinayə ilə güldü. - Biz isə ruhumuz və vücudumuz haqqında heç zaman fikirləşmirik. Çünki onları şeytana satmışıq. Şeytansa ölümsüzdür, Xəttab həzrətləri, ölümsüz! Biz də ölümsüzlüyü seçdik - nə edək?

-Anladım, imam həzrətləri!

Bunu deyib, çuxasının içindən bürmələnmiş bir kağız çıxartdı və ona uzatdı.

-Bu nədir? - Həsən Sabbah kağızı açdı və yazılanlara baxaraq soruşdu.

-Dediyiniz siyahıdır, imam həzrətləri! "Ölüm dəzgahı"nın qonağı olacaq kəslər.

Həsən Sabbah diqqətlə siyahını nəzərdən keçirtdi:

-Yaxşı ki, Əndəluzu da bura salmısan. Hə, bura Fatmayıları da sal, bir də Qara dənizin quzeyində yerləşən Kafa şəhərini əlavə et. Deyirlər, yəhudilər oralarda çox zənginləşiblər.

Xəttabı təəccüb götürdü.

-Fatmayıları da?! Gərək ki, onlar bizə xərac verir.

-Hə verir, amma orada vəziyyət elə qarışıb ki, bir azdan it yiyəsini tanımayacaq. Bir az qabağı da görmək lazımdır, Xəttab həzrətləri. Roma papası ilə də danışıqları gücləndir. Deyəsən onlar Normand kralından beziblər. Bilirsənmi, Roma papası asılılıqdan qurtulmaq istəyir. Bu isə bizim əlimizə oynayır. - Əlini əlinə sürtüb sevinclə dedi, - Dünyanın bütün sərvəti Ələmuta axacaq, Xəttab həzrətləri, - birdən duruxdu, - Amma bu türkmənlər buralarda yaman çoxalırlar. Demişdim axı, bu Alp Arslanın işini tez bitirin.

-İş gedir, imam həzrətləri. Bilirsiniz ki, onun çoxsaylı ordusundan əlavə, çoxsaylı casusları da var. Digər tərəfdən Baş vəzir Nizam ül-Mülk onun mühafizlərinin sayını birə iki artırıb. Sultana yaxınlaşmaq çox çətindir. Ancaq siz narahat olmayın, bu işi həmişə həyata keçirmək

istəyən, kamanda dartılıb zamanını gözləyən fədailərimiz var. Onlar gec-tez bunu edəcəklər. Zənginlərə nifrət edən insanlar həmişə çox olub, indi də çoxdur. Biz o cəsur sultanı da, onun müdrik vəzirini də qətlə yetirəcəyik! Onlar tarix yazmaqlarında olsunlar, onların taleyini də biz yazarıq!

Həsən Sabbah Baş vəzirin adını eşitdikdə qaşları düyünləndi, köhnə haqq-hesabları xatırladı.

Dodağının altında nifrətlə pışıldadı:

- "Siyasətnamə" yazan əbləh qoca! Sənin "Nizamiyyə"lərinə gücümüz çatmasa da, sənə çatacaq. Səninlə də haqq-hesab çəkməyin zamanı gələcək. Sənə nifrət edənlər də az deyil. Biri elə mən! Buna mənim ömrüm çatmasa da, bir ayrı xaşxaşinin həm ömrü, həm də gücü çatacaq!

## SAVALANDA

Yaşının nə qədər olduğunu özü belə unudan Baş Dədə hələ nə vaxt çox sevinib, nə vaxt çox kədərləndiyini xatırlamırdı. Adi insan hissləri onda çoxdan korşalmışdı. Vücuduna bu hissləri yaxın buraxardısa ona öyrədilən elmdən kənara çıxacaq, adi bir insana çevriləcəkdi. Adi insana aid olan şeyləri çoxdan hafizəsindən

silib atmışdı. BuFatmayıları daralara nə zaman gətirildiyini də unutmuşdu; yüz il, yüz əlli il əvvəl - bilmirdi. Bunun əhəmiyyəti yox idi çünki. Sanki, anadan olandan burada yaşayırdı. Anası, atası, bacıları, qardaşları, bir sözlə qohum-əqrabası vardımı, yoxdumu - bunu da bilmirdi. Xatirəsində uzaq, dumanlı, közərti kimi simalar vardı. İstəsəydi oddan keçər, uzaq keçmişə qayıdar, öz əzizlərini görərdi. Amma o bir nəfərə, bir ailəyə, dar çərçivəyə qapılıb qala bilməzdi, o çoxlarının övladı, qardaşı, atası idi. Özündə bu hissi tərbiyə etmişdi. O, bütünlüklə xalqın idi. Oğuz elminə tam vaqif olmaq üçün yalnız bir nəfər seçilirdi. O birilər onu onsuz da tam başa düşməyəcəkdi. Gündəlik müşkülləri ilə məşğul olan, yalnız "evə çörək pulunu necə qazanım ki, uşaqlarım acından ölməsin» düşüncələri ilə yaşayan insanlar böyük qayələrlə yaşayan insanı onsuz da başa düşməyəcəkdilər. O isə hamını başa düşür, öz gücü və kəraməti ilə hamıya kömək edirdi. Əgər oddan  keçib indi öz qohum-əqrəbasını tapardısa, bu ona və onlara nə verəcəkdi? Necə başa salacaqdı ki, onların ulu babasıdır. Qohumlar bəlkə də bu ulu babanın nə vaxt öləcəyini, nə vaxt canlarının  ondan qurtulacaqlarını düşünəcəkdilər. Heç özü də yüz ildən çox beyninə yığdığı düşüncələrdən xilas ola bilməyəcəkdi. Maddi həyat

qayğıları da onu sıxacaq, onların içində yaşadığı üçün hər gün Tanrıdan ölüm istəyəcəkdi.

Baş Dədə əslində zaman və məkandan ayrılmışdı. O insanların yaşadığı məkana və zamana dönsəydi, onu heç kim başa düşməyəcəkdi, hətta dəli hesab edənlər də olacaqdı. Zaman axını vücudundan kənarda axıb keçirdi. O bunu aydın görürdü. Adi insanlar bunu görə, duya, dərk edə bilməzdi. Heç nəyi dəyişməyə ehtiyac yox idi, onun həyatı minlərcə pak, müqəddəs, kamil insanın dühasını özündə cəmləyə və xalqın maraqlarına yönləndirə bilirdi.

Çoxları öz uğurunun, qələbəsinin, şöhrətinin, böyük əməllərinin təkcə özünə malik olduğunu düşünürdü. Amma onlar heç bilmirdi ki, onun nəzərləri milyonlarca seçilmiş, fərqli insanı öz dairəsində saxlayır, onlara ruhən kömək edir, yolunu açır, rəqibləri, bədxahları kənarlaşdırır, onu sapınmağa, sarsılmağa, yolundan azmağa qoymur. O yəqin ki, Allahla insan arasında vasitəçi idi. Peyğəmbərlər, imamlar, kəramət sahibləri tamam fərqli vəzifə daşıyırdılar. Elə onları da onun kimi varlıqlar qorumuş, mühafizə etmiş, görməli olduğu işin yerinə yetirilməsinə kömək etmiş və yalnız Tanrının çağırışı gəldikdə, onların mühafizəsini mələklərə ötürmüşdü.

İstədiyi vaxt peyğəmbərlərin, imamların, müqəddəs övliyaların ruhu ilə təmasa girən, onların ruhi təsirini şəfahət və kömək məqsədilə yönləndirən biri kimi əli hər yerə, hər kəsə, hər nəyə çatırdı. Təkcə özünə çatmırdı.

Özü adi insan həyatını yaşamırdı.

Bu gün nədənsə ürəyi möhkəm çırpınır, sıxılırdı. İstəsəydi, sıxıntını bir anın içində saxlaya bilər, daşa dönər, heç nə haqqında fikirləşməzdi. Bu gün bunu etmək istəmirdi. Səbəbini özü də bilmirdi. Neçə gün idi ki, içində qəribə bir darıxmaq vardı. "Kaha adamı"nı işindən-gücündən ayırmaq istəmirdi. Amma bir nəfər olmasaydı, məşvərət keçirə bilməzdi. Xəbər göndərməyə məcbur oldu.

"Kaha adamı" mağaraya girəndə salam verdi.

-Qırxın cəmi birdir, birin cəmi qırxdır! Ruhun göylərdə, vücudun yerdə olsun, Dədə!

Baş Dədədən başqa digər Dədələr onun salamını aldılar:

-Birin cəmi qırxdır, qırxın cəmi birdir.

"Kaha adamı" yerində büzüşüb əyləşmiş, amma hələ nəfəsini və gözlərinin işığını itirməyən Baş Dədəyə yaxınlaşdı, əlini əlinə aldı, gözlərinin içinə diqqətlə baxdı. Gözlər kədər içindəydi. Özünü ələ alıb soruşdu:

-Dədəm, sənin ürəyində nə yaman sıxıntı var! Dərdini aç, yüngülləş. Yüngülləşmək ruhunu təzələr, vücuduna yeni işıq gətirər. Ruhunu vücudundan ayırma, Dədəm!

"Kaha adamı" onun ruhunu və fikirlərini oxuya bilmişdi.

Baş Dədə yenə ağır-ağır və yumşaq səslə danışdı:

-Övladım, bu gün vücudumun ruhuma qovuşduğu gündür! Yaşımın qədərini özüm də bilmirəm, yüzdürmü, iki yüzdürmü, özümün də yadımdan çıxıb. Oğuz elminə vaqif olandan sonra Tanrının qoyduğu yolla getdim, Tanrı nə məsləhət bildi, onu da elədim. Gecə öyrəndim, gündüz öyrətdim, şər işlərə qarışmadım. Mərifətimizlə şər işlərə yaxın olan insanları özümüzdən uzaqlaşdırdıq. İnsanların ağlına gələ bilməyən, ya da əfsanə, nağıl, rəvayət hesab etdiyi elmləri biz həyata keçirtdik, dəyərli insanları qoruduq, mühafizə etdik, ruhunu qüvvətləndirdik, uğurunda, qələbəsində, tapıntısında vasitəçi olduq. Amma bircə dəfə bu elmi öz şəxsi maraqlarımız üçün istifadə etmədik. Aşağıdakı insanlar bizim elmimizi dərk edə bilməzlər, övladım. - Onun səsi elə bil quyudan gəlirdi. - Biz xalqımıza, bəşəriyyətə xidmət göstərdik.

"Kaha adamı" Baş Dədənin sözünü bitirdiyini zənn etdi, buna görə də sual vermək istədi:

-Üzr istəyirəm, Dədəm, bəs niyə söylədiklərin keçmişə aiddir? Elə səsin də sanki keçmişdən gəlir.

-Sözümü kəsmə, mən bilirəm hansı zamandan danışıram, mən keçmişdən gələcəyə yönəlmişəm. - Azacıq nəfəs dərib bayaqkı fikirlərə qayıtdı. - Biz elə bir elmə vaqif olduq ki, insanlar onun uğrunda yüz illər çalışacaq, vuruşacaqlar,.. İstəyəcəklər ki, ona nail olub dünyaya ağalıq edə bilsinlər. İblis daim iş başındadır. Peyğəmbərlər, övliyalar insanları  paklaşdırdığı kimi onlar da o biri yandan çox insanları yolundan azdırır. Bunu sizlər də bilirsiniz, görürsünüz. Ona görə də Tanrının  bizə etibar etdiyi elmi, bu sirri heç kimə vermək olmaz, yoxsa dünyanı məhv  edərlər. Bu elm insan zəkasının inkişaf etmiş ən yüksək mərhələsinin əxz edəcəyi, beynini pozmadan daşıya biləcəyi ən ali elmdir. İnsanlar yalnız gözlə görünən, işığın dəyib əks olunduğu maddi nəsnələrlə bağlı elmi düşünə bilir. Onlar görmədiklərinə çox az inanır, ya da heç inanmırlar. Amma bizim gözlə gördüklərimizdən qat-qat çox görmədiklərimiz var. "Qurani-Kərim"də on səkkiz min aləmə işarə vurulur. Bizim dünyamız bircə aləmdir. Bəs o biri aləmlər? Bilirsən ki, bu elm İlahi elmdir. Bəlkə də hələ onun bir zərrəsidir. - O, mağaranın tavanına baxaraq susdu. Sonra daha astadan, - Bu elm

həm də vücudun ruha çevrilməsi elmidir, - dedi. - Ruh təməldir, vücud ondan yaranmadır.

Baş Dədə susdu. "Kaha adamı" bu susqunluqdan yararlanmaq istədi:

-Dədəm, üzünə baxan kimi anladım ki, yenə müqəddəs oddan keçmisən, orda gördüklərin səni sarsıdıb, səni sıxır. Axı bizim bildiyimizin yüz qatını sən bilirsən, gördüklərini geri qaytarıb dəyişdirə bilməzsənmi?

-Əstəğfurullah, övladım! Hər şeyə qadir olsaydıq, Tanrı olardıq. O vücudda yaşamır, vücudun içində yaşayan bizik. O vücuddan kənardadır. O böyük nurdur, işıqdır. Kimdə vücud varsa ölümə məhkumdur. Biz də ölümə məhkumuq, övladım, nəyə qadir olmağımızdan asılı olmayaraq.

Mağarada oturan Dədələr də deyəsən nəyisə başa düşmüşdülər. Sakit oturub, sonluğu gözləyirdilər.

-Dədəm, bəlkə müqəddəs oddan bir də keçəsən?

Baş Dədə etiraz etdi:

-Övladım, - dedi. - Axar suya iki dəfə girmək mümkün olmadığı kimi, bir həqiqətə də müqəddəs oddan keçib iki dəfə baxmaq mümkün deyil. Lap baxsam da heç nə dəyişməyəcək. O şeyləri ki, mən gördüm, onlar məni sıxdı. Bilin ki, xaşxaşilər Oğuz xanı, Səlcuq bəyi Alp Arslan sultana

sui-qəsd edəcəklər. Mən bunu gördüm, duydum, köməksizlik məni sıxdı. Biz bunların hamısını bilə bilərik, keçmişi, gələcəyi görə bilərik. Nəyi isə qabaqcadan söyləyə bilərik, amma biz tarixi dəyişə bilmərik, hətta tarixi dəyişməyə cəhd etsək, bu bizim elmimizin sonu olar. Hər şey Tanrıdan asılıdır. Onun bildiyini biz bilmərik!

Baş Dədə susdu. Daha nələri isə demək istəyirdi, nələrəsə baxmaq istəyirdi. Amma gücü tamam azalırdı. Bunu açıq-aşkar hiss edirdi. Hətta danışmaq, nəfəs almaq da çətinləşirdi. Son mərhələyə də bir güc saxlamaq lazım idi. Bu mağarada yaşayanların qəbiristanlığı, ölənlərin qəbri olmur, onları basdırmırdılar. Onlar gözlə görülməyən yanaşı aləmə keçirdilər.

Birdən Baş Dədənin yadına nəsə düşdü və o, gülümsəyib, gözlərini qıydı:

-Hə yadınızda saxlayın, tarixi dəyişmək hələ heç kimə nəsib olmayıb. Buna cəhd də etməyin. Tanrının qəzəbinə gələrsiniz! Gələcəyi bilmək, görmək olar, amma indiki zamanda oturub onu dəyişmək olmaz. Olsaydı peyğəmbərlər öz əzizlərini qoruyardılar. İnsanlıq özünün pak əməlləri ilə gələcəyinə təsir edə bilər, amma onu tamam dəyişə bilməz. Xaliq insanın əməlinə və qəlbinə görə onun taleyini yazır. Bizim indi pis adlandırdığımız aqibət gələcək üçün çox gözəl də ola bilər.

Bu həyatda çox şey nisbidir, dəyişəndir, dəyişməyən təkcə Xaliqdir. Müqəddəs oddan keçəndə gələcəkdən bir-iki şeyi də xatırlayıb baxdım. Sevindirici aqibət də vardı. Bizə tarixi dəyişmək yasaqdır, amma səlcuq-türkmənlər özlərinin pak əməllərilə dəyişikliyə əsas verəcəklər. Ondan sonra gələn moğol-qıpçaqlar Tanrının diqqətini daha çox cəlb edəcək və daha çox dəyişəcəklər. Alp Arslanın oğlu Məlikşahın dövründə səlcuqlar intibah dövrünü yaşayacaqlar, amma o da, onun Baş vəziri də xaşxaşilərin əlində dünyasını dəyişəcək. Amma, düz iki yüz il keçəcək, türklər Ələmut qalasını tapacaq, İblisə qarşı vuruşacaq və o mənfur qalanı darmadağın edəcəklər!

Baş Dədə susdu.

Mağarada oturanlar bunun son olduğunu başa düşürdülər.

İki Dədə sakitcə durub, o biri hücrəyə keçdi. Onlar əllərində gətirdikləri kiçik tavaları daşla haşiyələnmiş ocağın üstünə qoydular. Birinə su töküb, digərinin altını kiçik atəşə tutdular, sonra qayıdıb öz yerlərində oturdular. Daha sonra biri davulu götürdü və çalmağa başladı. Bu heç də əvvəlki vaxtlarda olduğu kimi adi zərblər deyildi. Onun əli sanki davulun dərisinə deyil, simli alətin telinə toxunurdu. Davul inildəyir, ağlayır, nalə çəkirdi. Mağaraya tədricən Dədələrin səsi ilə "mmm", "nnn" nidası dolurdu.

Birdən Baş Dədə öz yatağından dümdüz ayağa durdu. Havadan asılıbmış kimi ayağını heç nəyə toxundurmadan, tərpətmədən süzdü və su ilə odun arasında hərlənməyə başladı. Onun surəti artdıqca su buxarı göyə qalxır, zalı görünməz edir, od dilimləri isə tədricən yüksəlib mağaranın tavanını yalayırdı. Baş Dədə ağappaq, şəffaf hala düşürdü. Hərləndikcə, sürəti artdıqca görünməz olurdu. Birdən Baş Dədə oda daxil oldu və odun içində itdi.

Sıra ilə oturmuş Dədələrin gözü önündə Baş Dədə qeyb oldu.

Od onu tamam görünməz etdikdən sonra tədricən alov səngiməyə başladı. Sonra hər şey əvvəlki vəziyyətinə qayıtdı...

## MALAZGİRD DÖYÜŞÜ

Alp Arslan bilərəkdən, ya bilməyərəkdən bunu etmişdi: oğuz-türkmən boylarının bir qismini özündən narazı salmışdı. Onun əsas amalı ilə digər bəy, ulus və boyların məqsədi, məramı eyni deyildi. Tutduqları məqam və mənsəb uyğun gəlmirdi. O daha geniş və gələcəyi də nəzərə alan addımlar atırdı. Digər uluslar və onların hakimləri isə indiki zamana daha çox bağlı idilər. İmperiyada yaranan narazılığı artıq

heç kim inkar edə bilməzdi. Aşkar görünən bu idi ki, Arranda, Azərbaycanda, Şirvanda, Əl-Cəzirədə toplanan narazı türkmənlər Anadolu və Suriya torpaqlarına hücum edib, özlərinə yeni torpaq sahələri əldə edirdilər. Getdikcə bu cılız səbəblər, bəhanələr narazılığı daha da genişləndirirdi. Narazılar sırasında Gümüş Təgin və Əhmədşahın başçılığı ilə hərəkət edən türkmənlər daha fəal idilər. Bu sərkərdələr Dəclə və Fərat çayları arasındakı Anadolu torpaqlarını ələ keçirərək Bizans ordusunu məğlubiyyətə uğratdılar. Anadoluda fəthlər aparan türk sərkərdələrindən biri də Sultanın əmisi oğlu və kürəkəni Qurdçu bəy oldu. O, Bizansın göndərdiyi ordunu məğlub etmiş və 1070-ci ildə ordu başçısı Manuel Komnenosu əsir almışdı. Digər türk sərkərdəsi Afsin isə Malatya yaxınlığında bizanslıları əzmiş və Kayserini ələ keçirmişdi. Bu zaman Amuriyyə və Konya, Diyarbəkr və Urfa da kənarda qalmadı. Növbə Hələbin idi. Hələb hakimi Mahmud anasını da yanına alaraq Alp Arslandan əfv xahişinə gəldi. Mahmudun anası Alp Arslanın ayaqlarına düşərək yalvarıb-yaxardıqdan sonra Sultan Hələb hakimini bağışladı və hakimliyi onun özündə saxladı.

Qısa müddət ərzində türkmən orduları Axlat, Malazgird və Ərciş qalalarını da ələ keçirdilər...

...Alp Arslan indi ölüm yatağında uzanmışdı və bütün bu keçmişi indiki zaman qədər apaydın, gerçək görür, hər şeyi, baş verənləri bütün dəqiqliyi ilə xatırlayırdı.

Saray həkiminin hazırladığı məlhəm də daha ağrıları kəsmir, o keçmişinə qayıdıb xatirələri ilə rahatca yaşaya bilmirdi. Başında və bədənindəki ağrılar kürəyinə vurulan xəncər yarasından daha betər olmuşdu. Arada bu ağrılardan canını qurtarmaq üçün saray həkimindən zəhər tələb etmək istəyirdi. Bir qədər sonra isə bu fikrindən daşınırdı. İslam qanunları ilə bu həm günah idi, həm də Sultanın intihar etməsinin xəbəri yayıldıqda dövlətdə çox fəsadlar yaranar, insanlar ruh düşkünlüyünə məruz qalar, iğtişaşlar, qiyamlar, çevrilişlər bir-birini əvəz edərdi.

Baş vəzir Sultanı yoluxmamışdan öncə həmişə həkimin otağına girir, ondan hökmdarın vəziyyətini soruşurdı. Adəti üzrə bu dəfə də onun otağına girdi. Həkim onu görən kimi ayağa durub, baş əydi, salam verdi. Nizam ül-Mülk başı ilə salamı alıb kətildə əyləşdi və həkimə də əyləşmək üçün işarə verdi.

-Sultan həzrətlərinin vəziyyəti necədir? Bilirəm, deyəcəksən heç bir irəliləyiş yoxdur. Neçə aydır vəziyyət belə davam edir. Nə edəcəyini bil-

mirsən. Uzaq ölkələrdən gətirilən dava-dərman da təsir etmir.

Həkim çiyinlərini çəkdi:

-Doğrudan da dediyiniz kimidir. Heç bilmirəm neyləyim? Xaşxaş yağı da artıq ağrını kütləşdirə bilmir. Görünür zəhər qana kifayət qədər yeriyib. - Söhbəti pıçıltıya keçirtdi. - Vəzir həzrətləri, arada mənə elə gəlir ki, Sultanımız özünə ölüm arzulayır, baxışları ilə hətta məndən zəhər istəyir.

-Sus! - Baş vəzir də pıçıltıya keçdi, oğrun-oğrun ətrafa boylandı. - Deyəsən sənin və mənim ölümüm yaralanmış aslanın ölümündən daha tez gələ bilər. Sən istəyirsən bu böyüklükdə dövlətdə qarışıqlıq olsun? - Nə haqdasa fikirləşdi. - Doğrudanmı Səlcuq dövlətinin məşhur həkimi kütləşdirmə üsulu qarşısında acizdir, yəni heç əlac yoxdur?

Saray həkimi öz əlacsızlığına baş əydi.

-Keşgə uzaq Sibirə, böyük dəryadan o yana köçmüş soydaşlarımıza əlimiz çataydı. Bizim daha mahir şamanlarımız uzaq torpaqlara köçdülər. Köçərkən özləri ilə türkün çarəsinin ən incə sirlərini də apardılar.

-Oralara gedib qayıdana kimi çox aylar ötəcək. Sən buralarda çarə tapmalısan. Türk elə burada da var, deməli çarəsi də burada var.

-Bilmirəm, vəzir həzrətləri! Bizim işimizin hüdudları bəllidir, dəqiqdir. Xristian aləmində isə heç bir məhdudiyyət, heç bir qadağa, günah yoxdur. Bizdən onlara keçən nəsnələri də ifrata aparırlar. Misal üçün, bir üsul var, amma... amma bu müsəlmanlara qadağandır.

Nizam ül-Mülkün gözləri işıqlansa da hövsələdən çıxdı.

-Mustafasın de, həkim!

-Vəzir həzrətləri, bu dediyim üsul İslama ziddir, ancaq ağrını kütləşdirir, yəni zoğal suyunu buxardan keçirirsən,..

Baş vəzir arif adam idi. Həkim zoğal suyundan hazırlanmış arağı nəzərdə tuturdu. Özü də bir-iki dəfə yoxlamışdı. Odur ki, həkimin sözünü yarımçıq kəsdi.

-Bildim, arağı nəzərdə tutursan. Hə, bu, kafirlərin və xaçpərəstlərin içkisidir, ancaq neyləmək olar, dövlətin salimliyi üçün indi buna da göz yummaq olar.

Həkim ayağa durub sandığın içindən kiçik, ağzı surğuclanmış şüşə çıxartdı.

-Bilirsiniz, vəzir həzrətləri, bundan kiçik qaşıqla gündə səkkiz dəfə içirtmək lazımdır. Müvəqqəti olsa da, ağrıları götürəcək, ancaq bu da çox uzun çəkməyəcək. Bir azdan bədən buna da öyrəşəcək.

-Amma Sultan özü bilməsin, o buna razı olmayacaq. Allah şahiddir ki, biz yalnız dövlətin mənafeyini güdürük.

-Keşgə bədən buna öyrəşənə kimi təbabətdə yeni loğman peyda olaydı. Mən onun ayaqlarına düşməyə hazıram.

Vəzir narahat və dərdli nəzərlərlə divarlara, məchul nöqtələrə baxdı və düşdükləri vəziyyətin çarəsizliyinə hiddətlə başını yırğaladı. Dünyanın işinə bax, ölkələri lərzəyə gətirmiş müsəlman-türk Sultan döyüşdə yox, yorğan-döşəkdə ölürdü, əlacı günah sayılan bir haram içkiyə qalmışdı...

Arağın kəsif qoxusu ilk gündəcə sarayın divarlarına yad cisim kimi yapışdı. Bu yadlıq saraya da ögeylik gətirdi.

Sultan özü də bilmədən onun təsiri altına düşdü. Ağrılarını yavaş-yavaş unutduqca, o yenidən keçmiş günlərinə qayıda bildi...

...Hələbdə olarkən Misirin fəthinə hazırlaşırdı. Misiri ovcunun içində hiss edirdi. Bu gün də olmasa, sabah bu zəngin məmləkət Böyük Səlcuq dövlətinin tərkibində olacaqdı. Ancaq belə olmadı. Hələbdə ikən Bizans elçisinin gəldiyini söylədilər. Sultan bunu çoxdan gözləyirdi.

Elçini möhtəşəm qəbul etdi. Bizans imperatorunun indi kasıblaşdığı bir vaxtda o öz dövlətinin zənginliyini göstərmək istəyirdi.

Elçi böyük çadıra daxil olarkən gözləri qamaşdı. Hər yer qızıl və qiymətli daş-qaşla bəzədilmişdi. O özündən biixtiyar iki dizini də yerə qoyub, Sultanı salamladı.

-Möhtərəm, Bizans imperatoru Roman IV Diogen sizi salamlayır! - O bunu deyib imperatorun göndərdiyi məktubu Alp Arslana uzatdı.

Alp Arslan elçinin öz hökmdarının adını təmtəraqla adlandırmasına, ona isə heç Sultan da deməməsinə bərk əsəbiləşdi. Bu onların Böyük Səlcuq dövlətini tanımamasına işarə idi. Bu onun şərəfinə toxundu. Amma zorla da olsa səbrini basıb toxtadı.

Baş vəzir Nizam ül-Mülk də onun səbrinə məəttəl qalmışdı. Sultandan çıxmayan iş idi və ilk dəfə idi ki, o əsəbiləşmirdi.

-Burada yazılanı dilinlə söylə! - Alp Arslan da Roman Diogenə imperator demədi. Onun saygısızlığının əvəzini çıxmaq istəyirdi.

Elçi ayağa durub başını qaldırmadan danışmağa başladı:

-İmperator Roman IV Diogen sizdən tələb edir ki, ələ keçirdiyiniz Axlat, Malazgird və Ərciş qalalarını Konstantinopola geri qaytarasınız.

Elçinin özündən razı danışmağı bu dəfə səbrini daşıracaqdı, amma yenə dözdü.

-Biz sizin Roman IV Diogenlə sülh və qonşuluq şəraitində yaşamaq istəyirik. Əgər o hüzurda və sakitlikdə yaşamaq istəyirsə, biz bunun da əleyhinə deyilik.

-Belə başa düşdüm ki, siz imperatorun göstərdiyi qalaları tezliklə geri qaytaracaqsınız.

-Xeyr, hörmətli elçi! Qanla, savaşla, qılıncla alınan torpaqlar sözlə, arzu ilə, istəklə, tələblə geri qayıtmır. Yalnız bu gündən belə, əgər o razı olarsa bir yerdə sərhəd torpaqlarımızı müəyyənləşdirə bilərik, aydındırmı?

Bu dəfə elçi əsəbiləşərək özünü saxlaya bilmədi.

- Deməli müharibə?

Alp Arslan ayağa durub elçiyə yaxınlaşdı:

-Əgər elçi olmasaydın, kəlləni boynundan qopardım, amma bizdə deyərlər ki, elçiyə zaval yoxdur. Sən kimin hüzurunda olduğunun fərqində deyilsən. Arzu edərdim ki, döyüş meydanında olasan və atımın qarşısına çıxasan. Əgər əsir düşsən, şaqqalanacağını gözünə al!

Alp Arslan mühafizlərə əl işarəsi verdi. İki mühafiz dərhal irəli keçdi və elçinin qoluna girib, arxadan ayağına vurub diz çökdürdülər.

Sonra isə bu dikbaş elçini sürüyərək çadırın qapısından kənara tulladılar.

Sultan Alp Arslan Misir fəthini Hələb hakiminə tapşırıb, özü geri döndü.

Qarşıda onu Malazgird döyüşü gözləyirdi.

İyirmi yeddi aprel 1071-ci ildə Alp Arslan Fərat çayını keçərək Mosula, oradan Xoy şəhərinə gəldi. Burada öz qərargahını quran Sultan hərbi təchizatı gücləndirmək üçün Nizam ül-Mülkü və ailəsini Təbrizə göndərdi. Azərbaycanda on minlik qoşun toplandı. Sonra Arrandan və Anadoludan otuz min nəfərlik qoşun da onlara qoşuldu və beləcə Sultanın ordusunda döyüşçü sayı qırx min nəfəri keçdi.

Bizans imperatoru isə on üç mart 1071-ci ildə yüz minlik ordu ilə Konstantinopoldan çıxdı. O, Əskişəhər üzərindən Qızıl İrmaq çayını keçərək Sivasa doğru hərəkət etdi. Diogen Sivasda olarkən rumlular ermənilərdən şikayət edərək, erməni sipahlarının özbaşınalığından, soyğunçuluğundan bəhs etdilər. Diogen Sivasın erməni yaşayan hissəsinin talan edilməsini və onların öldürülməsini əmr etdi. Burada imperator ordusunu üç hissəyə böldü. Ərzurum istiqamətində əlli minlik ordu ilə hərəkət edən imperator iyirmi minlik qoşunla Kartli-Kaxetiyaya, üçüncü - otuz minlik qoşunla isə türk əsilli sərkərdə Ursəl

Malazgird və Axlat tərəfə yola düşdü. Sonradan onlar Axlat tərəfdə birləşdilər. Hər iki ordu Axlat ətrafında öz qərargahını qurdu və fəal kəşfiyyat işlərinə başladı. İyirmi dörd avqustda hər iki kəşfiyyat dəstəsi Axlat ətrafında qarşılaşdı. Kəşfiyyatçılar döyüşə atıldılar, hətta bu döyüşdə məşhur Bizans komandanı Basilakesi əsir götürə bildilər.

Bütün bunlara baxmayaraq iki ordu Malazgirdin on-on iki kilometr yaxınlığında Zəxra səhrasında üz-üzə durdu.

Sultanın kəşfiyyat dəstələri imperator cəbhəsində fəal iş aparırdı, hətta onun ordusunda döyüşən oğuz və qıpçaqlarla söhbət aparılmış və döyüş zamanı türklərin tərəfinə keçmələri üçün razılığa gəlmişdilər. Amma bunlar Sultan üçün yetərli deyildi, onun qırx minlik ordusuna qarşı imperator yüz minlik ordu çıxaracaqdı. Buna görə də Alp Arslan ən xırda xəbəri də böyük xəbər kimi qarşılayır və ondan istifadə etməyə çalışırdı. Ömrü-günü döyüşlərdə keçdiyi üçün istənilən qələbənin yarısının gələn xəbərlərin başında durduğunu yaxşı bilirdi. Döyüş qabağı isə xəbərlər çay seli kimi axıb gəlirdi. Sultan onları təsnifatlaşdırır, hər xəbəri sanki beynində qurduğu rəflərdə yerləşdirirdi. Bizanslıların döyüş düzümünü təxmin etməsinə baxmayaraq

onu tam dəqiqliklə bilmək istəyirdi. Bir qədər bundan əvvəl Alp Arslan xəlifəyə xəbər yollamış və ondan imperatora dostluq elçisi göndərməsini xahiş etmişdi. O, Səlcuq və Bizans arasında araçılıq etməli, guya arada sülh yaratmalı idi. O heyətə sərkərdələrindən birini daxil etməyi də qərara almışdı.

Mühafizə rəisi Sultan çadırına daxil olaraq baş əydi:

-Sərkərdə Sav Təgin hüzurunuza gəlib, Sultan həzrətləri.

-Çağır! - dedi.

Sav Təgin çadıra girib baş əydi.

-Sənin öhdənə çox mühüm bir vəzifə düşür, Sav Təgin, - Alp Arslan ona yaxınlaşaraq birbaşa mətləbə keçdi. - Hətta deyərdim ki, gətirəcəyin xəbərdən bu döyüşün taleyi asılıdır. Belə ki, bir neçə gün bundan öncə Abbasi xəlifəsinə xəbər göndərmişdim ki, imperatorun yanına sülh elçiləri göndərsin, bizimlə onun arasında araçılıq etsin. Sabah elçilər Bizans düşərgəsində olacaqlar. Sən gecə ilə libasını dəyişib elçilərə qoşul. Düşmən düşərgəsində gördüyün hər şeyi və hər nəsnəni, ordunun yerləşməsini, düzümünü gözünə və beyninə yaz. Sənin gətirdiyin xəbərlər bizim döyüş üsulumuzu müəyyən edəcək. - Sultan

əlini sərkərdənin kürəyinə vurdu. - İndi hər şey səndən asılıdır.

Sav Təgin sağ əlini ürəyinin üstünə qoyaraq:

-Sultanım, indiyə qədər bizdən əyrilik, əskiklik görmədiniz! - dedi. - İnşallah, bundan sonra da görməyəcəksiniz. Sabah da olmasa, birisi gün ən doğru-dürüst xəbərləri bizdən alacaqsınız! İzn versəydiniz mürəxxəs olardım.

-Get, - Alp Arslan əlini yenə onun kürəyinə vurdu...

Sav Təgin Sultanın tapşırıqlarını olduğu kimi yerinə yetirdi. Amma imperator ordusunun say çoxluğuna arxayın olub elçilərlə pis rəftar etmişdi. Onun son sözləri belə olmuşdu: "Danışıqları Reydə aparacam, qışı İsfahanda keçirib, atları Həmədanda otlatdıracam".

Bu xəbər Sultana çatdıqda o, müharibənin labüd olduğunu başa düşdü. Roman IV Diogen özünə həddən artıq arxayın idi. Belə vəziyyət onun xeyrinə oynayırdı. Beləsini məğlub etməyin öz ləzzəti vardı.

İyirmi altı avqust 1071-ci ildə, cümə günü Bizans ordusu döyüş meydanında yerləşən hündür təpələri ələ keçirmək və savaşın taleyini bu gün həll etmək istədi. Ancaq qarşı tərəf güclü müqavimət göstərdi. İmperator təpələrin alınması üçün çox cəhd etsə də, buna nail ola bilmədi.

Sultan öz əsgərləri ilə birgə cümə namazı qıldıqdan sonra atını ordunun qarşısına sürüb, var səsi ilə bağırdı: "Əsgərlərim, biz nə qədər az, onlar nə qədər çox olsa da bütün müsəlmanlar məscid minbərlərində bizim üçün dua etdikləri bir vaxtda özümü düşmənin üstünə atmaq istəyirəm. Ya qalib gəlib məqsədimə çataram, ya da şəhid olub cənnətə gedərəm. Sizlərdən məni təqib etmək istəyənlər təqib etsinlər. Döyüş meydanından getmək istəyənlər isə qoy çıxıb getsinlər. Burada əmr edən sultan və əmrlərə tabe olan əsgər yoxdur. Zira, bu gün mən də sizlərdən biri kimiyəm və sizinlə birlikdə döyüşən bir qaziyəm. Məni təqib edənlər nəfslərini Böyük Allaha tapşırıb, şəhid olsalar cənnətlə, qalib gəlib yaşasalar qənimətlə tanış olacaqlar. Bizi atıb getmək istəyən qorxaqları isə bu dünyada həmişə şərəfsizlik, o dünyada atəş gözləyəcək!"

Sultanın bu nitqi əsgərləri coşdurdu, meydan cəsurların bağırtıısına büründü:

-Ya qazi, ya şəhid!

-Allahu Əkbər!

-Ya qazi, ya şəhid!

Sonra ordunun orta hissəsindən bir dəstənin qışqırıq səsləri ucaldı:

-Ey Sultan, biz sənin qullarınıq, nə etsən sənin yanındayıq, istədiyini et!

-Biz bura ölmək üçün yox, öldürmək üçün gəlmişik!

-Biz hamıya qənimət vəd vermişik, yalançı çıxa bilmərik!

Əsgərlərin şövqlə, bəzilərinin isə zarafatla dediyi bu sözlərdən Alp Arslan da vəcdə gəldi və əynindəki ağ paltarı göstərərək:

-Ölərəmsə üstümdəki mənim kəfənimdir! - deyə bağırdı.

Bizans ordusunun içində də bu cür təbliğat işləri aparılırdı. Burada hətta dini tədbirlər keçirilir, ayinlər düzənlənirdi. Əsilzadələr, məşhur sərkərdələr, kahin və rahiblər xaç və bayraqlar tutaraq ordu içində dolaşır, əsgərləri cəsarətləndirirdilər.

Hər iki ordu günortadan sonra vuruşmaq üçün hazır oldu.

Bizans ordusu üç hissəyə ayrılmışdı. Anadoludan toplanan əsgərlər kapadokiyalı Aleatesin başçılığı ilə sol qanadda, Rumelindən yığılan əsgərlər isə Braynniosun komandanlığında sağ tərəfdə yerləşmişdilər. Ehtiyat qüvvə Andronikosun tabeliyində idi. Roman IV Diogen özünün qızılı çadırının qarşısında durub, düşmən ordusuna sarı istehza ilə baxır, bir azdan oradakı təpəlikləri, xüsusən də yanar kürələri ələ keçirəcəyini zövqlə düşünürdü.

İmperatordan fərqli olaraq Alp Arslan ordunu başqa cürə düzənləmişdi. Çox güclü olan iki hissə təpələrin arxasında, gözə görünməyən tərəfdə, pusquda gizlədildi. Digər iki hissə Bizans ordusunun qarşısında düzüldü.

Sultanla bir yerdə oddan-alovdan keçən oğuz türkmən bəyləri dünya tarixini dəyişəcək bir döyüşdə iştirak edirdilər. Kimlər yox idi burada; Sanduq, Əhmədşah, Sav Təgin, Əmir Porsuq, Əmir Artuq, Yaruq Təgin, Gümüş Təgin, Əmir Çavlı və başqaları.

İki ordu yüz-yüz əlli metr məsafəyə qədər yaxınlaşdı. Birdən hər iki tərəfin oxları yaydan çıxdı və göydə günəşin üzünü tutdu. Ani olaraq göyün üzü qaraldı. Günəşin şüaları göründükdə insanların çığırtısı bir-birinə qarışdı. Birinci olaraq ayağından, başından, qıçından yaralanan və ölənlər yıxıldılar. Ordular bir-birinə daha az məsafədə qaldıqda mancanaqlar işə düşdü. Usta Muradın düzəltdiyi yeni silah burada da mükəmməl işləyirdi. Odlu kürə hər dəfə torpağa zərblə dəyəndə on-on beş metr məsafədə döyüşçülər yerə yıxılaraq bağırırdılar. Usta Murad mancanaqların qurulduğu təpənin üstündə durub, əlini gözü üstünə tutmuşdu və diqqətlə aşağıdakı döyüş meydanını izləyirdi. O, düşmən düşərgəsinin ortasında salınmış iri, qızılı çadırdan gözünü çək-

mir, imperator Diogenin qorxudan çadırdan çıxmadığını düşünürdü. İri kürələrdən bircəsi oraya düşərdisə, imperatoru və yaxın ətrafını məhv edər, bununla da döyüş qələbə ilə bitərdi. Amma düşmən ayıq tərpənmiş, çadırın ətrafında və yuxarıda iri tor qurğular qurulmuşdu. Bu qurğular yaxın gələn dəmir kürə şarlarını havadaca tutur, kənara atırdı.

İki ordunun bir-biri ilə toqquşması ilə sanki torpaq diksinib silkələndi.

Qılınclar, baltalar, əmudlar, nizələr hərisliklə insan əti doğrayır, kəsir, parçalayırdı. Sanki bu silahlar çoxdandı ət doğramamış, qan tökməmişdi. Burada hakim olan ağıl deyil, güc idi, hiss idi, zərbə idi. Qoluzorlular, pəhləvanlar daha çox seçilirdilər. Bu döyüşdə imperator Roman Diogen pəhləvan olub, cəngavər kimi qalib gəlmək və ad çıxartmaq istəyirdi. Sultan Alp Arslan isə pəhləvanlığa yox, ağıla üstünlük verməyi qərara aldı.

Sultanın iki hərbi hissəsini mühasirəyə alıb əzmək düşüncəsi Diogenin beynini o qədər əsir etmişdi ki, başqa döyüş üsulunu özünə yaxın buraxmır, qılıncını və qolunun zorunu buna işlədirdi. Bütün qoşun hissələrini səlcuqların mühasirəsinə yönəldəndə ağlına da gəlmirdi ki, özü bir azdan mühasirəyə düşəcək. Bizanslıların güclü təzyiqi

nəticəsində səlcuqların bayraqları üç dəfə yelləndi. Bu onların geri çəkilməsinə işarə idi. Türkmənlər vuruşaraq geriyə çəkilməyə başladılar. Roman IV Diogen artıq qələbənin onun ovcunda olduğunu düşündü. Bu məqsədlə özü öndə gedir və elə hey qışqırırdı:

-Bu türkləri əsir götürməyin, əlini qaldıran müsəlmanları doğrayın, qoy bu gün təpələr, daşlar türklərin qanı ilə sulansın.

Usta Murad yolayırıcında qalmışdı. Onun döyüş planından xəbəri yox idi. O, say-seçmə türk igidlərinin düşmən qarşısından qaçmasını gördü, qoşunun darmadağın olacağını da düşünüb, bununla barışmaq istəmədi. Nəsə etmək lazım idi. İmperatorun öldürülməsi düşməni sarsıdacaqdı.

Birdən o, yaxınlıqdakı iri şarlardan birini götürüb, torbanın içinə, torbanın isə ağzını düyünləyib kürəyinə atdı və atının belinə sıçradı. Sonra ona sarı çapan düşmən qoşununa qarşı çapdı. Xaçlılar onlara qarşı gələn, silahsız, kürəyi yüklü kişini görəndə əvvəlcə çaşdılar, sonra isə deyəsən onu düşmən əlindən qurtulmuş soydaşları hesab edib, qarşısından kənara çəkildilər. Ön sıraların geri çəkilməsi arxadakılara da sirayət elədi. Usta Murad ildırım sürəti ilə qoşunun dərinliklərinə soxuldu. Qılıncı olsaydı, burada ona

qarşı şığıyan düşmən əsgərlərini alaq otu kimi biçərdi. Kisədəki kürənin qətranı axıb, belinə yapışmışdı. Artıq düşərgənin ortasındakı qızılı çadıra az qalmışdı. Amma bu məsafədən kürəni alışdırıb çadıra tullaya bilməyəcəkdi. Daha bir qədər irəlilədikdən sonra cəld əlini uzadıb, arxadakı kisəni öz sinəsinə tərəf hərlətdi. Burada sinəsi də qətrana bulaşdı. Bir andaca cibindəki çaxmaq daşını çıxardıb, bir-birinə çırpdı, torbanı alışdırdı. Növbəti anlarda o, kisənin ipini boynundan çıxardacaq, sonra da hərlədib, qızılı çadıra sarı tullayacaqdı. Bu zaman kisənin alovu onun üstünə, atın belinə töküldü. Hürkmüş at daha bərk çapdı. Usta Murad eyni anda belinə oxların batdığını hiss elədi. Son anda yalnız atın yüyənini qızılı çadıra sarı yönəldə bildi və at sürətlə əsgərlərin başı üzərindən uçub, çadıra daxil oldu.

Birdən qızılı çadır güclü partlayış və alova büründü. O andaca çadırın örtüyü dağıldı, içəridəki hər şey və hər kəs göyə sovruldu.

Amma təəssüf ki, Roman IV Diogen bu zaman çadırında deyil, irəli şığıyaraq səlcuqları qovan dəstənin önündə idi.

Qaçan səlcuqların bayraqları iki dəfə yelləndi. İmperatorun heç ağlına da gəlmirdi ki, bu Bizans ordusunda döyüşən türk soydaşlara bir

işarədir. Oğuz sayılan uzlar, peçenqlər (qıpçaqlar) və bulqarlar türkmənlərin tərəfinə keçdilər. Ancaq bu da Diogeni dayandırmadı. Onun qoşunu təpələrdə pusquda duran səlcuqları da görə bilmədi. İmperatorun ordusu təpələrdən bir qədər aralandıqdan sonra türklərin iki hərbi hissəsi onların arxasında göründü. Qaçan iki hərbi hissə də geri döndükdə bizanslılar birdən mühasirəyə düşdü. Diogen ordusunun bu mühüm hissəsinin tələyə düşdüyünü görüb çaşdı. Son anda özünü ələ alıb var səsi ilə bağırdı:

-Tələyə düşmüşük, geri dönün!

Əsgərlər və komandanlar bu sözləri məğlubiyyət kimi başa düşüb qaçmağa və dağılmağa başladılar. Bizans ordusunun səfi və intizamı göz önündə çökməyə başladı. İndi hər kəs canını qurtarmağa çalışırdı. İmperatorun əsir düşməsinin hansı fəsadlara gətirəcəyini anlayan Roman gizlincə ölü əsgərin paltarını geyinib qaçmaq istədikdə əsir alındı. Türklər arasında onu hələ heç kim sifətdən tanımırdı.

Bu döyüşdə Bizans tərəfindən on minlərlə əsgər həlak oldu, on minlərlə əsgər yaralandı, on minlərlə əsgər isə əsir düşdü. Bu, özlərini əzəmətli və qüdrətli hesab edən xaçpərəstlərin Hun imperatoru Attilla qarşısında darmadağından sonra ilk böyük məğlubiyyəti idi...

...Sav Təgin əsirlər arasında gəzirdi. Əslində onun əsirlər arasında gəzməyinin məqsədi lovğalıq və təkəbbür deyildi. Özünə bir neçə qul axtarırdı. Bir neçə əsir seçdikdən sonra gözünə bir əsgər sataşdı. Üzü çox tanış gəlirdi. Elə bil hardasa görmüşdü onu. Amma harada? Əvvəlcə yadına düşmədi. Bu sarışın xristianlar bir-birlərinə çox oxşayırdılar. Bəlkə də döyüşdə ona oxşayan birisini cəhənnəmə vasil eləmişdi. Sonra özü-özünü təkzib etdi: "Yox, biz döyüşdə düşmənin sifətinə diqqət vermirik. Zərbə hara yönələcəksə gözümüzün ucu ilə yalnız oranı görürük. Bu əsirlə yəqin üz-üzə oturub söhbət etmişik."

Birdən dayandığı yerdə donub qaldı. Bu əsgər əslində imperator Roman IV Diogenin özü idi! Yenə gözlərinə inanmadı və onu yoxlamaq istədi. Mühafizlərə onu irəli çıxartmaq üçün işarə verdi. Keçib onun ətrafında fırlandı.

-Hə, - istehza ilə dilləndi, - Sən idin deyirdin danışıqları Reydə aparacağıq, İsfahanda qışı keçirəcəyik, heyvanları Həmədanda otlatdıracağıq? Hə, nə oldu bəs, alınmadı? İndi mən səni aparıb Həmədanda eşşək yerinə otarımmı?

Diogen başını qaldırıb onunla bu cür təhqir və istehza ilə danışan şəxsə baxdı. O andaca ta-

nıdı. Xəlifənin elçiləri arasında gələnlərdən biri idi. Sakit tərzdə:

-Deməli, məni tanıdınız, - dedi.

Sav Təginə elə bil yeri-göyü bağışladılar. Bağırtısı ərşə ucaldı.

-Hey, hey, hey, mən Bizans imperatorunu əsir götürmüşəm!

Bircə anın içində bu xəbər düşərgəyə yayıldı.

Sav Təgin mühafizə:

-Bunu köpək kimi zəncirləyin! - əmrini verdi.

Bir anın içində onun ayaqlarını, əllərini və boynunu zəncirlədilər. Sav Təgin zəncirin o biri ucundan yapışıb, qurbanını Sultanın çadırına tərəf dartdı.

Sultan gözlərinə və qulağına inanmırdı. Dünyanın ən qocaman dövlətinin imperatoru onun qarşısında dördayaqlı vəziyyətdə, əsir kimi durmuşdu. Ağlasığmaz bir iş idi. O imperatora hörmətlə yanaşmağı münasib hesab etdi.

-İmperator həzrətlərini incitmək olmaz!

Diogen dikəldi, sakit səslə:

-Narahat olmayın, mənə bu da azdır! - dedi.

Alp Arslan onu sanki bir ağsaqqal və mərhəm adam kimi məzəmmət etdi:

-Mən axı sənə dostluq təsis etmək üçün elçi göndərdim. Ancaq sən dostluğu rədd etdin. Belə edərlərmi? Sənə düşmənlərimi təslim etmək

üçün də elçi göndərdim, ancaq sən "Çox qızıl xərclədim, böyük ordu qurdum və buraya qədər gəldim, istədiyimə nail oldum, ölkəmə edilənləri islam ölkələrinə etmədən necə geri dönərəm?" - dedin. Səfehliyinin nəticəsi gördünmü necə bitdi?

İmperator sakit səslə, ancaq qürurla dilləndi:

-Hə, sənin ölkələrini tutmaq üçün müxtəlif qövmlərdən ordu yığdım, pullar xərclədim. Amma keşgə mahir sərkərdələrim olaydı! Ölkəm və qədərim indi sənin əlindədir. Bu halımla qarşındayam. Məni uşaq kimi danlamaqdan, tənbehdən, tənqiddən əl çək, nə istəyirsən onu da et.

Onun bu sözləri Sultanın xoşuna gəldi. Ayağa durub onun qarşısına gələrək:

-Sən qalib olsaydın, mənə nə edərdin? - deyə soruşdu.

Roman bu sualı gözləmirdi, amma ürəyində çoxdan bəri yığdığı sözləri söylədi:

-Ya başını kəsdirər, ya da dar ağacından asılmanı əmr edərdim.

Sultan şaqqanaq çəkib ürəkdən güldü:

-Ah, vallah, doğru dedin, əgər başqa cür desəydin yalan danışmış olardın. Məni çətin vəziyyətə salırsan, indi sənə nə edəcəyim haqqında fikirləşirəm.

-Fikirləşməyə dəyməz, Sultan həzrətləri! Bunun üç yolu var. Birincisi, məni öldürəcəksən, ikincisi, üzərində hökm sürdüyün ölkələr boyu məni gəzdirib başqalarına dərs verəcəksən, üçüncüsü isə... Elə bir şey etməyəcəyinə inam olmadığı üçün deməyə lüzum yoxdur.

-O nədir?

Diogen bu anı gözləyirdi və deyəsən Sultanı maraqlandıra bilmişdi:

-Əfv edəcək, verəcəyim qızılları, təzminatı və məni özünə dost qəbul edəcək, məni özünün qulu, komandanlarından biri və Rum diyarının naibi görərək ölkəmə geri qayıtmağıma icazə verəcəksən. Bunu isə heç kəs etməz.

Alp Arslan gülümsədi və ona zəndlə baxdı.

-Maraqlı təklifdir! Bir oğuz-səlcuq sultanı, bir müsəlman türk hökmdarı cəzanı da özünə layiq tərzdə verməlidir. Kimsənin edə bilməyəcəyini türklər edər!

-Sultanım, məni öldürsən, bunun heç faydası olmayacaq, çünki mənim yerimə Bizans taxtına başqa birisini də oturda bilərlər.

Sultan bir qədər fikirləşərək dedi:

-Haqqında əfvdən başqa heç nə fikirləşmirəm. Özünü məndən satın al.

-Sultan özü nə qədər istədiyini söyləsin.

-On min dəfə min dinar!

Əsir imperator bu məbləğə diksindi:

-Belə ucuz? Hökmdar məni bu qədər ucuz almaqla təhqir edirsiniz. Həyatımı mənə bağışladığınız təqdirdə Rum mülkünü büsbütün istəsəniz də azdır.

-Yox, sənin artığına gücün çatmayacaq. Əminəm ki, buna da borclu qalacaqsan.

İmperator baxışlarını aşağı dikdi.

-Yəqin ki, taxta çıxandan bu yana ordular qurmaq, müharibələr etmək üçün Rum elinin pullarını xərclədiyimdən, tacirlərin mallarını müsadirə etdiyimdən və xalqımı yoxsul vəziyyətə salmağımdan xəbərdarsınız. Qalib gəlməklə hər şeyi qaytaracağımı düşünürdüm.

Sərbəst buraxılması üçün beləcə iki hökmdar xeyli söhbət etdilər. Son nəticədə bağlanan müqaviləyə görə, imperator özünün azad olunması üçün bir milyon beş yüz min dinar, Bizans dövləti isə hər il Səlcuq dövlətinə üç yüz min dinar xərac verəcək, ehtiyac olduğu zaman Bizans hökmdarı səlcuqlara hərbi kömək də edəcəkdi.

Lakin Sultan bu müqavilənin şərtlərini həyatda görə bilmədi. Ona qarşı edilmiş sui-qəsd tarixin axarını dəyişdi.

İmperator isə öz torpaqlarına qayıtdıqda artıq Mixailin Bizans imperatoru elan edildiyini öyrəndi. Yevdokiya da indi Mixailə ərə getmişdi.

Yeni imperator Mixailin əmri ilə həbs edilən əski imperator Diogenin gözlərinə mil çəkildi. Daha sonra o, kilsədə iztirab və əzab içində öldü...

Malazgird döyüşünün şəhid döyüşçüləri buradakı təpəlikdə dəfn olundular.

...Usta Muradın yanmış, parçalanmış meyidinin qarşısında Alp Arslan diz çöküb baş əydi.

*...Sultan Alp Arslan daha keçmişdən və xatirələrdən qayıtmaq istəmirdi. Saray həkimi onun otağına girəndə xəstədən səs-səmir gəlmirdi. Həkim əvvəlcə Sultanın yuxuya getdiyini zənn elədi. Nəbzini yoxladı... Böyük cahangir, böyük sərkərdə elə yuxudaca haqq dünyasına qovuşmuş, özünün fatehlik salnaməsində əbədiyyətə çevrilmişdi.*

*Bəlkə də Sultan öz yuxu və ya xəyallarında dolaşır, qılıncını siyirib, at belində hücuma keçirdi.*

*Sultan Alp Arslan 23 noyabr 1072-ci ildə 43 yaşında vəfat etdi.*

*Onu Mərvdə, atası Çağrı bəyin yanında dəfn etdilər.*

*Malazgird döyüşü mühüm tarixi əhəmiyyətə malik oldu. İlk dəfə Böyük Roma imperiyası türklərin vassallığını qəbul etdi. Oğuz-səlcuq müsəlman türkləri İsa Məsihə olan ehtirama görə xristianlığa qarşı dini tələblər irəli sürmədilər. Bununla tarixə dini dözümlülük nümunəsini həkk etdilər. Müsəlman türklər öz ədəb, əxlaq və comərdliyi ilə xristian qərbliləri təbii yolla İslam dininə gətirəcəklərini düşündülər. Amma Roma kilsəsi buna yol vermədi. Zaman keçdikcə xristian dövlətləri dirçəlməyə başladı. Dirçəldikdən sonra vassallıqla barışmayan Qərbi Avropa xristianları türklərdən qisas almaq üçün uzun müddət hazırlaşdı və 1096-cı ildə ilk Səlib yürüşünə qalxdı.*

*Alp Arslandan sonra vəliəhd Məlikşah onun taxtında oturdu (1072-1092).*

*Məlikşahın iyirmi illik hakimiyyəti illərində səlcuqların və türklərin yenidən intibah dövrü başlandı. Bu dövrdə elm, mədəniyyət, tədris çox inkişaf etdi. Nizam ül-Mülk seçilmiş gənclərin*

*dövlət idarəçiliyinə hazırlanması üçün yeni kitablar yazdı. Baş vəzir türklərin xarakterinə tam uyğunlaşmışdı və onların nə istədiyini yaxşı bilirdi. Onun siyasətlə bağlı əsərləri təkcə maraqlara deyil, həm də kişilik əlamətlərinə, meyarına uyğunlaşdırılırdı.*

*Baş vəzir Nizam ül-Mülkü və Məlikşahı isə xaşxaşilər sui-qəsd yolu ilə aradan götürdülər...*

***Noyabr - 2013***
***Mart - 2015***
***Bakı - Xızı - Bakı***